**PREZİDENT**

# İLHAM ƏLİYEV

**və**

# MƏDƏNİYYƏT

**(2013-2018)**

**2 cilddə**

II cild

Təbriklər, qanunlar,
fərmanlar, sərəncamlar

**Bakı - 2018**

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Azərbaycan Dövlət İnformasiya Agentliyi


**Layihənin rəhbəri:** **Əbülfəs Qarayev**
**Azərbaycan Respublikasının**
**mədəniyyət və turizm naziri**

**Məsləhətçilər:** **Vaqif Əliyev**
**Ədalət Vəliyev**
**Sevda Məmmədəliyeva**
**Nazim Səmədov**
**Rafiq Bayramov**

**Tərtibçilər:** **Lətifə Məmmədova**
**Mayıl Əhmədov**



KBT 70/79(5Aze)
UOT 008
Ə 65

**PREZİDENT İLHAM ƏLİYEV VƏ MƏDƏNİYYƏT (2013-2018). 2 cilddə. II cild.**
Bakı, 2018, 440 səh., fotolar 32 səh.


“Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)” ikicildliyin 2-ci cildinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-2018-ci illəri əhatə edən üçüncü prezidentliyi dövründə Azərbaycanın ictimai-mədəni həyatında və turizm sahəsində baş verən mütərəqqi yeniliklərin, əldə olunan nailiyyətlərin və hər iki sahədə dinamik yüksəlişin fundamental bazasını təşkil edən normativ-hüquqi sənədlər, ölkə başçısının mədəniyyət xadimlərinə, ölkəmizin təşəbbüsü ilə təşkil olunan beynəlxalq tədbirlərin iştirakçılarına və Azərbaycan xalqına ünvanlandığı təbrik məktubları daxil edilmişdir.

Kitab Azərbaycanın mədəniyyət və turizm sahələrinin intensiv inkişafına uyğun olaraq mövcud qanunvericilikdə edilən əlavə və dəyişikliklərin dinamikasını müqayisəli təhlil etmək istəyənlər üçün müfəssəl məlumat mənbəyidir.


**ISBN** 978-9952-37-042-3
978-9952-37-043-0



© Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

# TƏBRİKLƏR

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik, həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza və Azərbaycanın hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı bəşər sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən islamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq yer üzünə göndərilməsini özündə təcəssüm etdirir. Bu əlamətdar gündə müsəlmanlar qurban ayinlərini icra etməklə, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmanın və Uca Yaradana yaxınlığın sevinc və fərəhini yaşayırlar.

Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayram kimi qeyd olunan Qurban mərasimləri insanlar arasında bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, cəmiyyətimizdə milli-mənəvi dəyərlərə bağlılığın, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının təntənəsinə çevrilir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək bayram günlərində xalqımızın və dövlətimizin əmin-amanlığı naminə etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunması diləyi ilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 oktyabr 2013-cü il*

## XALQ RƏSSAMI TAHİR SALAHOVA

Hörmətli Tahir Salahov!

Sizi – müasir dövrün görkəmli sənətkarını 85 illik yubileyiniz münasibətilə təbrik edirəm. Sizə möhkəm cansağlığı və çoxşaxəli fəaliyyətinizdə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Siz təsviri sənət tarixinə “sərt üslub”un banilərindən biri kimi həmişəlik daxil olmusunuz. Şərq və Qərb mədəniyyətlərinin bütün çalarlarını özündə əks etdirən bənzərsiz yaradıcılıq dəst-xəttiniz əsrlərin və minilliklərin qovuşuğunda xüsusi əhəmiyyət daşıyır. Son illərin məhsulu olan əsərləriniz əyani surətdə nümayiş etdirir ki, ecazkar rənglər dünyasının dərin sirləri, gözəllik, xeyirxahlıq və əmək mövzuları ən ali bəşəri dəyərlər olaraq yenə də Sizin diqqət mərkəzinizdədir.

Əsərlərinizdə doğma Azərbaycanın həyatının ahəngi daim hiss olunmuşdur. Günəşi, dənizi, nefti, qədim Azərbaycan əfsanələrinin ruhunu və Abşeronun ab-havasını tərənnüm edən rəsmləriniz milli mədəniyyətimizin möhtəşəm hadisəsi kimi qəbul edilir. Ərsəyə gətirdiyiniz portretlər, peyzaj və natürmortlar bütünlükdə Azərbaycan rəssamlıq məktəbinə geniş şöhrət qazandırmışdır. Teatr rəssamı və monumental layihələrin rəhbəri olaraq xidmətləriniz danılmazdır.

Siz fırça ustalarının bir çox nəslinin yetişdirilməsində böyük rol oynamısınız. Sovet İttifaqı miqyasında ictimai fəaliyyətiniz mədəni siyasətin həyata keçirilməsinə sanballı töhfə vermiş və neçə-neçə yaradıcı insanın sənət aləmində öz yolunu tapmasına kömək etmişdir.

Layiq görüldüyünüz çoxsaylı təltiflər və fəxri adlar fitri istedadınıza müxtəlif ölkələrdə verilən yüksək qiymətin etirafıdır. Sərgilərinizin coğrafiyası, eləcə də dünyanın məşhur muzeylərində saxlanan əsərləriniz dünya incəsənətinin inkişafında əhəmiyyətli yer tutduğunuzu təsdiq edir.

Əminəm ki, Siz yaradıcılığınızın pərəstişkarlarını bundan sonra da sevindirəcək, Azərbaycan təsviri sənətinin ənənələrini zənginləşdirəcək və şöhrətini artıracaqsınız.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 noyabr 2013-cü il***

## UNESCO-NUN QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI ÜZRƏ HÖKUMƏTLƏRARASI KOMİTƏSİNİN VIII SESSİYASINA

Hörmətli sessiya iştirakçıları!

Sizi Bakı şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyasının öz işinə başlaması münasibətilə təbrik edir, hər birinizə bundan sonrakı fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

Sessiyanız Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Konvensiyanın onilliyinə təsadüf edir. Konvensiyanın qəbul edilməsi ötən müddət ərzində dünyada mədəni müxtəlifliyin təşviqi və qeyri-maddi mədəni irsin qorunması istiqamətində beynəlxalq strategiyaların həyata keçirilməsində əhəmiyyətli rol oynamışdır. Azərbaycan Respublikası bu Konvensiyaya qoşulduğu vaxtdan etibarən ölkəmizdə müvafiq silsilə tədbirlər təşkil olunmuş və mühüm layihələr gerçəkləşdirilmişdir.

UNESCO Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən sonra üzv olduğu ilk beynəlxalq təşkilatlardan biridir. Onun fəaliyyət dairəsinə aid bütün sahələrdə əməkdaşlıq Azərbaycan dövlətinin həmişə diqqət mərkəzində olmuşdur. Daim inkişaf edən və möhkəmlənən UNESCO – Azərbaycan əlaqələri xalqımızın qədim, zəngin mədəniyyətinin beynəlxalq miqyasda tanıdılmasına, onun nailiyyətlərinin dünyada nümayiş etdirilməsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan muğamının, aşıq sənəti və xalçaçılığın, tar ifaçılığı və Novruz Bayramının, xalqımızın maddi mənəvi irsinin qiymətli abidələrinin, həmçinin milli mədəniyyətimizin və elmimizin görkəmli nümayəndələrinin təbliğinin UNESCO tərəfindən diqqət mərkəzində saxlanılması ölkəmizlə bu mötəbər beynəlxalq təşkilat arasında əlaqələrin yüksək səviyyəsinin bariz nümunəsidir.

Cari ilin iyul ayında təhsil, elm, mədəniyyət və informasiya sahələrində Əməkdaşlıq haqqında Çərçivə Sazişinin imzalanması ilə Azərbaycan və UNESCO arasında qarşılıqlı faydalı münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş və qlobal çağırışların həllində birgə səylərimizin daha da gücləndirilməsinə əlverişli zəmin hazırlamışdır.

Əminəm ki, sessiyanız öz qərarları ilə ümumbəşər mədəni irsinin qorunub saxlanması, dünya mədəniyyətləri arasında dialoq və anlaşmanın dərinləşməsi işinə layiqli töhfəsini verəcəkdir.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 dekabr 2013-cü il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Sizi ürəkdən salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.

Mənəvi birliyimizin rəmzinə çevrilmiş bu bayram soydaşlarımızın qəlbindəki Vətən sevgisi və milli təəssübkeşlik duyğularını təcəssüm etdirir. Dünya azərbaycanlılarının həmrəyliyi hazırda özünü təkcə emosional hiss və duyğularda deyil, həm də daha çox real məzmuna malik milli-siyasi birlikdə, əməli addımlarda və konkret nəticələrdə göstərir. Azərbaycanlılar arasında həmrəyliyin daha da möhkəmlənməsi və diaspor qurumlarının təsirli qüvvəyə çevrilməsi prosesi uğurla davam edir. Son illərdə xarici ölkələrdə yaşayan soydaşlarımızın hüquqlarının təminatı, Azərbaycan haqqında obyektiv məlumatların yayılması və dövlət maraqlarının qorunması sahəsində diaspor təşkilatlarının rolu xeyli artmışdır. Dövlətimiz diaspor təşkilatlarına bu istiqamətdə indiyə qədər verdiyi dəstəyi bundan sonra da davam etdirəcəkdir.

Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs əsasında həyata keçirdiyimiz ardıcıl islahatlar hazırda bütün sahələrdə mütərəqqi dəyişikliklərə gətirib çıxarmış, ölkəmiz sürətli inkişaf yoluna qədəm qoymuşdur. Fərəhləndirici haldır ki, bu ilin əvvəlində biz "Azərspace-1" milli peykini orbitə çıxararaq dünyanın kosmik dövlətləri sırasına qoşulduq. Bu günlərdə isə Bakıda Avropanın aparıcı neft-qaz şirkətləri ilə imzalanmış "Şahdəniz -2" enerji sazişi Azərbaycanın uzunmüddətli və dayanıqlı tərəqqisi yolunda aydın üfüqlər açır. Haqlı olaraq XXI əsrin müqaviləsi adlandırılan bu möhtəşəm layihə 1994-cü ildə imzalanmış "Əsrin kontraktı" kimi Avropanın enerji təminatı xəritəsində əsaslı dəyişiklik edəcək və dövlətimizin beynəlxalq rolunu daha da gücləndirəcəkdir.

Azərbaycanda son on ildə sosial-iqtisadi sahədə baş vermiş güclü sıçrayış cəmiyyət həyatının bütün sahələrinə müsbət təsir göstərmiş, ictimai-siyasi proseslərin sağlam məcraya yönəlməsini şərtləndirmişdir. Respublikamız demokratiya yolu ilə inamla addımlayır, ölkədə siyasi plüralizm, insan hüquq və azadlıqları təmin edilir, vətəndaş cəmiyyətinin inkişafına geniş şərait yaradılır. Bu il keçirilmiş Prezident seçkiləri göstərdi ki, Azərbaycanda siyasi mədəniyyətin səviyyəsi yüksəkdir və davam etdirilən strateji kurs xalqın iradəsinə söykənir.

Hazırda Azərbaycan bölgədə həm də beynəlxalq iqtisadi, siyasi, humanitar tədbirlərin və idman yarışlarının keçirildiyi əsas mərkəzə çevrilmişdir. Ölkəmiz dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Azərbaycanın iki il ərzində BMT Təhlükəsizlik Şurasında təmsil olunması isə dövlətimizin nüfuzuna və yürütdüyü siyasətə dünya birliyinin verdiyi yüksək qiymətin əyani təzahürüdür.

Uğurlarımızla bərabər qeyd etməliyəm ki, qarşımızda Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin pozulmuş ərazi bütövlüyünün bərpası kimi taleyüklü vəzifə dayanır. Biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə nail olmaq üçün qarşı tərəflə danışıqları davam etdiririk. Hesab edirəm ki, harada yaşamalarından asılı olmayaraq dünya azərbaycanlıları da bu işə öz dəstəklərini verməlidirlər.

Bir reallığı da qeyd etməliyəm ki, müasir dünyada yaşanan qlobal proseslər müsbət meyillərlə yanaşı, ölkələrin milli inkişafına, xalqların milli-mənəvi dəyərlərinin qorunmasına bir çox problemlər də yaradır. Belə şəraitdə dünya ölkələrində yaşayan həmvətənlərimizin həmrəyliyi güclənməli, diaspor qurumlarının fəaliyyəti daha mütəşəkkil və çevik olmalıdır. Birliyimizin və həmrəyliyimizin əsasında dayanan müstəqil Azərbaycan Respublikasının qorunması və inkişaf etdirilməsi, dünya birliyində mövqelərinin möhkəmləndirilməsi hər birimizdən xüsusi səy tələb edir. Biz hamılıqla milli mənafelərimizin müdafiəsi, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, dövlətimizin tərəqqisi və beynəlxalq nüfuzunun artırılması naminə azərbaycançılıq ideyası ətrafında daha sıx birləşməliyik.

Bu bayram münasibətilə bütün həmvətənlərimizi və soydaşlarımızı səmimi qəlbdən təbrik edir, hər birinə xoşbəxtlik, firavanlıq və işlərində uğurlar arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2013-cü il***

## "RUS İCMASI – 20 İL YENİ AZƏRBAYCANIN XALQLAR AİLƏSİNDƏ" RESPUBLİKA KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanın Rus İcması təşkilatının yaradılmasının 20 illiyi münasibətilə ürəkdən salamlayır, hamınıza ən səmimi arzularımı yetirirəm.

Rus İcması ictimai birliyi fəaliyyət göstərdiyi illər ərzində Azərbaycanda millətlərarası münasibətlərin inkişafına və vətəndaş cəmiyyəti quruculuğuna mühüm töhfələr verərək ölkənin nüfuzlu təşkilatlarından birinə çevrilmişdir. Sıralarında vətənpərvər və yaradıcı insanları birləşdirən təşkilatınız rus dili və mədəniyyətinin, milli adət-ənənələrin qorunub saxlanması və inkişafı sahəsində gərəkli fəaliyyət göstərir.

Azərbaycan tarixən sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu unikal məkan olmuşdur. Xalqımızın mentalitetinə xas olan yüksək insanpərvərlik və dözümlülük ayrı-ayrı xalqların və etnik qrupların yüz illər boyu burada əmin-amanlıq, dostluq və qardaşlıq şəraitində, etnik-dini tolerantlıq mühitində yaşamasını təmin etmişdir. Biz cəmiyyətimizdə mövcud olan etnik-mədəni müxtəlifliyi, multikulturalist ənənələri xalqımızın tarixi nailiyyəti kimi qiymətləndirir və bunu milli siyasətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Bu gün çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətini rus icması olmadan təsəvvür etmək mümkün deyildir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Cənubi Qafqazda sayca ən çox rus məhz bizim ölkədə yaşayır. Onlar Azərbaycanı özlərinin doğma vətəni sayır, ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi həyatımızın bütün sahələrində yaxından iştirak edirlər. Bir çox rus vətəndaşlarımız ölkəmizin ərazi bütövlüyü uğrun-

da erməni işğalçılarına qarşı mübarizədə əsl vətənpərvərlik və qəhrəmanlıq nümunələri göstərmişlər.

Azərbaycanla Rusiya arasında mehriban dostluq və qonşuluq münasibətləri zəngin tarixi ənənəyə malikdir. Hazırkı mərhələdə həmin ənənələrə əsaslanan və bütün sahələri əhatə edən çoxtərəfli əməkdaşlıq əlaqələrimizin inkişafında hər iki ölkədə fəaliyyət göstərən diaspor təşkilatları və icmalar əhəmiyyətli rol oynayır.

Əziz dostlar!

Rus İcması ictimai birliyi Azərbaycanda yaşayan rusları layiqincə təmsil edərək, son 20 ildə səmərəli bir yol qət etmişdir. Əminəm ki, təşkilatınız ölkəmizdə vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində, xalqlarımızın və mədəniyyətlərimizin bir-birinə yaxınlaşmasında və qarşılıqlı zənginləşməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əzmkar fəaliyyətini bundan sonra da davam etdirəcəkdir. Bu yolda hər birinizə cansağlığı və uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2013-cü il***

## PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2013-cü il arxada qalır. 2013-cü ildə ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Qarşımızda duran bütün məsələlər öz həllini tapmış və ölkəmizin hərtərəfli inkişafı davam etmişdir.

2013-cü il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Ölkəmizin bütün istiqamətlər üzrə inkişafı hər bir Azərbaycan vətəndaşını sevindirir. Bizim beynəlxalq mövqelərimiz möhkəmləndirilmişdir. Azərbaycanın həm ikitərəfli və həm də çoxtərəfli formatda beynəlxalq əlaqələri artmış, güclənmişdir. Biz iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda fəal siyasət aparmışıq və böyük beynəlxalq dəstək qazanmışıq. Bu il Azərbaycan BMT Təhlükəsizlik Şurasındakı fəaliyyətini başa çatdırır. İki il ərzində Azərbaycan dünyanın bir nömrəli qurumu olan BMT Təhlükəsizlik Şurasında çox fəal iştirak etmişdir. Beynəlxalq hüququ, ədaləti müdafiə etmişdir.

Əfsuslar olsun ki, dünyada beynəlxalq hüquq normaları pozulur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması bunu bir daha göstərir. Əfsuslar olsun ki, bizim torpaqlarımız uzun illər işğal altındadır. Beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilmir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi vardır ki, erməni işğalçı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Ancaq Ermənistan buna məhəl qoymur. ATƏT, Avropa Parlamenti, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatının da bu məsələ ilə bağlı qərar və qətnamələri vardır. Ancaq əfsuslar olsun ki, onlar icra edilmir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Başqa variant ola bilməz. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaradılsın. Əminəm ki, ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir və işğal edilmiş bütün torpaqlarda Azərbay-

can vətəndaşları yaşayacaqlar. Gələcəkdə isə azərbaycanlılar bütün tarixi torpaqlara qayıdacaqlar. Mən buna əminəm, buna şübhə etmirəm. Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq, daha da güclü orduya malik olmalıyıq və iqtisadi inkişafı təmin etməliyik.

Ordu quruculuğu işində böyük uğurlarımız vardır. Azərbaycan Ordusu bu gün dünyanın güclü orduları sırasındadır. Bu istiqamətdə hələ görüləcək işlər çoxdur, islahatlar davam etdirilməlidir. Ancaq deyə bilərəm ki, ölkəmizin hərbi potensialı kifayət qədər güclüdür. Ən müasir texnika, silah-sursat alınır. Azərbaycanda müasir hərbi məhsullar istehsal olunur. Bir sözlə, Ordumuzun hərbi potensialı, döyüş qabiliyyəti artır və bu, bizi sevindirir. Çünki hər bir güclü dövlətin güclü ordusu olmalıdır. Biz bu istiqamətdə bundan sonra da fəal siyasət aparacağıq.

İqtisadi siyasətə gəldikdə, bu sahədə son on il ərzində Azərbaycan kimi inkişaf edən ikinci ölkə olmamışdır. Bütün beynəlxalq maliyyə qurumları və statistik məlumatlar bunu təsdiqləyir. Son on il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmışdır ki, bu, dünya miqyasında ən böyük göstəricidir. Bir milyon 200 mindən artıq yeni iş yeri açılmışdır. Yoxsulluğun azaldılmasında böyük nailiyyətlər əldə edilmişdir. Hazırda yoxsulluğun səviyyəsi beş faizdən bir qədər çoxdur. İşsizliyə qarşı mübarizə gözəl nəticələr vermişdir. Azərbaycanda işsizliyin səviyyəsi beş faizdən aşağıdır.

Beynəlxalq aparıcı reytinq agentlikləri hətta böhranlı illərdə Azərbaycanın kredit reytinqlərini artırmışlar. Dünyanın bir nömrəli iqtisadi forumu olan Davos İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 39-cu yerə layiq görmüşdür. Bu, çox böyük nailiyyətdir, çox böyük nəticədir, onu göstərir ki, ölkəmiz uğurla inkişaf edir. İqtisadiyyatımız çoxşaxəli iqtisadiyyatdır, təkcə neft amilinə bağlı deyildir. Son illər ərzində apardığımız iqtisadi islahatlar, iqtisadi siyasət ölkə iqtisadiyyatının şaxələndirilməsinə gətirib çıxarmışdır. Əminəm ki, növbəti illərdə iqtisadi sahədə daha da böyük uğurlar əldə ediləcəkdir. Bizim iqtisadi siyasətlə bağlı proqramımız ardıcıl şəkildə icra edilir.

Eyni zamanda, güclü iqtisadiyyat əlbəttə ki, sosial məsələlərin həllinə də kömək göstərir. Azərbaycan bu sahədə də ardıcıl siyasət aparır. Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ona görə, güclü sosial siyasət bizim əsas istiqamətimizdir. 2013-cü ildə maaşlar, pensiyalar qaldırılmışdır, sovet vaxtlarından qalmış əmanətlər tam olaraq əhaliyə kompensasiya şəklində verilmişdir. Digər sosial proqramlar uğurla icra edilir. Əminəm ki, sosial sahədə siyasətimiz növbəti illərdə davam etdiriləcəkdir. Bunu deməyə əsas verən bizim güclü iqtisadi potensialımızdır. İqtisadi müstəqillik olmadan heç bir ölkə özünü tam azad, müstəqil hesab edə bilməz. Ona görə, hesab edirəm ki, iqtisadi sahədə müstəqilliyin əldə olunması bizim ən böyük nailiyyətimizdir.

Eyni zamanda, ölkəmizdə siyasi islahatlar davam etdirilir və davam etdiriləcəkdir. Azərbaycanda demokratik cəmiyyətin qurulması istiqamətində çox müsbət addımlar atılır, qanunun aliliyi təmin edilir, bütün azadlıqlar vardır. Azərbaycan siyasi islahatların aparılması istiqamətində də qabaqcıl ölkələrin birinə çevrilməkdədir.

Cəmiyyəti ən çox narahat edən korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə 2013-cü ildə daha da böyük miqyasda aparılmışdır. Biz daha da böyük uğurlara nail olmuşuq. Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə bizim siyasətimizin əsas istiqamətlərindən biridir. Burada həm cəza tədbirləri, inzibati tədbirlər öz rolunu oynayır, eyni zamanda, sistem xarakterli islahatlar da bu sahədə böyük irəliləyişə nail olmaq üçün bizə imkan yaratmışdır. İlin əvvəlində yaradılmış "ASAN xidmət"in fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Qısa müddət ərzində cəmiyyətdə böyük rəğbət qazanmış "ASAN xidmət" bu gün dünyada da özünü Azərbaycan brendi kimi təsdiqləyir. İl ərzində bu xidmətə beş

yüz mindən artıq vətəndaş müraciət etmişdir. Gələcəkdə "ASAN xidmət"də göstərilən xidmətlərin sayı artırılacaq və eyni zamanda, elektron xidmətlərin sayı da artırılmalıdır.

Azərbaycan bu il dünyanın humanitar mərkəzi kimi özünü bir daha təsdiq etdi. Bu il Azərbaycanda Üçüncü Beynəlxalq Humanitar Forumu, İkinci Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Bu iki tədbir dünya ictimaiyyətinin diqqətini özünə cəlb etmişdir. Azərbaycan artıq dinlərarası, millətlərarası dialoqun aparılması üçün özünü bir mərkəz kimi göstərir. Ölkəmizdə mövcud olan dini və milli dözümlülük, tolerantlıq, bütün xalqların bir ailə kimi yaşaması bizim böyük nailiyyətimizdir, böyük sərvətimizdir, böyük üstünlüyümüzdür. Deyə bilərəm ki, ölkəmizin bu sahədə təcrübəsi dünyada öyrənilir və təqdir edilir.

Əlbəttə ki, neft-qaz sektoru da ölkəmizin gələcək inkişafı üçün çox böyük məna daşıyır. 2013-cü ildə bir neçə vacib məsələ öz həllini tapmışdır. Onlardan biri də Trans-Adriatik kəməri layihəsinin seçilməsidir. TAP layihəsi artıq əsas qaz ixrac marşrutu kimi təsdiq edilmişdir. 2012-ci ildə Trans-Anadolu qaz kəmərinin tikintisi ilə bağlı razılıq əldə edilmişdir və bu il bu istiqamətdə böyük işlər görülmüşdür. Dekabrın 17-də "Şahdəniz-2" layihəsinə start verildi. Bu, tarixi layihədir, tarixi hadisədir. Bu layihə XXI əsrin layihəsidir, Avropanın ən böyük infrastruktur və ən böyük enerji layihəsidir. TANAP, TAP, "Şahdəniz-2" layihələri Azərbaycanın tarixi uğurudur, tarixi nailiyyətidir. Bir daha Azərbaycan xalqını bu böyük qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu layihə xalqımızın uğurlu gələcəyi, yaşaması, ölkəmizin dayanıqlı inkişafı üçün müstəsna əhəmiyyətə malik olan bir layihədir.

Bu il Azərbaycanda prezident seçkiləri keçirilmişdir. Seçkilər azad, ədalətli şəkildə keçirilmişdir. Seçkiləri müşahidə edən xarici qonaqlar seçkilərə çox yüksək qiymət vermişlər. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı seçkilərin keçirilməsinə yüksək qiymət vermişdir. Seçkilərdə Azərbaycan xalqının iradəsi tam şəkildə öz əksini tapmışdır. Mənə yenidən böyük diqqət və dəstək göstərdiyi üçün doğma xalqıma minnətdaram. Azərbaycan xalqını bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da ölkəmizin uğurlu inkişafı, gələcəyi üçün var gücümlə çalışacağam.

Bu il Azərbaycan kosmik dövlətə çevrildi. İlin əvvəlində "Azərspace-1" peykinin fəzaya buraxılması tarixi nailiyyətdir. Bu, onu göstərir ki, ölkəmiz böyük işlərə, böyük uğurlara imza atır. Kosmik sənayenin inkişafı ölkəmizin ümumi, intellektual və iqtisadi potensialını bir daha təsdiqləyir.

Əziz bacılar və qardaşlar, bu gün, eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Dünyada yaşayan bütün azərbaycanlılar, əminəm, fəxr edirlər ki, bu gün güclü Azərbaycan dövləti vardır. O dövlət ki, öz vətəndaşları üçün çalışır, vətəndaşlarının qayğıları ilə yaşayır. Müasir, dinamik, demokratik dövlət ki, bu gün bütün azərbaycanlıların Vətənidir.

Mən bütün Azərbaycan xalqını bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə xoşbəxtlik, firavanlıq, əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

*31 dekabr 2013-cü il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə xoşbəxtlik arzulayıram.

Azərbaycanda bir çox xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluğunu, dil və mədəniyyətini qoruyub saxlayırlar. Bu gün Azərbaycan dövləti sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun hökm sürdüyü, yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi bir cəmiyyətə malikdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün milli azlıqları, o cümlədən pravoslav xristian icması millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, Azərbaycanda vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində, inkişaf və quruculuq prosesində yaxından iştirak edirlər.

Hər il Azərbaycanda təntənə ilə qeyd olunan Milad bayramı yeniliyi, əmin-amanlığı, həmrəyliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 yanvar 2014-cü il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və səadət arzulayıram.

Siz əsrlər boyu formalaşmış əxlaqi sərvətlərimizin, mədəni-mənəvi dəyərlərimizin layiqincə qorunub saxlanmasını təmin etmiş, tariximizə öz uzaqgörənliyiniz, fədakarlıq və qəhrəmanlıqlarınızla parlaq səhifələr yazmısınız. Ən dərin fikirləri dolğun ifadə qüdrətinə malik dilimizin ötən dövrlərin sınağından çıxaraq bu gün də yaşaması və zənginləşməsində misilsiz xidmətləriniz vardır. Gözəl ana kimi gənclərimizin vətənə və torpağa bağlılıq, müstəqil dövlətçiliyimizə, istiqlal ideallarına və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda formalaşmaları üçün bütün qüvvənizi sərf edirsiniz. Siz həm də maarifpərvər qadın ziyalılarımızın yolunu ləyaqətlə davam etdirərək, mədəniyyət, elm, təhsil, səhiyyə və digər istiqamətlərdə istedad və bacarığınızı getdikcə daha böyük əzmlə gerçəkləşdirirsiniz.

Cəmiyyətimizin həyatına dinamizm qazandıran sosial fəallığınız və onun ahəngdarlığını təmin edən yüksək ictimai mövqeyiniz zəngin mənəviyyatınızın, dərin zəkanızın, təşkilatçılıq qabiliyyəti və işgüzarlığınızın nəticəsidir. Azərbaycanın gələcək inkişafına uyğun, mühüm əhəmiyyətli layihələrin daimi iştirakçıları olaraq müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyətlərinizlə siz göstərilən etimadı həmişə doğrultmusunuz. İctimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə apardı-

ğınız səmərəli işlərin bəhrələri yurdumuzun hər bir guşəsində özünü aydın şəkildə büruzə verir. Ölkənin hazırkı simasının müəyyənləşməsində özünəməxsus yer tutan və əhatə dairəsi mütəmadi genişlənən müvəffəqiyyətləriniz müasir Azərbaycan reallığının diqqətəlayiq hadisələridir.

Ümidvaram ki, siz xanımlar xalqımıza xas milli mənəvi dəyərləri bundan sonra da yaşadacaq və tükənməz intellektual potensialınızla gündən-günə yeniləşən respublikamızın çiçəklənməsi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 mart 2014-cü il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və bahar əhval-ruhiyyəsi arzulayıram.

Milli varlıq və mənəviyyat xəzinəsi olan Bahar bayramı müdrik əcdadlarımızın bugünkü nəsillərə misilsiz yadigarıdır. Kainatın dəyişməz ahəngi və əbədi qanunları ilə bağlı bu el bayramı zamanın sınaqlarından çıxmış çoxəsrlik mədəniyyətimizin parlaq təcəssümüdür. Novruz ənənələri dəyərlər sistemimizdə müstəsna yer tutmuş, xalqımızın təfəkkürünün ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Cəmiyyət üzvləri arasında qarşılıqlı ünsiyyətə çağırması, səmimiyyəti gücləndirməsi və yüksək əxlaqi keyfiyyətlər formalaşdırması onu ən ali insani xüsusiyyətlərin daşıyıcısı kimi ümumbəşəri mədəni sərvətlər sırasına daxil etmişdir.

Bahar bayramı keçmişimizin ən çətin dövrlərində belə zehinlərdən silinməyib gələcəyə inamımızı sarsılmağa qoymamışdır. Qəlbimizin dərinliklərində kök salaraq milli özünüdərk məfkurəsini yaşatması sayəsində o, ötən əsrin sonlarına doğru Azərbaycanda müstəqil dövlətçilik ideallarının gerçəkləşməsini təmin edən mühüm amillərdəndir. Mənəvi mədəniyyətimizin zənginliklərini özündə toplamış qədim Novruz mərasimlərini qloballaşmanın vüsət aldığı, sürətlə dəyişən dünyada bütün rəngarəngliyi ilə layiqincə qoruyub saxlaması müasir Azərbaycanın tarixi-mədəni və milli-mənəvi irsə bağlılığının rəmzidir.

Yazın gəlişi onun yeniləşdirici ovqatına uyğun, yurdumuzun hər bir guşəsində aparılan genişmiqyaslı quruculuq-abadlıq işləri və insanlarımızın rifahını əsaslı surətdə yaxşılaşdıran çoxsaylı nailiyyətlərlə səciyyələnir. Bizimlə birgə baharı azərbaycançılıq düşüncəsi işığında minlərlə soydaşımız ölkəmizin hüdudlarından uzaqlarda qarşılayırlar. Həmrəyliyimizin rəmzi olaraq bu ümumxalq bayramı qoy hər bir ailəyə bol sevinc və ruzi-bərəkət bəxş eləsin.

Hamınızın əziz Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 mart 2014-cü il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda tarixən təşəkkül tapmış səmavi dinlər yüz illər boyu qarşılıqlı hörmət və etimad şəraitində, dinc yanaşı fəaliyyət göstərərək, insanlar arasında humanizm, həmrəylik, dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında, cəmiyyətimizdə mükəmməl etnik-dini tolerantlıq mühitinin və zəngin multikultural ənənələrin formalaşmasında müstəsna rol oynamışdır. Təsadüfi deyildir ki, bu gün Azərbaycan bütün dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir.

Azərbaycan Respublikasında dövlət-din münasibətləri demokratik prinsiplərə və beynəlxalq hüquq normalarına uyğun şəkildə tənzimlənmiş, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin etiqad və vicdan azadlığı təmin edilmişdir. Ölkəmizin dindar təbəqəsi, o cümlədən xristian inanclı vətəndaşlarımız dini etiqad və ayinlərini, milli bayram və mərasimlərini azad və sərbəst şəkildə icra edir, ictimai-siyasi, mədəni-mənəvi həyatımızın bütün sahələrində, vətəndaş cəmiyyəti quruculuğunda yüksək fəallıq göstərirlər.

Əziz dostlar!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Pasxa bayramı əmin-amanlığın, həmrəyliyin, xeyirxahlıq və şəfqət duyğularının rəmzidir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 aprel 2014-cü il***

## AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNƏ

Sizi – bütün Azərbaycan yazıçı, şair və ədəbiyyatşünaslarını Azərbaycan Yazıçılar Birliyinin 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və yaradıcılığınızda uğurlar arzulayıram.

Tarix boyu Azərbaycan xalqı əcdadlarımızdan qalmış ənənəyə sadiq olaraq qələm əhlinə böyük ehtiram bəsləmiş, şeiri, sənəti yüksək qiymətləndirmişdir. Yazıçı və şairlərimiz ictimai fikrin formalaşdırılmasında daim həlledici rol oynayan söz sahibi kimi cəmiyyətimizdə böyük nüfuza malikdirlər. Müstəqilliyimizin əldə olunmasında və möhkəmləndirilməsində onların xidmətləri danılmazdır. Xalqın şüurunda azadlıq hisslərinin yaşadılmasında, daha da dirçəldilməsində yazıçı və şairlərimizin yaradıcılığının gücü ölçüyə gəlməzdir. Onlar heç kəsin dilinə belə gətirməyə cürət etmədiyi bir vaxtda müstəqillik və azadlıq ideyalarının carçısı olmaqla dərin məhəbbət və rəğbət qazanmışlar.

Tariximizin bütün dövrlərində, hətta repressiyaların tüğyan etdiyi zamanda yazıçılarımız öz əsərləri, mətbu orqanları, ictimai fəaliyyətləri və şəxsiyyətləri ilə azərbaycançılıq məfkurəsinin bərqərar olmasında, milli ruhun qorunmasında heç nədən çəkinmədən, əsl vətəndaşlıq mövqeyi tutaraq ən yüksək ideallara sadiq qalmışlar. Azərbaycan dilinin saflığının saxlanılması və inkişafında da yazıçıların rolu təqdirə layiqdir.

Qloballaşma şəraitində Azərbaycan ədəbiyyatı qarşısında duran problemlər olduqca mürəkkəb və genişmiqyaslıdır. Əminəm ki, onların öhdəsindən siz layiqincə gələcəksiniz. İlk növbədə ona görə ki, sizin başlıca amalınız ölkəmizin çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevrilməsidir. Ümidvaram ki, müstəqilliyimizi göz bəbəyi kimi qoruyan, özünü vətənin azadlığı və ərazi bütövlüyü naminə fəda etməyə hər an hazır olan, müasir təfəkkür tərzinə malik sağlam əqidəli nəslin yetişdirilməsi daim sizin əsərlərinizin əsas qayəsi olacaqdır.

İnanıram ki, Siz yeni-yeni əsərlərlə oxucularınızı sevindirəcək, Azərbaycan ədəbiyyatının inkişafı naminə səylərinizi əsirgəməyəcəksiniz.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyun 2014-cü il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi və bütün dünya azərbaycanlılarını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi çatdırıram.

Hikmətlər hikməti olan Qurani-Kərimin nazil olduğu Ramazan ayı bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu, düşüncəsini saflaşdıran əziz bir aydır.

Azərbaycanda milli və dini mərasimlər, o cümlədən Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Ölkəmizdəki dövlət-din münasibətləri, vətəndaşların dini etiqad azadlığı milli qanunvericiliyə və beynəlxalq hüquq normalarına uyğun olaraq tənzimlənir. Bu gün dünyanın tolerantlıq örnəyinə çevrilən Azərbaycanda ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir. Xüsusi vurğulamaq istərdim ki, vaxtilə sovet rejimi tərəfindən etiqad və vicdan azadlığının qadağan edildiyi ölkəmizdə indi bütün xalqların və dinlərin nümayəndələrinin rahat şəkildə və mehriban ailə kimi yaşaması müstəqil Azərbaycanın ən böyük sərvətlərindən biridir.

Bu günlər cəmiyyətimiz əsl bayram sevinci ilə yaşayır. Orucluğun sınağından könül xoşluğu və fərəhlə çıxanlar dünyanın və ölkəmizin əmin-amanlığı naminə və Vətən torpağı uğrunda canını fəda etmiş şəhidlərimizin müqəddəs ruhları üçün dualar edirlər.

Mərhəmət, şəfqət və bərabərlik rəmzi olan Ramazan ayında inanclı vətəndaşlarımızın tutduğu orucun, etdiyi dua və niyyətlərin Allah dərgahında qəbul olunmasını diləyir, bir daha hər birinizin bayramını təbrik edir, ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 iyul 2014-cü il***

## "MƏDƏNİYYƏTLƏRARASI DİALOQ: MƏDƏNİYYƏT VƏ DİN ARASINDA QARŞILIQLI ƏLAQƏ" MÖVZUSUNDA 2014-CÜ İL MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN DİNİ ÖLÇÜSÜ ÜZRƏ AVROPA ŞURASININ MÜBADİLƏ GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

Sizin hamınızı tolerantlıq məkanı kimi tanınan Azərbaycanda səmimi qəlbdən salamlayır, hər birinizə cansağlığı, uzun ömür və müvəffəqiyyətlər arzulayıram.

Fərqli dinlərə və inanclara mənsub insanların əsrlərdən bəri qarşılıqlı anlaşma şəraitində yaşadığı Bakı şəhərində toplaşmağınız rəmzi xarakter daşıyır. Müzakirə etdiyiniz məsələlərin müasir Avropa üçün taleyüklü rol oynadığını nəzərə alaraq xüsusi qeyd etmək lazımdır ki, tarixən bu qitədə müxtəlif dinlər xalqların mənəvi zənginləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Bu mənəvi zənginləşmə cəmiyyətin bütün təbəqələrinə sirayət edərək, əslində, onun bütövlüyünün vacib şərtlərindən birinə çevrilmişdir. Eyni zamanda, təhsildə, mədəniyyətdə və gənc nəslin tərbiyəsi ilə bağlı digər sahələrdə yüksək dözümlülük mühitinin formalaşdırılması da hazırkı dövrün başlıca vəzifələrindəndir. Azərbaycanda bu istiqamətdə konkret addımlar atılmaqdadır.

Yeni yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi məhz dünyada mədəni müxtəlifliyin ayrı-ayrı modellərinin tədqiqini və əldə olunan müsbət təcrübənin təbliğini qarşısına məqsəd qoymuşdur. Ümidvaram ki, Mərkəz öz fəaliyyəti ilə insanlığın böyük mənəvi sərvəti olan mədəni rəngarəngliyin daha dərindən araşdırılması işində uğurlar qazanacaq, xoşməramlı niyyətlərimizin ümumbəşəri tarixi-mədəni və dini-mənəvi dəyərlər müstəvisində gerçəkləşməsi üçün əlverişli zəmin hazırlayacaqdır.

Sürətlə qloballaşan dünyada mövcud siyasi, iqtisadi və mədəni proseslər hər bir ölkədən zamanın təxirəsalınmaz çağırışlarına adekvat cavab verməyi tələb edir. Bu isə dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsi, yeni kreativ təfəkkürün və innovativ mühitin bərqərar olunması, eləcə də insanın dini əqidəsinə hörmətlə yanaşılması, irqçiliyin və dözümsüzlüyün hər hansı təzahürünün ləğvi ilə mümkündür. İnanıram ki, Sizin görüşünüz ümumavropa məkanında arzu olunan mühitin yaradılması prosesinə layiqli töhfəsini verəcək və yekun qərarlarınız Avropa ailəsinin bütövlükdə inkişafına xidmət göstərəcəkdir.

Bu nəcib işdə sizə uğurlar arzulayıram.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 avqust 2014-cü il*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün Azərbaycan ayrı-ayrı din və mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın, hörmət və etimadın hökm sürdüyü nadir ölkələrdəndir. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması, milli azlıqların dil və mədəniyyətinin inkişaf etdirilməsi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Tarixən milli və dini tolerantlıq mühitinin bərqərar olduğu Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün xalqların nümayəndələri mehriban dostluq və qardaşlıq şəraitində yaşayır, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində əsl vətəndaş mövqeyi nümayiş etdirirlər. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, çoxmillətli Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan yəhudi icması da ölkəmizin ictimai-siyasi həyatında və respublikada gedən böyük quruculuq işlərində yaxından iştirak edir.

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bayramdır. Yəhudi xalqının bu əziz günü münasibətilə bir daha hamınıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 sentyabr 2014-cü il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının mənəvi birlik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Xeyirxahlığın, bərabərliyin, fədakarlığın simvolu olan Qurban bayramı Uca Yaradanın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi insanları həmişə sülhə, əmin-amanlığa və dözümlülüyə dəvət edir.

Cəmiyyətimizdə humanizm və qardaşlıq duyğularını daha da gücləndirən Qurban mərasimləri hər il Azərbaycanda yüksək əhval-ruhiyyə və böyük təntənə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvar olduğumu bildirirəm ki, bu xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Ulu Tanrının mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 oktyabr 2014-cü il*

## AZƏRBAYCAN RUS İCMASI İCTİMAİ BİRLİYİNİN IV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi – Azərbaycan Rus İcması İctimai Birliyinin IV qurultayının iştirakçılarını səmimi qəlbdən salamlayır, hamınıza ən xoş arzularımı yetirirəm.

Tarixən müxtəlif xalqlar və dinlər arasında səmimi dostluq, qardaşlıq, qarşılıqlı hörmət və etimad mühitinin hökm sürdüyü Azərbaycanda rus icması həmişə əmin-amanlıq şəraitində yaşamış, dil və mədəniyyətini, milli və dini adət-ənənələrini qoruyub saxlamaqla, çoxmillətli cəmiyyətimizin etnik-mənəvi mənzərəsini özünəməxsus çalarlarla zənginləşdirmişdir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, Azərbaycanın rus əhalisi ictimai-siyasi həyatımızda, milli dövlətçiliyimizin inkişafında yaxından iştirak edir. Onların tam və bərabərhüquqlu vətəndaş kimi cəmiyyətə inteqrasiyası və etnik-mədəni özünəməxsusluğunun qorunub saxlanması üçün ölkəmizdə hərtərəfli hüquqi-demokratik şərait təmin olunmuşdur. Sovet İttifaqının süqutundan sonra postsovet məkanında rus dilinə qarşı məlum basqı və neqativ halların əksinə olaraq, bu gün Azərbaycanda rus dilində orta ümumtəhsil məktəbləri, ali təhsil ocaqları, universitetlərdə rusdilli bölmələr, Dövlət Rus Dram Teatrı, rusdilli teatr truppaları, rusdilli mətbu orqanlar və digər ictimai-mədəni qurumlar öz fəaliyyətini uğurla davam etdirməkdədir.

Təsadüfi deyil ki, hazırda Cənubi Qafqazda ən böyük rus icması məhz bizim ölkəmizdə yaşayır. 1988-1989-cu illərdə Ermənistanda azərbaycanlılara qarşı həyata keçirilmiş etnik təmizləmə və deportasiya nəticəsində mürtəce erməni şovinizmindən əziyyət çəkən rus xalqının minlərlə nümayəndəsinin Azərbaycana pənah gətirməsi də burada millətlərarası münasibətlərin və etnik-dini tolerantlığın necə yüksək səviyyədə olduğuna bariz nümunədir.

Azərbaycan Rus İcması Birliyi, ictimai təşkilat olaraq, 20 ildən artıqdır ki, vətəndaş cəmiyyəti quruculuğunda səmərəli fəaliyyət göstərir, xalqlarımızın və mədəniyyətlərimizin bir-birinə daha da yaxınlaşmasında və qarşılıqlı zənginləşməsində önəmli işlər görür. Əminəm ki, bu təşkilat respublikamızın rus icmasını bundan sonra da layiqincə təmsil edəcək, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin, xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında səylərini gücləndirəcəkdir.

Bu yolda hər birinizə cansağlığı və qurultayınızın işinə uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 noyabr 2014-cü il***

## "DİNİ TOLERANTLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ (AZƏRBAYCAN MODELİ, ATƏT REGİONU VƏ ONUN HÜDUDLARINDAN KƏNARDA ÇAĞIRIŞLAR)" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycanda ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Son illər sivilizasiyalararası dialoq, multikultural dəyərlərin qorunması, dini tolerantlığın inkişafı kimi humanitar problemlərin ənənəvi müzakirə məkanına çevrilən Azərbaycanda etnik-mədəni müxtəlifliyin, multikultural, tolerant mühitin qorunması və təşviqi dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Ölkəmizdə dövlət-din münasibətləri zəngin milli-tarixi ənənəyə əsaslanır və beynəlxalq hüquqi normalarla tənzimlənir. Biz bu təcrübəni həyata keçirdiyimiz din siyasətinin uğurlu təminatı kimi qəbul edir və mövcud ictimai-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, nümunəvi dözümlülük mühitinin vacib amili kimi dəyərləndiririk.

Razılıq hissi ilə qeyd etmək istərdim ki, bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur.

Nüfuzlu beynəlxalq təşkilatların, dövlət və hökumət rəsmilərinin, tanınmış din xadimlərinin, alimlərin və ekspertlərin iştirak etdiyi belə bir faydalı tədbirin Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. İnanıram ki, aktual bir mövzuya həsr olunmuş beynəlxalq konfransınız işini səmərəli müzakirələr şəraitində quracaq, dinlərarası və mədəniyyətlərarası dialoqun, həmrəylik, tolerantlıq və qarşılıqlı anlaşma kimi bəşəri dəyərlərin inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Fürsətdən istifadə edərək Beynəlxalq Tolerantlıq Günü münasibətilə sizi təbrik edir, nəcib və xeyirxah işinizdə hamınıza cansağlığı və uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 noyabr 2014-cü il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Hər il böyük sevinclə qeyd etdiyimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində Sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik, sülh və əmin-amanlıq arzulayıram!

Dünyada yaşayan soydaşlarımızın Vətənə və azərbaycançılıq məfkurəsinə sədaqətini, xalqımızın öz keçmişinə və milli mənəvi dəyərlərinə ehtiramını əks etdirən bu bayram tarixi yaddaşımızın mühüm tərkib hissəsinə çevrilmişdir. Ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri sayəsində milli birlik və həmrəylik ideyaları daha dolğun məzmun kəsb edərək, real fəaliyyət sahəsi kimi dövlət siyasəti səviyyəsinə yüksəlmişdir. "Güclü dövlət – güclü diaspor" prinsipini rəhbər tutan həmin siyasətin əsas qayəsi xarici ölkələrdə yaşayan soydaşlarımızın tarixi Vətənlə bağlılığını möhkəmləndirmək, mütəşəkkilliyini artırmaq, diaspor qurumlarının imkanlarından həmvətənlərimizin hüquqlarının və milli dövlət maraqlarının qorunmasında daha səmərəli istifadə etməkdən ibarətdir.

Sevindirici haldır ki, diaspor quruculuğu sahəsində aparılan işlər öz bəhrəsini verir. Xaricdəki həmvətənlərimiz məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirir, Azərbaycanın dünyada tanıdılmasına, zəngin mədəniyyətimizin təbliğinə çalışır, bəzi qüvvələrin dövlətimiz və xalqımızın əleyhinə yönəlmiş məkrli planlarına qarşı təsirli tədbirlər görürlər. Diaspor təşkilatlarımız bundan sonra da səylərini artırmalı, Azərbaycanın müvafiq dövlət qurumları və xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə əməkdaşlıq şəraitində daha məqsədyönlü və çevik fəaliyyət göstərməlidirlər.

Bu gün hər bir həmvətənimiz Azərbaycan Respublikası ilə fəxr etməkdə haqlıdır. Biz keçən illər ərzində iqtisadiyyatımızı sürətlə inkişaf etdirməyə, əhalinin rifah halını yüksəltməyə, yoxsulluq və işsizlik kimi sosial bəlaların səviyyəsini minimuma endirməyə nail olmuşuq. Enerji resurslarından əldə edilən gəlirlər iqtisadiyyatın şaxələndirilməsinə, insan kapitalının və demokratik institutların inkişafına yönəldilmişdir. Ölkədə nəhəng nəqliyyat və sosial infrastruktur layihələri icra edilmiş, elm, təhsil, səhiyyə, mədəniyyət və idmanın inkişafı üçün müasir və güclü maddi-texniki baza yaradılmışdır.

Sivilizasiyalararası dialoq və humanitar əməkdaşlıq istiqamətində irəli sürülən təşəbbüslər, yüksək səviyyədə keçirilən beynəlxalq forumlar ölkəmizi multikulturalizm və tolerantlığın mərkəzi kimi tanıtmışdır.

Azərbaycan müstəqil dövlət kimi dünyanın siyasi, iqtisadi və humanitar həyatında fəal rol oynayır. 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə sədrliyi dövründə ölkəmiz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmişdir.

Cari ildə "XXI əsrin müqaviləsi" adlandırılan layihənin icrası istiqamətində mühüm addım atılmışdır. "Cənub qaz dəhlizi"nin təməlinin qoyulması ilə Azərbaycan Avropanın enerji təhlükəsizliyi sistemində öz mövqelərini daha da möhkəmləndirmək və beynəlxalq aləmə inteqrasiyanı dərinləşdirmək üçün yeni imkanlar qazanmışdır.

Gələn ilin yayında paytaxtımız birinci Avropa Oyunlarına ev sahibliyi edəcəkdir. Biz bu böyük idman bayramına ciddi hazırlaşır, ölkəmizə bəslənilən inam və etimadı doğrultmaq üçün əzmlə çalışırıq.

Müstəqillik dövrünün qısa tarixi dövlətimizin strateji xəttinə alternativin olmadığını, azərbaycançılıq ideologiyasına söykənən siyasətin düzgünlüyünü sübut edir. Əminəm ki, dünya azərbaycanlılarının həmrəyliyi bundan sonra da xalqımızın qarşısında dayanan bütün vəzifələrin öhdəsindən uğurla gəlməyə, torpaqlarımızı tezliklə Ermənistanın

işğalından azad etməyə, sürətlə dəyişən, ziddiyyətli dünyanın çağırışlarına adekvat cavab verməyə kömək edəcəkdir. Bunun üçün biz sıralarımızı daha da möhkəmləndirməli, əcdadlarımızdan miras qalmış çoxəsrlik mədəniyyətimizi inkişaf etdirməli və hamımızın pənah yeri olan müstəqil Azərbaycanımızın güclənməsinə birgə əməli fəaliyyətimizlə yeni töhfələr verməliyik.

Bu bayram münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, hər bir soydaşımıza və həmvətənimizə səadət, firavanlıq, işlərində uğurlar diləyirəm!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 dekabr 2014-cü il*

## PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2014-cü il arxada qalır. 2014-cü il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilmişdir. Ölkəmizin dinamik inkişafı təmin edilmişdir. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim təsir imkanlarımız da genişlənir.

Bildiyiniz kimi, 2012-2013-cü illərdə Azərbaycan dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasında təmsil olunurdu.

155 ölkənin dəstəyi ilə biz bu haqqı qazanmışdıq. Bu il isə Azərbaycan Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edirdi, Avropada demokratiyanın inkişafına, insan haqlarının qorunmasına öz dəyərli töhfəsini vermişdir.

Biz bütün ölkələrlə bərabərhüquqlu münasibətlər qurmuşuq. Qonşu dövlətlərlə və bütün digər dövlətlərlə səmərəli əməkdaşlıq edirik. İkitərəfli əlaqələrimiz inkişaf edir. Eyni zamanda, Azərbaycan çoxtərəfli formatda öz müsbət rolunu oynayır. Xüsusilə regional inkişaf məsələlərində Azərbaycanın rolu danılmazdır. Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə - siyasi, iqtisadi, enerji və digər layihələr icra edilə bilməz.

2014-cü ildə iqtisadi inkişaf təmin edilmişdir. Bu da çox önəmlidir, çünki bildiyiniz kimi, dünyada hələ də iqtisadi, maliyyə böhranı davam edir. Bütün bunlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir və bu inkişafın təməlində islahatlarımız dayanır. Təsadüfi deyil ki, dünyanın ən mötəbər iqtisadi qurumu olan Davos Ümumdünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 38-ci yerə layiq görmüşdür. Bu, böyük və tarixi nailiyyətdir.

Qeyri-neft sektorumuzun inkişafı bizim üçün prioritet olaraq qalır. Şadam ki, bu il qeyri-neft sektorumuz təxminən 7 faiz artmışdır. Ölkə iqtisadiyyatına 27 milyard dollar sərmayə qoyulmuşdur. Bu da çox önəmli hadisədir. Çünki indi dünyada sərmayələrin cəlb edilməsi üçün mübarizə gedir. Azərbaycanda sərmayə qoyuluşu yüksək səviyyədədir. Əminəm ki, gələn il də belə olacaq.

Yoxsulluğun, işsizliyin səviyyəsi 5 faizdir. Bu da dünya miqyasında çox gözəl göstəricidir. Dövlət xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 8 faizini təşkil edir. Bu da nadir göstəricidir. Makroiqtisadi vəziyyət sabitdir. Valyuta ehtiyatlarımız 50 milyard dollardan çoxdur. Manatın məzənnəsi isə sabit olaraq qalır.

Siz yaxşı bilirsiniz ki, dünyada neftin qiymətinin düşməsi ilə əlaqədar müəyyən gərginliklər yaşanır, o cümlədən bizim bölgəmizdə. Azərbaycan isə sabitlik adasıdır, nümunəvi ölkədir. Ölkəmizdə istər siyasi, istər iqtisadi sabitlik təmin edilir və ediləcək. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayacaq və ildən-ilə xalqımızın rifah halı yaxşılaşacaqdır.

Sosial siyasətimiz bütün dövrlərdə bizim üçün əsas vəzifə olmuşdur. Bu il Azərbaycanda sosial infrastrukturun yaradılmasına böyük vəsait qoyulmuşdur, 60-dan çox tibb ocağı, 50-yə yaxın məktəb, uşaq bağçası tikilib təmir edilmişdir. Əminəm ki, gələn il də bu müsbət proseslər gedəcək.

Azərbaycanda inflyasiya 1,4 faizdir. Əhalinin pul gəlirlərinin artımı isə 5 faizə yaxındır. Maaşların, pensiyaların, sosial müavinətlərin ildən-ilə artırılması əlbəttə ki, insanların rifah halını yaxşılaşdırır.

Ən ağır vəziyyətdə olan soydaşlarımızın – məcburi köçkünlərin problemləri də uğurla həll edilir. Hər il 20 mindən çox köçkün yeni evlərə köçürülür. Bu il də bu məqsədlər üçün böyük vəsait ayrılmışdır və biz bu məsələni də tədricən həll edirik.

Ancaq əfsuslar olsun ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bu il də öz həllini tapmamışdır. Buna səbəb Ermənistanda kriminal, qanlı diktatura rejiminin mövcudluğudur. Ermənistan sülh istəmir. Bütün səylərini ona qoyub ki, sülh danışıqları aparılmasın, yaxud da ki, imitasiya naminə aparılsın. Bu il vasitəçilər fəallıq göstərmişdilər, bunu biz qeyd etməliyik. Rusiya, Amerika, Fransa - bu ölkələrin rəhbərləri ardıcıllıqla avqust, sentyabr, oktyabr aylarında üçtərəfli görüşlər keçirmişlər. Mən bunu yüksək qiymətləndirirəm və bu ölkələrə minnətdaram. Ancaq Ermənistan bu görüşlərdə özünü səmimi aparmamışdır. Bundan əlavə, Paris görüşündən iki həftə keçməmiş işğal edilmiş torpaqlarda genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Bu təlimlərin bir məqsədi var idi - Azərbaycanı provokasiyaya çəkmək, təxribat törətmək və danışıqlar prosesinə zərbə vurmaq. Eyni hadisəni biz yay aylarında görmüşdük. O vaxt da erməni təxribatçı qrupları Azərbaycan mövqelərinə hücum çəkmişdilər. Ancaq Azərbaycan Ordusu onlara layiqli cavab vermişdir, 50-dən çox işğalçı məhv edilmişdir. Bu ilin sonlarında da buna oxşar hadisə baş vermişdir. Yenə də Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu. İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə olaraq biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var. Gələn il ordu quruculuğuna, ordumuzun inkişafına 5 milyard dollara yaxın vəsait ayrılacaq ki, bu da yoxsul, dilənçi Ermənistanın ümumi büdcəsindən iki dəfədən çoxdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. İşğalçı qüvvələr Azərbaycanın işğal edilmiş torpaqlarından çıxarılmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bu, əsas prinsiplərdir. Biz bu prinsiplər əsasında istənilən müqavilənin imzalanmasına hazırıq.

Bu il Azərbaycanda "Sənaye ili" elan edilmişdir. Bildiyiniz kimi, sənaye potensialımız gündən–günə güclənir. Azərbaycan bu istiqamətdə çox böyük uğurlara imza atmışdır və bu sahədə görülən işlər bu il də istisna olmamışdır. Beləliklə, bu il 230-dan çox yeni sənaye müəssisəsi açılmışdır və bu da həm işsizliyin aradan qaldırılmasına, həm də ixrac potensialımızın inkişafına öz müsbət təsirini göstərir. Biz özümüzü əsas ərzaq məhsulları ilə artıq təmin edirik. Eyni mənzərəni tikinti materialları bazarında da görmək istəyirik və biz bu məqsədə çatırıq. Bildiyiniz kimi, icra edilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas məqsədi də məhz bundan ibarətdir.

Azərbaycan, eyni zamanda, yüksək texnologiyalara böyük investisiyalar qoyur və bu il bu sahədə yaddaqalan il olmuşdur. Bu il Azərbaycan ikinci peykinə sahib oldu. Noyabr ayında bu peyk Azərbaycana təhvil verildi və beləliklə, bizim indi iki peykimiz var: "Azərspace" və "Azərsky". "Azərsky" peykinin xüsusiyyəti ondan ibarətdir ki, - dünyada cəmi 20 ölkə belə peyklərə malikdir, - bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir.

Korrupsiya və rüşvətxorluğa qarşı ciddi mübarizə aparılır. "ASAN xidmət" bu sahədə xüsusi yerə malikdir. Artıq 7 mərkəz yaradılmışdır, 3 milyon 500 min müraciət edilmişdir. "ASAN xidmət" ictimai xidmətlər sahəsində, korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə xüsusi rol oynayır. Bu xidmətin yaradılmasından cəmi iki il keçdiyini nəzərə alsaq, görürük ki, biz nə qədər böyük irəliləyişə nail ola bilmişik. Korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi mübarizə aparılacaq, həm cəza tədbirləri, inzibati tədbirlər və sistem xarakterli tədbirlər görüləcəkdir.

Azərbaycan dünyada multikulturalizm mərkəzi kimi tanınır. Bu il mən Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ilə əlaqədar müvafiq Sərəncam imzalamışam. Dünyada Azərbaycanın nadir rolu yüksək qiymətləndirilir. Azərbaycan sivilizasiyalararası bir körpüdür. Həm coğrafi, həm siyasi, həm bütün başqa cəhətlərdən Azərbaycan nadir bir ölkədir. Bizim təcrübəmiz öyrənilir. Əminəm ki, başqa ölkələrdə Azərbaycan təcrübəsi tətbiq olunduqda o ölkələrdə də dinlərarası, millətlərarası münasibətlər sağlam zəmində öz həllini tapacaqdır.

Bu il sentyabrın 20-də biz "Əsrin müqaviləsi"nin 20-ci ildönümünü qeyd etmişik. Simvolik haldır ki, məhz 2014-cü il sentyabrın 20-də "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur. "Cənub" qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir. Bu nəhəng transmilli layihənin icrasında Azərbaycan öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Məhz Azərbaycanın uzun illər ərzində apardığı enerji siyasəti nəticəsində, qətiyyətli siyasət nəticəsində bu böyük layihə artıq reallaşır. "Şahdəniz-2", TANAP və TAP Azərbaycan üçün nadir və əvəzolunmaz layihələrdir və uzun illər, onilliklər bundan sonra bizim milli maraqlarımızı, iqtisadi və siyasi maraqlarımızı təmin edəcək. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihədə də liderliyi öz üzərinə götürüb və bu missiyanı şərəflə yerinə yetirəcəkdir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, bu gün qüdrətli, müstəqil Azərbaycan dövləti vardır. Müstəqillik bizim üçün ən böyük xoşbəxtlikdir, ən böyük sərvətdir. Biz 23 ildir ki, müstəqilik və müstəqil siyasət aparırıq. Milli maraqlar, milli dəyərlər üzərində qurulmuş bu müstəqil siyasət bugünkü Azərbaycan reallıqlarını təmin edir. Bu gün Azərbaycan dinamik, sürətlə inkişaf edən ölkədir. Azərbaycan demokratiya, azadlıq, müstəqillik, tərəqqi, inkişaf yolu ilə uğurla gedən ölkədir. Əminəm, dünyada yaşayan bütün azərbaycanlılar fəxr edirlər ki, bu gün dünya xəritəsində Azərbaycan kimi dövlət var, öz sözünü deyir, deyəcək və bizim uğurlu inkişafımız bundan sonra da təmin ediləcəkdir.

Mən bütün azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm. Hər bir Azərbaycan ailəsinə səadət, xoşbəxtlik, yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2014-cü il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu - müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Tarixən Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri qarşılıqlı anlaşma və hörmət şəraitində, əmin-amanlıq, dostluq və qardaşlıq mühitində yaşamışlar. Təsadüfi deyil ki, Azərbaycan dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı, zəngin multikultural ənənələrə malik ölkə kimi tanınır. Bu gün milli-tarixi irsin, etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ayrı-ayrı xalqların və dinlərin nümayəndələri, o cümlədən pravoslav etiqadlı həmvətənlərimiz Azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək, ərazi bütövlüyümüzün qorunmasında, vətəndaş cəmiyyəti quruculuğunda, respublikamızın inkişafı və tərəqqisi naminə aparılan böyük quruculuq işlərində yaxından və fəal iştirak edirlər.

Özündə yeniliyi, həmrəyliyi və əmin-amanlığı təcəssüm etdirən Milad bayramı xristian icması tərəfindən hər il ölkəmizdə yüksək əhval-ruhiyyə və təntənə ilə qeyd olunur. Bu əziz gün münasibətilə bir daha hər birinizə bayram təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 yanvar 2015-ci il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASIBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və yüksək amallar naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Siz Azərbaycan qadınlarının müasir cəmiyyətimizdə tutduğunuz mövqe, bərabər hüquqlar və imkanlar üçün göstərdiyiniz səylər, həmçinin mötəbər qurumlarda təmsil olunmağınız fəxr etdiyimiz mühüm tarixi nailiyyətlərdir. Adınız ülviyyətin, zərifliyin və gözəlliyin rəmzi kimi ölkəmizdə həmişə uca tutulmuşdur. Qədim keçmişimizin hər bir səhifəsi müdrikliyinizin, fədakarlıq və qəhrəmanlığınızın parlaq nümunələri ilə zəngindir. Milli varlığımızın ifadəsi olan çoxəsrlik mədəni-mənəvi dəyərlərin, doğma ana dilinin və adət-ənənələrin bu günlərədək layiqincə yaşadılması sizin misilsiz xidmətinizdir.

Mədəniyyət salnaməmizə, ədəbi-ictimai və elmi fikir tariximizə öz istedadı və zəkasıyla yeni səhifələr yazmış maarifpərvər Azərbaycan xanımlarının yolunu siz bu gün də şərəflə davam etdirirsiniz. Nəsillərin varisliyini qoruyaraq ötən əsr boyunca sosial-mədəni fəaliyyətin genişləndirilməsi istiqamətindəki müvəffəqiyyətlərinizi müasir mərhələdə vətəndaş cəmiyyətinin təşəkkülü və əsaslarının möhkəmləndirilməsi prosesində yaxından iştirakınızla daha da zənginləşdirmisiniz. Məmnunluq hissi ilə bildirirəm ki, müstəqilliyimizin bərpasından sonrakı müddət ərzində milli dövlət quruculuğu sahəsində qazanılan uğurlarda müstəsna rolunuz vardır.

Azərbaycançılıq məfkurəsinə, milli dövlətçilik ideallarına sədaqət, vətənə məhəbbət ruhunda formalaşmış gənclik ölkəmizə ən böyük töhfənizdir. İnanıram ki, istedad və ba-

carığınızı ictimai-siyasi, sosial-iqtisadi və intellektual-mənəvi həyatımızda bundan sonra da gerçəkləşdirərək, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışacaqsınız.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 mart 2015-ci il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır. Tanrının misilsiz hikmətlə yaratdığı təbiətə sonsuz sevgi və yüksək ehtiramın parlaq təzahürü olan bu bayramda ulu babalarımızın minilliklərin sınağından çıxmış həyat fəlsəfəsi dolğun təcəssümünü tapmışdır. Odlar diyarını sivilizasiyaların qovuşuğundakı qədim mərkəz olaraq tanıdıb şöhrətləndirmiş mədəni sərvətlər xəzinəmizdə Novruz mərasimləri müstəsna mövqeyə malikdir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı Bahar bayramının dünya irsinin şah əsərləri sırasında olması hər bir azərbaycanlıya qürur verir.

Yaz bayramı özündə qoruyub saxladığı misilsiz mənəvi qüvvət sayəsində tariximizin ən çətin və mürəkkəb dövrlərində belə gələcəyə nikbin baxmağımızı təmin etmişdir. Ötən əsrin sonlarına doğru müstəqil dövlətçilik idealımıza yenidən qovuşduqdan sonra o, rəsmi milli bayram statusunu qazanmışdır. Builki Novruz bayramını Birinci Avropa Oyunları ərəfəsində qeyd edirik. Yeniləşən, müasirləşən Azərbaycan müxtəlif ölkələrdən çoxsaylı iştirakçıları Novruz günlərində xüsusən aydın ifadəsini tapan ənənələrimizə uyğun böyük qonaqpərvərliklə qəbul etməyə hazırlaşır. Ümidvaram ki, xalqımıza xas ürək açıqlığı bu Oyunları mühüm idman və mədəniyyət bayramına çevirəcək, onun insanların yaddaşlarında unudulmaz hadisə kimi həkk olunmasına xidmət göstərəcəkdir.

Novruz bayramını ölkəmizin hüdudlarından uzaqlarda bütün soydaşlarımız azərbaycançılıq məfkurəsi işığında bizimlə birgə qarşılayırlar. Bu ümumxalq bayramı qoy hər ocağa, hər ailəyə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 mart 2015-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, cansağlığı və firavanlıq arzularımı yetirirəm.

Yüksək mənəvi-əxlaqi dəyərlərin və tolerantlıq ənənələrinin qorunub saxlanıldığı Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələri yüz illərdir ki, əmin-amanlıq

şəraitində, qarşılıqlı hörmət və etimad mühitində vahid ailə kimi yaşayır, etnik-mədəni özünəməxsusluqlarını, dil və mədəniyyətlərini qoruyub saxlayırlar. Azərbaycan, tarixən olduğu kimi, bu gün də dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq burada yaşayan hər kəsin vətənidir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizin bütün milli və dini azlıqları, o cümlədən Azərbaycan cəmiyyətində özünəməxsus yeri olan pravoslav xristianlar, millətlərarası və dinlərarası münasibətlərə, vətəndaş cəmiyyəti quruculuğuna öz layiqli töhfələrini verərək, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edirlər.

Gözəl bahar günlərinə təsadüf edən Pasxa bayramı xeyirxahlığı, həmrəyliyi mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 aprel 2015-ci il***

## "İSLAM MAARİFÇİLİYİ VƏ MÜASİR DÖVR" MÖVZUSUNDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – "İslam maarifçiliyi və müasir dövr" Beynəlxalq Bakı konfransının iştirakçılarını səmimi qəlbdən salamlayır, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bu gün sürətlə qloballaşan dünyada etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya kimi zərərli təzahürlər, dinin şübhəli siyasi ambisiyalara alət edilməsi cəhdləri, təəssüf ki, acı gerçəklikdir. Buna görə də cəmiyyətdə dinin işıqlı yeri və maarifçilik rolu, beynəlxalq münasibətlər sistemində dinin birləşdirici missiyası, bəşəriyyətin gələcək taleyi naminə sivilizasiyalar və dinlərarası dialoq zərurəti getdikcə xüsusi aktuallıq kəsb edir.

Dünyanın tolerantlıq və multikulturalizm mərkəzlərindən birinə çevrilməkdə olan Azərbaycanda islam maarifçiliyi və müasir dövr kimi mühüm bir mövzu ətrafında tanınmış dini liderlərin, hökumət və dövlət rəsmilərinin, görkəmli alimlərin, din mütəxəssislərinin, nüfuzlu beyin mərkəzləri təmsilçilərinin bir araya gəlməsini son dərəcə təqdirəlayiq hal hesab edirəm. İslamın daxilindəki maarif işığını görənlər onu hamıya göstərməyi də bacarmalıdırlar. Bu baxımdan, keçirilən konfransın elmi tərəfi ilə yanaşı, həm də böyük ictimai əhəmiyyəti var.

Tarixən müxtəlif dinlərin dinc və azad şəklidə yaşayıb formalaşdığı ölkəmizdə bu gün sistemli və harmonik din siyasəti həyata keçirilir. Belə harmoniyaya nail olmağımız Azərbaycanın beynəlxalq nüfuzunu artırır və sizin mötəbər konfransınızın məhz Bakıda keçirilməsi bunu bir daha sübut edir.

Əminəm ki, bugünkü beynəlxalq toplantınızda din və cəmiyyət mövzusunda bir sıra qlobal problemlər və Azərbaycanın dövlət-din münasibətləri sahəsində nümunəvi təcrübəsi ilə bağlı ciddi müzakirələr aparılacaq, gəldiyiniz nəticələr dinlərarası əməkdaşlığın inkişafına, mütərəqqi dini maarifçiliyə, etnik-dini dözümlülük, həmrəylik və sülh işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu xeyirxah və nəcib işdə hər birinizə cansağlığı, konfransınıza uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 aprel 2015-ci il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Mübarək Ramazan bayramı münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları gözəl niyyətlər və xeyirxah əməllər naminə birliyə çağırır, onları əmin-amanlıq, qardaşlıq, mərhəmət, şəfqət və bərabərlik yoluna dəvət edir, əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir. İnsanların qəlbini və ruhunu ilahi hikmətlərlə nurlandıran bu bayram günlərində mömin vətəndaşlarımız din qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirir, mənəvi zənginliyin, əxlaqi kamilliyin sevincini yaşayırlar.

Bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar səslənir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz, saf niyyətiniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini sevimli xalqımızdan əsirgəməyəcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu müqəddəs bayramın dövlət səviyyəsində qeyd edilməsi bizim multikultural və tolerant prinsiplərə necə yüksək qiymət verməmizi nümayiş etdirir. Bu gün biz dünyaya bir daha qəlbimizdəki milli dəyərlərə sadiq olduğumuz qədər bəşəri dəyərləri də yaşatdığımızı bəyan edirik. Dini, milli rəngarəngliyimizi mənəvi bütövlüyümüzün zənginliyi kimi qəbul edirik. Elə buna görə də bu əziz gün münasibətilə hər bir vətəndaşımıza, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq və xoşbəxtlik, süfrələrinizə xeyir və bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 iyul 2015-ci il***

## XALQ ARTİSTİ AFAQ BƏŞİRQIZINA

Hörmətli Afaq xanım!

Sizi – müasir Azərbaycan mədəniyyətinin tanınmış nümayəndəsini yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Ölkəmizdə teatr və kino sənətinin inkişafında Sizin özünəməxsus xidmətləriniz vardır. Siz yaradıcılıq aləminə qədəm qoyduğunuz ilk vaxtlardan tanınıb sevilərək təkrarolunmaz ifa üslubuna malik sənətkar kimi tamaşaçıların hüsn-rəğbətini qazanmısınız. Qırx ildən artıq dövrü əhatə edən sənət fəaliyyətiniz ərzində ustalıqla yaratdığınız dolğun və rəngarəng surətlər həmişə öz incə yumoru və yüksək dramatizmi ilə seçilərək qəlblərə yol tapmışdır. Təbiiliyi və inandırıcılığı ilə seçilən bu obrazlar silsiləsi sənətin incəliklərinə necə dərindən bələd olduğunuzu nümayiş etdirir.

Milli teatrın zəngin ənənələrinə sadiq qalaraq uzunmüddətli səhnə həyatı verdiyiniz çoxsaylı rollarda ən maraqlı, komik məqamları məharətlə üzə çıxarmış və gülüşün böyük tərbiyəvi əhəmiyyət daşıdığını bir daha sübuta yetirmisiniz. Bədii filmlərdə canlandırdığınız obrazlar məhz istedadınızın gücü sayəsində Azərbaycan kinosunun yaddaşlara həkk olunmuş unudulmaz səhifələrindəndir.

Ölkəmizdə və onun hüdudlarından uzaqlarda qastrol səfərlərindəki çıxışlarınızla Siz Azərbaycan mədəniyyətini daim layiqincə təmsil etmisiniz. İnanıram ki, yaradıcılığınızdan hələ neçə-neçə sənətkar bəhrələnəcək və mədəniyyətimizin daha da çiçəklənməsi naminə töhfələr verəcəkdir.

Bu yubiley gününüzdə Sizə cansağlığı, xoşbəxtlik və yeni-yeni yaradıcılıq sevincləri arzulayıram.

Dərin hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 avqust 2015-ci il***

## XALQ ŞAİRİ FİKRƏT QOCAYA

Hörmətli Fikrət Qoca!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 80 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə cansağlığı və uğurlar arzulayıram.

Siz xalqımızın söz sənəti xəzinəsinə ötən əsrin 60-cı illərindən etibarən ənənə və novatorluğun qovuşuğunda özünüzə xas ifadə tərzi ilə dəyərli töhfələr bəxş etmiş şəxsiyyətlərdənsiniz. Mənəvi ucalığa çağırışla, lirik-fəlsəfi düşüncələrlə zənginliyi əsərlərinizi geniş oxucu kütləsinə daha çox sevdirmişdir.

Azadlıq və istiqlal ideyalarını tərənnüm edən şeir və poemalarınızın gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində böyük əhəmiyyəti vardır. Ədəbi fikir xəzinəmizdən, milli folklordan bəhrələnən yaradıcılığınız bütövlükdə ana dilimizə sevgi və ehtiramın parlaq təzahürüdür. Sözlərinizə musiqisevərlər tərəfindən həmişə rəğbətlə qarşılanmış çox sayda mahnının bəstələnməsi Sizin bədii sözün hüdudsuz imkanlarından daim ustalıqla faydalandığınızı göstərir.

Müasir ədəbi-mədəni proseslərin azərbaycançılıq məfkurəsinə uyğun istiqamətləndirilməsi işində çoxillik fəaliyyətiniz təqdirə layiqdir. Ümidvaram ki, vətəndaşlıq qayəsi ilə yoğrulan əsərləriniz hələ neçə illər bundan sonra da xalqımıza xidmət göstərəcəkdir.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 sentyabr 2015-ci il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın yəhudi icmasını yeni il bayramınız Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Ölkəmizdə yaşayan bütün xalqlar və etnik azlıqlar arasında qarşılıqlı hörmət və etimada əsaslanan dostluq münasibətlərinin, etnik-mədəni müxtəlifliyin, zəngin multikultural ənənələrin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Belə düşünülmüş siyasətin nəticəsidir ki, müasir Azərbaycan cəmiyyəti dünyada tolerantlığın, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin uğurlu örnəyi kimi qəbul edilir. Məmnuniyyətlə qeyd etmək istərdim ki, yəhudi icması ölkəmizin ictimai-siyasi və mədəni həyatında

özünəməxsus koloriti ilə seçilir və hazırda Azərbaycanda gedən böyük tərəqqi və inkişaf prosesində, vətəndaş cəmiyyəti quruculuğunda fəal mövqe nümayiş etdirir.

Əziz dostlar!

Hər il Azərbaycanda böyük təntənə ilə qeyd etdiyiniz Roş-Ha-Şana yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirir. Qoy bu əziz bayram həyatınıza sevinc və səadət, süfrənizə xeyir və bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 sentyabr 2015-ci il***

## DƏRBƏND ŞƏHƏRİNİN 2000 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ TƏDBİRİN İŞTİRAKÇILARINA

Hörmətli tədbir iştirakçıları!

Sizi, habelə qədim Dərbənd şəhərinin sakinlərini əlamətdar tarix – şəhərin əsasının qoyulmasının 2000 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm. Dərbənd şəhərinin - Böyük İpək Yolu üzərində yerləşən, həmişə sivilizasiyalararası dialoq məkanı olmuş, müxtəlif xalqların və etnik qrupların nümayəndələrinin daim səmimi bir ailə kimi yaşadığı bu iri yaşayış məntəqəsinin adına ən nüfuzlu tarixi mənbələrdə rast gəlirik.

Ən qədim dövrlərdən Qafqazın Dəmir Qapısı kimi məşhur olan Dərbənd orada yaşayan çoxsaylı millətlərin və xalqların nümayəndələrinin sevgisini qazanıb. Bu şəhəri haqlı olaraq özlərinin vətəni sayan sakinlər ona xas olan çoxəsrlik multikultural ənənələri və tolerantlığı qoruyub saxlayırlar. Bizim tarixi yaddaşımızda alınmaz qala kimi iz qoymuş Dərbənd əsrlər boyu bu şəhərə gələnlərin hamısını öz möhtəşəmliyi ilə heyran edirdi. O, özünün bənzərsiz memarlıq nümunələri, mənəvi və mədəni sərvətləri ilə bu gün də bizi heyran qoyur, Dağıstanın sosial-iqtisadi həyatında mühüm rol oynamaqda davam edir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası, Rusiya Federasiyasının Dağıstan Respublikası çox sıx iqtisadi, siyasi və mədəni əlaqə saxlayırlar. Bizim dostluğumuz çoxəsrlik tarixə malikdir. Hər iki ölkənin siyasi rəhbərliyi və vətəndaş cəmiyyəti təşkilatları həm Azərbaycanda, həm də Dağıstanda yaşayan, soy-kökləri eyni olan, eyni dinə etiqad bəsləyən, ortaq etnomədəni dəyərlərə, adət və ənənələrə malik olan xalqların qardaşcasına qarşılıqlı münasibətlərini daha da gücləndirməyə çalışırlar.

Əziz dərbəndlilər, əziz dağıstanlılar!

Dərindən əmin olduğumu bildirirəm ki, Azərbaycan ilə Rusiya və Dağıstan Respublikası arasında münasibətlər bundan sonra da əcdadlarımızın bizə vəsiyyət etdikləri dostluq və qardaşlıq ruhunda inkişaf edəcək.

Sizin hamınızı Dərbənd şəhərinin 2000 illiyi münasibətilə bir daha təbrik edirəm. Sizə sülh və firavanlıq, Dərbənd şəhərinin isə daha da çiçəklənməsini arzu edirəm.

Hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 sentyabr 2015-ci il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlıqlarının bərqərar edildiyi Azərbaycan Respublikasında Qurban bayramı hər il dövlət səviyyəsində böyük təntənə ilə qeyd olunur. Bu günlər ölkəmizin möminləri tərəfindən dini ayinlər yerinə yetirilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. İnsanlar Tanrıya yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər. Qurban mərasimləri cəmiyyətimizdə bərabərlik və dözümlülük ovqatını daha da gücləndirir, milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın, xeyirxahlıq və mərhəmət duyğularının parlaq ifadəsinə və təcəssümünə çevrilir.

Əziz bacı və qardaşlarım!

Mübarək Qurban bayramı günlərində bir daha sizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi yetirir, uca Tanrıdan xalqımızın və dövlətimizin əmin-amanlığı və rifahı naminə etdiyiniz duaların qəbul olunmasını diləyirəm. Qoy bu müqəddəs bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 sentyabr 2015-ci il***

## DÜNYA TARİXÇİLƏRİNİN VIII BEYNƏLXALQ ATATÜRK KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi qəlbdən salamlayır və növbəti toplantınızın işə başlaması münasibətilə təbrik edirəm.

Tarixçi alimlərin mötəbər məclisinin Gəncə şəhərində keçirilməsi ölkəmizin elmi və ictimai həyatında əlamətdar hadisə olmaqla yanaşı, həm də dərin rəmzi məna daşıyır. Hələ qədim və orta əsrlər dövründə iri ticarət və mədəniyyət mərkəzi kimi tanınmış, bəşər sivilizasiyasına Nizami, Məhsəti və digər görkəmli şəxsiyyətlər bəxş etmiş bu diyar bütövlükdə şərq-müsəlman intibahının əsas ocaqlarından biri sayılır.

Tarix elmi indiyə qədər böyük inkişaf yolu keçmiş, texniki nailiyyətlərin, texnoloji yeniliklərin tətbiqi sayəsində araşdırmaların kəmiyyət və keyfiyyət göstəriciləri xeyli yüksəlmişdir. Lakin bu elmin xalqlar və cəmiyyətlər qarşısındakı başlıca missiyası dəyişməz olaraq qalır: keçmişi yaşatmaqla bu günə və gələcək tərəqqiyə xidmət göstərmək. Yalnız obyektiv, qərəzsiz yazılan gerçək tarix bəşəriyyətin inkişafına dəyərli töhfə verə bilər. Gerçəkliyi üzə çıxarmağın səmərəli yollarından biri isə mütəxəssislərin iştirakı ilə keçirilən belə nüfuzlu elmi toplantılardır.

Konfransın region ölkələrinin XIX-XX əsr tarixinə həsr olunması həm də mühüm siyasi əhəmiyyətə malikdir. Belə ki, o dövrdə cərəyan etmiş proseslər xalqlarımızın taleyində dərin iz buraxmış, mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsirinin artmasına, milli şüurun formalaşmasına, dövlətçilik ənənələrinin yeni formada dirçəlməsinə şərait yaratmışdır.

Eyni zamanda tarixin bu mərhələsi böyük sarsıntılar, müstəmləkə işğalları, türk-müsəlman toplumlarına qarşı törədilən qırğınlar, deportasiya və etnik təmizləmələrlə yaddaşlarda qalmış, günümüzədək davam edən münaqişələr və digər faciəli hadisələrlə müşayiət olunmuşdur.

Həyat göstərir ki, tarixi həqiqətlərin gizlədilməsi və ya təhrif olunması, elmi araşdırmaların məhdud ideoloji çərçivələrə salınması, siyasi məqsədlərə və geosiyasi maraqlara tabe etdirilməsi acı nəticələrə gətirib çıxarır, xalqları çətin sınaqlarla üz-üzə qoyur. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş cinayətlərin yüzilliyin sonlarında yenidən və daha ağır formada təkrarlanması, Azərbaycan Respublikası ərazisinin 20 faizinin Ermənistan tərəfindən zəbt olunması, soydaşlarımızın deportasiyası, Xocalı soyqırımı kimi dəhşətli faciənin baş verməsinin əsas səbəblərindən biri də məhz tarixi hadisə və proseslərin obyektiv işıqlandırılmaması, onlara vaxtında adekvat qiymət verilməməsidir.

Təqdirəlayiq haldır ki, beynəlxalq Atatürk konfransı platformasında birləşən tarixçilər öz peşə borcuna böyük məsuliyyətlə yanaşaraq, keçmişi elmi prinsiplər əsasında araşdırmaq üçün gərgin əmək sərf edirlər. Əminəm ki, bugünkü toplantınızda dinləniləcək məruzə və çıxışlar, aparılacaq elmi müzakirələr həmin müsbət təcrübənin davamlı olduğunu bir daha təsdiqləyəcək, tariximizi daha yaxşı dərk etməyə və ondan ibrət dərsi götürməyə əlavə imkanlar yaradacaqdır.

Sizə çətin və şərəfli işinizdə yeni uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 oktyabr 2015-ci il***

## RUSİYA FEDERASİYASI KİNEMATOQRAFÇILAR İTTİFAQININ SƏDRİ N.S.MİXALKOVA

Hörmətli Nikita Sergeyeviç!

Sizi – Rusiya mədəniyyətinin görkəmli xadimlərindən birini 70 illik yubileyiniz münasibətilə təbrik edirəm, Sizə xoşbəxtlik, firavanlıq və yeni yaradıcılıq uğurları arzulayıram.

Sizin parlaq istedadınız, bugünkü və uzaq keçmişə aid hadisələrə qeyri-ordinar baxışlarınız milyonlarla pərəstişkarınızın bu qədər sevdiyi və tanıdığı bənzərsiz dəst-xəttinizi formalaşdırmağa imkan verib. Böyük rus mədəniyyəti ənənələrini qoruyub saxlamaq və artırmaq istəyi, rus xalqının tarixi zəfərlərinə görə qürur və dövlətçilik ideyasına sədaqət Sizin bütün yaradıcılığınıza nüfuz edib. Dünya kinematoqrafının inkişafına Sizin sanballı töhfəniz bir sıra prestijli mükafatlarla layiqincə qiymətləndirilib.

Sizin çoxşaxəli ictimai fəaliyyətiniz, heç şübhəsiz, postsovet məkanında humanitar əməkdaşlığın formalaşmasına böyük təsir göstərir. Ümidvaram ki, Sizin Azərbaycanın gənc kinematoqrafçıları ilə bu ilin baharında başlanmış səmərəli dialoqunuz yeni istedadlar yetişdirilməsinə və Azərbaycan-Rusiya mədəni əlaqələrinin daha da inkişaf etdirilməsinə şərait yaradacaq.

Sizə uzun ömür diləyirəm.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 oktyabr 2015-ci il***

# DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir. Ölkəmiz Avropa ilə Asiyanı, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. İlin əvvəlində təməli qoyulmuş TANAP layihəsi də daxil olmaqla, zəngin qaz ehtiyatlarımızın dünya bazarlarına nəqli sahəsində nəzərdə tutduğumuz planların gerçəkləşdirilməsi Azərbaycanın etibarlı enerji təchizatçısı kimi beynəlxalq aləmdəki rolunu daha da artıracaq, respublikamızın gələcək inkişafı və xalqımızın rifahının yüksəldilməsi yolunda yeni perspektivlər açacaqdır.

Bu il Azərbaycan böyük idman bayramına - Birinci Avropa Oyunlarına ev sahibliyi etmişdir. Qitənin 50 ölkəsinin idmançılarının iştirakı ilə keçirilən bu tədbir yüksək səviyyədə təşkil olunmuş, beynəlxalq ictimaiyyətdə dövlətimizin potensialı, xalqımızın çoxəsrlik tarixi və zəngin mədəniyyəti, qonaqpərvərliyi və tolerantlıq ənənələri barədə müsbət təəssüratlar yaratmışdır.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənmişdir. Noyabr ayında demokratik və şəffaf şəraitdə keçirilmiş növbəti parlament seçkiləri də cəmiyyətin nikbin əhval-ruhiyyəsinin, xalqımızın aparılan siyasətə dərin rəğbətinin parlaq təzahürü olmuşdur.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Hesab edirəm ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 dekabr 2015-ci il*

## PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

-Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

2015-ci il arxada qalır. 2015-ci ildə yaşadığımız regionda iqtisadi, siyasi, hərbi böhran daha da dərinləşdi, risklər artdı, təhlükələr artdı, yeni çağırışlar meydana gəldi.

Bütün bunlara baxmayaraq, Azərbaycan 2015-ci ildə uğurla inkişaf etmişdir. Bizim əsas vəzifəmiz ondan ibarət idi ki, Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edək, ölkəmizin dinamik inkişafına nail olaq. Azərbaycanda ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır və yaşayacaqdır. Eyni zamanda, 2015-ci ildə neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdür, üç dəfə aşağı düşmüşdür. Bunu ilin əvvəlində təsəvvür etmək mümkün deyildi. Ancaq bu, reallıqdır və yenə də Azərbaycanda aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində iqtisadi artım təmin edildi, Azərbaycanda qeyri-neft sektoru inkişaf etdi. Xüsusilə qeyri-neft sənayesinin 7 faizdən çox artması məni xüsusən sevindirir. Bu, onu göstərir ki, əvvəlki illərdə apardığımız siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır və neftdən asılılığımız getdikcə daha da azalacaq.

Ancaq təbii ki, bizim gəlirlərimiz kəskin şəkildə azalmışdır, milli valyutamız manat devalvasiyaya uğradı. Ancaq yenə də biz çalışırdıq, çalışırıq və çalışacağıq ki, bu vəziyyət insanların yaşayış səviyyəsinə təsir etməsin. Xüsusilə istehlak qiymətlərinin sabit saxlanması bizim əsas vəzifəmizdir.

Bu il "Kənd təsərrüfatı" ilidir. Şadam ki, kənd təsərrüfatı təxminən 7 faiz artmışdır. Bütövlükdə götürəndə bizim iqtisadi sahədə apardığımız siyasət mötəbər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə dünya miqyasında 40-cı yerdədir. Bu, böyük və tarixi nailiyyətdir. Bu, onu göstərir ki, biz düzgün siyasət aparırıq və gələcəkdə, əlbəttə, Azərbaycan xalqının maraqlarını daim təmin edəcəyik.

Azərbaycanda sosial məsələlər öz həllini tapır. Baxmayaraq ki, gəlirlərimiz kəskin şəkildə azalmışdır, bir dənə də olsun sosial proqram təxirə salınmadı. Bütün sosial layihələrimiz icra edilmişdir. Bu da siyasətimizin mahiyyətini, yəni, mənasını göstərir. Onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Biz güclü dövlət qururuq, güclü iqtisadiyyat qururuq, eyni zamanda, insanların rifahı bizim üçün həmişə prioritet məsələ olubdur və olacaqdır.

2015-ci ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Mənim xarici səfərlərim, xarici dövlət və hökumət başçılarının Azərbaycana səfərləri bunu bir daha təsdiqləyir. 2015-ci ildə rəsmi səfərlərdə və beynəlxalq tədbirlərdə iştirak etmək üçün müxtəlif ölkələrdə olmuşam, 20 xarici səfər həyata keçirmişəm və bu il Azərbaycanda 15 dövlət və hökumət başçısı rəsmi və qeyri-rəsmi səfərlərdə olmuşlar.

Eyni zamanda, bizim apardığımız xarici siyasət dünya birliyi tərəfindən yüksək qiymətləndirilir, rəğbətlə qarşılanır. Çünki biz müstəqil siyasət aparırıq. Bizim hər bir məsələ ilə bağlı prinsipial mövqeyimiz vardır. Heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Azərbaycan müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının maraqlarını müdafiə edir. Bizə qarşı olan təzyiqlər, hədə-qorxular bizim siyasətimizə zərrə qədər təsir etmir və etməyəcək. Biz heç kimdən və heç nədən qorxmuruq. Bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir və ölkəmizin beynəlxalq nüfuzunu qaldırmaqdır.

Sizi əmin edirəm ki, 2016-cı ildə də və bundan sonrakı illərdə də Azərbaycan prinsipial siyasətdən dönməyəcək, müstəqil siyasət aparacaq və bizə qarşı kampaniya aparmaq istəyənlər bunu nəzərə alsınlar. Onların səyləri əbəsdir, bizim siyasətimizə təsir etmir və heç vaxt etməyəcəkdir.

Xarici siyasətimizin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Əfsuslar olsun ki, 2015-ci ildə bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Bunun da səbəbi xalq üçün aydındır. Ermənistan sülh istəmir. Münaqişəni uzatmaq istəyirlər, vaxt udmaq istəyirlər. Danışıqlarda özlərini qeyri-səmimi aparırlar və müxtəlif bəhanələrlə çalışırlar ki, bu danışıqlar prosesi daim davam etsin.

Bizim siyasətimiz bundan ibarətdir ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçılar işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır və Azərbaycan vətəndaşları doğma torpaqlara qayıtmalıdırlar.

Münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz və dərhal çıxarılmalıdır. Bu qətnamələr münaqişənin həlli üçün əsas sənəddir və bu məsələ məhz bu çərçivədə öz həllini tapmalıdır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, bizim torpağımızda ikinci süni erməni dövləti yaransın. Dağlıq Qarabağın müstəqilliyini heç vaxt heç kim qəbul etməyəcək. Biz çalışacağıq ki, həm siyasi, diplomatik, həm iqtisadi və digər vasitələrlə ərazi bütövlüyümüzü bərpa edək. Haqq-ədalət bizim tərəfimizdədir, siyasi və iqtisadi güc bizim mövqeyimizi dəstəkləyir, gücləndirir. Əminəm ki, biz istədiyimizə nail olacağıq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir.

Buna nail olmaq üçün əlbəttə ki, diplomatik səylərlə yanaşı, güclü hərbi potensial olmalıdır və biz bunu yaradırıq. Artıq Azərbaycan xalqı da görür ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

2015-ci ildə düşmənin bütün təxribatlarına tutarlı cavab verilmişdir. Düşmənə sarsıdıcı zərbələr endirilmişdir və döyüş meydanında yaranmış vəziyyət bir daha bizim üstünlüyümüzü göstərir. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq öz prinsipial mövqeyimizdən dönməyəcəyik və lazım olarsa hərbi gücdən istifadə etmək bizim suveren hüququmuzdur.

2015-ci ildə də məcburi köçkünlərin problemləri öz həllini tapıb. Hər il minlərlə köçkün yeni evlərə, mənzillərə köçürülür. Bu siyasət gələn il də davam etdiriləcəkdir.

2015-ci ildə enerji sahəsində önəmli addımlar atılmışdır. TANAP layihəsinin icrası başlamışdır. Artıq TANAP layihəsinin həyata keçirilməsi reallıqdır. Burada Azərbaycan tərəfdaş ölkələrlə çox mühüm rol oynayır, böyük işlər aparır. TANAP layihəsinin əsas səhmdarı və əsas investoru Azərbaycandır. Bu layihə bizə imkan verəcək ki, zəngin qaz resurslarımızı bundan sonra onilliklər ərzində dünya bazarlarına çatdıraq və beləliklə, ölkəmizin siyasi və iqtisadi maraqlarını daha dolğun şəkildə təmin edək.

Bu il nəqliyyat dəhlizlərinin yaradılması ilə bağlı çox ciddi işlər aparılmışdır. Şərq-Qərb nəqliyyat dəhlizi artıq reallaşır. Çindən, Orta Asiyadan Azərbaycana, Azərbaycandan Gürcüstan, Türkiyə vasitəsilə Avropaya uzanan yeni "İpək Yolu" layihəsi reallaşır

və burada Azərbaycanın rolu kifayət qədər önəmlidir. Eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması üçün Azərbaycan konkret addımlar atır. Əminəm ki, bu layihə də uğurla reallaşacaq və beləliklə bundan sonra – bu iki mühüm layihə reallaşandan sonra Azərbaycan dünya miqyasında əvəzolunmaz tranzit ölkəsinə çevriləcəkdir. Bu, nə deməkdir, bunu izah etməyə ehtiyac yoxdur.

Bu il tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan burada da öz gücünü göstərdi. Altı mindən çox idmançı, minlərlə qonaq ölkəmizə gəlmişdir və ölkəmizin reallıqları ilə özləri tanış ola bilmişdir. Avropa Oyunları Yay Olimpiya Oyunlarının səviyyəsində keçirilmişdir. Avropa Oyunları Azərbaycan dövlətinin təntənəsidir. Eyni zamanda, Azərbaycan idmanının təntənəsidir. Çünki bizim idmançılarımız, milli komandamız 56 medal qazanaraq, - onlardan 21-i qızıl medaldır, - komanda hesabında ikinci yerə layiq görülmüşdür. Bu, doğrudan da ölkəmizin böyük zəfəridir və hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, biz bu uğura imza ata bilmişik.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin inkişafı üçün çox önəmli hadisə idi. Parlament seçkiləri şəffaf, ədalətli keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər bunu qeyd etmişlər. Azərbaycan xalqının iradəsi öz əksini tapmışdır. Parlament seçkilərinin nəticələri xalq tərəfindən bizim siyasətimizə verilən yüksək qiymətin təzahürüdür. Mən bunu belə qəbul edirəm.

Azərbaycan demokratiya yolu ilə gedir, inkişaf yolu ilə gedir və bu, bizim şüurlu seçimimizdir. Xalq-iqtidar birliyi, milli həmrəylik bu gün ən yüksək səviyyədədir.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək dünyada yaşayan bütün azərbaycanlıları salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar və Azərbaycan vətəndaşları, bütün dünya azərbaycanlıları bilirlər ki, bu gün Azərbaycan müstəqillik və inkişaf yolu ilə uğurla gedir. Bu gün müstəqil Azərbaycan güclü dövlətdir. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, dövlətimizi daha da gücləndirək, Azərbaycan xalqının daha da yaxşı həyatını təmin edək.

Mən bütün Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, hər bir Azərbaycan ailəsinə yeni uğurlar, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2015-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi, eyni zamanda, Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Bu gün dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınan Azərbaycanda tarixən dinlər əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmiş, fərqli mədəniyyətlərin təmsilçiləri olan ayrı-ayrı xalqlar və etnik icmalar ümumi Vətən sevgisi, Azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birlik və həmrəylik nümayiş etdirmişlər.

Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, multikulturalizmin dəstəklənməsi və təşviq edilməsi müasir mərhələdə həyata keçirdiyimiz dövlət siyasətinin başlıca məqsədlərindən biridir. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniy-

yətini inkişaf etdirmək üçün demokratik şərait təmin edilmişdir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz üzvləri olan xristian etiqadlı həmvətənlərimiz millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verərək ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edirlər.

Əziz dostlar!

İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan və hər il Azərbaycanda xüsusi coşqu ilə qeyd edilən Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir. Qoy bu əziz gün ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2016-cı il***

## SSRİ XALQ ARTİSTİ MURAD KAJLAYEVƏ

Hörmətli Murad Kajlayev!

Sizi – istedadlı musiqiçi və pedaqoqu 85 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı, firavanlıq və yeni yaradıcılıq uğurları arzulayıram.

Sizin bütün ailəniz ölkəmizdə elmin, təhsilin, səhiyyənin və mədəniyyətin inkişafına layiqli töhfələr vermiş Bakı ziyalıları nəslinə mənsubdur. Siz Azərbaycan Dövlət Konservatoriyasının məzunu kimi Azərbaycan musiqiçiləri ilə səmərəli əməkdaşlıq etmisiniz. Sizin ən müxtəlif janrlarda və üslublarda yazdığınız əsərlər sovet musiqi mədəniyyətinin ayrılmaz tərkib hissəsinə çevrilib. "Fərhad və Şirin", "İmam Şamil" kimi parlaq simfonik musiqi nümunələri, caz konsertləri, kinofilmlərə yazdığınız musiqi və aktiv dirijorluq fəaliyyəti Sizə haqlı olaraq şöhrət qazandırıb.

Dağıstanın müasir musiqi mədəniyyətinin təşəkkülünə yönəlmiş çoxşaxəli fəaliyyətiniz öz xalqınıza fədakarcasına xidmət nümunəsidir. Mahaçqalada Sizin rəhbərlik etdiyiniz xüsusi istedadlı uşaqlar üçün incəsənət məktəbi Qafqazın musiqi irsi ənənələrinin qorunub saxlanmasına yönəlmiş nadir bir missiyanı reallaşdırır.

Ümidvaram ki, Sizin yaradıcılığınız gələcəkdə də Azərbaycan-Rusiya mədəni əlaqələrinin daha da inkişafına şərait yaradacaq.

Ən xoş arzularla,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 yanvar 2016-cı il***

## XALQ ŞAİRİ NƏRİMAN HƏSƏNZADƏYƏ

Hörmətli Nəriman Həsənzadə!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 85 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayıram.

Ədəbiyyat aləminə gəldiyiniz ilk günlərdən Siz Azərbaycan poeziyasının çoxəsrlik ənənələrini davam etdirərək xalqımızın şeir xəzinəsinə layiqli töhfələr verən lirik şair kimi tanınmısınız. Sizin özünəməxsus üslubu və dəst-xətti ilə seçilən və klassik ədəbiyyatımızın,

folklorun zəngin imkanlarından faydalanan yaradıcılığınız dərin səmimiyyəti, xəlqiliyi və bədii-estetik kamilliyi ilə səciyyələnir. Doğma təbiətin gözəlliklərini tərənnüm edən şeirlərinizin vətənpərvərlik hisslərinin təlqin edilməsində və Vətənin yaddaşlara həkk olunan parlaq obrazının yaradılmasında xüsusi rolu vardır. Dramaturgiya və nəsr sahəsində fəaliyyətiniz tarixi mövzuları ehtiva etməklə yanaşı, cəmiyyət üçün olduqca böyük əhəmiyyətə malik insan münasibətlərini, milli-mənəvi dəyərləri və yüksək humanizmi özündə əks etdirir.

Sizin elmi-publisistik məqalələriniz də ədəbi ictimaiyyət tərəfindən daim böyük rəğbətlə qarşılanmışdır. Şeirlərinizə bəstələnən çoxsaylı nəğmələr isə şöhrətinizi artıraraq, eyni zamanda, Azərbaycanın musiqi mədəniyyətini daha da zənginləşdirmişdir. Dolğun və çoxşaxəli ədəbi-mədəni, ictimai-siyasi fəaliyyətiniz ərzində qazandığınız nailiyyətlər təqdirə layiqdir. Əminəm ki, Siz bundan sonra da yeni əsərlərinizlə sənətsevərlərə sevinc və töhfələr bəxş edəcəksiniz.

Ən xoş arzularla

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 fevral 2016-cı il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, səadət və uğurlar arzulayıram.

Azərbaycan qadınının cəmiyyətimizdə qazandığı yüksək mövqe və elmdə, təhsildə, mədəniyyətdə fəth etdiyi zirvələr bizim tarixi nailiyyətimiz, əbədi qürur mənbəyimizdir. Onun ictimai nüfuzu dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümünü vahid məfkurə ətrafında birləşmiş şəkildə qarşılamağa hazırlaşan Azərbaycanın müasir həyatının diqqətəlayiq gerçəkliyidir. Azərbaycan xanımları ülvi amallar naminə zəngin ictimai fəaliyyətləri boyunca özlərinin daxili aləmlərinin ahəngdarlığını həmişə layiqincə qoruyub saxlamış, mürəkkəb sosial-siyasi dəyişikliklərin baş verdiyi ən müxtəlif dövrlərdə cəmiyyətimizin əsl mənəvi dayağı olmuşlar.

İnsan qəlbinin gözəlliklərinin tərənnümçüsü kövrək təbiətli qadın şair və musiqiçilərimizin, xeyirxahlıq, insanpərvərlik rəmzi qadın həkim və müəllimlərimizin adları yaxın keçmişimizin hər bir səhifəsini bəzəyir. Milliliklə müasirliyin vəhdətini mənəviyyatının ayrılmaz tərkib hissəsinə çevirən Azərbaycan qadınının zərifliyi, saflığı və sədaqəti söz, sənət abidələrimizdə əhatəli bədii təcəssümünü tapmışdır. Xalqımızın onun cəmiyyət həyatında yaxından iştirakına münasibətinin nəticəsidir ki, Azərbaycanda qadın hərəkatının görkəmli xadimləri öz dərin zəkalarına, tükənməz potensiallarına güvənərək yeni tarixi şəraitdə böyük müvəffəqiyyətlər qazanmışlar.

İnanıram ki, sürətlə qloballaşan dünyada gənc nəslin çoxəsrlik tarixi-mədəni irsimizə ehtiram, vətənpərvərlik və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda yetişdirilməsi üçün siz bundan sonra da əlinizdən gələni əsirgəməyəcək, bütün gücünüzü, istedad və bacarığınızı ölkənin intellektual-mənəvi sərvətlərinin zənginləşdirilməsi yolunda səfərbər edəcəksiniz.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 mart 2016-cı il***

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhvali-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2016-cı il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Gözəl bahar günlərində qeyd olunan Pasxa bayramı insanlarda yüksək əhval-ruhiyyə və nikbinlik yaradan, şəfqət və mərhəmət hisslərini artıran, cəmiyyətdə xeyirxahlıq və həmrəylik prinsiplərinin bərqərar olmasına xidmət edən əlamətdar günlərdəndir. Bu bayram müxtəlif dini konfessiyaların əsrlər boyu qarşılıqlı etimad və əmin-amanlıq şəraitində dinc yanaşı yaşadığı Azərbaycanda geniş surətdə qeyd edilir. Xristian həmvətənlərimiz

ölkəmizdə təşəkkül tapmış etnik-dini tolerantlıq mühitində dini mərasim və ayinlərini sərbəst şəkildə həyata keçirirlər.

Azərbaycanda yaşayan xristian icmasının nümayəndələri ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni-mənəvi həyatında fəal iştirak edərək, onun hərtərəfli inkişafı işinə öz layiqli töhfələrini verir. Azərbaycan Respublikasında formalaşmış nümunəvi dövlət-din münasibətləri cəmiyyətin bütün təbəqələri kimi, xristian icmasına da öz dini-mənəvi dəyərlərindən lazımınca faydalanmaq imkanı yaradır.

Pasxa bayramı əmin-amanlığın, birlik və bərabərlik duyğularının rəmzidir. Qoy bu nurlu bayram hər birinizə xoş ovqat, ailələrinizə firavanlıq və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 aprel 2016-cı il***

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı mənəviyyatı möhkəmləndirən, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirən, hər bir şəxsin daxili kamilliyinin formalaşmasına xidmət edən aylardan biridir. Bu bayram insanları savab əməllərə dəvət edir, onları yer üzündə sülhün, əmin-amanlığın və qardaşlığın bərqərar olması naminə birgə səylər göstərməyə çağırır.

İslam dünyasının mədəni mərkəzlərindən biri kimi tanınmış Azərbaycanda dini və milli-mənəvi dəyərlərə hörmət həmişə xüsusi həssaslıqla qorunub saxlanılmışdır. Bu gün əsl tolerantlıq örnəyinə çevrilən ölkəmizdə ayrı-ayrı dinlər və təriqətlər arasında qarşılıqlı hörmətin inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

Azərbaycanda müxtəlif milli və dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il dövlət səviyyəsində təntənəli şəkildə qeyd olunur. Eyni zamanda məmnunluqla deyə bilərik ki, ölkəmizdə yaşayan bütün dinlərin nümayəndələri bəşəri hadisə olan Ramazan bayramına böyük sevgi ilə yanaşır, ölkəmizin multikultural ənənələrini ehtiramla qoruyurlar.

Əziz bacı və qardaşlarım!

İnsanlarda vəhdət və humanizm duyğularını, Allah və vətən sevgisini daha da gücləndirən Ramazan bayramı hər il olduğu kimi, bu il də bütün xalqımız tərəfindən böyük ruh yüksəkliyi və könül xoşluğu ilə qeyd edilir. Bu əziz bayram günlərində sizi və ölkəmizdən kənarda yaşayan soydaşlarımızı bir daha təbrik edir, hər birinizə firavanlıq, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Ramazan bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı, 4 iyul 2016-cı il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını, mənəvi dəyərlərə bağlılıqlarını nümayiş etdirir, Uca Tanrıya yaxınlığın fərəhini yaşayırlar.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçası kimi tarix boyu islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və multikultural mühitin yaranmasında islam dininin də müstəsna rolu olmuşdur.

Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən, Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 sentyabr 2016-cı il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının qədim milli bayramlarından olan Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Yüz illərdir ölkəmizdə məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudilər Azərbaycanda heç vaxt antisemitizmə və ayrı-seçkiliyə məruz qalmamış, tarixən xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin, etnik-dini tolerantlığın, multikultural mühitin hökm sürdüyü çoxmillətli cəmiyyətimizdə əmin-amanlıq şəraitində yaşayaraq dil və mədəniyyətlərini, milli-mənəvi adət-ənənələrini günümüzə qədər qoruyub saxlamışlar.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq insan hüquq və azadlıqlarının təminatı, o cümlədən, ölkədə sabitlik, əmin-amanlıq və vətəndaş həmrəyliyi Azərbaycanda həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Bunun üçün ölkəmizdə həqiqi demokratik və siyasi-hüquqi şərait yaradılmışdır.

Məmnuniyyət hissi ilə onu da qeyd etmək istərdim ki, yəhudi əsilli vətəndaşlarımız bu gün müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi, elmi-mədəni həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edir, dövlət müstəqilliyimizin

daha da möhkəmlənməsində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirir.

Hər il təntənə ilə keçirilən Roş-Ha-Şana yeniləşmə, xoş müjdələr, mənəvi saflıq bayramıdır. Bu əziz gün münasibətilə bir daha hamınızı səmimi qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikası Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2016-cı il***

## "TEATR VƏ MULTİKULTURALİZM" MÖVZUSUNDA KEÇİRİLƏN IV BAKI BEYNƏLXALQ TEATR KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – dünyanın müxtəlif ölkələrindən Bakıya toplaşmış görkəmli teatr peşəkarlarını səmimi qəlbdən salamlayır və konfransınızın işinə uğurlar diləyirəm. Əminəm ki, Azərbaycan xalqına xas olan qonaqpərvərlik və xalqımızın həyat tərzi olan multikulturalizm şəraitində siz müzakirəsinə toplaşdığınız bir çox məsələlərin həllinə nail olacaq və sülh, qardaşlıq çağırışı olan multikulturalizm ideyalarını teatr kimi möhtəşəm mədəniyyət amilinin köməyi ilə dünyaya yayacaqsınız.

Azərbaycan teatrının ləyaqətli tarixi var. Belə ki, XIX əsrin 2-ci yarısından başlayaraq Azərbaycanda cərəyan edən ictimai-siyasi hadisələr ölkədə maarifçilik hərəkatının inkişafına güclü təkan verir, ədəbiyyat, mədəniyyət və incəsənət sahələrində forma və məzmun dəyişiklikləri yaradır. Peşəkar Azərbaycan teatrı məhz belə bir dövrün güclü mənəvi iqlimi şəraitində yaranmışdır.

144 yaşlı peşəkar teatr mədəniyyətinin vətəni olan Azərbaycan "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində artıq dördüncü dəfədir Beynəlxalq Teatr Konfransı keçirir. Sevindirici haldır ki, builki Konfrans respublikamızda elan olunmuş "Multikulturalizm ili" tədbirləri sırasındadır və Azərbaycan multikulturalizm modelinin dünyanın teatr xadimləri arasında da tanınmasına öz töhfəsini verir.

Təqdirəlayiqdir ki, dünyanın ən ünlü teatr biliciləri və peşəkar aktyorlarının "Teatr və multikulturalizm" mövzusuna həsr olunmuş IV Bakı Beynəlxalq Teatr Konfransında bir araya gəlməsinin əsas məqsədi teatrın bu günü və gələcək inkişafının əsas istiqamətlərini müəyyənləşdirməkdən, dünya insanının multikulturalizm və tolerantlıq mühitində yaşaması naminə səyləri birləşdirməkdən ibarətdir. Bu, çox nəcib və xeyirxah əməldir. İnsanlığın dərk edilmiş xoşbəxtliyinə tuşlanmış fəaliyyətdir.

Ümid edirəm ki, dünyanın 40-a yaxın ölkəsindən teatr mütəxəssisinin qatıldığı bu Konfrans iştirakçıların hər biri üçün maraqlı və faydalı olacaq, dünya teatr prosesinin inkişafına öz dəyərli töhfəsini verəcək. Konfransa toplaşan dünyaca məşhur rejissorlar, aktyorlar, baletmeysterlər, prodüserlər, rəssamlar, jurnalist-pedaqoqlar, teatrşünaslar maraqlı fikir mübadiləsi aparacaq, ölkələr arasındakı mədəni-dostluq tellərini daha da möhkəmləndirəcəklər.

Sizi bir daha qədim mədəniyyət məkanı Azərbaycanda salamlayır, hər birinizin fəaliyyətinə və konfransın işinə uğurlar diləyirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 noyabr 2016-cı il***

## "QAFQAZDA DİNİ TOLERANTLIQ ƏNƏNƏLƏRİ VƏ AZƏRBAYCANIN MULTİKULTURALİZM MODELİ" BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi - Qafqaz Xalqları Ali Dini Şurasının beynəlxalq konfransının iştirakçılarını ürəkdən salamlayır, ən səmimi arzu və diləklərimi yetirirəm.

Bölgəmizdə tarixən müxtəlif xalqlar arasında möhkəm tolerant ənənələr, qarşılıqlı hörmət və etimada əsaslanan mehriban qonşuluq, dostluq və əməkdaşlıq mövcud olmuşdur. Belə münasibətlərin təşəkkülündə və inkişafında ümumbəşəri dəyərlərin daşıyıcısı kimi islam dini müstəsna rol oynamışdır.

Hazırda qloballaşan dünyada mürəkkəb ictimai-siyasi proseslər yaşanır, etnik-dini zəmində münaqişələr, irqi ayrı-seçkilik, dini ekstremizm və islamofobiya kimi arzuolunmaz təzahürlər müşahidə edilir. Beynəlxalq təhlükəsizliyi və insanların əmin-amanlığını təhdid edən bu cür hallara qarşı səmavi dinlərin sülh, mərhəmət, şəfqət və həmrəylik çağırışlarına, sivilizasiyalararası dialoqa və əməkdaşlığa ciddi ehtiyac vardır. Bu baxımdan dünyada örnək model kimi qəbul edilən Azərbaycan multikulturalizmi və tolerantlıq ənənələri ilə bağlı mövzuların konfransda müzakirəsi böyük elmi, ictimai və siyasi məna daşıyır.

Biz Azərbaycanda tarixi-mənəvi irsin, etnik-mədəni müxtəlifliyin, multikulturalizmin qorunub saxlanmasına və daha da inkişaf etdirilməsinə dövlət siyasəti səviyyəsində xüsusi önəm verir, dövlət-din münasibətlərinin tənzimlənməsində milli-tarixi ənənəyə və beynəlxalq hüquqi normalara əsaslanırıq. Sizlər də təmsil etdiyiniz respublikalarda eyni fəaliyyəti fədakarlıqla həyata keçirirsiniz. Ümumi və doğma evimiz olan Qafqazda davamlı sülhün, əmin-amanlığın bərqərar olmasında, bəşəri dəyərlərin, islam dininin əsl mahiyyətinin təbliği və təşviqində, yad dini cərəyanların və zərərli təsirlərin vaxtında qarşısının alınmasında Sizin kimi din xadimlərinin rolu böyükdür.

Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin ülvi məqsədlər naminə mənəvi tellərlə bir qurumda birləşməsinin günümüz üçün xüsusi əhəmiyyəti vardır. Bu işdə əməyi olan hər bir şəxsin, qurumun rəhbəri Qafqaz Müsəlmanları İdarəsi sədrinin fəaliyyətini təqdirəlayiq hesab etmək olar. Əmin olduğumu bildirirəm ki, zəruri və aktual bir mövzuya həsr olunmuş beynəlxalq toplantınız anlaşma və həmrəylik ruhunda keçəcək, xalqlarımız, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Bu nəcib işinizdə Sizə uğurlar, cansağlığı və səadət arzulayıram.

Hörmətlə,

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 dekabr 2016-cı il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bütün soydaşlarımızın mənəvi birliyinin rəmzi kimi hər il geniş qeyd olunur. Bu sevimli bayram ərəfəsində sizi ürəkdən salamlayır, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Ümummilli lider Heydər Əliyevin nəsihətlərinə əməl edən Azərbaycan dövləti başqa ölkələrdə məskunlaşmış həmvətənlərimizin taleyinə diqqətlə yanaşır, onların hüquqlarının qorunmasına, milli-mənəvi birlik ideyaları ətrafında təşkilatlanması məsələsinə xüsusi əhəmiyyət verir. Təqdirəlayiq haldır ki, xarici ölkələrdə yaşayan soydaşlarımız da Azərbaycan Respublikası ilə əlaqələrini gücləndirir, doğma Vətənə məhəbbət və sədaqət nümayiş etdirirlər. 2016-cı ilin iyununda Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı xaricdə yaşayan həmvətənlərimiz arasında birliyin daha da möhkəmləndirilməsi, diaspor təşkilatlarının fəaliyyətinin genişləndirilməsi yolunda mühüm hadisə oldu. Şübhə yoxdur ki, soydaşlarımız qurultayın qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi istiqamətində əzmlə çalışacaq, öz qüvvə və bacarıqlarını əsirgəməyəcəklər.

Qürur hissi ilə qeyd edirəm ki, bu ilin oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beş ili tamam olmuşdur. Ötən dövr ərzində yaradılmış iqtisadi potensial, nail olduğumuz sosial tərəqqi və ictimai-siyasi sabitlik dünyada hələ də davam edən qlobal maliyyə-iqtisadi böhranın təsirlərini azaltmağa, ölkəmizi risklərdən qorumağa imkan verir.

Cəmiyyətimizin inkişaf səviyyəsini bu il sentyabrın 26-da keçirilmiş Konstitusiyaya dəyişikliklərlə bağlı referendum bir daha bariz şəkildə göstərdi. Azərbaycan vətəndaşları yüksək siyasi yetkinlik nümayiş etdirərək, dövlətimizin möhkəmlənməsinə, insan hüquq və azadlıqlarının qorunmasına yeni imkanlar açan həmin dəyişikliklərə səs verdilər.

İnanıram ki, bütün soydaşlarımızın əlbir fəaliyyəti, doğma Azərbaycan torpağına sarsılmaz sədaqəti gücümüzü daha da artıracaq, inkişafımıza əngəl törədən yeganə ağrılı problemi – Ermənistanın hərbi təcavüzünü tezliklə aradan qaldırmağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə imkan yaradacaq. Bu ilin aprel ayında Ermənistanın hərbi təxribatı nəticəsində cəbhədə baş vermiş hadisələr zamanı Azərbaycan Silahlı Qüvvələri düşmənin məkrli niyyətlərinin qarşısını qətiyyətlə aldı və torpaqlarımızı istənilən an işğaldan azad etməyə hazır olduğunu sübut etdi.

Azərbaycanın haqlı mövqeyi getdikcə beynəlxalq ictimaiyyətin daha çox dəstəyini qazanır. Ölkəmizin mədəniyyətlərarası dialoqun təşviqinə və qlobal humanitar problemlərin həllinə verdiyi töhfələr, multikultural dəyərlərə hörməti və tolerantlıq ənənələri xalqımıza dünyada dərin rəğbət oyatmışdır.

Hazırda Azərbaycan Respublikası öz inkişafının çox məsuliyyətli bir dövrünə qədəm qoymuşdur. Biz Vətənimizin çiçəklənməsi, qüdrətinin artırılması və suverenliyinin möhkəmləndirilməsi məqsədilə qarşımıza böyük vəzifələr qoymuşuq. Həmin vəzifələrin həlli üçün bütün həmvətənlərimiz, o cümlədən xaricdə yaşayan soydaşlarımız sıx birləşməli, harada yaşamalarından asılı olmayaraq, milli maraqlarımızı qətiyyətlə qorumalı, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmalıdırlar.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə səadət, firavanlıq və bütün işlərinizdə uğurlar diləyirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 dekabr 2016-cı il***

## ÜMUMRUSİYA AZƏRBAYCANLILARI KONQRESİNİN IV QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz dostlar!

Sizi Ümumrusiya Azərbaycanlıları Konqresinin növbəti IV Qurultayının işə başlaması münasibətilə səmimi qəlbdən təbrik edir, ali toplantınıza uğurlar arzulayıram.

Uzun tarixi dövr ərzində Rusiya ilə siyasi-iqtisadi və humanitar sahələrdə təşəkkül tapmış dostluq əlaqələri bu ölkədə çoxsaylı Azərbaycan diasporunun formalaşmasını şərtləndirən əsas amillərdən olmuşdur. Hazırda Ümumrusiya Azərbaycanlıları Konqresi dünya azərbaycanlılarının diaspor təşkilatları sırasında xüsusi yer tutur. 15 il əvvəl ümummilli lider Heydər Əliyevin və Rusiya Federasiyasının Prezidenti cənab Vladimir Putinin xeyir-duası ilə təsis edilmiş bu qurum təşkilati səviyyəsinə və əhatə dairəsinə görə Azərbaycan diaspor hərəkatının avanqardı sayıla bilər. Konqres ötən illər ərzində Rusiyadakı soydaşlarımızın mənəvi əlaqələrinin genişləndirilməsi, yaşadıqları regionların ictimai-siyasi və mədəni həyatında fəal iştirakının təmin edilməsi, Rusiya ilə Azərbaycan arasında mövcud olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi və digər sahələrdə səmərəli fəaliyyət göstərmişdir.

Diaspor quruculuğu məsələsinə daim böyük önəm verən Azərbaycan dövləti Rusiya Federasiyasında məskunlaşmış azərbaycanlı icmalarının pozitiv, yaradıcı və əhəmiyyətli sosial fəaliyyətini yüksək dəyərləndirir. Hesab edirəm ki, hər bir azərbaycanlı, ilk növbədə, yaşadığı ölkənin layiqli vətəndaşı olmalı, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak etməli, onun inkişafına öz dəyərli töhfəsini verməlidir. Məhz belə insanların daxil olduğu diaspor təşkilatları soydaşlarımızı sıx birləşdirə, xalqımızı ləyaqətlə təmsil edə və qarşılıqlı əlaqələrin möhkəmlənməsinə daha faydalı xidmət göstərə bilər.

2016-cı ildə Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının IV Qurultayı və VII Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan diasporunun Rusiya Federasiyasında gördüyü işlərə qiymət verildi, əldə edilmiş nailiyyətlər, qazanılmış təcrübə, müasir dövrün tələb və çağırışları nəzərə alınmaqla yeni vəzifələr müəyyən edildi. Əminəm ki, Ümumrusiya Azərbaycanlıları Konqresinin bugünkü ali toplantısı da işgüzar şəraitdə və konstruktiv ruhda keçəcək, irəli sürülən ideyalar və qəbul edilən qərarlar qurumun işini keyfiyyətcə daha yüksək mərhələyə qaldırmağa, azərbaycanlıların dost Rusiyanın çoxmillətli cəmiyyətinə sıx inteqrasiyasına, iki ölkə arasında strateji əməkdaşlığın inkişafına əlavə imkanlar açacaqdır.

Qurultay iştirakçılarına bu yolda əzmkarlıq, rəhbər orqanlara seçiləcək yeni heyətə ardıcıl, məqsədyönlü və uğurlu fəaliyyət arzulayıram. Fürsətdən istifadə edərək, hamınızı 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi qəlbdən təbrik edirəm.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 dekabr 2016-cı il***

# PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

-Əziz həmvətənlər.

2016-cı il tarixdə qalır. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında üç-dörd dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmişdir, iqtisadi sabitlik təmin edilmişdir və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artmışdır. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəyyən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilmişdir. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınmışdır. Əhalinin pul gəlirləri, - baxmayaraq ki, 2016-cı il böhranlı ildir, - 7 faiz artmışdır, orta əməkhaqqı isə 9 faiz artmışdır.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq Azərbaycan 2016-cı ildə də inamla inkişaf etmişdir. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Fü-

zuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olmuşdur. Rio Olimpiya Oyunlarında idmançılarımız tarixi qələbə qazanmışdır. 18 medal qazanaraq Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman dövlətidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu, bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd edirdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etmişlər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində önəmli addımlar atılmışdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. "Cənub Qaz Dəhlizi" Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, "Cənub" Qaz Dəhlizini qidalandıracaq layihələr arasında təkcə "Şahdəniz" layihəsi deyil, eyni zamanda, "Abşeron" qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam edən Şərq-Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal-Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atmışdır. Demək olar ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq görülübdür. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün exit-pollar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmişdir, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan bir daha dünyaya sübut etmişdir ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən bütün dünya azərbaycanlılarını səmimi qəlbdən salamlayıram, onlara ən xoş arzularımı çat-

dırıram. Onlar bilirlər və bilməlidirlər ki, onların arxasında möhkəm, güclü Azərbaycan dövləti dayanır.

Əziz bacılar və qardaşlar, mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

*31 dekabr 2016-cı il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi, Azərbaycanın xristian icmasını İsa Peyğəmbərin mübarək mövludu - Milad bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən xoş arzu və diləklərimi yetirirəm.

Xristianlıq Azərbaycanda çox qədim tarixə malikdir. Təsadüfi deyil ki, Qafqazda ilk xristian məbədləri məhz bizim ölkəmizdə təşəkkül tapmışdır. Səmavi dinlər burada əsrlər boyu dinc yanaşı fəaliyyət göstərərək, insanlar arasında əmin-amanlığın, dostluq və qardaşlıq münasibətlərinin yaranmasında misilsiz tarixi rol oynamışdır. Azərbaycanda məskunlaşmış xalqlar və etnoslar arasında heç vaxt milli-irqi ayrı-seçkilik, etnik-dini dözümsüzlük halları mövcud olmamışdır.

Müstəqil Azərbaycan Respublikası bu gün də öz tolerantlıq və multikulturalizm ənənələrinə sadiqdir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları beynəlxalq prinsiplərə əsaslanan hüquq və azadlıqlara, o cümlədən, vicdan və dini etiqad azadlığına malikdir. Ölkəmizdə yaşayan bütün etnik azlıqlara öz dini-mənəvi dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün bərabər demokratik şərait yaradılmışdır.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxkonfessiyalı və çoxmillətli Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan xristian icması həmişə olduğu kimi, bu gün də, sabah da ölkəmizin tərəqqisi və inkişafı naminə öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirəcək.

Əziz dostlar!

Şəfqət və mərhəmət duyğularının, təmiz və nəcib idealların rəmzi olan müqəddəs Milad bayramı münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 yanvar 2017-ci il***

## AVROPA AZƏRBAYCANLILARI KONQRESİNİN V QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay nümayəndələri!

Əziz dostlar!

Sizi Avropa Azərbaycanlıları Konqresinin növbəti ali toplantısının işə başlaması münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Təqdirəlayiq haldır ki, 2004-cü ildə təsis olunmuş Konqres Avropa ölkələrində məskunlaşan soydaşlarımızın təşkilatlanması və diaspor qurumlarının fəaliyyətinin əlaqələn-

dirilməsi istiqamətində ardıcıl iş aparmış, qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsində uğurlar qazanmışdır.

Müstəqillik illərində Azərbaycanın Avropa dövlətləri ilə siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq münasibətləri formalaşmışdır. Ölkəmizin əlverişli coğrafi mövqeyi, təbii ehtiyatları, xalqımızın zəngin mədəniyyəti qitə dövlətləri ilə hərtərəfli əlaqələrin inkişafında əhəmiyyətli yer tutur. "XXI əsrin müqaviləsi" adlandırılan "Cənub Qaz Dəhlizi" və Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəhəng transmilli layihələrin təşəbbüskarı və əsas icraçılarından biri olan Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat infrastrukturunun yaradılmasında müstəsna rol oynayır. Ölkəmiz həm də mədəniyyətlərarası dialoqun, multikulturalizm və tolerantlığın təşviqinə, qlobal humanitar problemlərin həllinə sanballı töhfələr verir, müasir Avropa mədəniyyətinə və dəyərlər sisteminə yeni çalarlar qatır.

Hazırda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həllinə nail olmaq qarşımızda duran ən mühüm ümummilli vəzifədir. Bu günlərdə biz erməni işğalçılarının törətdiyi Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı faciə qurbanlarının xatirəsini bir daha dərin hörmətlə yad edirik. Vaxtilə bu qanlı aksiyanı həyata keçirənlər Azərbaycan xalqını sarsıtmaq və mübarizədən çəkindirmək məqsədi güdürdülər. Lakin əminliklə demək olar ki, düşmən öz istəyinə nail ola bilmədi. Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xalqımız öz qəddini düzəltdi, daxili potensialına güvənərək güclü və müasir dövlət qurdu. Ötən ilin aprelində Ermənistanın cəbhə xəttindəki təxribatlarına ordumuzun layiqli cavab verməsi və torpaqlarımızın bir hissəsinin azad edilməsi əyani şəkildə göstərdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir.

Lakin müasir dövrdə qələbələr tək hərb yolu ilə deyil, həm də siyasi-intellektual vasitələrlə təmin edilir. Bu sahədə malik olduğumuz vacib resurslardan biri də xarici ölkələrdə yaşayan həmvətənlərimiz və onların yaratdıqları təşkilatlardır. Ona görə də Azərbaycan diasporu, o cümlədən Avropadakı icmalar öz fəaliyyətini daha da genişləndirməli, işlərin koordinasiyasını və dost ölkələrin analoji təşkilatları ilə əlaqələrini gücləndirməlidirlər. Diaspor nümayəndələri ölkəmizlə bağlı məlumatların, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin Avropa ictimaiyyətinə daha çevik və dolğun çatdırılması, mədəniyyətimizin təbliği və başqa istiqamətlərdə yeni metod və vasitələrdən səmərəli istifadə etməlidirlər. Əminəm ki, Avropa Azərbaycanlıları Konqresinin bu ali toplantısı yüksək işgüzarlıq şəraitində keçəcək, irəli sürülən təkliflər və qəbul edilən qərarlar qurumun işini keyfiyyətcə daha yüksək mərhələyə qaldırmağa xidmət edəcəkdir.

Qurultay iştirakçılarına bu yolda nailiyyətlər, Konqresin yeni seçiləcək rəhbər heyətinə ardıcıl və məhsuldar fəaliyyət arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 fevral 2017-ci il***

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİ İLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Dərin hörmət və ehtiramla,

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 mart 2017-ci il*

## "İSLAM HƏMRƏYLİYİ – ZAMANIN ÇAĞIRIŞI" BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi - "İslam həmrəyliyi – zamanın çağırışı" mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayır, ən xoş arzu və diləklərimi yetirirəm.

Avropa ilə Asiyanın qovuşuğunda yerləşən qədim Azərbaycan torpağında müxtəlif dinlərə, ayrı-ayrı mədəniyyətlərə mənsub insanlar tarix boyu əmin-amanlıq şəraitində yaşamışdır. Azərbaycan xalqı bu gün də özünün dərin tarixi köklərə malik zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, islamdaxili və konfessiyalararası həmrəyliyə öz töhfələrini verir. Buna görə də zamanın çağırışlarına səs verən İslam həmrəyliyinə həsr olunmuş konfransın keçirilmə məkanının dəqiq seçilməsi şübhəsizdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, 2016-cı il ölkəmizdə "Multikulturalizm İli" elan olunduqdan sonra xalqımız öz tarixi mənəvi ənənələrinə sadiqliyini böyük coşqunluqla bir daha nümayiş etdirdi. Bu münasibətlə Azərbaycanda və xaricdə bir sıra əhəmiyyətli və faydalı tədbirlər keçirildi. Dünyada multikulturalizmin Azərbaycan mode-

linə xüsusi maraq və diqqət yarandı. Bütün bunlar ona gətirdi ki, ötən ilin məntiqi davamı olaraq 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildi.

Müasir dünyamızda İslam həmrəyliyinin vacibliyi ilk olaraq İslam daxilindəki həmahəngliyin bərqərar edilməsində özünü göstərir. Bu, müxtəlif məzhəblər arasında dini anlaşılmazlıqların elmi müstəvidə aradan qaldırılması, bütün İslam ölkələri arasında qarşılıqlı hörmət və etibara əsaslanan münasibətlərin qurulmasıdır. Bununla yanaşı, İslam həmrəyliyi dedikdə, həmçinin İslam ilə digər dinlər arasında harmoniyanın yaranması da nəzərdə tutulur. Buna nail olmaq, əslində, dünya dinləri arasında ahəngdar və bir-birinə inamlı münasibətin daha da möhkəmlənməsinə, İslam ölkələri ilə digər ölkələr arasında bəşəri dəyərlərə əsaslanan xoş münasibətlərin inkişafına nail olmaq deməkdir. Bunun üçün çox işlər görmək, real addımlar atmaq lazımdır. Sizin konfransınız Azərbaycanda İslam həmrəyliyi ilə əlaqədar bu istiqamətdə görüləcək işlərin artıq başlanmasına ciddi bir işarədir. Bu gün İslama və digər konfessiyalara mənsub görkəmli alimlərin və din xadimlərinin dinlərarası mühüm aktual məsələləri belə yüksək səviyyədə müzakirə etmələri özünün müstəsna elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları, eyni zamanda, dünya dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xidmət etməlidir. Ümidvaram ki, konfrans nəinki İslam aləmində, bütün dünyada həmrəylik və dostluğun daha da möhkəmlənməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu nəcib fəaliyyətinizdə bir olan uca Allahdan Sizə könül xoşluğu, cansağlığı və konfransınızın işinə uğurlar arzulayıram.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 mart 2017-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və xoş əhval-ruhiyyə arzulayıram.

Novruz bayramı ulu babalarımızın zəngin mənəvi aləmini dolğun təcəssüm etdirir. Ən qədim təsəvvürləri qoruyub saxlamış bu bayram təbiətlə insanın sarsılmaz vəhdətinə dərin ehtiramın ifadəsidir. Odlar diyarına onun hər gəlişi min illərin ənənəsinə uyğun, rəngarəng mərasimlər və el şənlikləri ilə müşayiət olunmuşdur. Milli özünüdərkin təşəkkülündə müstəsna mövqeyə malik Novruz ənənələri çoxəsrlik tarixi keçmişinə daim ehtiramla yanaşan xalqımızın dünya mədəniyyətinə misilsiz töhfələrindəndir. Həmin ənənələrin müqəddəs ərməğan kimi həmişə uca tutulması və layiqincə yaşadılaraq gələcək nəsillərə çatdırılması hər bir azərbaycanlının vətəndaşlıq borcudur.

Bahar bayramı dövlət müstəqilliyimizin nailiyyəti olaraq rəsmi statuslu əsl ümumxalq bayramı səviyyəsində ölkəmizin bütün guşələrində qeyd edilir. Qloballaşma dalğasının geniş vüsət aldığı və dünyanı sürətli dəyişikliklərə məruz qoyduğu bir vaxtda o, tükənməz mənəvi gücü sayəsində dini-mənəvi dəyərlərimizə, tarixi-mədəni irsimizə bağlılığımızın təntənəsinə çevrilmişdir. Yaz bayramı yeniləşdirici ruhu və ılıq nəfəsiylə insanlar arasında səmimi münasibətlərə yol açır, dostluq, mərhəmət və bərabərlik duyğularını gücləndirir, cəmiyyətin inkişafının ahəngdarlığını təmin edir. Onda gələcəyə inam aşılamaq və könüllərdə ülvi duyğular oyandırıb xeyirxahlığa sövq etmək qüdrəti vardır. Ən yüksək dəyərləri

özündə topladığı üçün də belə bir mənəviyyat xəzinəsi bəşəriyyətin mədəni irs nümunələri siyahısında yer almışdır.

Mən torpaqlarımızın müdafiəsində mətinliklə dayanan Azərbaycan əsgərinə bayram təbriklərimi yetirirəm. Vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda şəhid olmuş qəhrəman övladların unudulmaz xatirəsini bir daha ehtiramla yad edərək onlara Allahdan rəhmət, yaxınlarına səbir diləyirəm.

Dünya azərbaycanlılarının həmrəyliyinin rəmzi Novruz bayramını xaricdə yaşayan soydaşlarımızın milli məfkurə işığında bizimlə birgə qeyd etmələri onlarda yurdumuza bağlılıq hisslərini gücləndirir.

Arzu edirəm ki, öz gəlişiylə bu gözəl bayram hər evə, hər ocağa bol ruzi-bərəkət gətirsin və hamınıza yeni sevinclər bəxş eləsin.

Xalqımızın əziz Novruz bayramı mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 mart 2017-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram!

Yüz illər boyu Azərbaycanda yaşayan müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətləri mövcud olmuş, ayrı-ayrı dinlər və etiqadlar qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişdir. Bu gün ölkəmiz dünyada nümunəvi tolerantlıq və multikulturalizm məkanı kimi tanınır. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikultural ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik.

Təsadüfi deyildir ki, bütün bəşəriyyət üçün xüsusi aktuallıq kəsb edən sivilizasiyalararası və dinlərarası dialoq problemlərinə həsr edilmiş mötəbər beynəlxalq tədbirlərin son illər bizim ölkəmizdə keçirilməsi artıq ənənə halını almışdır. Müasir mərhələdə milli azlıqların dil və mədəniyyətinin inkişafı, etnik-dini müxtəlifliyin, tarixi-mənəvi irsin qorunub saxlanması Azərbaycan dövlətinin xüsusi diqqət və qayğı ilə yanaşdığı məsələlərdəndir və biz bu sahədə səylərimizi gələcəkdə də davam etdirəcəyik.

Azərbaycan tarixən olduğu kimi, bu gün də dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, burada yaşayan hər kəs üçün doğma vətəndir. Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

Yeniliyin, əmin-amanlığın, həmrəylik və mərhəmət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu əziz gündə sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 aprel 2017-ci il*

## RAMAZAN BAYRAMI MÜNASIBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanların qəlbini və təfəkkürünü nurlandıran, onları əmin-amanlığa, vəhdətə, əxlaqi saflığa dəvət edən mübarək aylardandır. Müsəlmanlar bu ayda Allah və din qarşısında borclarını yerinə yetirmək fürsəti əldə edir, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının fərəhini, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Xalqımız həmişə milli-mənəvi dəyərlərə sadiqliyi ilə seçilmişdir. İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən biri olan Azərbaycanda milli-dini mərasimlər, o cümlədən, Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur. Mübarək Ramazan günlərində xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı dərgahında qəbul olunmasını arzu edirəm.

Bu il Ramazan ayı ölkəmizin həyatında bir sıra əlamətdar hadisələrlə eyni vaxta təsadüf etmişdir. 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi, IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, eyni zamanda, etnik-dini dözümlülük, dinlərarası həmrəylik və əməkdaşlıq məkanı olan ölkəmizin sivilizasiyalararası dialoq forumları kimi mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi hazırkı narahat dünyamızda Azərbaycan dövlətinin sülh və təhlükəsizlik işinə verdiyi dəyərli töhfələrdir. Biz bəşəriyyətin gələcəyini hədəf alan hər cür qlobal təhdid və təhlükələrə qarşı ardıcıl mübarizəmizi, dialoq və həmrəylik təşəbbüslərimizi bundan sonra da davam etdirəcəyik.

Əziz bacı və qardaşlarım!

Hər il Azərbaycanda böyük fərəh və könül xoşluğu ilə keçirilən orucluq mərasimləri cəmiyyətimizdə birlik və həmrəyliyin, dostluq və qardaşlıq münasibətlərinin təntənəsinə çevrilir. Bu əziz bayram günlərində bir daha hər birinizi, eyni zamanda, ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram!

Ramazan bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 iyun 2017-ci il***

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və

milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 avqust 2017-ci il***

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan bu gün multikultural ənənələrin qorunub saxlanıldığı, ayrı-ayrı dinlər və mədəniyyətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin mövcud olduğu nadir məkanlardandır.

Tarixən Azərbaycanda məskunlaşıb yaşayan yəhudi icmasının cəmiyyətimizdə özünəməxsus yeri vardır. Əlamətdar haldır ki, yəhudi vətəndaşlarımız ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fəal vətəndaş mövqeyi nümayiş etdirirlər.

Əziz dostlar!

Roş-Ha-Şana özündə yeniliyi, mənəvi saflığı və həmrəyliyi təcəssüm etdirən bir bayramdır. Yəhudi xalqının bu əziz günü qoy hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 sentyabr 2017-ci il***

## AZƏRBAYCAN MEMARLARININ XIX QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan memarlarının XIX qurultayının öz işinə başlaması münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan memarlığı xalqımızın mədəniyyət salnaməsini bəzəyən və qədim Şərq memarlığının mühüm nailiyyətlərini özündə əks etdirən möhtəşəm abidələrlə zəngindir. Ənənəvi memarlığın başlıca prinsiplərinə sadiq istedadlı sənətkarlarımız bu əsərləri yaradarkən təbiətlə ahəngdarlığın qorunmasını həmişə diqqətdə saxlamışlar.

Milli sərvətimiz İçərişəhər ölkəmizin ərazisində yüzillər bundan əvvəlki şəhərsalma sənətinin parlaq təzahürüdür. Burada ucaldılmış və müasirlik ruhunu indiyədək qoruyub saxlamış Qız qalası doğma Bakının qədim rəmzlərindəndir. Orta əsr şəhər mədəniyyətini təcəssüm etdirən Şirvanşahlar sarayı kompleksi mühəndis-memarlıq həllinin kamilliyinə görə bu gün də heyranlıq doğurur. Fəxr edirik ki, dünya memarlığı xəzinəsində memarlıq sənətimizin qiymətli nümunələri vardır.

Bizim memarlıq irsimiz öz tarixinin bütün mərhələlərində ardıcıl uğurlu yaradıcılıq axtarışlarının nəticəsi olaraq və milli memarlıq baxımından düzgün həllini tapmış sənət inciləri ilə davamlı surətdə zənginləşmişdir. Qədimliklə müasirliyi özündə birləşdirən Bakıda Avropa və Şərq memarlığının sintezi əsasında ucaldılmış yaraşıqlı binalar sırasına daimi yeniləşmə rəmzi kimi modern üslublu nadir memarlıq abidələrinin əlavə edilməsi təkrarsız görkəmə malik paytaxtımızın panoramını daha da dolğunlaşdırır.

Müstəqillik illərindəki çoxsaylı möhtəşəm tikililər sayəsində regionlarımızın memarlıq mənzərəsi dəyişərək yeni şəkil almışdır. Memarlarımız böyük quruculuq yolunda inamla irəliləyən Azərbaycanın inkişafına töhfələr vermiş, şəhər və qəsəbələrimizin mənzərəsini ildən-ilə daha da gözəlləşdirən, küçə və meydanlarımızı bəzəyən dəyərli əsərlər meydana gətirmişlər. Onlar bu gün də yeni yaradıcılıq uğurları ilə yanaşı, tarixi-mədəni irsimizin bərpası və gələcək nəsillər üçün qorunub saxlanılmasında bilik, qüvvə və bacarıqlarını əsirgəmirlər.

İnanıram ki, qurultayınızda şəhərlərimizin memarlıq görkəminin milli özünəməxsusluğu, tariximizə və mədəniyyətimizə uyğunluğu barədə səmərəli fikir mübadiləsi və müzakirələr aparılacaq, ölkə memarlığının gələcək inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunacaqdır.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 dekabr 2017-ci il***

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi

daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2017-ci il***

## PREZİDENT İLHAM ƏLİYEVİN DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİKİ

- Əziz həmvətənlər.

2017-ci il arxada qalır. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edildi, Azərbaycanda sabitlik təmin edildi. Sabitliyin mənbəyi xalq-iqtidar birliyidir. Dünyada gedən xoşagəlməz proseslər, qanlı toqquşmalar, müharibələr, münaqişələr göstərir ki, sabitlik olmayan yerdə inkişafdan söhbət gedə bilməz. Azərbaycan xalqı 2017-ci ildə sabitlik şəraitində yaşamışdır.

Bizim beynəlxalq əlaqələrimiz bu il daha da genişləndi. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artır. Azərbaycan dünyada özünü ləyaqətli və etibarlı tərəfdaş kimi göstərir. Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək pilləyə qalxmışdır. Bu əlaqələr hər bir ölkə üçün çox önəmlidir, bizim üçün də. Bütün qonşularımızla qarşılıqlı hörmət əsasında dostluq əlaqələrimiz regional sabitliyə müsbət təsir göstərir.

Azərbaycan bu il İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal iştirak edib və İslam həmrəyliyinin inkişafına, güclənməsinə öz dəyərli töhfəsini vermişdir. Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur və bu il ərzində həm ölkə daxilində, həm xaricdə bir çox önəmli tədbirlər keçirilmişdir. Eyni zamanda, bu il Avropa İttifaqı ilə əlaqələrimiz yeni pilləyə qalxıb, yeni saziş üzərində danışıqlar başlamışdır. Bildiyiniz kimi, keçən il Azərbaycanda "Multikulturalizm İli" elan olunmuşdur. Azərbaycan dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafında öz dəyərli rolunu oynayır və hesab edirəm ki, dünya miqyasında bu sahədə mərkəzlərdən birinə çevrilmişdir.

Mən bu il 20-dən çox xarici səfər etmişəm. Bu səfərlər çərçivəsində Azərbaycanın milli maraqlarını müdafiə etmişəm. Deyə bilərəm ki, xarici tərəfdaşlarla əlaqələrimiz bir daha göstərir ki, Azərbaycanın dünya miqyasında çox müsbət imici və reputasiyası vardır.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir. Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmləndi. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma "referendum" dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də ki bütün başqa ölkələr bu qondarma "referendum"u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli tarixi torpaqlarımızdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilibdir və uzun illərdir ki, bu torpaqlar işğal altındadır.

Hesab edirəm, ikinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqeyimizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq.

Aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır. Bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıtdı. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə salandan sonra onlar öz doğma torpağına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin – vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib.

Qeyd etməliyəm ki, bu il məcburi köçkünlərin problemlərinin həlli işində digər çox önəmli və deyə bilərəm ki, tarixi hadisə baş vermişdir. Vaxtilə işğal altında olan Şıxarx qəsəbəsində 1170 ailə üçün tikilmiş şəhərcik açılmışdır. Bu önəmli hadisə bir tərəfdən onu

göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları salınır və minlərlə köçkün bu torpaqlara qayıdır.

Bizim hərbi potensialımız bu il də diqqət mərkəzində olmuşdur. Ordumuz üçün nə lazımdırsa onu da biz həll etdik. Bu gün bütün beynəlxalq reytinqlər göstərir ki, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bunu bilir və bilməlidir. Bundan sonra da ordu quruculuğu üçün bütün lazımi tədbirlər görüləcək, yeni texnika, silahlar, ən müasir döyüş vasitələri alınır və alınacaqdır.

Əlbəttə ki, qarşımızda duran bütün vəzifələri icra etmək üçün güclü iqtisadiyyat lazımdır. Biz bu istiqamətdə də bu il çox fəal işləmişik. 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi islahatlar ili kimi qalacaqdır. Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, Azərbaycan apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına, ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir.

Bu il iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı isə 4 faizdən çox artmışdır. Hesab edirəm ki, indiki şərait üçün bu, çox yaxşı nəticədir. Əminəm ki, 2018-ci ildə rəqəmlər daha da böyük olacaq. Eyni zamanda, biz öz valyuta ehtiyatlarımızdan da çox səmərəli şəkildə istifadə etdik. Baxmayaraq ki, neftin qiyməti aşağı düşüb, biz valyuta ehtiyatlarımızı artıra bilmişik, özü də böyük dərəcədə. Valyuta ehtiyatlarımız 4,5 milyard dollardan çox artmışdır. Bu da bizim strateji ehtiyatımızdır, bizə həm iqtisadi, həm də siyasi müstəqillik verən və onu gücləndirən amillərdən biridir.

Azərbaycanın regionları bu il sürətlə inkişaf etmişdir. Mən bu il regionlara 30-dan çox səfər etmişəm. Hər yerdə quruculuq-abadlıq işləri göz oxşayır.

Bu il neft-qaz sektorunda tarixi hadisələr baş vermişdir. "Azəri-Çıraq-Günəşli" neft yatağının istismar müddətinin uzadılması məsələsi həll olundu. Bu kontrakt 2050-ci ilə qədər qüvvədə olacaq və ölkəmizə milyardlarla dollar gəlir gətirəcək. Sadəcə olaraq, Azərbaycana verilən bonus 3 milyard dollardan çoxdur. Cənub Qaz Dəhlizinin icrası demək olar ki, son mərhələyə qədəm qoyub. Gələn il TANAP layihəsinin açılışı gözlənilir. Bu da tarixi hadisədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli tərəfdaşa çevrilir.

Bu il digər tarixi layihə öz həllini tapmışdır, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi Bakıda keçirilmişdir. Bu dəmir yolu layihəsi qitələri birləşdirir. Bakı-Tbilisi-Qars Asiya ilə Avropa arasında ən qısa və etibarlı yol olacaq, bundan sonra onilliklər ərzində Azərbaycana həm iqtisadi, həm siyasi dividentlər gətirəcək. Azərbaycan önəmli tranzit ölkəsinə çevrilir. Əgər biz Şimal-Cənub nəqliyyat dəhlizini də qeyd etsək görərik ki, Azərbaycan dünya miqyasında, - baxmayaraq ki, bizim açıq dənizlərə çıxışımız yoxdur, - strateji nəqliyyat mərkəzinə çevrilir.

Bu il idmançılarımız bizi qələbələrlə sevindirmişlər. Bakıda ən yüksək səviyyədə keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları birinci yerə layiq görüldülər. Bütün müsəlman aləmində birinci yeri qazanmaq çox böyük tarixi nailiyyətdir. Əgər biz 2015-ci il Avropa Oyunlarını yada salsaq, orada da Azərbaycan komandası ikinci yerdə idi. Yəni, bu, bir daha onu göstərir ki, Azərbaycan güclü idman dövlətidir.

Bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmuşdur. Hər zaman olduğu kimi, Azərbaycan bütün məsələlərdə İslam həmrəyliyinin güclənməsinə öz töhfəsini verir. Bu il də istisna olmamışdır.

Bir sözlə, 2017-ci il ölkəmiz üçün uğurlu olub, əminəm ki, gələn il də uğurlu olacaqdır. Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Fürsətdən istifadə edərək bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə təbrik edirəm.

Hörmətli həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

***31 dekabr 2017-ci il***

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

İsa Peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda tarixən sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin mövcudluğu, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılması çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə ümummilli mənəvi-ictimai dəyərlərin, zəngin multikulturalizm və dözümlülük ənənələrinin formalaşmasında, vətəndaş həmrəyliyinin bərqərar edilməsində müstəsna rol oynamışdır. Biz bu tarixi nailiyyəti milli dövlətçiliyimizin mühüm uğuru kimi qiymətləndirir, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının, eyni zamanda, vicdan və dini etiqad azadlığının təminatını dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab edirik.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, ölkəmizin bütün milli azlıqları kimi, pravoslav xristian icması da millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, Azərbaycanda gedən böyük inkişaf prosesində və vətəndaş cəmiyyəti quruculuğunda yaxından iştirak edir.

Əziz dostlar!

Milad bayramı yeniliyin, əmin-amanlığın, insanlar arasında mərhəmət və şəfqət duyğularının rəmzi kimi hər il Azərbaycanda təntənə ilə qeyd edilir. Bu nurlu bayram münasibətilə bir daha hamınıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 4 yanvar 2018-ci il***

## QANUNLAR

### "NƏŞRİYYAT İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununu "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 581; 2002, № 12, maddə 709; 2004, № 7, maddə 505; 2007, № 10, maddə 938; 2008, № 5, maddə 343) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin iyirminci abzasında nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə aşağıdakı məzmunda iyirmi birinci abzas əlavə edilsin:

"kitabın pirat nüsxəsi – "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kitabın hüquq sahibinin razılığı olmadan hazırlanan (istehsal edilən) və yayılan nüsxəsi.".

2. 19-cu maddənin mətni 19.1-ci maddə hesab edilsin və Qanuna aşağıdakı məzmunda 19.2-ci maddə əlavə edilsin:

"19.2. Nəşriyyat işi sahəsində əqli mülkiyyət hüquqlarının müdafiəsinin təmin edilməsi, əqli mülkiyyət hüquqları sahiblərinin maraqlarının qorunması və bu sahədə hüquqpozmaların, o cümlədən müvafiq əqli mülkiyyət obyektlərinin elektron və kağız daşıyıcılarda nüsxələrinin qeyri-qanuni hazırlanması (istehsalı) və yayılmasının qarşısının alınması ilə bağlı yaranan münasibətlər "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2013-cü il***

### "AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 406; 2009, № 12, maddə 971; 2011, № 6, maddə 462) 11-ci maddəsində "istehsal olunan və ya yayılan" sözləri "hazırlanan (istehsal edilən) və yayılan" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2013-cü il***

## "MƏLUMAT TOPLULARININ HÜQUQİ QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 885; 2006, № 12, maddə 1005; 2008, № 6, maddə 462, № 12, maddə 1047; 2009, № 12, maddə 971) aşağıdakı dəyişikliklər edilsin:

1. 14.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Məlumat toplusunun hüquq sahibinin və ya istehsalçısının razılığı olmadan hazırlanan (istehsal edilən), həmçinin istehsalçının istifadə etdiyi texniki mühafizə vasitələrini dolayısı və ya birbaşa müdaxilə yolu ilə keçməklə əldə edilən və yayılan nüsxəsi pirat nüsxə sayılır.".

2. 14.2-ci və 14.3-cü maddələr aşağıdakı redaksiyada verilsin:

"14.2. Məhkəmə hüquqpozmaya səbəb olan məlumat toplularının kompensasiya ödənilmədən ticarət şəbəkəsindən çıxarılması, onların hazırlanmasında (istehsalında) istifadə olunan materialların və avadanlıqların istifadəçidən götürülməsi, müsadirə və ya məhv edilməsi barədə qərar çıxarmaq hüququna malikdir. Belə məsələlərə baxılarkən üçüncü şəxslərin qanuni maraqları nəzərə alınmalıdır.

14.3. Məlumat toplularının pirat nüsxələri, onların hazırlanmasında (istehsal edilməsində) və yayılmasında istifadə olunan materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq müsadirə edilir.".

3. 18.2-ci maddədə "istehsalı" sözü "hazırlanması (istehsalı)" sözləri ilə əvəz edilsin.

4. 18.4-cü maddədə "İstehsalı" sözü "Hazırlanması (istehsalı)" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2013-cü il***

## “MİLLİ ARXİV FONDU HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Milli arxiv fondu haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

“Milli arxiv fondu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038) 6-cı maddəsinə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Azərbaycan Respublikasının keçmiş Prezidentinin rəsmi yazışma sənədlərinin surətlərindən ibarət arxiv keçmiş Prezidentin sərəncamında saxlanılır.”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 may 2013-cü il***

## “2015-Cİ İLƏDƏK HUMANİTAR SAHƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASI ARASINDA ƏMƏKDAŞLIQ PROQRAMI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

2013-cü il avqustun 13-də Bakı şəhərində imzalanmış “2015-ci ilədək humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlıq Proqramı” təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2013-cü il***

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ ÜÇÜNCÜ ZİRVƏ TOPLANTISININ BƏYANNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

2013-cü il avqustun 16-da Qəbələ şəhərində imzalanmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üçüncü Zirvə Toplantısının Bəyannaməsi təsdiq edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 oktyabr 2013-cü il*

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA"AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə**qərara alır:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057) 4-cü maddəsinin ikinci hissəsində "Dövlət mülkiyyətində" sözləri "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dünya təbii və mədəni irs siyahısına daxil edilmiş, həmçinin milli mədəni və təbii irsə aid dövlət mülkiyyətində" sözləri ilə əvəz edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 oktyabr 2013-cü il*

## "AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT BAYRAĞININ İSTİFADƏSİ QAYDALARI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,

2004, № 7, maddə 515; 2005, №10, maddə 874; 2010, №4, maddə 276) 9.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"9.2. Azərbaycan Respublikası Dövlət bayrağının sənaye üsulu ilə hazırlanması, düzəldilməsi, rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Pantone 306C rənginə, qırmızı rənginin Pantone Red 032C rənginə, yaşıl rənginin Pantone 362C rənginə uyğunluğu təmin edilməlidir.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 oktyabr 2013-cü il*

## "AZƏRBAYCAN RESPUBLİKASININ NİZAMİ GƏNCƏVİ ADINA QIZIL MEDALI"NIN TƏSİS EDİLMƏSİ İLƏ ƏLAQƏDAR "AZƏRBAYCAN RESPUBLİKASININ ORDEN VƏ MEDALLARININ TƏSİS EDİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477) 2-ci maddəsində "Azərbaycan Respublikası Mülki Aviasiyasının 75 illiyi (1938-2013)" Azərbaycan Respublikasının yubiley medalı" hissəsindən sonra nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı.".

Maddə 2. "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

Maddə 3. "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı"nın təsviri" təsdiq edilsin (əlavə olunur).

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 may 2014-cü il*

## "AZƏRBAYCAN RESPUBLİKASININ NİZAMİ GƏNCƏVİ ADINA QIZIL MEDALI" HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikasının 2014-cü il*
*16 may tarixli Qanunu ilə*
*təsdiq edilmişdir*

Maddə 1. Təltif edilən şəxslər

1.1. "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə sağlığında təltif edilirlər.

1.2. Bu Əsasnamənin 1.1-ci maddəsində göstərilən xidmətlərinə görə Azərbaycan Respublikasının digər orden və medalları ilə təltif edilmiş şəxslər eyni xidmətlərə görə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edilə bilməzlər.

Maddə 2. Təltif edən orqan

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq qurum təltif edir.

Maddə 3. Döşə taxılma qaydası

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## "AZƏRBAYCAN RESPUBLİKASININ NİZAMİ GƏNCƏVİ ADINA QIZIL MEDALI"NIN TƏSVİRİ

*Azərbaycan Respublikasının 2014-cü il*
*16 may tarixli Qanunu ilə*
*təsdiq edilmişdir*

Maddə 1. Medalın ümumi təsviri

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" (bundan sonra – medal) diametri 30 mm olan, bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş dairəvi lövhədən ibarətdir.

Maddə 2. Medalın ön tərəfi

Medalın ön tərəfində üç dairə əks olunmuşdur. Birinci dairədə yuxarı qövs boyunca "AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI", aşağı qövs boyunca "NİZAMİ GƏNCƏVİ" sözləri yazılmışdır. İkinci dairənin üzəri şəbəkəvari naxışlarla haşiyələnmiş, üçüncü dairənin mərkəzində Nizami Gəncəvinin təsviri həkk olunmuşdur. Medalın ön tərəfindəki yazılar və təsvirlər qabarıqdır.

Maddə 3. Medalın arxa tərəfi

Medalın arxa tərəfində iki dairə əks olunmuşdur. İkinci dairənin üzərində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun orta hissəsində "NİZAMİ GƏNCƏVİ" sözləri, ondan aşağıda "1141-1209" rəqəmləri yazılmışdır. Medalın arxa tərəfindəki yazılar və təsvirlər qabarıqdır.

Maddə 4. Medalın elementləri

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 20 mm x 15 mm ölçüdə düzbucaqlı metal lövhəyə halqa və ilgək vasitəsilə birləşdirilir. Lövhəyə Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğun mavi, qırmızı və yaşıl rəngli bərabər ölçüdə şaquli zolaqlara bölünmüş xara lentdən üz çəkilir. Lövhənin ön tərəfindəki qırmızı zolağın ortasında qızılı rəngli aypara və səkkizguşəli ulduz təsviri həkk edilir. Lövhənin yuxarı və aşağı hissələrinə eni 1 mm olan üçbucaqvari çıxıntıları olan qızılı təbəqə bərkidilir.

4.2. Medala paltara bərkidilmək üçün medalın elementi olan eyni xara lentdən üz çəkilmiş 20 mm x 9 mm ölçülü qəlib əlavə olunur.




## TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISININ BƏYANNAMƏSİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq qərara alır:

2014-cü il iyunun 5-də Bodrum şəhərində imzalanmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dördüncü Zirvə Toplantısının Bəyannaməsi təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2014-cü il***

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 23-cü bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751) aşağıdakı məzmunda 7-1-ci maddə əlavə edilsin:

"Maddə 7-1. Turizm vizası və turistlərə verilən elektron vizalar

7-1.1. Azərbaycan Respublikasına gəlmək üçün viza tələb olunduğu hallarda turist kimi gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən olunmuş qaydada turizm vizası almalıdırlar.

7-1.2. Turizm vizasında ölkədə qalma müddəti 30 günədək müəyyən edilir.

7-1.3. Turizm vizasının rəsmiləşdirilməsi üçün səfərin turizm məqsədi ilə həyata keçirildiyini təsdiqləyən sənəd (turizm vauçeri və ya turizm yollayışı, yaxud sərnişin bileti və mehmanxanada, kempinqdə, turist bazasında və ya digər bu kimi obyektlərdə yer sifariş edilməsini təsdiqləyən sənəd) və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 36-cı maddəsində göstərilən sənədlər tələb olunur.

7-1.4. Azərbaycan Respublikasına gələn turistlər turizm şirkətləri vasitəsilə elektron viza ala bilərlər.

7-1.5. Elektron viza almaq üçün əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanında akkreditasiyadan keçmiş turizm şirkətlərinə birbaşa və ya yaşadıqları ölkələrdə həmin şirkətlərin tərəfdaşı olan turizm şirkətləri vasitəsilə müraciət edə bilərlər.

7-1.6. Turistlərə elektron vizaların verilməsi qaydası Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə tənzimlənir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 oktyabr 2014-cü il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057; 2013, № 11, maddə 1313) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin beşinci hissəsində, 5-ci maddənin adında və ikinci hissəsində, 7-ci maddənin ikinci və üçüncü hissələrində, 13-cü maddənin birinci hissəsinin ikinci cümləsində, 25-ci maddənin altıncı hissəsində və 27-ci maddənin ikinci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın" sözləri ilə əvəz edilsin.

2. 13-cü maddənin birinci hissəsinin birinci cümləsində, 14-cü maddənin birinci hissəsində və 20-ci maddənin ikinci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata" sözləri ilə əvəz edilsin.

3. 5-ci maddənin birinci hissəsində, 20-ci maddənin birinci və üçüncü hissələrində, 21-ci maddənin birinci hissəsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilat" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 oktyabr 2015-ci il***

## "MİLLİ ARXİV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615) 10-cu maddəsinin beşinci hissəsində "Azərbaycan Elmlər Akademiyasının" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 oktyabr 2015-ci il***

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78) 40.4-cü maddəsinin birinci

cümləsində "Azərbaycan Milli Elmlər Akademiyası" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilat" sözləri ilə, ikinci cümləsində "Azərbaycan Milli Elmlər Akademiyasına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata" sözləri ilə əvəz edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 oktyabr 2015-ci il*

## "İNFORMASİYA ƏLDƏ ETMƏK HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1080; 2007, № 8, maddə 756; 2010, № 3, maddələr 171, 172; 2011, № 3, maddə 162, № 7, maddə 617; 2012, № 5, maddə 405, № 7, maddə 653; 2015, № 2, maddə 81) 2.4-1-ci maddəsinə "qərəzsizliyinin" sözündən sonra ", cinayət işləri üzrə ibtidai araşdırmanın normal gedişinin" sözləri əlavə edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 oktyabr 2015-ci il*

## "KİTABXANA İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 158; 2002, № 5, maddə 245; 2003, № 12 (I kitab), maddə 674; 2007, № 5, maddə 442, № 6, maddə 596) 6-cı maddəsinin ikinci hissəsinin yeddinci abzasına, 8-ci maddəsinin dördüncü hissəsinə və 15-ci maddəsinin ikinci hissəsinə birinci halda "Azərbaycan" sözündən sonra "Milli" sözü əlavə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 mart 2016-cı il*

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282) 24.4-cü maddəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 sentyabr 2016-cı il***

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 23-cü bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 280-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751; 2014, № 11, maddə 1341) 7-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adından "və turistlərə verilən elektron vizalar" sözləri çıxarılsın.
2. 7-1.4-cü maddədə "turizm şirkətləri" sözləri "siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən ölkələrin vətəndaşları və ya həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər olduqda "ASAN Viza" sistemi" sözləri ilə əvəz edilsin.
3. 7-1.5-ci və 7-1.6-cı maddələr aşağıdakı redaksiyada verilsin:

"7-1.5. Elektron viza almaq üçün əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemində yerləşdirilmiş elektron müraciət formasında nəzərdə tutulan məlumatları sistemə daxil etməli, müraciətin qəbul olunması barədə müvafiq təsdiqnamə aldıqdan sonra "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumunu elektron qaydada ödəməlidirlər.

7-1.6. Elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində baxılır, imtina üçün əsas olmadıqda viza rəsmiləşdirilərək müraciət etmiş şəxsin elektron poçt ünvanına göndərilir. Viza verilməsindən imtina edildikdə, müraciət etmiş şəxsin elektron poçt ünvanına bu barədə məlumat göndərilir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 noyabr 2016-cı il***

## "TEATR VƏ TEATR FƏALİYYƏTİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 75) aşağıdakı məzmunda 11.3-cü maddə əlavə edilsin:

"11.3. "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 24-cü maddəsinə uyğun olaraq, teatr tamaşası göstərilərkən reklam teatrın foyesində yayımlana bilər. Teatr tamaşasının gedişində reklam yayımlanması qadağandır.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 noyabr 2016-cı il***

## "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT DİLİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 1, maddə 2, № 8, maddə 415; 2004, № 8, maddə 598; 2007, № 11, maddə 1053; 2011, № 6, maddə 483) aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1-ci maddənin üçüncü cümləsindən "reklam və" sözləri çıxarılsın.
2. Aşağıdakı məzmunda 7.1-1-ci maddə əlavə edilsin:

"7.1-1. Reklamvericinin tələbinə əsasən reklam qurğularında yerləşdirilən reklamın mətnində Azərbaycan Respublikasının dövlət dili ilə yanaşı digər dillərdən istifadə oluna bilər. Bu halda xarici dildə olan mətn dövlət dilində olan mətndən sonra yerləşdirilməli, dövlət dilində olan mətnin tutduğu sahədən kiçik olmalı və reklamın yerləşdiyi ümumi sahənin üçdə birindən çox olmamalıdır. Mətndə digər dillərdə ifadə olunan əmtəə nişanı və coğrafi göstərici müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydə alındığı formada göstərilməlidir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 noyabr 2016-cı il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057; 2013, № 11, maddə 1313; 2015, № 11, maddə 1279) 1-ci maddəsinə aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"Tarix və mədəniyyət abidələrinin ərazilərində və onların mühafizə zonasında, memarlıq abidələrinin (binalarının) dam hissəsində reklam daşıyıcıları "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yalnız reklam-informasiya təşkilatlarının nəzdindəki bədii şuraların rəyi əsasında və həmin binaların dayanıqlığına mənfi təsir göstərməmək şərti ilə yerləşdirilə bilər.".

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2016-cı il.***

## "NƏŞRİYYAT İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 581; 2002, № 12, maddə 709; 2004, № 7, maddə 505; 2007, № 10, maddə 938; 2008, № 5, maddə 343; 2013, № 5, maddə 483) 17-ci maddəsinin mətni aşağıdakı redaksiyada verilsin:

"17.1. Mülkiyyət formasından asılı olmayaraq reklam yayıcısı nəşriyyat məhsullarındakı reklam yerinin ən azı səkkiz faizini sosial reklam üçün ayırmağa borcludur.

17.2. Reklam xarakteri daşımayan dövri mətbu nəşrlərdə yerləşdirilən reklam müvafiq olaraq "reklam" və ya "reklam hüququ ilə" qeydləri edilməklə verilməlidir. Bu cür nəşrlərdə yerləşdirilən reklam dövri mətbu nəşrin ümumi həcminin 30 faizindən çox olmamalıdır (dövri mətbu nəşrin üz və arxa qabığında, qəzetlərin birinci səhifəsində verilən reklam istisna olmaqla).

17.3. Yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş mətbu nəşrlərdə alkoqollu içkilərin, yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş dövri mətbu nəşrlərdə, həmçinin onlara aid olmayan əmtəələrin reklamı yerləşdirilə bilməz.

17.4. Dərslikdə, dərs vəsaitində, tədris materialında, məktəb gündəliyində, dəftərdə, albomda, yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş kitabda reklam yerləşdirilə bilməz.

17.5. Dövri mətbu nəşrin üz və arxa qabığında, internet informasiya ehtiyatlarının ön səhifəsində tündlüyü 5 faizdən yuxarı olan alkoqollu içkilərin reklamı yerləşdirilə bilməz.

17.6. Dövri mətbu nəşrlərdə yayımlanan elanlarda (anonslarda) əmtəə nişanının, reklamvericinin, sponsorun adının və loqosunun yerləşdirilməsi reklam hesab olunur.

17.7. Audiovizual məhsulların qabının üzərində "reklamla", yaxud "reklamsız" qeydləri olmalıdır.

17.8. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, əmtəənin bazarda satılması məqsədi daşımayan və sosial reklam olmayan redaksiya-nəşr materiallarına həmin Qanunun tələbləri şamil olunmur.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2016-cı il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 365; 2005, № 4, maddə 278; 2007, № 11, maddə 1072; 2010, № 3, maddə 168; 2012, № 11, maddə 1057; 2013, № 11, maddə 1313; 2015, № 11, maddə 1279) 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"İnşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal işlər dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanlarına və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata məlumat verilməli, həmin orqanlar və elmi təşkilat tərəfindən iki ay müddətində bu Qanunla nəzərdə tutulmuş tədqiqatlar aparılmalı və digər tədbirlər görülməlidir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 fevral 2017-ci il***

# "İNFORMASİYA, İNFORMASİYALAŞDIRMA VƏ İNFORMASİYANIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 364; 2005, № 6, maddə 466; 2006, № 12, maddə 1005; 2007, № 10, maddə 938; 2011, № 3, maddə 162; 2012, № 11, maddə 1051) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddədə doqquzuncu - on beşinci bəndlər müvafiq olaraq on yeddinci - iyirmi üçüncü bəndlər hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu - on altıncı bəndlər əlavə edilsin:

"internet informasiya ehtiyatı - internet şəbəkəsində yaradılan, informasiyanın yayılması üçün istifadə olunan, müraciət edilməsi üçün domen adına və sahibi tərəfindən müəyyənləşdirilmiş digər işarələnməyə malik olan informasiya ehtiyatı;

internet informasiya ehtiyatının sahibi - internet informasiya ehtiyatından istifadə edilməsi, o cümlədən burada informasiya yerləşdirilməsi qaydalarını sərbəst olaraq müəyyən edən, internet informasiya ehtiyatına sahiblik və istifadə hüquqlarına malik olan şəxs;

domen adı - internet şəbəkəsində yerləşdirilən informasiya ehtiyatına müraciətin təmin olunması üçün verilən unikal simvol düzülüşü;

domen adının sahibi - müqaviləyə əsasən domen adına müddətli sahiblik edən şəxs;

internet provayder - internet şəbəkəsinə telekommunikasiya vasitələri ilə qoşulmaq üçün texniki imkanı təmin edən təchizatçı;

host provayder - internet informasiya ehtiyatının istifadəsinin təmin edilməsi üçün öz informasiya sistemlərində yerləşdirilməsi xidmətini göstərən təchizatçı;

domen adlarının milli inzibatçısı - "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domen adlarının inzibatçılığını həyata keçirən səlahiyyətli şəxs;

domen adlarının qeydiyyatçısı - domen adların milli inzibatçısı ilə bağlanılmış müqaviləyə əsasən "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında domenlərin qeydiyyatı üzrə xidmət göstərən şəxs;".

2. 2-ci maddənin on doqquzuncu bəndində, 6-cı maddənin onuncu hissəsində, 11-ci maddənin birinci hissəsində, 13-cü maddənin adında və mətnində, 18-ci maddənin birinci və dördüncü hissələrində, 19-cu maddənin ikinci hissəsində və 20-ci maddənin birinci hissəsində ismin müvafiq hallarında "sahibkar" sözü ismin müvafiq hallarında "sahib" sözü ilə əvəz edilsin.

3. 2-ci maddənin iyirmi ikinci bəndində, 6-cı maddənin səkkizinci hissəsində ismin müvafiq hallarında "sahibkarlar" sözü ismin müvafiq hallarında "sahiblər" sözü ilə əvəz edilsin.

4. 6-cı maddənin beşinci hissəsində "sahibkarlıq" sözü "sahiblik" sözü ilə əvəz edilsin.

5. aşağıdakı məzmunda III-I fəsil əlavə edilsin:

## “III-I fəsil
## İNTERNET İNFORMASİYA EHTİYATLARI

Maddə 13-1. İnternet informasiya ehtiyatının yaradılması və uçotu

13-1.1. İnternet informasiya ehtiyatı üçün domen adı “az” ölkə kodlu yüksək səviyyəli domen zonasında və ya digər domen adları zonalarında seçilə bilər.

13-1.2. “az” ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı domen adlarının milli inzibatçısı və qeydiyyatçıları tərəfindən həyata keçirilir. Domen adlarının milli inzibatçısı qeydiyyatdan keçmiş domen adlarının reyestrini aparır və reyestr məlumatlarından sorğu əsasında istifadəni təmin edir.

13-1.3. “az” ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatı və istifadəsi qaydaları, habelə domen adlarının reyestrinə daxil edilən məlumatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 13-2. İnternet informasiya ehtiyatında informasiyanın yayılması

13-2.1. İnternet informasiya ehtiyatının sahibi həmin informasiya ehtiyatında yerləşdirilən informasiyanın tərkibi və onun yerləşdirilməsi qaydasının müəyyən edilməsində müstəqildir. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatının qanunauyğun fəaliyyətini təmin etməlidir və buna görə şəxsən məsuliyyət daşıyır.

13-2.2. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi hüquqi şəxsdirsə adı, təşkilati-hüquqi forması, elektron poçt ünvanı, fiziki şəxsdirsə adı, soyadı və atasının adı və elektron poçt ünvanı həmin saytda aydın oxuna bilən yerdə və formada yerləşdirməlidir.

13-2.3. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında aşağıdakı yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verməməlidir:

13-2.3.1. terrorçuluğun təbliği və maliyyələşdirilməsi, terrorçuluğun həyata keçirilməsinin üsul və vasitələri, terrorçuluq məqsədi ilə təlim təşkil etmə və ya keçirmə barədə məlumatlar, habelə terrorçuluğa açıq çağırışlar;

13-2.3.2. zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini nifrət və düşmənçiliyin salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə yönələn açıq çağırışlar;

13-2.3.3. dövlət sirri təşkil edən məlumatlar;

13-2.3.4. odlu silahın, onun komplekt hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların hazırlanma qaydası və ya üsulları barədə məlumatlar;

13-2.3.5. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının hazırlanma və ya istifadə üsulları və qaydası, onların qanunsuz əldə edilməsi yerləri, habelə tərkibində narkotik maddələr olan bitkilərin kultivasiya yerləri və ya üsulları barədə məlumatlar;

13-2.3.6. pornoqrafiyaya, o cümlədən uşaq pornoqrafiyasına aid məlumatlar;

13-2.3.7. qumar və digər qanunsuz mərc oyunlarının təşkilinə və həmin oyunlarda iştiraka təhrik edən məlumatlar;

13-2.3.8. intiharı problemlərin həlli üsulu qismində təbliğ edən, intihara bəraət qazandıran, onu əsaslandıran və ya törədilməsinə təhrik edən, intiharın törədilməsi üsullarını izah edən və ya qrup şəklində bir neçə şəxsin intihar etməsini təşkil etmək məqsədi ilə yayılan məlumatlar;

13-2.3.9. təhqir və ya böhtan xarakteri daşıyan, habelə şəxsi həyatın toxunulmazlığını pozan məlumatlar;

13-2.3.10. əqli mülkiyyət hüquqlarını pozan məlumatlar;

13-2.3.11. Azərbaycan Respublikasının qanunları ilə yayılması qadağan edilən digər informasiya.

13-2.4. İnternet informasiya ehtiyatının və onun domen adının sahibi həmin informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın olduğunu aşkar etdikdə və ya bu barədə ona müraciət daxil olduqda, belə informasiyanın informasiya ehtiyatından götürülməsini təmin edir.

13-2.5. Host provayder öz informasiya sistemlərində yerləşdirilmiş internet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiya aşkar etdikdə və ya ona bu barədə məlumat daxil olduqda, dərhal onun informasiya ehtiyatının sahibi tərəfindən götürülməsi üçün tədbirlər görür.

Maddə 13-3. İnternet informasiya ehtiyatlarında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinin qarşısının alınması

13-3.1. Müvafiq icra hakimiyyəti orqanı yayılması qadağan edilən informasiyanın internet informasiya ehtiyatında yerləşdirilməsi hallarını bilavasitə aşkar etdikdə və ya fiziki, hüquqi şəxslərdən, yaxud dövlət qurumlarından daxil olmuş əsaslandırılmış məlumatlar əsasında müəyyən etdikdə, bu barədə internet informasiya ehtiyatının və onun domen adının sahibinə və host provayderə yazılı xəbərdarlıq edir.

13-3.2. Xəbərdarlıq edildiyi vaxtdan 8 saat ərzində yayılması qadağan edilən informasiya internet informasiya ehtiyatından götürülmədikdə müvafiq icra hakimiyyəti orqanı həmin orqanın yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsinə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciət edir.

13-3.3. Dövlətin və cəmiyyətin qanunla qorunan maraqlarına təhdid yarandığı və ya insanların həyat və sağlamlığı üçün real təhlükə olduğu təxirəsalınmaz hallarda internet informasiya ehtiyatına müraciət müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında müvəqqəti olaraq məhdudlaşdırılır.

13-3.4. Müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 13-3.3-cü maddəsində nəzərdə tutulmuş qərarı qəbul etdikdə, eyni zamanda, internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə məhkəməyə müraciət edir. İnformasiya ehtiyatına müraciətin müvəqqəti məhdudlaşdırılması barədə qərar məhkəmə tərəfindən internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciətə baxılanadək və ya həmin qərar ləğv edilənədək qüvvədə qalır.

13-3.5. Məhkəmə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması barədə müraciətə 5 günədək müddətdə baxır və qərar qəbul edir. Qərar qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qərardan şikayətin verilməsi onun icrasını dayandırmır.

13-3.6. Məhkəmə internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması haqqında, müvafiq icra hakimiyyəti orqanı isə internet informasiya ehtiyatına müraciətin müvəqqəti məhdudlaşdırılması barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edir. Siyahıdakı məlumatların tərkibi, siyahının tərtibi, tətbiqinə nəzarət edilməsi və host və internet provayderlərlə qarşılıqlı əlaqənin təşkil edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

13-3.7. İnternet informasiya ehtiyatı "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edildikdən dərhal sonra host provayder və internet provayderlər internet informasiya ehtiyatına müraciəti məhdudlaşdırmalı və bu barədə internet informasiya ehtiyatının sahibinə məlumat verməlidirlər.

13-3.8. İnternet informasiya ehtiyatının sahibi məlumatın götürülməsini bu Qanunun 13-2.4-cü maddəsində nəzərdə tutulmuş qaydada təmin etmədikdə və informasiyanın internet informasiya ehtiyatında yayılmasının qadağan edilməsi ilə əlaqədar qüvvəyə minmiş məhkəmə qərarı mövcud olduqda, müvafiq icra hakimiyyəti orqanı həmin informasiya ehtiyatını şəxsin müraciəti əsasında "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edir. Həmin internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılması üçün bu Qanunun 13-3.7-ci maddəsində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

Maddə 13-4. İnternet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi ilə əlaqədar məsuliyyət

Bu fəslin müddəalarının pozulmasına görə internet informasiya ehtiyatının sahibi, domen adının sahibi, host və internet provayderlər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 mart 2017-ci il***

## "MİLLİ ARXIV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci və 19-cu bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 oktyabr tarixli 358-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 404; 2002, № 12, maddə 706; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2006, № 2, maddə 64, № 12, maddə 1005; 2007, № 1, maddə 4; 2009, № 5, maddə 308; 2010, № 7, maddə 579; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1038; 2013, № 6, maddə 615; 2015, № 11, maddə 1280) 8-ci maddəsinin üçüncü hissəsində "milli təhlükəsizlik," sözləri "dövlət təhlükəsizliyi, xarici kəşfiyyat," sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 aprel 2017-ci il***

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, "Uyğunluğun qiymətlən-

dirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751; 2014, № 11, maddə 1341; 2016, № 12, maddə 2035) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.4-cü maddədə "sertifikatlaşdırılması" sözü "sertifikatlaşdırılmasının təşkili" sözləri ilə əvəz edilsin.

2. 5-ci maddənin altıncı hissəsinin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumu və ya akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar" sözləri ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci hissə əlavə edilsin:

"7. Bu maddənin altıncı hissəsində nəzərdə tutulmuş uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.".

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 aprel 2017-ci il*

## "MÜƏLLİFLİK HÜQUQU VƏ ƏLAQƏLİ HÜQUQLAR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq, "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1281-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddə 167; 2001, № 11, maddə 691; 2002, № 12, maddə 706; 2004, № 3, maddə 133; 2005, № 8, maddə 684; 2008, № 2, maddə 49, № 5, maddə 342; 2010, № 11, maddə 937; 2013, № 5, maddə 482) aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Reklam bu Qanunda nəzərdə tutulan şərtlər hüdudunda müəlliflik hüququnun obyektidir.".

2. 32-ci maddəyə aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Reklam yaradıcısı və reklam istehsalçısı bu Qanunda nəzərdə tutulan şərtlər hüdudunda əlaqəli hüquqların subyektidirlər.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 31 may 2017-ci il*

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 461-VQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751; 2014, № 11, maddə 1341; 2016, № 12, maddə 2035) 9-cu maddəsinə aşağıdakı məzmunda 10-cu hissə əlavə edilsin:

"10. Turagentlərə ödəmələr yalnız nağdsız qaydada həyata keçirilir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 iyun 2017-ci il***

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751) aşağıdakı dəyişikliklər edilsin:

1. 30.2.6-cı maddədə "otuz ildən çox tarixi" sözləri "1960-cı ildən əvvəlki dövrə aid" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 30.2-1-ci maddə əlavə edilsin:

"30.2-1. Kütləvi və seriyalı istehsal olunan və ya 1960-cı ildən etibarən yaradılan, yaxud yaradılma tarixindən asılı olmayaraq, bu Qanunun 30.4-cü maddəsində nəzərdə tutulan ekspertizanın nəticəsinə əsasən mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edilməyən mədəniyyət məhsulları (suvenirlər daxil olmaqla) mədəni sərvətlərə aid edilmir.".

3. 41.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"41.2. Müvafiq icra hakimiyyəti orqanı bu Qanunun 30-cu maddəsində göstərilən mədəni sərvətləri mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edir və onlara mühafizə şəhadətnaməsi verir.".

4. Aşağıdakı məzmunda 41.3-cü və 42.1-1-ci maddələr əlavə edilsin:

"41.3. Müvafiq icra hakimiyyəti orqanı mühafizə olunan mədəni sərvətlərin siyahısını öz rəsmi internet saytında yerləşdirilməklə onun mütəmadi yenilənməsini və rəsmi nəşrlərdə dərc edilməsini təmin etməlidir.

42.1-1. Bu Qanunun 30.2-1-ci maddəsində nəzərdə tutulan mədəniyyət məhsullarının üzərində qeyd olunmuş seriya nömrəsi, istehsalçının adı və ya müəllif barədə məlumat, məhsulun yaradılma tarixi, yaxud ekspertizanın nəticəsinə dair arayış onların ixracı üçün əsasdır.”.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 oktyabr 2017-ci il*

## “TURİZM HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLIKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 23-cü bəndlərini rəhbər tutaraq, “Turizm haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 761-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Turizm haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751; 2014, № 11, maddə 1341; 2016, № 12, maddə 2035; 2017, № 6, maddə 1030, № 7, maddə 1276) 7-1.6-cı maddəsinə “günü” sözündən sonra “, elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə isə ən geci 3 saat” sözləri əlavə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 dekabr 2017-ci il*

# FƏRMANLAR

## "MİLLİ ARXİV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 27 İYUL TARİXLİ 168 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 31 may tarixli 667-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar qərara alıram:

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. üçüncü bənddə "axırıncı" sözü "dördüncü" sözü ilə əvəz edilsin;
2. üçüncü və dördüncü bəndlərdə "Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsi" sözləri "Milli Arxiv İdarəsi" sözləri ilə əvəz edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 avqust 2013-cü il*

## 2013-CÜ İL AVQUSTUN 15-DƏ QƏBƏLƏ ŞƏHƏRİNDƏ İMZALANMIŞ "TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ ÜZV DÖVLƏTLƏRİNİN XARİCİ İŞLƏR NAZİRLİKLƏRİ ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLU"NUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2013-cü il avqustun 15-də Qəbələ şəhərində imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinin Xarici İşlər Nazirlikləri arasında Əməkdaşlıq Protokolu" təsdiq edilsin.
2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Protokolunun müddəalarının həyata keçirilməsini təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 sentyabr 2013-cü il*

# 2012-Cİ İL AVQUSTUN 23-DƏ BİŞKEK ŞƏHƏRİNDƏ İMZALANMIŞ "TÜRK AKADEMİYASININ TƏSİS EDİLMƏSİ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2012-ci il avqustun 23-də Bişkek şəhərində imzalanmış "Türk Akademiyasının təsis edilməsi haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətini xəbərdar etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 oktyabr 2013-cü il*

# AZƏRBAYCAN RESPUBLİKASININ ELM, TEXNİKA, MEMARLIQ, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

Artur Rasi-zadə Azərbaycan Respublikasının Baş naziri

**Komissiyanın üzvləri**

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Akif Əli Zadə – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Oqtay Şirəliyev – Azərbaycan Respublikasının səhiyyə naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri

Abbas Ələsgərov – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Arif Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri

İsmayıl Sadıqov – Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri

Akif Hacıyev – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
İsmayıl Hacıyev – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri
Ömər Eldarov – Azərbaycan Rəssamlıq Akademiyasının rektoru
Abel Məhərrəmov – Bakı Dövlət Universitetinin rektoru
Əhliman Əmiraslanov – Azərbaycan Tibb Universitetinin rektoru
Siyavuş Kərimi – Azərbaycan Milli Konservatoriyasının rektoru
Aqşin Əlizadə – Azərbaycan Bəstəkarlar İttifaqının katibi
Çingiz Abdullayev – Azərbaycan Yazıçılar Birliyinin katibi
Altay Hacıyev – xalq rəssamı
Arif Məlikov – xalq artisti
Şəfiqə Məmmədova – Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri
Mövlud Süleymanlı – xalq yazıçısı

2. Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 76, 2012, № 11, maddə 1087) 1-ci hissəsi ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi" ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 dekabr 2013-cü il***

## 2014-CÜ İL YANVARIN 24-DƏ PARİS ŞƏHƏRİNDƏ İMZALANMIŞ "AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ VƏ BMT-NİN TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATI ARASINDA GƏNC PEŞƏKAR ƏMƏKDAŞ (GPƏ) PROQRAMININ TƏŞKİLİ HAQQINDA SAZİŞ"İN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2014-cü il yanvarın 24-də Paris şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Gənc Peşəkar Əməkdaş (GPƏ) Proqramının təşkili haqqında Saziş" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatını xəbərdar etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 mart 2014-cü il***

# "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR VƏ "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 16 APREL TARİXLİ 698 NÖMRƏLİ FƏRMANININ LƏĞVİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 5.1.1-ci maddəsində (mədəniyyət sahəsində dövlət siyasətinin formalaşdırılması, o cümlədən sahə üzrə normativ hüquqi aktların, strategiyaların, konsepsiyaların, dövlət proqramlarının və tədbirlər planlarının qəbul edilməsi ilə bağlı) və 5.1.13-cü maddəsində (xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin yaradılması və inkişafı ilə bağlı) nəzərdə tutulmuş vəzifələri, 38.2-ci və 48.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5.1.1-ci maddəsində (mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, sahə üzrə normativ hüquqi aktların və tədbirlər planlarının qəbul edilməsi ilə bağlı), 5.1.8-ci, 5.1.11-ci və 14.2.10-cu maddələrində nəzərdə tutulmuş vəzifələri, 23.1-ci maddəsində, 33.3-cü maddəsinin birinci və ikinci cümlələrində, 40.3-cü və 47.4.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 26.4-cü maddəsində ikinci halda, 35.2-ci və 41.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini daşınmaz mədəni sərvətlərə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, digər mədəni sərvətlərə münasibətdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir;

1.4. həmin Qanunun 5.1.1-ci maddəsində (mədəniyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsi, sahə üzrə normativ hüquqi aktların və tədbirlər planlarının qəbul edilməsi ilə bağlı), 5.1.9-cu maddəsində nəzərdə tutulmuş vəzifələri, 29.1-ci maddəsində, 30.4-cü maddəsinin birinci cümləsində, 36.3-cü, 37.1-ci, 37.2-ci, 41.2-ci, 42.1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir;

1.5. həmin Qanunun 5.1.2-ci, 5.1.3-cü, 5.1.7-ci, 5.1.10-cu, 14.2.1-ci, 14.2.3-cü, 14.2.8-ci, 14.2.12-ci, 14.2.13-cü maddələrində nəzərdə tutulmuş vəzifələri, 21.2-ci maddəsində, 27.1-ci maddəsində ikinci halda, 39.2-ci, 39.3-cü, 39.6-cı maddələrində, 40.4-cü maddəsinin birinci cümləsində, ikinci cümləsində ikinci halda, 45.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

1.6. həmin Qanunun 14.2.7-ci maddəsində nəzərdə tutulmuş, dövlət reyestrinin aparılması, dövlət monitorinqinin və dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı vəzifələri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və

"Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində dövlət monitorinqinin və dövlət nəzarətinin həyata keçirilməsi ilə bağlı vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

1.7. həmin Qanunun 5.1.4-cü, 14.2.5-ci və 14.2.6-cı maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

1.8. həmin Qanunun 5.1.5-ci, 5.1.6-cı, 5.1.12-ci, 5.1.14-cü maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

1.9. həmin Qanunun 5.1.13-cü maddəsində nəzərdə tutulmuş, xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin inkişafı və fəaliyyətlərinin əlaqələndirilməsi ilə bağlı vəzifələri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

1.10. həmin Qanunun 14.2.2-ci və 14.2.11-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;[1]

1.11. həmin Qanunun 14.2.9-cu maddəsində nəzərdə tutulmuş vəzifəni Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

1.12. həmin Qanunun 22.5-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə istifadə etdikdə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir;

1.13. həmin Qanunun 40.5-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini, Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazilərində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 47.4.3-cü maddəsinə uyğun olaraq, dövlət mədəniyyət obyektlərini özəlləşdirmək məqsədi ilə əhaliyə mədəniyyət məhsullarının və xidmətlərinin güzəştlə təqdim olunması əsas fəaliyyət kimi müəyyən olunduqda, mədəniyyət məhsulları və xidmətləri üzrə güzəştləri üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 244; 2001, № 10, maddə 640; 2002, № 1, maddə 14; 2005, № 7, maddə 596; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2008, № 1, maddə 8, № 8, maddə 719) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 may 2014-cü il***

## BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılsın.

2. "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xərclər smetasını və ştat cədvəlini, işçilərinin say həddini, icraçı direktorunun və işçilərinin aylıq vəzifə maaşlarını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin binasının tikilməsi barədə təklifləri iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

3.7. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dövlət qeydiyyatına alınmasını bir ay müddətində təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2014-cü il***

## "ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ TƏMİNATI VƏ PİRATÇILIĞA QARŞI MÜBARİZƏ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 22 MAY TARİXLİ 365-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Müəyyən edilsin ki, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 16.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompyuter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin qeyri-qanuni hazırlanmasının (istehsalının) və yayılmasının qarşısının alınması sahəsində Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi, nəzarət markalarının qeyri-qanuni yayılmasının qarşısının alınması və vergi nəzarəti zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinin pozulması ilə bağlı məsələlər üzrə Azərbaycan Respublikasının Vergilər Nazirliyi həyata keçirir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 avqust 2014-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ İTALİYA RESPUBLİKASININ MƏDƏNİ İRS VƏ FƏALİYYƏT, TURİZM NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyət, Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında 2014-cü il iyulun 14-də Roma şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İtaliya Respublikası Hökumətini xəbərdar etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 sentyabr 2014-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.25-1-ci bənd əlavə edilsin:

"8.25-1. turistlər üçün elektron viza almaq hüququ olan Azərbaycan Respublikasında fəaliyyət göstərən turizm şirkətlərini akkreditasiyadan keçirmək;".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 sentyabr 2014-cü il*

# "AZƏRBAYCAN RESPUBLİKASINDA GEOLOGİYA, PALEONTOLOGİYA, MİNERALOGİYA VƏ FAUNA ÜZRƏ TƏBİƏT TARİXİ MUZEYİNİN YARADILMASI KONSEPSİYASI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Ölkənin geoloji keçmişinin, flora və faunasının, insanın formalaşması və mədəni inkişafı tarixinin, qədim və müasir dövrlərdə ekoloji şəraitin nümayiş etdirilməsinin daha səmərəli təşkili məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında geologiya, paleontologiya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması Konsepsiyası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyi yaradılsın.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Konsepsiyanı nəzərə almaqla, Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyinin nizamnaməsini və strukturunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

3.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilmiş Konsepsiyaya uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyinin fəaliyyətə başlaması üçün Azərbaycan Respublikasının Prezidentinə məlumat verməklə Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə zəruri tədbirlər görsün;

3.3. 2015-ci il və sonrakı illər üzrə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyinin Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyi üçün zəruri yer ayrılmasını dörd ay müddətində təmin etsin.

5. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə bu Fərmanın 3.2-ci bəndində göstərilən müddətdə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Təbiət Tarixi Muzeyinin zəruri eksponatlarla təchiz edilməsini təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 oktyabr 2014-cü il***

# AZƏRBAYCAN RESPUBLİKASINDA GEOLOGİYA, PALEONTOLOGİYA, MİNERALOGİYA VƏ FAUNA ÜZRƏ TƏBİƏT TARİXİ MUZEYİNİN YARADILMASI KONSEPSİYASI

*Azərbaycan Respublikası Prezidentinin*
*2014-cü il 20 oktyabr tarixli Fərmanı*
*ilə təsdiq edilmişdir*

**1. Giriş**

Azərbaycan xalqının qədim və zəngin tarixinin öyrənilməsində, gələcək nəsillərə çatdırılmasında muzeylərin rolu əvəzolunmazdır. Əksər muzeylər elm və mədəniyyətin yalnız bir sahəsinə aid eksponatları nümayiş etdirdiyi halda, təbiət tarixi muzeyləri geoloji inkişaf tarixinin bütün aspektlərini əhatə edir. İnkişaf etmiş ölkələrdə təbiət tarixi muzeyləri turizmin genişlənməsində önəmli yeri olan obyektlərdəndir. Bu tip muzeylərin əsas məqsədi ölkə ərazisində həyatın yaranması tarixini, ölkənin geoloji keçmişini, bənzəri olmayan flora və faunasını, həmçinin konkret coğrafi şəraitdə insanın formalaşması və mədəni inkişafı tarixini, qədim və müasir dövrlərdə ekoloji şəraiti nümayiş etdirməkdir.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə əsaslanmaqla Azərbaycan Respublikasında geologiya, paleontologiya, mineralogiya və fauna üzrə təbiət tarixi muzeyinin yaradılmasına ehtiyac duyulur. Belə bir muzeyin fəaliyyətə başlaması insanlarda, xüsusilə də gənclərdə ətraf mühitin və ölkəmizin təbii sərvətləri, fauna və florası barədə təsəvvür yaradılmasında, onlarda vətənə və təbiətimizə qayğı hissinin formalaşmasında böyük rol oynayacaqdır.

Azərbaycan Respublikasında geologiya, paleontologiya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması "Muzeylər haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları çərçivəsində nəzərdə tutulur.

Konsepsiyada Azərbaycanın milli təbii dəyərlərinin beynəlxalq normalara əsaslanaraq qorunması, bərpası, təbliği və təşviqi istiqamətində tədbirlər müəyyənləşdirilir.

**2. Konsepsiyanın əsas məqsədləri**

2.1. Konsepsiyanın əsas məqsədləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Milli Elmlər Akademiyası nəzdində qeyri-kommersiya hüquqi şəxs statusuna malik Azərbaycan Respublikasının geologiya, paleontologiya, mineralogiya və fauna üzrə Təbiət Tarixi Muzeyinin (bundan sonra - muzey) yaradılması;

2.1.2. təbiətə aid əşyaların, kolleksiyaların, paleobotanika, paleozoologiya, arxeozoologiya sahələrinə aid olan eksponatların, fauna və flora nümunələrinin muzey əməkdaşları tərəfindən aşkar edilməsi, toplanılması, mühafizəsi, tədqiqi, araşdırmaların nəticələrinin nəşri və təbliği;

2.1.3. ölkə ərazisində həyatın əmələ gəlmə tarixinin, bənzərsiz, bəzən isə unikal olan flora və faunanın, onların geoloji keçmişinin və inkişaf tarixinin, yer təbəqələrinin (çökmə süxurların) formalaşmasının, faydalı qazıntı yataqlarının yaranmasının, qədim coğrafi landşaftların rekonstruksiyasının, konkret coğrafi şəraitdə insanın formalaşması və mədəni təkamülü tarixinin, respublika ərazisində qədim və müasir yaşayış dövrlərindəki ekoloji şəraitə aid dünya şöhrətli Binəqədi Dördüncü dövr fauna və florasının monoqrafik öyrənilməsi, Eldar düzənliyində aşkar edilmiş gec Sarmat hipporion faunası, Pirəkəşkül kəndi ətrafında yayılan Maykop çöküntüləri içərisində daşlaşmış onurğalıların nümayəndələrinin, Azıx paleolit düşərgəsi materiallarının öyrənilməsi və digər paleontoloji eksponatların nümayişi və tədqiq edilməsi;

2.1.4. muzeydə Azərbaycanın xəritəsi üzərində palçıq vulkanlarının yerləşmə sxeminin, fəaliyyətdə olan, sönmüş, gömülmüş, neftçıxaran, sualtı, ada palçıq vulkanları, o cümlədən Daşgil, Torağay, Böyük Kənizdağ kimi vulkanlar barədə məlumatlar olan stendlərin, vulkan püskürməsini əks etdirən maket, lava, vulkan külü, vulkan tozu və vulkanik süxurların nümayiş etdirilməsi;

2.1.5. Azərbaycan faunasının müxtəlifliyini əks etdirən heyvanların yayılma arealını və yaşam tərzini səciyyələndirən spesifik növlərin müqəvvalarından ibarət eksponatların, Xəzərin su bioresurslarını əks etdirən akvariumun yerləşdirilməsi, Azərbaycanın geoloji tarixini, eyni zamanda təbiətini və təbii sərvətlərini təcəssüm etdirən interaktiv eksponatların və ekspozisiyaların nümayiş etdirilməsi üçün uyğun məkan və şəraitin yaradılması;

2.1.6. muzeyin idarəetmə, hüquqi, maliyyə, informasiya, kadr və beynəlxalq əməkdaşlıq kimi təminat mexanizmlərinin inkişafının və mədəni irsin təhlükəsizliyi üçün tələb olunan islahatların həyata keçirilməsi;

2.1.7. muzeyin mədəni və elmi-maarifləndirmə mərkəzi olmaqla yanaşı, respublikamızda turizmin inkişafında önəmli rolu olan obyekt kimi fəaliyyət göstərməsi.

**3. Təhsil və insan resurslarının inkişafı**

3.1. Konsepsiya, təbiət tarixi sahəsində bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsini, çoxpilləli təhsil sistemi və şəbəkəsinin müasirləşdirilməsini, təhsil və insan resurslarının inkişafının zəruriliyini nəzərə alaraq, aşağıdakı istiqamətləri müəyyən edir:

3.1.1. maarifləndirmə - muzeyə gələn qonaqların (respublika vətəndaşlarının və əcnəbilərin) Azərbaycanın müasir unikal flora və faunası ilə tanış edilməsi və məlumatlandırılması;

3.1.2. təhsil - muzeyin kolleksiya məlumatları əsasında tədqiqat laboratoriyalarında şagirdlərin, orta və ali təhsil müəssisələri müəllimlərinin və eyni zamanda elmi işçilərin biliklərinin artırılması məqsədi ilə elmi işçilər tərəfindən muzeydə mühazirələr oxunması, seminar və olimpiadaların təşkili, muzey əməkdaşlarının seminarlar təşkil etməsi, habelə onların hazırlanmasında ekspert komissiyalarının tərkibində iştirak etməsi;

3.1.3. tərbiyə - insan potensialı və təbii sərvət baxımından dünyanın unikal ölkələrindən olan respublikamızda vətənpərvərlik və milli ruhda tərbiyə işinin aparılması məqsədi ilə muzeydə "Azərbaycanın Qırmızı Kitabı"na daxil edilmiş bəzi eksponatların, o cümlədən bitki və heyvanların endemik formalarının nümayiş etdirilməsi;

3.1.4. elmi tədqiqat fəaliyyəti - qazıntı halında tapılan heyvan və bitkilərin, müasir onurğalıların, paleocoğrafi keçmişin, insanın bioloji təkamülünün, geoloji tarixinin öyrənilməsi istiqamətində elmi tədqiqatların aparılması, Binəqədi Dördüncü dövr fauna və florasını öyrənməklə, onun turizm obyekti kimi fəaliyyət göstərməsi üçün yeni qazıntıların və tədqiqatların aparılması;

3.1.5. təbliğat - tarixi və mədəni dəyərlərin təbliğ edilməsi, şəhərin diqqətəlayiq yeri və əsas turizm obyekti olacaq muzeyin yaradılması, respublika ərazisində və kənarda sərgilərin təşkil edilməsi, dünyadakı analoji muzeylərlə əməkdaşlıq və kolleksiya mübadiləsi, elmi-kütləvi əsərlərin və broşürlərin nəşri istiqamətində iş aparılması.

3.2. Son yüz ildə Azərbaycana aid toplanmış, lakin müasir tələblərə uyğun saxlanılmayan, dağınıq halda olan bütün kolleksiyalar (respublikada və respublikadan kənarda olan materiallar kolleksiyası) muzeydə toplanılır və nümayiş etdirilir.

**4. Muzey işinin müasirləşdirilməsi**

4.1. Muzey işinin müasirləşdirilməsi üçün aşağıdakı əsas tədbirlər yerinə yetirilməlidir:

4.1.1. muzey fondunun mühafizəsi, pasportlaşdırılması, konservasiyası və bərpası, muzey kolleksiyalarının komplektləşdirilməsi işinin təkmilləşdirilməsi, muzey fonduna

dair məlumatların rəqəmsal daşıyıcılara köçürülməsi və elektron kataloqlaşdırma vasitəsilə milli muzey-informasiya bazasının yaradılması;

4.1.2. muzey ekspozisiyalarının bədii tərtibatının təkmilləşdirilməsi, konseptual ekspozisiyaların və müxtəlif mövzularda sərgilərin təşkili.

**5. Beynəlxalq əməkdaşlıq**

5.1. Beynəlxalq əməkdaşlığın vacibliyini, tarixi və mədəni dəyərlərin təbliğində turizmin əsas vasitələrdən biri olduğunu nəzərə alaraq, dünyadakı analoji muzeylərlə əməkdaşlıq və kolleksiya mübadiləsinin aparılmasına şərait yaradılması üçün aşağıdakı tədbirlər görülməlidir:

5.1.1. mədəniyyətlərarası dialoqun dəstəklənməsi;

5.1.2. beynəlxalq səviyyədə sərgilərin keçirilməsi;

5.1.3. dünyanın bir çox ölkələrində fəaliyyət göstərən təbiət tarixi muzeyləri ilə beynəlxalq əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi.

**6. Konsepsiyanın həyata keçirilməsi**

6.1. Konsepsiyanın səmərəli həyata keçirilməsinin əsas şərti onun gerçəkləşdirilməsini təmin edə bilən səmərəli icra mexanizminin yaradılmasıdır.

6.2. Konsepsiyanın həyata keçirilməsi dövlət orqanları ilə yanaşı, yerli özünüidarəetmə orqanlarının, mədəniyyət müəssisələrinin və mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının bu prosesə cəlb olunmasını şərtləndirir, dövlət büdcəsinin təminatı ilə yanaşı, xarici və yerli investorların cəlbini, alternativ maliyyələşdirmə mexanizmlərinin tətbiqini nəzərdə tutur.

6.3. Muzeyin maliyyə mənbələrinin diversifikasiyası üçün aşağıdakı əsas tədbirlər müəyyən edilir:

6.3.1. dövlət büdcəsindən muzeyə ayrılan vəsaitin inventarlaşdırılması, təhlili, qiymətləndirilməsi və səmərəliliyinin artırılması nəticəsində optimal maliyyələşmə həddinin müəyyənləşdirilməsi, habelə xərclərin ünvanlı istifadəsi məqsədi ilə dövlət sifarişlərinin daha geniş tətbiq olunması və ayrılan vəsaitlərə nəzarətin gücləndirilməsi;

6.3.2. alternativ maliyyə mənbələrinin (büdcədənkənar vəsaitlər və qanunla qadağan olunmayan digər maliyyə mənbələri) cəlb edilməsi.

6.4. Konsepsiyanın icrasını Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirirlər. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi muzeyin eksponatlarla zənginləşdirilməsi məqsədi ilə onların Azərbaycan Respublikasına gətirilməsinə və təbiətdən götürülməsinə icazə verir və nəzarət edir.

# "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2014-CÜ İL 17 OKTYABR TARİXLİ 1061-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 27 İYUL TARİXLİ 164 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1061-IVQD nömrəliQanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 7-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

4. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 426; 2003, № 10, maddə 571; 2009, № 4, maddə 226) 2-ci hissəsinin ikinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Qanunun 7-1.5-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 noyabr 2014-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ YANINDA MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nəzdində olan Tikilən Obyektlərin Birləşmiş Müdiriyyətinin bazasında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılsın.

2. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin aparatının işçilərinin say həddi 23 ştat vahidi müəyyən edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını dörd ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

4.5. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin fəaliyyətinin təşkili məqsədi ilə zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 dekabr 2014-cü il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ 725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanına "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386; 2002, № 1, maddə 14; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2007, № 11, maddə 1115; 2008, № 1, maddə 8, № 6, maddə 498; 2010, № 8, maddə 723; 2013, № 3, maddə 241, № 5, maddə 498) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

İkinci abzasa "22-ci maddəsinin ikinci hissəsində," sözlərindən sonra "23-cü maddəsinin birinci və ikinci hissələrində," sözləri əlavə edilsin.

Dördüncü abzasdan "23-cü maddəsinin birinci və ikinci hissələrində," sözləri çıxarılsın.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 8.6-1-ci, 8.8-1-ci, 8.11-1-ci, 8.13-1-ci, 8.17-1-ci, 8.17-2-ci, 8.19-1-ci - 8.19-7-ci, 8.23-1-ci, 8.31-1-ci, 8.32-1-ci, 8.34-1-ci, 8.35-2-ci, 8.36-1-ci, 8.36-2-ci, 8.36-3-cü və 9.3-1-ci bəndlər əlavə edilsin:

"8.6-1. mədəniyyət sahəsində dövlət reyestrini aparmaq;";

"8.8-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, insanların Azərbaycan və dünya mədəniyyət nümunələrinə və mədəni sərvətlərə sərbəst yiyələnmələri üçün sosial əhəmiyyətli tədbirləri təşkil etmək;";

"8.11-1. aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəniyyət sənayesinin inkişafına yönəlmiş investisiya layihələri həyata keçirmək və ya investisiya mühitinin yaxşılaşdırılması məqsədi ilə həmin investisiyaların qoyuluşuna əlverişli mühit yaratmaq;";

"8.13-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, milli mədəniyyətin bərpasına, qorunmasına, inkişafına və təşviqinə yönəlmiş tədbirlər görmək;";

"8.17-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, istedadlı şəxslərin peşəkar inkişafına dəstək göstərilməsini təmin etmək;

8.17-2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəniyyət fəaliyyətində beynəlxalq təşkilatların, bələdiyyələrin, fiziki və hüquqi şəxslərin, o cümlədən qeyri-kommersiya qurumlarının iştirakını dəstəkləmək;";

"8.19-1. Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş qaydada mədəni sərvətlərin (daşınmaz mədəni sərvətlər istisna olmaqla) Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına və mədəni sərvətlərin mühafizə siyahısına daxil edilməsini həyata keçirmək;

8.19-2. xüsusi əhəmiyyətli mədəniyyət obyektlərinin (daşınmaz mədəni sərvətlər istisna olmaqla) milli mədəni irs obyektlərinə aid edilməsini həyata keçirmək;

8.19-3. mühafizə olunan mədəni sərvətlərin (daşınmaz mədəni sərvətlər istisna olmaqla) siyahısını aparmaq;

8.19-4. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müvafiq sahədə elektron məlumat sistemini yaratmaq;

8.19-5. ekspertiza yolu ilə mədəniyyət nümunələrini Azərbaycan Respublikasında milli mədəni sərvətlərə aid etmək;

8.19-6. qeyri-maddi mədəni irs nümunələrinin dövlət reyestrini aparmaq;

8.19-7. Azərbaycan Respublikasında milli kulinariya nümunələrinin sistemləşdirilməsini, qorunmasını, təbliğini və onların milli mədəni irsə aid edilməsini həyata keçirmək;";

"8.23-1. mədəniyyətin inkişafında xidmətləri olan mədəniyyət işçilərinin, yaradıcı şəxslərin və kollektivlərin bioqrafiyası, peşə və yaradıcılıq fəaliyyəti barədə məlumat bazası yaratmaq;";

"8.31-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, milli mədəniyyətin dünya mədəniyyətinə inteqrasiya-

sını, mədəniyyətlərarası dialoqun inkişafını və vahid mədəniyyət məkanının qurulmasını təmin etmək məqsədi ilə milli mədəniyyət sahəsində müvafiq layihələr həyata keçirmək;";

"8.32-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəniyyət müəssisələrindən və mədəniyyət məkanlarından əhalinin istifadə imkanlarının sadələşdirilməsinə yönəlmiş layihələri həyata keçirmək;";

"8.34-1. mühafizə olunan mədəni sərvətlərin siyahısına daxil edilən hər bir mədəni sərvətə şəhadətnamə vermək;";

"8.35-2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, müvafiq sahədə ümumi estetik tərbiyənin, təhsilin, o cümlədən əlavə təhsilin gücləndirilməsi məqsədi ilə, həmçinin iqtisadi, sosial, hüquqi, elmi-texniki, müasir texnologiya və digər tədbirlər vasitəsilə uşaq və gənclərin mədəniyyət fəaliyyətini və mədəni sərvətlərdən bəhrələnməsini stimullaşdıran layihələri həyata keçirmək;";

"8.36-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə beynəlxalq tədbirlərdə Azərbaycan mədəniyyətinin təqdim edilməsini və təşviqini təmin edən tədbirlər görmək;

8.36-2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə xarici dövlətlərin mədəniyyət tədbirlərinin keçirilməsinə dəstək göstərilməsini, xarici dövlətlərdə Azərbaycan mədəniyyəti tədbirlərinin keçirilməsini təmin etmək;

8.36-3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə xarici dövlətlərdə Azərbaycan mədəniyyət mərkəzlərinin inkişafını təmin etmək və fəaliyyətini əlaqələndirmək;";

"9.3-1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, milli mədəni irsə aid, o cümlədən muzey, arxeologiya, etnoqrafiya, kitabxana, kino fondlarına və ya arxivlərinə məxsus mədəni sərvətlərin hüquqi və fiziki şəxslər tərəfindən kommersiya və qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsinə razılıq vermək;".

2. 8.6-cı bəndə "dövlət nəzarətini" sözlərindən sonra "və dövlət monitorinqini" sözləri əlavə edilsin.

3. 8.7-ci bənddə "mədəniyyət, tarix və mədəniyyət abidələrinin qorunması" sözləri "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəniyyət sahəsində sahibkarlığın inkişafına dair tədbirlər görmək" sözləri ilə əvəz edilsin.

4. 8.21-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.21. mədəni sərvətlərin ixracının mümkünlüyünü mədəni sərvətin mühafizə şəhadətnaməsi ilə müəyyən etmək;".

5. Aşağıdakı məzmunda 14.1-1-ci bənd əlavə edilsin:

"14.1-1. nazir müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Nazirliyin strukturuna daxil olan qurumların rəhbərlərinin və digər vəzifəli şəxslərinin kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;".

6. 14.4-cü bəndə "normativ hüquqi aktları" sözlərindən sonra "və tədbirlər planlarını" sözləri əlavə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 sentyabr 2015-ci il*

# “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏNİN, NAZİRLİYİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə” üzrə:

1.1. 7.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7.3-cü bənd əlavə edilsin:

“7.3. Strukturuna daxil olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti vasitəsilə mədəni irsin qorunmasına, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət obyektlərinin (abidələrinin) bərpasına, rekonstruksiyasına, konservasiyasına, yenidən qurulmasına, texniki təchizat vasitələrinin yeniləşdirilməsinə, cari və əsaslı təmir-bərpa işlərinin layihələndirilməsinə dövlət nəzarətini həyata keçirir.”;

1.2. 8.33-cü bəndə “tarix və mədəniyyət abidələrinin”, 8.34-cü bəndə “təmin etmək” və 9.10-cu bəndə “tədbirlər görmək” sözlərindən əvvəl “Strukturuna daxil olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti vasitəsilə” sözləri əlavə edilsin;

1.3. 8.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

“8.20. Strukturuna daxil olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti vasitəsilə:

8.20.1. dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması işini təşkil etmək;

8.20.2. hər hansı texniki avadanlıq və cihaz tarix və mədəniyyət abidələrinin təhlükəsiz istismarına mane olduqda, təhlükəsiz istismara mane olan halların dərhal aradan qaldırılmasının avadanlıq və qurğu sahibindən aidiyyəti orqanlar tərəfindən tələb edilməsinə razılıq vermək;

8.20.3. təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin başvermə ehtimalının yüksək olduğu dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarına münasibətdə yerinə yetirilən mühafizə tədbirlərinə razılıq vermək;

8.20.4. dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət obyektlərinin (abidələrinin) bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması zamanı tikiləcək və təmir ediləcək obyektlərin ehtimal olunan qiymətlərinin müəyyən edilməsini həyata keçirmək;

8.20.5. təbii və texnogen qəzalar nəticəsində zərər çəkmiş ərazilərdə dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrində (bina və qurğularda) bərpa və yenidənqurma işlərini təşkil etməklə bağlı sifarişçi funksiyalarını yerinə yetirmək;

8.20.6. dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinə aid olan yaşayış sahəsinin qeyri-yaşayış sahəsinə və qeyri-yaşayış sahəsinin yaşayış sahəsinə keçirilməsinə razılıq vermək;

8.20.7. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mühafizənin konservasiya dərəcəsi olan daşınmaz mədəni sərvətlərin məhdud dairədə istifadəsinə nəzarət etmək;

8.20.8. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları əraziləri istisna olmaqla, mühafizə dərəcəsi olan daşınmaz mədəni sərvətlərin mülkiyyətçisinin və ya istifadəçisinin səlahiyyətlərini müəyyən edən mühafizə müqavilələrini bağlamaq;

8.20.9. "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları əraziləri istisna olmaqla, Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntılar aparılması və arxeoloji mədəni sərvətlərin tədqiqi məqsədi ilə onlarla təmasda elmi tədqiqat işlərini yerinə yetirən şəxslərdən görülmüş tədqiqat işləri barədə hesabat qəbul etmək;

8.20.10. dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin dövlət uçotunu aparmaq, bu əmlak barədə texniki məlumatları dəqiqləşdirmək;

8.20.11. qəza vəziyyətinə düşmüş dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinə aid olan mənzilin (yaşayış binasının) mülkiyyətçisi onu mümkün olan ən qısa müddət ərzində təmir və bərpa etmək vəzifəsini yerinə yetirmədikdə, mənzilin (yaşayış binasının) qəza vəziyyətində olması barəsində məhkəmədə iddia qaldırılmasına razılıq vermək;

8.20.12. mühafizə dərəcəsi tətbiq edilmiş dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin sökülməsinə, məhv edilməsinə, parçalanmasına, yeni quruluşa salınmasına, başqa yerə köçürülməsinə və zahiri görkəminin dəyişdirilməsinə razılıq vermək;

8.20.13. dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin mühafizə zonalarında tikinti zamanı mədəni irs obyektlərinin əlamətləri aşkar edildikdə, tikinti işlərinin dərhal dayandırılması barədə məlumatları toplamaq, dərhal dayandırılan tikinti işlərinin davam etdirilməsinə və zəruri tədbirlər görülməsinə razılıq vermək;

8.20.14. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tarix və mədəniyyət abidələrinin elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün istifadəyə, o cümlədən icarəyə verilməsinə və özəlləşdirilməsinə razılıq vermək;";

1.4. 9.11-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.11. Strukturuna daxil olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti vasitəsilə:

9.11.1 tarix və mədəniyyət abidələrinin təhlükəsizliyini təmin etmək üçün onların mühafizə zonasında qabaqlayıcı tədbirlər görülməsi barədə qərar qəbul etmək;

9.11.2. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inşaat və digər təsərrüfat işləri görülərkən daşınmaz ta-

rix və mədəniyyət abidələri aşkar edildiyi halda, onların yerləşdiyi ərazidə inşaat və digər təsərrüfat işlərinin aparılmasına icazə vermək;

9.11.3. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, magistral mühəndis kommunikasiyalarının (neft, qaz kəmərlərinin və s.) çəkilişi və digər inşaat işləri zamanı, bir hektardan çox ərazini əhatə edən sahələrdə inşaat işləri aparılarkən arxeoloji abidə aşkar olunarsa, həmin zonada inşaat və təsərrüfat işlərinin aparılmasına icazə vermək;

9.11.4. təsadüfən aşkar edilmiş abidələrin mülkiyyətçisindən və ya istifadəçisindən abidə barədə məlumat almaq;

9.11.5. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq subyektlərə tarix və mədəniyyət abidələri yerləşən ərazidə torpaq və ya inşaat işlərinin görülməsinə, yerli əhəmiyyətli abidələrin köçürülməsinə icazə vermək;

9.11.6. dövlət və bələdiyyə mülkiyyətində olan abidələrdə aparılan inşaat-möhkəmləndirmə və abadlıq işləri, onların konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası haqqında qərar qəbul etmək;

1.5. 11-ci hissənin ikinci cümləsinə "aparatının" sözündən sonra "və strukturuna daxil olan qurumların" sözləri əlavə edilsin;

1.6. 14.3-cü bənddə "qurumların və" sözləri "qurumların rəhbərlərini və onların müavinlərini, habelə" sözləri ilə əvəz edilsin;

1.7. 14.7-ci bənddə "yerli və digər qurumların" sözləri "strukturuna daxil olan qurumların və tabeliyində olan digər qurumların" sözləri ilə əvəz edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Strukturu" aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aparatı (şöbələr və sektorlar).

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti.

3. Bakı, Gəncə, Sumqayıt şəhər mədəniyyət və turizm idarələri.

4. Rayon (şəhər) mədəniyyət və turizm şöbələri.".

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. mehmanxana və mehmanxana tipli obyektlərdə standartlaşma sahəsində normativ hüquqi aktların tələblərinə riayət olunmasının yoxlanılması qaydalarını 3 ay müddətində Azərbaycan Respublikası Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

3.2. xarici və yerli turistlərin qaldıqları mehmanxanalara, istirahət evlərinə, pansionatlara və digər bu kimi müvəqqəti qalma yerlərinə hüquq mühafizə orqanları işçilərinin, məhkəmə qərarı olmadan, orada yaşayanların iradəsi ziddinə daxil olması hallarının məhdudlaşdırılmasına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

4. Mehmanxana və mehmanxana tipli obyektlər tərəfindən göstərilən xidmətlərin bir çox hallarda onlara verilmiş ulduz kateqoriyalarına uyğun olmadığını nəzərə alaraq, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Avropa İttifaqı ölkələrinin təcrübəsindən istifadə etməklə mehmanxana və mehmanxana tipli obyektlərin təsnifatı, ulduz kateqoriyalarının müəyyənləşdirilməsi və qiymətləndirmə meyarlarını, yenidən baxılmaqla, 3 ay müddətinə təsdiq etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 sentyabr 2015-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"nin 8.25-1-ci bəndində "turistlər üçün elektron viza almaq hüququ olan" sözləri "turistlərə elektron viza almaq hüququnu əldə etmək üçün" sözləri ilə əvəz edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 oktyabr 2015-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ ARGENTİNA RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Argentina Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında 2015-ci il sentyabrın 22-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Argentina Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 oktyabr 2015-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ URUQVAY ŞƏRQ RESPUBLİKASI ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında 2015-ci il sentyabrın 16-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Uruqvay Şərq Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 oktyabr 2015-ci il*

# “TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 6 OKTYABR TARİXLİ 1372-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1372-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinin beşinci hissəsində birinci halda, 5-ci maddəsinin adında, birinci hissəsində birinci halda və ikinci hissəsində birinci halda, 7-ci maddəsinin ikinci hissəsində birinci halda və üçüncü hissəsində ikinci halda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində ikinci halda və ikinci cümləsində birinci halda, 14-cü maddəsinin birinci hissəsində ikinci halda, 20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində birinci halda, ikinci hissəsində ikinci halda və üçüncü hissəsində, 21-ci maddəsinin birinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində birinci halda və 27-ci maddəsinin ikinci hissəsində birinci halda "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

3.2. həmin Qanunun 1-ci maddəsinin beşinci hissəsində, 5-ci maddəsinin adında, birinci və ikinci hissələrində, 7-ci maddəsinin ikinci və üçüncü hissələrində, 13-cü maddəsinin birinci hissəsində, 14-cü maddəsinin birinci hissəsində, 20-ci maddəsinin birinci, ikinci və üçüncü hissələrində, 21-ci maddəsinin birinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində və 27-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 noyabr 2015-ci il***

## "MİLLİ ARXİV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 6 OKTYABR TARİXLİ 1373-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1373-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə**qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda

dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin beşinci hissəsində birinci halda "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

3.2. həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 noyabr 2015-ci il***

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 6 OKTYABR TARİXLİ 1375-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1375-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə**qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 40.4-cü maddəsinin birinci cümləsində birinci halda və ikinci cümləsində ikinci halda "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

3.2. həmin Qanunun 40.4-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 noyabr 2015-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 28 FEVRAL TARİXLİ 200 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tikinti işlərinin dayandırılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 533 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar**qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 75; 2008, № 1, maddə 8) ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"nin 20-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"20. Hüquqi və fiziki şəxslər bərpa, təmir və təsərrüfat işləri (tikinti işləri istisna olmaqla abadlaşdırma, işıqlandırma, təmizlik, yaşıllaşdırma) görərkən abidə aşkar edilərsə, həmin işlər dərhal dayandırılmalı, bu barədə Azərbaycan Milli Elmlər Akademiyasına və İdarəyə məlumat verilməlidir. Bu zaman bərpa və təmir işlərinin davam etdirilməsi barədə qərar, Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyləri nəzərə alınmaqla, İdarənin razılığı ilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən qəbul edilir və görülən işlər İdarənin nəzarəti ilə davam etdirilir. Görülməsi nəzərdə tutulmuş təsərrüfat işləri isə, mütəxəssislərin rəyi nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyasının razılığı, İdarənin icazəsi və nəzarəti ilə davam etdirilə bilər.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 noyabr 2015-ci il***

## "AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN NİZAMNAMƏSİ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

3.1. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin;

3.2. Azərbaycan Turizm və Menecment Universitetinin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 dekabr 2015-ci il***

## AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN NİZAMNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin*
*2015-ci il 21 dekabr tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Turizm və Menecment Universiteti (bundan sonra - Universitet) Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 22 dekabr tarixli 945 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm İnstitutunun bazasında yaradılmışdır.

1.2. Universitet ali təhsilin bütün səviyyələrində turizm və menecment sahələri üzrə mütəxəssis hazırlığını, əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan dövlət ali təhsil müəssisəsidir.

1.3. Universitet Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm İnstitutunun hüquqi varisidir və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərir.

1.4. Universitet hüquqi şəxsdir, onun müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və öz adı həkk olunmuş möhürü, ştampları və blankları vardır.

1.5. Universitetin fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi və Universitetin akkreditasiyası "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

1.6. Universitet öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ hüquqi aktlarını, Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin və Azərbaycan Respublikası təhsil nazirinin əmr və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur.

1.7. Universitet Azərbaycan Respublikasının dövlət orqanları və digər dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

1.8. Universitet "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq maliyyə və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə fəaliyyətinin nəticələri barədə hesabatlar təqdim edir.

1.9. Universitet Bakı şəhərində yerləşir.

**2. Universitetin hüquq və vəzifələri**

2.1. Universitetin aşağıdakı hüquqları vardır:

2.1.1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq, tədris prosesini sərbəst həyata keçirmək;

2.1.2. təlim prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək;

2.1.3. tədris, metodik, elmi tədqiqat və analitik-informasiya fəaliyyətlərini planlaşdırmaq və təşkil etmək;

2.1.4. tədris prosesinin metodik təminatını təşkil etmək və təkmilləşdirmək, təlimin forma və metodlarını müəyyən etmək, dövlət təhsil standartlarına və ayrı-ayrı ixtisaslar (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris sənədlərini və tədris prosesinin təşkilinə aid digər sənədləri müstəqil hazırlamaq;

2.1.5. dövlət təhsil standartları çərçivəsində ali təhsil proqramlarında dəqiqləşdirmələr aparmaq;

2.1.6. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, təhsilin nəticələrinə görə təhsilalanların peşəkar biliklərini və işgüzar keyfiyyətlərini qiymətləndirmək və həmin bilik və keyfiyyətlərdən müvafiq xidmət sahələrində istifadə olunması barədə onlara tövsiyələr vermək;

2.1.7. profilinə uyğun elmi tədqiqat işlərini həyata keçirmək və elmi-metodik sənədlər hazırlamaq;

2.1.8. elmi əlaqələr yaratmaq, təhsillə bağlı layihələrdə, o cümlədən beynəlxalq layihələrdə iştirak etmək;

2.1.9. iclaslar, seminarlar, konfranslar, simpoziumlar, olimpiadalar, müsabiqələr, festivallar, sərgilər keçirmək və onların işində iştirak etmək;

2.1.10. Universitetin fəaliyyəti ilə bağlı nəşriyyat işlərini həyata keçirmək, elmi əsərləri, tədris və tədris-metodik ədəbiyyatları hazırlamaq və nəşr etmək;

2.1.11. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müqavilə əsasında ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

2.1.12. maddi-texniki və tədris bazasının inkişafı istiqamətində tədbirlər görmək;

2.1.13. Universitetin işçilərinə fəxri adlar, dövlət təltifləri və mükafatlar verilməsi üçün Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi qarşısında vəsatət qaldırmaq;

2.1.14. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə Universitetin fəaliyyət istiqamətləri üzrə məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

2.1.15. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və təcrübə mübadiləsi aparmaq, tələbə, magistr, doktorant, müəllim və elmi işçilər mübadiləsi üçün beynəlxalq əlaqələr yaratmaq;

2.1.16. Universitetin fəaliyyətinin təşkili məqsədi ilə qanuna zidd olmayan aktlar qəbul etmək;

2.1.17. Universitetin təminatı, işlərin görülməsi və xidmətlərin göstərilməsi məqsədi ilə müqavilələr bağlamaq;

2.1.18. Universitetin fəaliyyətini təmin etmək məqsədi ilə əqdlər bağlamaq;

2.1.19. elektron resurslar yaratmaq;

2.1.20. konsert və sərgilər təşkil etmək, audio-video materiallar, Universitetin adı ilə bağlı suvenirlər istehsal etmək.

2.2. Universitetin vəzifələri aşağıdakılardır:

2.2.1. ali təhsilin bütün səviyyələrində turizm və menecment sahələri üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlamaq, kadrların əlavə təhsilini həyata keçirmək, elmi və elmi-pedaqoji kadrlar hazırlamaq;

2.2.2. təhsil proqramlarını və tədris planlarını hazırlamaq və həyata keçirmək;

2.2.3. beynəlxalq fəaliyyəti və xarici əlaqələri təmin etmək;

2.2.4. tədris prosesinin maddi-texniki təminatını həyata keçirmək, bina və otaqları mövcud norma və tələblərə uyğun qurmaq;

2.2.5. təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, təhsilalanların intellektual, mədəni və mənəvi inkişafını təmin etmək, peşəkarlıq xüsusiyyətlərini formalaşdırmaq;

2.2.6. elmi, ixtisaslaşdırılmış və dissertasiya şuralarının işini təşkil etmək;

2.2.7. təhsilalanların attestasiyasını keçirmək;

2.2.8. təhsil haqqında diplomlar, habelə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təhsilə dair digər sənədlər vermək;

2.2.9. fəaliyyət istiqamətləri üzrə elmi tədqiqat işlərini təşkil etmək;

2.2.10. fundamental və tətbiqi elmi araşdırmalar aparmaq, dövlət qurumları üçün məlumat-analitik, elmi-metodik materiallar və tövsiyələr hazırlamaq;

2.2.11. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi sistemində ehtiyat kadrların formalaşdırılması işində iştirak etmək;

2.2.12. təhsil prosesinin təmin edilməsi üçün tədris, tədris-metodik, elmi ədəbiyyat, köməkçi materiallar hazırlamaq və nəşr etmək, maddi-tədris bazasını təkmilləşdirmək və inkişaf etdirmək;

2.2.13. Universitetə ayrılan maliyyə vəsaitindən təyinatı üzrə istifadə olunmasını təmin etmək;

2.2.14. öz fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmaq, internet saytı yaratmaq, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

2.2.15. dövlət sirrinin və məxfilik rejiminin qorunması və təhlükəsizliyin təmin olunması üçün zəruri tədbirlər görmək;

2.2.16. Universitetin istifadəsində olan daşınar və daşınmaz əmlakın qorunmasını və məqsədli istifadəsini təmin etmək;

2.2.17. Universitetdə təhsilalanlar və təhsilverənlər üçün idman, sağlamlıq, iaşə və məişət xidmətlərini təşkil etmək;

2.2.18. Universitetdə əməyin mühafizəsini və sanitar-gigiyenik normalara riayət olunmasını təmin etmək.

**3. Universitetin strukturu və idarə edilməsi**

3.1. Universitetdə fakültələr, kafedralar, şöbələr, kitabxanalar, elmi tədqiqat laboratoriyaları, doktorantura və əlavə təhsil üçün müvafiq bölmələr, qeydiyyat şöbələri, tədris-təcrübə təsərrüfatları, idman zalları, iaşə müəssisələri və digər struktur bölmələri fəaliyyət göstərir.

3.2. Universitetin struktur bölmələri tədris prosesi və elmi tədqiqat işlərinin təşkilində və həyata keçirilməsində bilavasitə iştirak edir, Universitetin Elmi Şurasının qərarlarını, Universitet rektorunun əmr və sərəncamlarını yerinə yetirirlər. Universitetin struktur bölmələrinin rəhbərlərini (filiallar istisna olmaqla) Universitetin rektoru, bu Nizamnamənin tələblərini nəzərə almaqla, təyin edir.

3.3. Universitetin strukturunu və ştat cədvəlini, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmaqla, Universitetin rektoru təsdiq edir.

3.4. Universitetin fəaliyyətinə rəhbərliyi Universitetin rektoru həyata keçirir.

3.5. Universitetin rektorunu Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

3.6. Universitetin prorektorlarını (tədris, elm, təlim-tərbiyə, təsərrüfat işləri və beynəlxalq əlaqələr üzrə) Universitet rektorunun təqdimatına əsasən Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri vəzifəyə təyin və vəzifədən azad edir.

3.7. Universitetin rektoru:

3.7.1. Universitetin vəzifələrinin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır;

3.7.2. Universitetin təhsil, təlim-tərbiyə, tədris, elmi tədqiqat, nəşriyyat və maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

3.7.3. dövlət qurumlarında, təşkilatlarda, beynəlxalq təşkilatlarla münasibətlərdə Universiteti təmsil edir, Universitetin adından əqdlər bağlayır, etibarnamələr verir, banklarda və digər kredit təşkilatlarında hesablar açır;

3.7.4. Universitetin daxili intizam qaydalarını təsdiq edir;

3.7.5. Universitetdə maddi vəsaitlərin uçotunu təşkil edir, onlardan istifadəyə nəzarət edir, Universitetin əmlakına və vəsaitlərinə dair sərəncam verir;

3.7.6. Universitetin fəaliyyəti ilə bağlı məsələlərin Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi kollegiyasının müzakirəsinə çıxarılmasına təşəbbüs göstərir, həmin məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

3.7.7. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin iş planında və kollegiyasının qərarlarında, Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin əmr və sərəncamlarında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

3.7.8. bu Nizamnaməyə uyğun olaraq, icrası məcburi olan əmr, sərəncam və digər yazılı göstərişlər verir;

3.7.9. Universitetin işçilərinə fəxri adların, dövlət təltiflərinin və mükafatların verilməsi barədə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə təqdimat verir;

3.7.10. Universitet prorektorlarının, struktur bölmələrinin rəhbərlərinin (filiallar istisna olmaqla) və digər işçilərin səlahiyyətlərini müəyyən edir, vəzifə təlimatlarını təsdiq edir;

3.7.11. Universitetin işçilərinin əməyinin ödənilməsini və onların həvəsləndirilməsini təşkil edir;

3.7.12. Universitetdə kargüzarlıq və arxiv işinin aparılmasını, dövlət sirrinin qorunmasını, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsini və məxfilik rejiminə riayət olunmasını təmin edir;

3.7.13. Universitetdə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir;

3.7.14. Universitetin fəaliyyəti ilə bağlı Universitet Elmi Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll edir.

3.8. Universitetin fəaliyyətinin mühüm məsələlərini müzakirə etmək üçün ali idarəetmə orqanı - Universitetin Elmi Şurası (bundan sonra - Elmi Şura) yaradılır.

3.9. Universitetin struktur bölmələrinin fəaliyyəti Elmi Şuranın qəbul etdiyi və Universitet rektorunun təsdiq etdiyi əsasnamələrlə müəyyən olunur.

3.10. Elmi Şuranın tərkibini Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri təsdiq edir. Elmi Şuranın tərkibinə Universitetin rektoru (Elmi Şuranın sədri), prorektorlar, fakültə dekanları, aparıcı kafedraların müdirləri və digər mütəxəssislər daxil edilir.

3.11. Elmi Şura sədrinin müavinləri və katibi Elmi Şuranın tərkibindən seçilir. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şura üzvlərinin səlahiyyətlərinə Elmi Şuranın qərarı ilə vaxtından əvvəl xitam verilə bilər. Elmi Şuranın vaxtından əvvəl yenidən yaradılması onun üzvlərinin azı üçdə iki hissəsinin tələbi ilə həyata keçirilir.

3.12. Elmi Şuranın fəaliyyəti Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin normativ hüquqi aktlarının və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi "Elmi Şura haqqında Əsasnamə"nin tələblərinə uyğun təşkil edilir. Elmi Şura ictimai əsaslarla fəaliyyət göstərir.

3.13. Elmi Şuranın iclasları iki ayda bir dəfədən az olmayaraq keçirilir. Elmi Şuranın qərarları Universitet rektorunun əmri ilə təsdiq edilir.

3.14. Elmi Şura:

3.14.1. Universitetin inkişaf proqramını təsdiq edir, Universitetin fəaliyyəti barədə rektorun illik hesabatını dinləyir;

3.14.2. tədris, təlim-tərbiyə, metodik və elmi tədqiqat işlərinin mühüm məsələlərini həll edir;

3.14.3. kadrların hazırlanması və əlavə təhsili istiqamətində təkliflər verir;

3.14.4. tədris planlarının və proqramlarının layihələrini, metodik, təlim-tərbiyə, elmi tədqiqat, redaksiya-nəşriyyat işlərinin və əlavə təhsil planlarının layihələrini müzakirə edir;

3.14.5. Universitetin struktur bölmələrinin hesabatlarını dinləyir;

3.14.6. dərsliklərin, dərs vəsaitlərinin, monoqrafiyaların, elmi və elmi-metodik ədəbiyyatın digər növlərinin layihələrini müzakirə edir;

3.14.7. yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması istiqamətində iş aparır;

3.14.8. Universitetin elmi-pedaqoji işçilərinə elmi adlar verilməsi üçün vəsatət qaldırır;

3.14.9. dissertasiyaların mövzularını təsdiq edir;

3.14.10. Universitetin maddi-texniki bazasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi ilə bağlı məsələləri müzakirə edir;

3.14.11. Universitetin strukturu barədə Universitetin rektoruna təkliflər verir;

3.14.12. elmi tədqiqatların prioritet istiqamətlərini müəyyən edir, elmi tədqiqat planlarını və onların yerinə yetirilməsinə dair hesabatları, pedaqoji kadrların hazırlanması və əlavə təhsili planlarını təsdiq edir;

3.14.13. doktoranturaya qəbul edilməsi, dissertant təhkim olunması, habelə yaradıcılıq məzuniyyətlərinin verilməsi üçün müraciət etmiş şəxslər sırasından namizədləri tövsiyə edir;

3.14.14. Universitetin fəxri adlarını təsis edir;

3.14.15. Universitetin təhsil birliklərinə, assosiasiyalarına və ittifaqlarına daxil olması və onlardan çıxması məsələlərinə dair Universitetin rektoruna təkliflər verir;

3.14.16. Universitetin rektorunun Universitetin illik büdcəsi və onun icrası barədə hesabatını dinləyir;

3.14.17. Universitetdə təhsilalanların geyim formasını müəyyən edir.

3.15. Elmi Şuranın qərarları Universitet rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Elmi Şuranın iclasları protokollaşdırılır.

3.16. Fakültə Universitetin tədris, elmi və inzibati bölməsi olub, eyni sahə və istiqamət daxilində bir və ya bir-birinə yaxın olan ixtisaslar üzrə bakalavr və magistr hazırlığını, müvafiq sahə üzrə əlavə təhsili həyata keçirir, eləcə də elmi tədqiqat və tərbiyə işlərinə rəhbərlik edir.

3.17. Universitetin fakültələrinə ümumi rəhbərliyi fakültə elmi şurası həyata keçirir. Fakültə elmi şurası Universitet rektorunun əmrinə əsasən 3 il müddətinə seçilir. Fakültə elmi şurasının sədri dekandır. Fakültə elmi şurasının tərkibini Universitetin rektoru təsdiq edir. Fakültə elmi şurasının tərkibi və səlahiyyətləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi "Elmi Şura haqqında Əsasnamə" ilə tənzimlənir.

3.18. Kafedra Universitetin (fakültənin) əsas tədris-elm struktur bölməsi olub, bir və ya bir neçə yaxın fənlər üzrə tədris, metodik, elmi tədqiqat fəaliyyətini və əlavə təhsili həyata keçirir.

3.19. Universitetdə elmi-pedaqoji (professor-müəllim heyəti, elmi işçilər), mühəndis-texnik, inzibati, inzibati-təsərrüfat, tədris-köməkçi və digər heyətlər üzrə vəzifələr nəzərdə tutulur.

3.20. Universitet "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və bu Nizamnaməyə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı əsasında filiallar açmaq hüququna malikdir. Universitet filialının rəhbərini (direktorunu) Universitet rektorunun təqdimatına əsasən Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri vəzifəyə təyin və vəzifədən azad edir.

**4. Universitetə qəbul**

4.1. Universitetə ali təhsilin bakalavr səviyyəsinə tam orta təhsili və ya orta ixtisas təhsili olan şəxslər, magistratura səviyyəsinə isə bakalavr səviyyəsini bitirən şəxslər, ixtisasın sərbəst seçimi əsasında, müsabiqə yolu ilə qəbul olunurlar.

4.2. Universitetə tələbə qəbulu biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən həyata keçirilir.

4.3. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Universitetə qəbul planı barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Azərbaycan Respublikasının Nazirlər Kabineti isə qəbul planı barədə təkliflərini Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyaya təqdim edir. Universitetə qəbul planını Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiya müəyyən edir.

4.4. Universitetin doktoranturasına qəbul "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq həyata keçirilir.

4.5. Universitetin bakalavriat, magistratura və doktorantura səviyyələrinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qəbulu "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 125 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları"na uyğun həyata keçirilir.

**5. Universitetin tədris fəaliyyəti**

5.1. Universitetdə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı ali təhsilin bakalavriat, magistratura və doktorantura səviyyələrində həyata keçirilir.

5.2. Universitetdə tədris dili Azərbaycan dilidir. Təlim, Universitetin imkanları nəzərə alınmaqla, xarici dillərdə də aparıla bilər.

5.3. Universitet aşağıdakı təhsil proqramlarını (kurikulumları) həyata keçirir:

5.3.1. bakalavriat;

5.3.2. magistratura;
5.3.3. doktorantura;
5.3.4. əlavə təhsil.

5.4. Universitetdə ali təhsil pilləsində təhsilalma əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) formalarda təşkil olunur.

5.5. Bakalavriat səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 4 ildir. Qiyabi forma üzrə təhsil müddəti bir il artıqdır. Bu müddət ayrı-ayrı ixtisasların təhsil proqramları ilə müəyyənləşdirilir.

5.6. Magistratura səviyyəsində əyani forma üzrə təhsilin normativ müddəti 2 ildir. Qiyabi forma üzrə təhsil müddəti altı ay artıqdır. Bu müddət ayrı-ayrı ixtisaslaşmaların təhsil proqramları ilə müəyyənləşdirilir.

5.7. Universitetdə təhsil dövlət sifarişi və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

5.8. Universitetdə bakalavriat təhsili "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 24 iyun tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bakalavriat təhsilinin məzmunu və təşkili Qaydaları"na uyğun olaraq təşkil edilir.

5.9. Universitetdə magistratura təhsili "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 12 may tarixli 88 nömrəli Qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"na uyğun olaraq təşkil edilir.

5.10. Universitetin doktoranturasında təhsil "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"na uyğun olaraq təşkil edilir.

5.11. Universitetdə çalışan elmi-pedaqoji kadrlara elmi dərəcələrin verilməsi dissertantlıq yolu ilə də reallaşdırılır. Universitetin əməkdaşlarına elmi dərəcələr və elmi adlar Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 21 fevral tarixli 857 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələrin və elmi adların verilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq verilir.

5.12. Universitetdə əlavə təhsil "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun olaraq təşkil edilir.

5.13. Universitetdə əlavə təhsil aşağıdakı istiqamətlərdə həyata keçirilir:
5.13.1. ixtisasartırma;
5.13.2. kadrların yenidən hazırlanması;
5.13.3. stajkeçmə və kadrların təkmilləşdirilməsi;
5.13.4. təkrar ali təhsil;
5.13.5. dərəcələrin yüksəldilməsi;
5.13.6. yaşlıların təhsili.

5.14. Universitetdə əlavə təhsil ödənişli əsaslarla həyata keçirilir.

5.15. Universitetdə ixtisaslar üzrə tədris prosesinin təşkili ali təhsil pilləsinin dövlət təhsil standartına və proqramına, habelə müvafiq ixtisaslar üzrə təhsil proqramına uyğun hazırlanmış və Universitetin rektoru tərəfindən təsdiq edilmiş tədris planı əsasında həyata keçirilir.

5.16. Universitet tədris prosesinin forma, metod və vasitələrini müəyyən edərkən, təhsili proqramlarının və tədris planlarının tam həcmdə mənimsənilməsinə şərait yaradır.

Universitetdə tədris prosesi Avropa Kredit Transfer Sisteminə uyğun olan kredit sistemi əsasında təşkil edilir.

5.17. Universitetdə eyni zamanda beynəlxalq təhsil proqramları həyata keçirilir. Beynəlxalq təhsil proqramları üzrə mütəxəssis hazırlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və bu Nizamnamə ilə tənzimlənir.

5.18. Təhsilalanların bir təhsil proqramından digərinə və ya Universitetdən digər ali təhsil müəssisəsinə köçürülməsi, xaric edilməsi, Universitetə bərpa olunması, onlara akademik məzuniyyət verilməsi qaydasını Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edir.

5.19. Ali təhsilin bakalavriat və magistratura səviyyələrinin proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır. Dövlət attestasiyası bütün təhsilalanlar üçün məcburidir.

5.20. Təhsilalanların yekun attestasiyası Dövlət Attestasiya Komissiyası tərəfindən keçirilir. Dövlət Attestasiya Komissiyasının yaradılması və işinin təşkili qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

5.21. Ali təhsilin bakalavriat və magistratura təhsil proqramlarını başa vurmuş və yekun dövlət attestasiyasından keçmiş tələbələrə Universiteti bitirməsi barədə dövlət nümunəli sənəd (diplom) verilir. Həmin diplomun əlavəsində təhsilalanlar tərəfindən mənimsənilmiş fənlər, onların kreditlə həcmi və qiymətlər göstərilir.

5.22. Doktoranturada təhsili başa vurmuş və müvafiq elmi dərəcə almış şəxslərə həmin elmi dərəcəni təsdiq edən vahid formada dövlət nümunəli sənəd - diplom verilir.

5.23. Ali təhsilin müvafiq səviyyəsini bu və ya digər səbəbdən başa vurmayan təhsilalanlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada arayış verilir.

5.24. Universitetdə əyani təhsil alanlara "Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 30 avqust tarixli 3108 nömrəli Sərəncamına uyğun olaraq təqaüdlər verilir.

**6. Universitetin elmi fəaliyyəti**

6.1. Universitetdə mütəxəssis hazırlığı elmlə təhsilin vəhdəti əsasında həyata keçirilir.

6.2. Universitetin elm sahəsində fəaliyyəti elmi tədqiqat işlərinin aparılmasına, Universitetin profilinə uyğun olaraq, elmin müvafiq sahələrinin inkişafına, elmi tədqiqatların nəticələrinin tədris prosesində tətbiqinə yönəldilir.

6.3. Elmi fəaliyyət Universitetin professor-müəllim heyətinin işinin tərkib hissəsidir.

6.4. Universitet, aparılan elmi tədqiqat işlərinin nəticələrinin istehsalata və tədris prosesinə (mühazirə, məşğələ, seminar, laboratoriya dərslərinə, kurs layihələrinə, kurs və buraxılış işlərinə, magistr dissertasiyalarına) tətbiq olunmasını və monoqrafiyalar, elmi məqalələr, metodik vəsaitlər şəklində dərc olunmaqla və elmi forumlarda məruzə edilməklə yayılmasını təşkil edir.

6.5. Universitetdə aparılan elmi tədqiqat işləri fundamental və tətbiqi xarakter daşıyır.

6.6. Universitetdə həyata keçirilən elmi tədqiqat fəaliyyətinin məqsədi aşağıdakılardır:

6.6.1. fundamental və tətbiqi-nəzəri araşdırmaların aparılmasını, elmi tədqiqat və elmi-texniki işlərin həyata keçirilməsini təmin etmək;

6.6.2. elmi xarakterli tapşırıqları icra etmək;

6.6.3. kadrların elmi potensialından səmərəli istifadə etməklə, təlimin keyfiyyətini yüksəltmək;

6.6.4. təhsilverənlərin ixtisas səviyyəsini artırmaq;

6.6.5. elmi tədqiqatların nəticələrinin və nailiyyətlərinin tətbiqini təşkil etmək;

6.6.6. tədris və elmi proseslərin vəhdətini təmin etmək;

6.6.7. elmi tədqiqat işlərinin nəticələrini tədris prosesində, turizm və menecment sahələrində tətbiq etmək;

6.6.8. elmi tədqiqat işlərinin əsas istiqamətləri üzrə milli və beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

6.6.9. müraciət əsasında dövlət və qeyri-dövlət qurumları üçün analitik, məsləhət və proqnozlaşdırma fəaliyyətini həyata keçirmək;

6.6.10. hüquqi aktların layihələrinin hazırlanmasında və ekspertizasının keçirilməsində iştirak etmək;

6.6.11. milli və xarici ekspertlərin iştirakı ilə elmi seminarlar, konfranslar, simpoziumlar və konqreslər keçirmək.

6.7. Universitetin elmi tədqiqat işlərinin istiqamətlərini Elmi Şura müəyyən edir.

6.8. Universitetin elmi tədqiqat fəaliyyəti Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırılmaqla, Elmi Şuranın təsdiq etdiyi perspektiv və cari planlara uyğun həyata keçirilir.

**7. Təhsilverənlər, təhsilalanlar və digər işçilər**

7.1. Universitetin təhsilverənləri rəhbərlikdən, professor-müəllim heyətindən, elmi işçilərdən və ştat cədvəli ilə müəyyən edilmiş digər işçilərdən ibarətdir.

7.2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin nomenklaturasına daxil olan Universitetin təhsilverənlərinə aid olan prorektorlar və baş mühasib vəzifələrinə kadrların təyin və azad edilməsi Universitet rektorunun təqdimatı əsasında Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri tərəfindən, digər vəzifələrə kadrların təyin və azad edilməsi Universitetin rektoru tərəfindən həyata keçirilir.

7.3. Təhsilverənlər vəzifələrinə peşə hazırlığına, sağlamlığına və mənəvi keyfiyyətlərinə görə müasir tələblərə uyğun dərs keçmək və elmi tədqiqatlar aparmaq bacarığına malik şəxslər təyin edilirlər. Elmi dərəcəsi və elmi adı, vəzifənin profilinə uyğun ali təhsili, pedaqoji təcrübəsi olan şəxslər professor-müəllim heyəti vəzifələrinə təyinat zamanı üstünlüyə malikdirlər.

7.4. Universitetin işçi heyətinə daxil olan şəxslərin, o cümlədən Universitetin inzibati, inzibati-idarəetmə, inzibati-təsərrüfat, mühəndis-texnik, tədris-köməkçi heyətinə aid şəxslərin hüquq və vəzifələri Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, bu Nizamnamə, Universitetin daxili intizam qaydaları, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin normativ hüquqi aktları və işəgötürənlə işçi arasında bağlanılan əmək müqaviləsi ilə tənzimlənir.

7.5. Təhsilverənlərin aşağıdakı hüquqları vardır:

7.5.1. normal əmək, elmi-pedaqoji iş və təhsil şəraiti ilə, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq;

7.5.2. bu Nizamnaməyə uyğun olaraq, təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək;

7.5.3. tədrisin formasını, metodlarını və vasitələrini sərbəst seçmək;

7.5.4. şərəf və ləyaqətinə hörmətlə yanaşılmasını tələb etmək;

7.5.5. Universitetdə vəzifə tutmaq və uyğun gəldikdə seçkili vəzifələrə seçmək və seçilmək;

7.5.6. əlavə təhsil almaq, elmi dərəcəsini yüksəltmək;

7.5.7. qanunlara və Azərbaycan Respublikası Prezidentinin aktlarına uyğun olaraq mükafatlandırılmaq və təltif olunmaq.

7.6. Təhsilverənlərin vəzifələri aşağıdakılardır:
7.6.1. təhsil sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
7.6.2. təhsil proqramlarının mənimsənilməsini təmin etmək;
7.6.3. təhsilalanlarda fəal vətəndaş mövqeyi formalaşdırmaq, onları vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə etmək, müstəqil həyata və əmək fəaliyyətinə hazırlamaq;
7.6.4. təhsilalanları elmi fəaliyyətə cəlb etmək;
7.6.5. şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaq;
7.6.6. pedaqoji etika və əxlaq normalarına riayət etmək, müəllim nüfuzunu yüksək tutmaq, ziyalılıq nümunəsi göstərmək;
7.6.7. təhsilalanların şərəf və ləyaqətinə hörmət etmək;
7.6.8. təhsilalanları fiziki və psixi zorakılığın bütün formalarından qorumaq, onları zərərli vərdişlərdən çəkindirmək;
7.6.9. ixtisas və elmi-pedaqoji səviyyəsini yüksəltmək, elmi araşdırmalar aparmaq, əlavə məşğələlər keçmək;
7.6.10. attestasiyadan keçmək;
7.6.11. Universitetin daxili intizam qaydalarına riayət etmək.
7.7. Təhsilalanların aşağıdakı hüquqları vardır:
7.7.1. dövlət təhsil standartına uyğun keyfiyyətli təhsil almaq;
7.7.2. Universitetin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
7.7.3. Universitetin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman və sağlamlıq mərkəzlərindən, yataqxanalardan, kitabxanalardan və s.) istifadə etmək;
7.7.4. ali təhsil müəssisəsini və ixtisasını dəyişmək;
7.7.5. elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;
7.7.6. sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
7.7.7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
7.7.8. təhsil prosesinin təşkilində və idarə olunmasında iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
7.7.9. Universitetin elmi, ictimai, sosial və mədəni həyatında iştirak etmək;
7.7.10. elmi-praktik konfransların, seminarların, yığıncaqların, görüşlərin və Universitetin fəaliyyət istiqamətləri ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək.
7.8. Təhsilalanların vəzifələri aşağıdakılardır:
7.8.1. dövlət təhsil standartına uyğun biliyə, bacarığa və vərdişlərə yiyələnmək;
7.8.2. təhsilverənlərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;
7.8.3. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;
7.8.4. bu Nizamnamənin tələblərinə riayət etmək.

**8. Universitetin maliyyə-təsərrüfat fəaliyyəti**

8.1. Universitetin əmlakı dövlət və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən onun istifadəsinə, hüquqi və fiziki şəxslər tərəfindən onun mülkiyyətinə və ya istifadəsinə verilən və bu Nizamnamədə öz əksini tapan fəaliyyəti

nəticəsində əldə etdiyi əmlakdan, o cümlədən ona məxsus əqli mülkiyyət məhsullarından ibarətdir.

8.2. Universitet, mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır.

8.3. Universitet bu Nizamnaməyə əsasən göstərdiyi xidmətlər (tədris, elmi tədqiqat, məsləhət-konsaltinq və digər xidmətlər) nəticəsində daşınar və daşınmaz əmlak, o cümlədən bina, avadanlıq, yeni texnologiya, nəqliyyat vasitələri əldə edə bilər.

8.4. Universitet "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, ödənişli təhsil xidmətləri göstərmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, ianələr və könüllü yardımlar almaq hüququna malikdir.

8.5. Universitetin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilir. Universitet ödənişli təhsildən əldə olunan və digər büdcədənkənar vəsaitlərin xərclənməsi istiqamətlərini və işçilərin maddi həvəsləndirilməsinə ayırmaların xüsusi çəkisini sərbəst müəyyən edir, təhsilverənlərə və təhsilalanlara maddi yardımlar göstərir.

8.6. Universitetin maliyyələşdirilməsi təhsilin hər səviyyəsi üzrə müəyyən edilmiş maliyyə normativlərinə əsasən həyata keçirilir. Bu normativlər hər bir təhsilalana düşən məsrəf məbləği nəzərə alınmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

8.7. Universitet aşağıdakı mənbələrdən maliyyələşdirilir:

8.7.1. dövlət vəsaitləri hesabına;

8.7.2. ödənişli təhsildən əldə olunan vəsaitlər hesabına;

8.7.3. "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Universitetə verilən qrantlar, vəsiyyət olunan vəsaitlər, ianələr və yardımlar hesabına;

8.7.4. müsabiqə əsasında dövlət tərəfindən ayrılan elmi tədqiqat qrantları hesabına;

8.7.5. Universitetin təhsil, elm, istehsal, məsləhət (konsaltinq) və bu Nizamnaməyə uyğun olaraq digər xidmətlərdən əldə etdiyi vəsaitlər hesabına;

8.7.6. hüquqi və fiziki şəxslərin, müqavilə əsasında, əlavə təhsil məqsədi ilə ayırdıqları vəsaitlər hesabına;

8.7.7. Universitetin mülkiyyətində olan fiziki və mənəvi cəhətdən köhnəlmiş avadanlığın, nəqliyyat vasitələrinin və təhsil məqsədləri üçün yararsız olan digər əmlakın satışından əldə edilən vəsaitlər hesabına;

8.7.8. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq əldə olunan digər vəsaitlər hesabına.

8.8. Universitet bilavasitə mənfəət əldə etmək məqsədi güdmür.

**9. Universitetin beynəlxalq əməkdaşlığı**

Universitetin xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, həmçinin kadrların hazırlanması sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə xarici ölkələrin dövlət orqanları arasında bağlanmış sazişlər əsasında həyata keçirilir.

**10. Universitetin yenidən təşkili və ləğvi**

10.1. Universitetin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

10.2. Universitet ləğv edildikdə, onun əmlakına Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq sərəncam verilir.

## "MİLLİ ARXİV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 27 İYUL TARİXLİ 168 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanını "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1373-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 430; 2006, № 8, maddə 435; 2013, № 8, maddə 899) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin beşinci hissəsində birinci halda nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;".

2. Üçüncü abzasda "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun" sözləri "həmin Qanunun" sözləri ilə, "və axırıncı hissələrində" sözləri "hissəsində ikinci halda və yeddinci hissəsində" sözləri ilə əvəz edilsin.

3. Altıncı abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"həmin Qanunun 10-cu maddəsinin beşinci hissəsində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 mart 2016-cı il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 13 İYUN TARİXLİ 725 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respubli-

kası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanını "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1372-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 386; 2002, № 1, maddə 14; 2006, № 9, maddə 743, № 11, maddə 943; 2007, № 11, maddə 1115; 2008, № 1, maddə 8, № 6, maddə 498; 2010, № 8, maddə 723; 2013, № 3, maddə 241, № 5, maddə 498; 2015, № 9, maddə 1004) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci abzasa "Qanununun" sözündən sonra "1-ci maddəsinin beşinci hissəsində birinci halda, 5-ci maddəsinin adında, birinci hissəsində birinci halda və ikinci hissəsində birinci halda, 7-ci maddəsinin ikinci hissəsində birinci halda və üçüncü hissəsində ikinci halda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində ikinci halda və ikinci cümləsində birinci halda, 14-cü maddəsinin birinci hissəsində ikinci halda, 20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində birinci halda, ikinci hissəsində ikinci halda və üçüncü hissəsində, 21-ci maddəsinin birinci hissəsində," sözləri, "22-ci maddəsinin birinci hissəsində" sözlərindən sonra ", 25-ci maddəsinin altıncı hissəsində birinci halda və 27-ci maddəsinin ikinci hissəsində birinci halda" sözləri əlavə edilsin və "7-ci maddəsinin ikinci hissəsində və üçüncü hissəsində ikinci halda" sözləri "7-ci maddəsinin ikinci hissəsində ikinci halda və üçüncü hissəsində üçüncü halda" sözləri ilə əvəz edilsin.

2. Dördüncü abzasda "1-ci maddəsinin beşinci hissəsində ikinci" sözləri "1-ci maddəsinin beşinci hissəsində üçüncü" sözləri ilə, "5-ci maddəsinin birinci hissəsində" sözləri "5-ci maddəsinin birinci hissəsində ikinci halda" sözləri ilə, "13-cü maddəsinin birinci və ikinci hissələrinin ikinci cümlələrində, 14-cü maddəsinin birinci və ikinci hissələrində" sözləri "13-cü maddəsinin birinci hissəsinin ikinci cümləsində ikinci halda və ikinci hissəsinin ikinci cümləsində, 14-cü maddəsinin birinci hissəsində birinci halda və ikinci hissəsində" sözləri ilə, "20-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və ikinci hissəsində" sözləri "20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində ikinci halda, ikinci cümləsində və ikinci hissəsində birinci halda" sözləri ilə, "25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində" sözləri "25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində ikinci halda" sözləri ilə, "27-ci maddəsinin ikinci hissəsində" sözləri "27-ci maddəsinin ikinci hissəsində ikinci halda" sözləri ilə əvəz edilsin.

3. Səkkizinci abzasda "5-ci maddəsinin ikinci hissəsində" sözləri "5-ci maddəsinin ikinci hissəsində ikinci halda" sözləri ilə əvəz edilsin.

4. Doqquzuncu abzasda "13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində" sözləri "13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində birinci halda" sözləri ilə əvəz edilsin.

5. On birinci abzasda "1-ci maddəsinin beşinci hissəsində hər iki halda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində" sözləri "1-ci maddəsinin beşinci hissəsində ikinci və üçüncü hallarda, 13-cü maddəsinin birinci hissəsinin birinci cümləsində birinci halda" sözləri ilə, "5-ci maddəsinin birinci və ikinci hissələrində" sözləri "5-ci maddəsinin birinci və ikinci hissələrində ikinci hallarda" sözləri ilə, "13-cü maddəsinin birinci və ikinci hissələrinin ikinci cümlələrində, 14-cü maddəsinin birinci və ikinci hissələrində" sözləri "13-cü maddəsinin ikinci cümləsində ikinci halda və ikinci hissəsinin ikinci cümləsində, 14-cü maddəsinin birinci hissəsində birinci halda və ikinci hissəsində" sözləri ilə, "20-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və ikinci hissəsində"

sözləri "20-ci maddəsinin birinci hissəsinin birinci cümləsində ikinci halda, ikinci cümləsində və ikinci hissəsində birinci halda" sözləri ilə, "25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində" sözləri "25-ci maddəsinin birinci hissəsinin birinci və ikinci cümlələrində və altıncı hissəsində ikinci halda" sözləri ilə, "27-ci maddəsinin ikinci hissəsində" sözləri "27-ci maddəsinin ikinci hissəsində ikinci halda" sözləri ilə əvəz edilsin.

6. On ikinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on üçüncü abzas əlavə edilsin:

"həmin Qanunun 1-ci maddəsinin beşinci hissəsində, 5-ci maddəsinin adında, birinci və ikinci hissələrində, 7-ci maddəsinin ikinci və üçüncü hissələrində, 13-cü maddəsinin birinci hissəsində, 14-cü maddəsinin birinci hissəsində, 20-ci maddəsinin birinci, ikinci və üçüncü hissələrində, 21-ci maddəsinin birinci hissəsində, 25-ci maddəsinin altıncı hissəsində və 27-ci maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 mart 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ ELM, TEXNİKA, MEMARLIQ, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT ÜZRƏ DÖVLƏT MÜKAFATLARI KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

Artur Rasi-zadə – Azərbaycan Respublikasının Baş naziri

**Komissiyanın üzvləri**

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Akif Əli Zadə – Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Oqtay Şirəliyev – Azərbaycan Respublikasının səhiyyə naziri

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri

Abbas Ələsgərov – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Arif Mehdiyev – Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri

İsmayıl Sadıqov – Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri

İbrahim Quliyev – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

İsmayıl Hacıyev – Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin sədri
Əhliman Əmiraslanov – Azərbaycan Milli Elmlər Akademiyası Biologiya və Tibb elmləri bölməsinin akademik-katibi
Ömər Eldarov – Azərbaycan Rəssamlıq Akademiyasının rektoru
Abel Məhərrəmov – Bakı Dövlət Universitetinin rektoru
Siyavuş Kərimi – Azərbaycan Milli Konservatoriyasının rektoru
Çingiz Abdullayev – Azərbaycan Yazıçılar Birliyinin katibi
Cəlal Abbasov – Azərbaycan Bəstəkarlar İttifaqının katibi
Altay Hacıyev – xalq rəssamı
Arif Məlikov – xalq artisti
Şəfiqə Məmmədova – Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri
Elbay Qasımzadə – Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri
Mövlud Süleymanlı – xalq yazıçısı
Məhərrəm Qasımlı – Azərbaycan Aşıqlar Birliyinin sədri

2. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1515) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 mart 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DƏNİZKƏNARI BULVAR İDARƏSİNİN ƏSASNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 20 aprel tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında
Dənizkənarı Bulvar İdarəsinin
Əsasnaməsi

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi (bundan sonra – İdarə) Bakı şəhərindəki Dənizkənarı bulvarın, o cümlədən Azərbaycan Respublikasının Dövlət Bayrağı Meydanı Kompleksinin və Dövlət Bayrağı Muzeyinin fəaliyyəti, mühafizəsi, perspektiv inkişafı və bərpası sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunla nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. İdarə Bakı şəhərində yerləşir.

2. İdarənin fəaliyyət istiqamətləri

2.0. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. Dənizkənarı bulvarın, Azərbaycan Respublikasının Dövlət Bayrağı Meydanı Kompleksinin və Dövlət Bayrağı Muzeyinin fəaliyyəti, mühafizəsi, perspektiv inkişafı və bərpası üzrə tədbirlərin yerinə yetirilməsinə dövlət nəzarətini həyata keçirmək;

2.0.2. Dənizkənarı bulvara, o cümlədən Azərbaycan Respublikasının Dövlət Bayrağı Meydanı Kompleksinə və Dövlət Bayrağı Muzeyinə dair proqnozlaşdırma və planlaşdırma işlərini təşkil etmək və onların perspektiv inkişafını təmin etmək;

2.0.3. Dənizkənarı bulvarın tarixi simasının saxlanılmasını, ərazinin zəngin florasının və təbii landşaftının bərpasını və inkişaf etdirilməsini, turizm və rekreasiya üçün şərait yaradılmasını təmin etmək;

2.0.4. əhalinin mənəvi və estetik tələbatının ödənilməsi, istirahətinin təşkili, habelə sağlamlığının möhkəmləndirilməsi üçün teatrlaşdırılmış tamaşaların, kütləvi bayram proqramlarının, konsertlərin, musiqi və rəqs gecələrinin, sərgilərin, intellektual yarışların və idman tədbirlərinin keçirilməsini təmin etmək.

3. İdarənin vəzifələri

3.0. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. fəaliyyət istiqamətləri üzrə Dənizkənarı bulvarın fəaliyyəti, mühafizəsi, perspektiv inkişafı və bərpası sahəsində dövlət proqramları və inkişaf konsepsiyaları layihələrinin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.0.2. İdarənin fəaliyyət istiqamətlərinə dair məsələlərlə bağlı digər icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir;

3.0.3. Dənizkənarı bulvarın ərazisində hər hansı bərpa, təmir-inşaat, rekonstruksiya, regenerasiya və konservasiya layihələrinin şəhərsalma və tikinti qanunvericiliyində nəzərdə tutulmuş qaydada ekspertizasının keçirilməsi üçün tədbirlər görür, layihə və smeta sənədlərini müvafiq qurumlarla razılaşdırır və təsdiq edir, işlərin təsdiq olunmuş layihə sənədlərinə uyğun aparılmasının monitorinqini təşkil edir;

3.0.4. Azərbaycan Respublikasının Dövlət bayrağının mahiyyətini və əhəmiyyətini əhali arasında geniş təbliğ edir;

3.0.5. qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla, müasir elmi-texniki nailiyyətlərin tətbiqini təmin edir;

3.0.6. dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının aidiyyəti üzrə ayrılan vəsaitlərindən, kredit, qrant və digər maliyyə vəsaitlərindən təyinatına uyğun istifadə olunmasını təmin edir;

3.0.7. Azərbaycan Respublikasının Dövlət bayrağının və Dövlət Bayrağı Muzeyinin beynəlxalq və ölkə səviyyəsində təbliğini təşkil edir;

3.0.8. öz fəaliyyəti haqqında, habelə Dənizkənarı bulvar ərazisində keçiriləcək tədbirlər barədə məlumatların yerləşdirilməsini təmin edir;

3.0.9. fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görür;

3.0.10. Dənizkənarı bulvarın ərazisində törədilmiş inzibati xətalar və digər hüquq pozuntuları barədə müvafiq dövlət orqanlarına müraciət edir;

3.0.11. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir;

3.0.12. İdarənin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti üzrə təkliflər verir;

3.0.13. İdarənin fəaliyyəti ilə bağlı daxil olan təklif və müraciətlərə baxır və müvafiq tədbirlər görür;

3.0.14. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

4. İdarənin hüquqları

4.0. İdarə öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. Dənizkənarı bulvarın fəaliyyəti, mühafizəsi, perspektiv inkişafı və bərpası ilə bağlı hüquqi aktların hazırlanmasında iştirak etmək və təkliflər vermək;

4.0.2. fəaliyyət istiqamətləri üzrə Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək;

4.0.3. strukturuna daxil olmayan tabeliyindəki qurumlar vasitəsilə Dənizkənarı bulvar ərazisində pullu kommunal xidmətlərinin, nəqliyyat vasitələrinin parklanması xidmətlərinin, kiçikhəcmli gəzinti gəmiləri ilə sahilyanı dəniz gəzintiləri xidmətlərinin, habelə daimi və mövsümi xarakter daşıyan ticarət xidmətlərin göstərilməsini təşkil etmək;

4.0.4. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Dənizkənarı bulvar ərazisində reklam yerləşdirmək üçün icazə vermək, müvafiq müqavilə bağlamaq, habelə reklama dair texniki şərtlər pasportunu hazırlamaq;

4.0.5. bayram günlərində Dənizkənarı bulvar ərazisində atəşfəşanlığın təşkili üçün tədbirlər görmək;

4.0.6. fəaliyyət istiqamətləri üzrə məlumatlar (sənədlər) almaq məqsədi ilə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğular vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.7. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək, bu sahədə beynəlxalq təcrübəni öyrənmək;

4.0.8. fəaliyyət istiqamətləri üzrə təhlil aparmaq, analitik materiallar hazırlamaq, təkliflər vermək;

4.0.9. fəaliyyət istiqamətləri üzrə işçilərin peşə hazırlığının artırılması üçün xüsusi seminarlar təşkil etmək, o cümlədən onların yerli və beynəlxalq səviyyədə keçirilən təlim kurslarında, seminarlarda, konfranslarda və digər tədbirlərdə iştirakını təmin etmək;

4.0.10. müstəqil ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

4.0.11. fəaliyyət istiqamətləri üzrə, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait dairəsində, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.0.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

5. İdarənin fəaliyyətinin təşkili

5.1. İdarənin aparatı və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) İdarənin vahid sistemini təşkil edir. İdarə öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. İdarənin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi, aparatının işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

5.3. İdarənin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslər, təşkilatlar və sair) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.4. İdarənin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. İdarənin rəisi İdarəyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.5. İdarə rəisinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. İdarə rəisinin müavinləri İdarə rəisinin onlara həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

5.6. İdarənin rəisi:

5.6.1. İdarənin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.6.2. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə İdarənin digər vəzifəli şəxslərinin ştat, kadr, maliyyə, təsərrüfat və digər məsələlər üzrə səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.6.3. İdarənin aparatının struktur bölmələrinin əsasnamələrini təsdiq edir, strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslər, təşkilatlar və sair) nizamnamələrini isə təsdiq olunmaq üçün təqdim edir;

5.6.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində İdarənin aparatının və İdarənin strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.6.5. İdarənin aparatının işçilərini, İdarənin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.6.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, onların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

5.6.7. dövlət büdcəsindən ayrılmış vəsaitin səmərəli xərclənməsini təmin edir;

5.6.8. İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.6.9. İdarəni təmsil edir;

5.6.10. İdarənin fəaliyyətinə dair illik hesabatı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

5.7. İdarənin rəisinin, rəisin müavinlərinin və aparatın işçilərinin əməyinin ödənilməsi normaları və digər təminatlar, müvafiq olaraq Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin, onların müavinlərinin və aparat işçilərinin əməyinin ödənilməsi normalarına və təminatlarına bərabər tutulur.

5.8. Müvafiq sahədə elmi-texniki nailiyyətlərin və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün İdarədə ictimai əsaslarla fəaliyyət göstərən elmi-texniki şura yaradıla bilər. Elmi-texniki şura haqqında Əsasnaməni İdarənin rəisi təsdiq edir.

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKİYƏ RESPUBLİKASI HÖKUMƏTİ ARASINDA HƏRBİ/MÜLKİ HEYƏTİN SOSİAL VƏ MƏDƏNİ MƏQSƏDLİ MÜBADİLƏSİNƏ DAİR PROTOKOLUN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair 2016-cı il martın 15-də Ankara şəhərində imzalanmış Protokol təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Protokolun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Protokolun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 aprel 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nə və Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"nə uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. 8.35-ci bənddə "tədris" sözündən əvvəl "Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Nizamnaməsinə uyğun olaraq, təsdiqi təhsil müəssisəsi rəhbərinin səlahiyyətində olan tədris planı istisna olmaqla, digər" sözləri əlavə edilsin.

2. 14.3-cü bənddə "(hüquqi şəxslərin, təşkilatların və sair) rəhbərlərini" sözlərindən sonra "(Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən hallar istisna olmaqla)" sözləri əlavə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 may 2016-cı il*

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 15 FEVRAL TARİXLİ 828 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanını "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1375-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci bəndə "25.1-ci maddəsində hər iki halda" sözlərindən sonra ", 40.4-cü maddəsinin birinci cümləsində birinci halda və ikinci cümləsində ikinci halda" sözləri əlavə edilsin.

2. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. həmin Qanunun 40.4-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş elmi təşkilat Azərbaycan Milli Elmlər Akademiyasıdır.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 may 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 26 DEKABR TARİXLİ 432 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "BAKI XOREOQRAFİYA AKADEMİYASININ NİZAMNAMƏSİ"NDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. Aşağıdakı məzmunda 2.2.1.3-cü yarımbənd əlavə edilsin:

"2.2.1.3. tam orta təhsil;";

1.2. 4.15.5-ci yarımbənddə "ümumi orta təhsil" sözlərindən sonra ", tam orta təhsil" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 iyul 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ UKRAYNANIN MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA 2016-2020-Cİ İLLƏR ÜZRƏ MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR PROQRAMIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın Mədəniyyət Nazirliyi arasında 2016-2020-ci illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair 2016-cı il iyulun 14-də Bakı şəhərində imzalanmış Proqram təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən Proqramın müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Proqramın qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ukrayna Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 oktyabr, 2016-cı il*

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ İRAN İSLAM RESPUBLİKASININ MƏDƏNİ İRS, ƏL İŞLƏRİ VƏ TURİZM TƏŞKİLATI ARASINDA TURİZM ƏMƏKDAŞLIĞI SAHƏSİNDƏ İCRA PROQRAMININ (2016-2019) TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində 2016-cı il avqustun 7-də Bakı şəhərində imzalanmış İcra Proqramı (2016-2019) təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Fərmanın 1-ci hissəsində göstərilən İcra Proqramının müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi İcra Proqramının qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İran İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 oktyabr 2016-cı il*

# “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏNİN, NAZİRLİYİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanını “Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli

393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120; 2016, № 5, maddə 850) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

“3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin işçilərinin say həddi cəmi 379 ştat vahidi olmaqla, Nazirliyin aparatı üzrə 160 ştat vahidi, Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi və regional mədəniyyət və turizm idarələri üzrə 219 ştat vahidi müəyyən edilsin.”.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə”nin 14.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

“14.3. Nazirliyin aparatının işçilərini, strukturuna daxil olan qurumların rəhbərlərini və onların müavinlərini, işçilərini, habelə Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi hallar istisna olmaqla, Nazirliyin nomenklaturasına daxil olan digər işçiləri vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, müvafiq sahədə fərqlənən işçiləri Nazirlik tərəfindən təsis olunmuş döş nişanları və fəxri fərmanlarla təltif edir;”.

3. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin strukturu”nun 3-cü və 4-cü bəndləri aşağıdakı redaksiyada verilsin:

“3. Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi.

4. Regional mədəniyyət və turizm idarələri.”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 oktyabr 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2008-Cİ İL 20 İYUN TARİXLİ 773 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ “TURİZM VƏ REKREASİYA ZONALARI HAQQINDA NÜMUNƏVİ ƏSASNAMƏ”DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanının tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 491) ilə təsdiq edilmiş “Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə”nin 4.6.6-cı yarımbəndindən “müvafiq fəaliyyət növünə xüsusi razılığı (lisenziyası) olmayan və” sözləri çıxarılsın.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 noyabr 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 280-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120; 2016, № 5, maddə 850) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"nin 8.25-1-ci bəndi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 noyabr 2016-cı il***

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 30 SENTYABR TARİXLİ 313-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 15 FEVRAL TARİXLİ 828 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 313-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865) 1.1.7-ci yarımbəndi ləğv edilsin, 2.2-ci bəndindən ", 24.4-cü" sözləri çıxarılsın.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 noyabr 2016-cı il*

## "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ YANINDA MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 18 DEKABR TARİXLİ 409 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamının 3-cü hissəsinə əsasən Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və regional mədəniyyət və turizm idarələrinin abidə mühafizəçiləri ştatları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini və "Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 29 mart tarixli 1932 nömrəli Sərəncamının 3-cü hissəsini rəhbər tutaraq, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin qorunmasını, istifadəsi, bərpası və yenidən qurulmasına dövlət nəzarətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin aparatının işçilərinin say həddi 25 ştat vahidi müəyyən edilsin.

2. "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1563) 3-cü hissəsində "23" rəqəmləri "25" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını bir ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 dekabr 2016-cı il***

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 29 NOYABR TARİXLİ 441-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1999-CU İL 27 İYUL TARİXLİ 164 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 441-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 7-1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

4. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 426; 2003, № 10, maddə 571; 2009, № 4, maddə 226; 2014, № 11, maddə 1410) 2-ci hissəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"həmin Qanunun 7-1.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 dekabr 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAF ETDİRİLMƏSİ İLƏ BAĞLI BİR SIRA TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanının və "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamının tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Turizm Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Turizm Şurasının tərkibi" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ölkənin turizm potensialının daha da artırılmasını və beynəlxalq səviyyədə tanıdılmasını təmin edən “Milli Turizm Təbliğat Bürosu” publik hüquqi şəxsi üç ay müddətində yaratsın və publik hüquqi şəxsin təsisçisinin “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində nəzərdə tutulan səlahiyyətlərini həyata keçirsin.

4. Müəyyən edilsin ki, “Milli Turizm Təbliğat Bürosu” publik hüquqi şəxsin saxlanması və fəaliyyətinin təmin edilməsi xərcləri onun fəaliyyətindən əldə edilən gəlirlər (o cümlədən aldığı kreditlər, qrantlar, habelə işlərin görülməsindən, xidmətlər göstərilməsindən daxilolmalar və s.) hesabına maliyyələşdirilir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılacaq publik hüquqi şəxsin fəaliyyətinin təşkili ilə bağlı müvafiq yerin ayrılmasını və zəruri maddi-texniki təminat məsələlərini həll etsin;

5.5. bu Fərmanın 3-cü hissəsinə əsasən yaradılacaq publik hüquqi şəxsin ilkin dövrdə fəaliyyətini təmin etmək üçün nizamnamə fondunun formalaşmasını təmin etsin;

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi “Milli Turizm Təbliğat Bürosu” publik hüquqi şəxsin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

8. Bütün mərkəzi və yerli icra hakimiyyəti orqanları, habelə aidiyyəti dövlət qurumları bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Turizm Şurasına lazımi kömək göstərilməsini və onun müraciəti əsasında zəruri məlumatların təqdim olunmasını təmin etsinlər.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 dekabr 2016-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ TURİZM ŞURASI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 27 dekabr tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Turizm Şurası (bundan sonra – Şura) "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasında turizm sahəsində mövcud vəziyyətin təhlil edilməsi, bu sahədəki problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə yaradılmış və ictimai əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

1.2. Şura öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

2. Şuranın vəzifələri

2.0. Şuranın əsas vəzifələri aşağıdakılardır:

2.0.1. turizm sahəsinin inkişafı istiqamətlərini hazırlamaq və onların həyata keçirilməsi mexanizmləri üzrə təkliflər vermək;

2.0.2. turizm sahəsində mövcud vəziyyəti təhlil etmək və bu sahədəki problemlərin operativ həlli məqsədilə tədbirlər görülməsinə dair Azərbaycan Respublikasının Prezidentinə əsaslandırılmış təkliflər təqdim etmək;

2.0.3. turizm fəaliyyətini tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

2.0.4. turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasını əlaqələndirmək;

2.0.5. turizm sahəsində dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;

2.0.6. ölkənin turizm potensialından istifadə imkanlarının artırılması, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması ilə bağlı təkliflər vermək;

2.0.7. turizm sahəsində beynəlxalq əməkdaşlığın və işgüzar əlaqələrin genişləndirilməsinə dair təkliflər hazırlamaq;

2.0.8. turizm sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri arasında əməkdaşlıq əlaqələrinin beynəlxalq təcrübə nəzərə alınmaqla inkişafının stimullaşdırılmasına dair təkliflər hazırlamaq;

2.0.9. beynəlxalq təcrübə nəzərə alınmaqla, turizm sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsinə dair təkliflər hazırlamaq;

2.0.10. turizm sahəsində kadr hazırlığı sisteminin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

2.0.11. turizm sahəsində işlərin gedişatı, o cümlədən sərhəd buraxılış məntəqələrindən turistlərin Azərbaycan Respublikası ərazisinə buraxılışının həyata keçirilməsi ilə bağlı müşahidələr aparılmasını, monitorinqlər keçirilməsini təmin etmək, məlumatları toplamaq, təhlil etmək, məmnunluq anketi tərtib etmək və müvafiq informasiyanı müntəzəm olaraq ictimaiyyətə açıqlamaq.

3. Şuranın fəaliyyətinin təşkili

3.1. Şuranın sədrini və üzvlərini Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

3.2. Şuranın sədri aşağıdakı vəzifələri yerinə yetirir:

3.2.1. Şuranın fəaliyyət planını təsdiq edir və həyata keçirir;

3.2.2. Şuranın işini təşkil edir və ona rəhbərlik edir;

3.2.3. Şura üzvlərinin təklifləri nəzərə alınmaqla Şuranın iclaslarının gündəliyini müəyyən edir və keçirilən iclaslarda sədrlik edir;

3.2.4. müzakirə edilən məsələlərə dair Şuranın adından qəbul olunan qərarları, məktubları və Şuranın fəaliyyəti ilə bağlı digər sənədləri imzalayır;

3.2.5. Şuranın fəaliyyəti ilə bağlı müvafiq işçi qruplar yaradır;

3.2.6. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər cari işləri görür.

3.3. Şura üzvlərinin hüquq və vəzifələri aşağıdakılardır:

3.3.1. Şuranın iclaslarında və fəaliyyətində iştirak etmək;

3.3.2. Şuranın iclaslarının gündəliyi, eləcə də gündəliyə daxil edilmiş məsələlər barədə təkliflər vermək;

3.3.3. Şuranın fəaliyyəti ilə bağlı digər cari işləri görmək.

3.4. Şura dövlət orqanlarına və qurumlarına, hüquqi və fiziki şəxslərə, beynəlxalq təşkilatlara Şuranın səlahiyyətinə aid məsələlərlə bağlı məlumatların əldə edilməsi məqsədilə sorğular göndərə bilər.

3.5. Şuranın iclaslarının keçirilməsi ilə bağlı təşkilati məsələlərin həllini və kargüzarlıq işinin aparılmasını Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyində fəaliyyət göstərən Şuranın Katibliyi həyata keçirir.

3.6. Şuranın sədri Katibliyin fəaliyyətinə dair təlimatları təsdiq edir və onun tərkibini müəyyən edir.

3.7. Şuranın Katibliyi:

3.7.1. Şuranın iclaslarının gündəliyi, tarixi və keçiriləcəyi yer haqqında məlumatları Şuranın üzvlərinə çatdırır;

3.7.2. müvafiq tapşırıq əsasında aidiyyəti dövlət orqanlarının və qurumlarının, hüquqi şəxslərin nümayəndələrini və mütəxəssisləri Şuranın iclaslarına dəvət edir;

3.7.3. Şuranın iclaslarında baxılacaq müvafiq sənədlərin hazırlanması məqsədilə sahibkarları, onların ictimai təşkilatlarını, aidiyyəti dövlət orqanlarını, mütəxəssisləri cəlb etməklə sahələr üzrə işçi qruplar yaradır;

3.7.4. Şuranın müzakirəsinə çıxarılacaq məsələlər üzrə zəruri sənədlərin layihələrini hazırlayır və Şuranın üzvlərinə çatdırır;

3.7.5. Şuranın üzvlərindən daxil olan məlumatlar haqqında arayışı Şuranın sədrinə təqdim edir;

3.7.6. Şuranın iclaslarını protokollaşdırır və iclasın yekun sənədlərinin layihələrini Şuranın sədrinə təqdim edir;

3.7.7. Şuranın iclaslarında qəbul olunmuş qərarlar haqqında Şuranın üzvlərini məlumatlandırır;

3.7.8. Şuranın fəaliyyəti ilə əlaqədar digər funksiyaları həyata keçirir.

3.8. Şuranın iclasları növbəti və növbədənkənar olaraq keçirilir. Növbəti iclaslar ildə iki dəfədən az olmayaraq, növbədənkənar iclaslar isə Şura sədrinin və ya Şura üzvlərinin yarıdan çoxunun müraciətinə əsasən keçirilir.

3.9. Şuranın iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

3.10. Şuranın iclaslarında səsvermə açıq keçirilir və qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslər bərabər olduqda, Şura sədrinin səsi həlledicidir.

3.11. Şuranın iclaslarında qəbul edilmiş qərarlar protokolla rəsmiləşdirilir, Şuranın sədri və üzvləri tərəfindən imzalanır.

3.12. Şurada müzakirə edilən məsələlərin tənzimləmə predmetindən və əhatə etdiyi sahədən asılı olaraq, Şuranın üzvü olmayan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, habelə aidiyyəti dövlət qurumlarının nümayəndələri Şuranın iclaslarına dəvət edilə bilərlər.

3.13. Şuranın yenidən təşkilini və ləğvini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## AZƏRBAYCAN RESPUBLİKASI TURİZM ŞURASININ TƏRKİBİ

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 27 dekabr tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

**Şuranın sədri**

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

**Şuranın üzvləri:**

İnam Kərimov – Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri

Arif Məmmədov – Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Administrasiyasının direktoru

Nadir Hüseynov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Emin Hüseynov – Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Sevinc Həsənova – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Sahib Ələkbərov – Azərbaycan Respublikası vergilər nazirinin müavini

Tapdıq Əmiraslanov – Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini

Oruc Zalov – Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Firdovsi Əliyev – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Əsgər Abdullayev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Rafiq Cəlilov – Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müavini

Fərhad Tağı-zadə – Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti rəisinin müavini

Pərviz Musayev – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Bədəl Bədəlov – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

Natəvan Qədimova – Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri

Fidumə Hüseynova – Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Əsgər Ələkbərov – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi

İlqar Mustafayev – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi.

# "AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT DİLİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 29 NOYABR TARİXLİ 417-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun 7.1-1-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 yanvar 2017-ci il***

# "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ YANINDA MƏDƏNİ İRSİN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 18 DEKABR TARİXLİ 409 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən abidələrin siyahıya alınması, pasportlaşdırılması, tarix və mədəniyyət qoruqlarının maddi-texniki bazasının inkişafı Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın vəzifələrindəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mədəni irsin qorunması istiqamətində fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1563; Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1148 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.3-cü bənddə "bir" sözü "iki" sözü ilə əvəz edilsin.

1.2. 5.4-cü bənddə "müavini" sözü "müavinləri" sözü ilə, "ona" sözü "onlara" sözü ilə, "daşıyır" sözü "daşıyırlar" sözü ilə əvəz edilsin.

1.3. 5.5.3-cü yarımbənddə "müavininin" sözü "müavinlərinin" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 fevral 2017-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"ni "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 965-IVQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056, № 9, maddə 985, № 10, maddə 1120; 2016, № 5, maddə 850, № 10, maddə 1646, № 11, maddə 1809) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"nin 8.25-ci bəndində "aparmaq" sözü "təşkil etmək" sözləri ilə əvəz edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 mart 2017-ci il*

# "İNFORMASİYA, İNFORMASİYALAŞDIRMA VƏ İNFORMASİYANIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 10 MART TARİXLİ 539-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "İNFORMASİYA, İNFORMASİYALAŞDIRMA VƏ İNFORMASİYANIN MÜHAFİZƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1998-Cİ İL 19 İYUN TARİXLİ 729 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 539-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Qanunun pozulmasına görə məsuliyyət müəyyən edən qanun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 6, maddə 390) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci və üçüncü abzaslar müvafiq olaraq 2.1-ci və 2.2-ci bəndlər hesab edilsin;

3.2. 2.2-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.3-cü bənd əlavə edilsin:

"2.3. həmin Qanunun 13-1.3-cü, 13-3.1-ci, 13-3.2-ci, 13-3.3-cü maddələrində, 13-3.4-cü maddəsinin birinci cümləsində, 13-3.6-cı maddəsinin birinci cümləsində hər iki halda və ikinci cümləsində, 13-3.8-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir.".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 mart 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRLİYİ ARASINDA "AMERİKA GUŞƏLƏRİ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi arasında "Amerika guşələri" Proqramı çərçivəsində əməkdaşlıq haqqında 2017-ci il fevralın 23-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Amerika Birləşmiş Ştatlarına bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 aprel 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ QƏTƏR DÖVLƏTİ HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMUNUN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında 2017-ci il fevralın 27-də Doha şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qətər Dövləti Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2017-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2015-Cİ İL 21 DEKABR TARİXLİ 710 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN NİZAMNAMƏSİ"NDƏ DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ni "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 21 dekabr tarixli 1168 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803) ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin 4.3-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"4.3. Universitetə qəbul planını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 may 2017-ci il*

# "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 14 APREL TARİXLİ 617-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 617-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin altıncı hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyun 2017-ci il***

## "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ YANINDA MƏDƏNİ İRSIN QORUNMASI, İNKİŞAFI VƏ BƏRPASI ÜZRƏ DÖVLƏT XİDMƏTİNİN YARADILMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 18 DEKABR TARİXLİ 409 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, tarix və mədəniyyət abidələrinin təhlükəsizliyini, həmçinin onların funksional təyinatının və memarlıq-estetik görünüşünün qorunması işinin təşkilində çevikliyi təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, №12, maddə 1563; 2016, №12, maddə 2066; 2017, №2, maddə 181) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi"nin 3.1.23-cü yarımbəndində "abidələrin mühafizə zonasının yaradılması ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir" sözləri "abidələrin mühafizə zonalarını müəyyən edir" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyun 2017-ci il***

# "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 15 FEVRAL TARİXLİ 828 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865, № 11, maddə 1811) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə "32.2-ci," sözlərindən sonra "33.3-cü maddəsinin birinci və ikinci (qoruqların sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi üzrə) cümlələrində," sözləri əlavə edilsin.

1.2. 2.3-cü bənddə "25.3-cü maddəsində" sözlərindən sonra ", 33.3-cü maddəsinin ikinci cümləsində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəni irs abidələrinin mühafizə zonalarının müəyyən edilməsi üzrə), 40.3-cü maddəsində ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəni irs abidələrinin mühafizə zonalarının müəyyən edilməsi üzrə)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyun 2017-ci il***

# “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏNİN, NAZİRLİYİN STRUKTURUNUN TƏSDİQ EDİLMƏSİ VƏ APARATININ İŞÇİLƏRİNİN SAY HƏDDİNİN MÜƏYYƏN EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanını “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli 1148 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120; 2016, № 5, maddə 850, № 10, maddə 1646, № 11, maddə 1809; 2017, № 3, maddə 356) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü hissədə “379” rəqəmləri “404” rəqəmləri ilə əvəz edilsin, “160 ştat vahidi,” sözlərindən sonra “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti üzrə 25 ştat vahidi,” sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 8.32-2-ci yarımbənd əlavə edilsin:

“8.32-2. strukturuna daxil olan Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti vasitəsilə, “İçərişəhər” Dövlət Tarix-Memarlıq və “Qala” Dövlət Tarix-Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, mədəni irs abidələrinin mühafizə zonalarını müəyyən etmək;”.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyun 2017-ci il***

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ ARXİV İDARƏSİ İLƏ QAZAXISTAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ İDMAN NAZİRLİYİ ARASINDA ARXİV İŞİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında 2017-ci il aprelin 3-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Qazaxıstan Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 iyun 2017-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2014-CÜ İL 26 DEKABR TARİXLİ 432 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "BAKI XOREOQRAFİYA AKADEMİYASININ NİZAMNAMƏSİ"NDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ni "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1585; 2016, № 7, maddə 1250, № 11, maddə 1803; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 may tarixli 1385 nömrəli və 16 may tarixli 1398 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci, 7.3-cü bəndlərə və 2.1.4-cü, 3.2.8-ci yarımbəndlərə "fundamental" sözündən sonra ", nəzəri-metodoloji, pedaqoji-metodiki" sözləri əlavə edilsin.

2. 3.1.13-cü yarımbənddə "Azərbaycan Respublikasının Qanununa" sözləri "və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri ilə əvəz edilsin.

3. 6.9-cu bəndə "mütəxəssis" sözündən sonra ", elmi" sözü əlavə edilsin.

4. 6.22-ci bənddə "formada dövlət nümunəli sənəd (diplom)" sözləri "formalı dövlət sənədi - diplom" sözləri ilə əvəz edilsin.

5. 7.5.1-ci yarımbənddə "və tətbiqi-nəzəri" sözləri ", nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi" sözləri ilə əvəz edilsin.

6. 8.10-cu bənddə "elmi və elmi-pedaqoji" sözləri "xüsusi elmi" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 iyul 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2015-Cİ İL 21 DEKABR TARİXLİ 710 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN NİZAMNAMƏSİ"NDƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ni "Elm haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 may tarixli 1385 nömrəli və 16 may tarixli 1398 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci, 6.5-ci bəndlərə və 2.2.10-cu yarımbəndə "fundamental" sözündən sonra ", nəzəri-metodoloji, pedaqoji-metodiki" sözləri əlavə edilsin.

2. 2.1.15-ci yarımbənddə "Azərbaycan Respublikasının Qanununa" sözləri "və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarına" sözləri ilə əvəz edilsin.

3. 5.1-ci bəndə "mütəxəssis" sözündən sonra ", elmi" sözü əlavə edilsin.

4. 5.22-ci bənddə "formada dövlət nümunəli sənəd" sözləri "formalı dövlət sənədi" sözləri ilə əvəz edilsin.

5. 6.6.1-ci yarımbənddə "və tətbiqi-nəzəri araşdırmaların" sözləri ", nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi tədqiqatların" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 iyul 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ KOLUMBİYA RESPUBLİKASININ MƏDƏNİYYƏT NAZİRLİYİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Kolumbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair 2017-ci il mayın 30-da Boqota şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Kolumbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 avqust 2017-ci il***

## "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində (bundan sonra – İdarə) təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. nizamnaməsinin təsdiqi, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

2.1.2. İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.1.3. yenidən təşkili və ləğvi məsələləri;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla, İdarə Heyətinin digər iki üzvünün vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2.2. strukturunun və illik maliyyə hesabatlarının təsdiqi;

2.2.3. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

2.2.4. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

2.3. İdarəyə:

2.3.1. inkişaf istiqamətlərinin müəyyən edilməsi.

3. Müəyyən edilsin ki, İdarənin nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır və dövlət büdcəsi vəsaiti hesabına formalaşdırılır.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. İdarənin strukturunu, işçilərinin say həddini və aylıq vəzifə maaşlarını bir ay müddətində təsdiq etsin;

4.3. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin balansında olan əmlakın İdarə dövlət qeydiyyatına alındığı gündən İdarənin balansına verilməsini bir ay müddətində həll etsin;

4.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. İdarə dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3-cü hissəsində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 avqust 2017-ci il***

## "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN NİZAMNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin*
*2017-ci il 7 avqust tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

**1. Ümumi müddəalar**

1.1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi (bundan sonra – İdarə) "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi təd-

birlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əsasında yaradılmış, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının (bundan sonra – Qoruqlar) ərazisində yerləşən tarix və memarlıq abidələrinin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsinin, təbliğinin, məqsədyönlü istifadəsinin, qorunub saxlanmasının və inkişafının təmin edilməsi sahəsində fəaliyyətlə məşğul olan publik hüquqi şəxsdir.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. İdarə bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. İdarənin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları, loqotipi (emblemi) vardır.

1.6. Qanuna uyğun olaraq İdarənin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.

1.7. İdarə Bakı şəhərində yerləşir.

**2. İdarənin fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri**

2.1. İdarənin fəaliyyətinin məqsədi daşınmaz tarix və mədəniyyət abidələrinin qorunmasının və ərazi üçün müəyyən olunmuş rejimin saxlanmasının təmin edilməsi üçün abidələrin tarix və mədəni cəhətdən öyrənilməsini, məqsədyönlü istifadə olunmasını təşkil etməkdən, abidələrin bərpası və toxunulmazlığını təmin etməkdən, həmçinin Qoruqların ərazisində turizmi inkişaf etdirməkdən ibarətdir.

2.2. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. Qoruqlar sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;

2.2.2. Qoruqlar sahəsinə aid proqnozlaşdırma və planlaşdırma işlərini təşkil edir və Qoruqların inkişafını təmin edir;

2.2.3. Qoruqların ərazisində yerləşən abidələri elmi, tarixi və mədəni cəhətdən öyrənir, onlardan məqsədyönlü istifadə olunmasını təşkil edir və qorunub saxlanmasını təmin edir;

2.2.4. Qoruqların ərazisində yerləşən abidələrin həcm-planlaşma quruluşunu qoruyur, tarix-memarlıq abidələrinin bərpasını və toxunulmazlığını təmin edir.

**3. İdarənin vəzifə və hüquqları**

3.1. İdarə bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. Qoruqlar sahəsinə aid olan proqram və inkişaf konsepsiyalarını hazırlamaq və həyata keçirmək;

3.1.2. dövlət orqanlarının Qoruqlar sahəsi ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.1.3. Qoruqlar sahəsində nəzarəti həyata keçirmək;

3.1.4. Qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasını və ərazi üçün müəyyən olunmuş rejimin saxlanmasını təmin etmək;

3.1.5. qorunan obyektlərin daimi mühafizəsini təşkil etmək, tarix və mədəniyyət abidələrinin funksional təyinatını, memarlıq-estetik görünüşünü və uzunömürlülüyünü təmin etmək;

3.1.6. qanuna uyğun olaraq, mühafizə məqsədi ilə abidələrdə inşaat-möhkəmləndirmə və abadlıq işlərinin aparılması üçün dövlət mülkiyyətində olan abidələrin konservasiyası, təmiri, bərpası, rekonstruksiyası və regenerasiyası haqqında qərar qəbul etmək, xüsusi mülkiyyətdə olan abidələrlə əlaqədar həmin işlərin həyata keçirilməsinə razılıq vermək və gedişinə nəzarət etmək;

3.1.7. abidələrin üzərində bərpa, konservasiya, təmir, rekonstruksiya, regenerasiya və digər işlərin layihələrini təsdiq etmək;

3.1.8. Qoruqların ərazisində abadlıq və yenidənqurma işlərinin aparılmasına razılıq vermək;

3.1.9. Qoruqlar sahəsinə aid proqnozlaşdırma və planlaşdırma işlərini təşkil etmək və Qoruqların davamlı inkişafını təmin etmək;

3.1.10. Qoruqların ərazisində yerləşən abidələri elmi, tarixi və mədəni cəhətdən öyrənmək, onlardan məqsədyönlü istifadə olunmasını təşkil etmək və onları qoruyub saxlamaq;

3.1.11. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini fəaliyyət istiqamətləri daxilində təmin etmək;

3.1.12. Qoruqların mühəndis-kommunikasiya sistemlərinə cavabdeh olan müəssisə və təşkilatların fəaliyyətini əlaqələndirmək, yaşayış və qeyri-yaşayış fondlarının qeydiyyatını təşkil etmək, abidələrin və tikililərin bərpa və təmirini planlaşdırmaq, təşkil etmək və bu işlərin həyata keçirilməsinə nəzarət etmək;

3.1.13. Qoruqların ərazisində yerləşən tarix və memarlıq abidələrinin və tikililərin inventarlaşmasını aparmaq, texniki pasportlaşmanı həyata keçirmək və abidələrin əhəmiyyətinə dair müvafiq siyahıları tərtib etmək;

3.1.14. tarix və mədəniyyət abidələrindən istifadə rejiminin təmin edilməsi, abidələrin qorunması, onlardan istifadə qaydaları və Qoruqların mühafizə rejiminin pozulmasının qarşısının alınması, təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada zəruri tədbirlər görmək;

3.1.15. Qoruqların ərazisində yerləşən obyektlər icarəyə verilərkən və özəlləşdirilərkən Qoruqlar üçün müəyyənləşdirilmiş rejimə riayət olunmasına nəzarət etmək, İdarənin balansına verilmiş abidələrin qanunvericiliyə uyğun olaraq özəlləşdirilməsinə və istifadəyə verilməsinə razılıq vermək və qoruma öhdəliklərinə dair müqavilələr bağlamaq, qanunvericiliyə uyğun olaraq, İdarənin razılığı olmadan abidələrin istifadəyə, o cümlədən icarəyə verilməsinə aid işləri dayandırmaq;

3.1.16. Qoruqların ərazisindəki rekreasiya zonalarını, yaşıllaşdırma sahələrini və nəqliyyat hərəkətini müvafiq qaydada təşkil etmək, abidələrə yaxın olan və ya onların mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunmasına təhlükə yaratdıqda, onların məhdudlaşdırılması və ya qadağan edilməsi üçün qanunvericiliyə uyğun qaydada tədbirlər görmək;

3.1.17. Qoruqların sərhədləri daxilində abidələrə hər hansı təhlükə yarada bilən təmir işlərinin aparılmasına qadağa qoymaq, bununla əlaqədar təhlükəsizlik tədbirləri müəyyənləşdirmək və tətbiq etmək, tələblər irəli sürmək və yerinə yetirildiyi halda işlərin davamına razılıq vermək;

3.1.18. Qoruqların ərazisində turizmi inkişaf etdirmək, turist marşrutlarını müəyyən etmək və bununla bağlı infrastrukturun yaradılmasını təşkil etmək;

3.1.19. Qoruqların ərazisinə aid mədəniyyət və tarix layihələrini hazırlayıb həyata keçirmək;

3.1.20. Qoruqların ərazisində biblioqrafik tədqiqatların və tarixi araşdırmaların aparılmasını təşkil etmək, ərazidə yerləşən abidələrin öyrənilməsi üçün mütəxəssislər cəlb etmək;

3.1.21. abidələrin elmi, mədəni və tarixi əhəmiyyətinin təbliğinin, bu məqsədlə sərgilərin, fotostendlərin, ekskursiyaların, mühazirələrin, sənədli və qısametrajlı filmlərin hazırlanmasını, elmi kütləvi ədəbiyyatın nəşrini, beynəlxalq və milli simpozium və seminarların keçirilməsini təşkil etmək;

3.1.22. Qoruqların ərazisində qanunvericiliyə uyğun olaraq icazə verilən arxeoloji işləri qeydə almaq, abidələrin öyrənilməsinə, arxeoloji qazıntıların aparılmasına və bu növ digər işlərə nəzarət etmək;

3.1.23. aşkar edilmiş tarix və mədəniyyət abidələrinin dövlət qeydiyyatına alınması, pasportlaşdırılması və qorunması üçün tədbirlər görmək, onların əhəmiyyəti ilə bağlı və qorunma rejiminə aid təkliflər vermək;

3.1.24. Qoruqların ərazisində hüquqi maarifləndirməni, maddi və qeyri-maddi mədəni irsin qorunmasına dair məsləhətxana xidmətinin yaradılmasını təşkil etmək, dövlət mülkiyyətinə aid hüquqlar pozulduğu hallarda məhkəmədə iddia qaldırmaq, Qoruqların maraqlarını məhkəmədə təmsil etmək, Qoruqların ərazisindəki abidələrlə bağlı qanunvericiliyi pozmuş şəxslər barədə müvafiq dövlət orqanlarına məlumat vermək;

3.1.25. "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Qoruqların ərazisində reklam fəaliyyətinə nəzarəti və bu sahədə tənzimləməni həyata keçirmək, o cümlədən reklam daşıyıcılarının tikintisinə, quraşdırılmasına, onlarda konstruktiv dəyişikliklər edilməsinə və reklam yerləşdirilməsinə icazə vermək, reklam yerləşdirilməsinə icazə verərkən reklama dair texniki şərtlər pasportunu hazırlayaraq reklam yayıcısına təqdim etmək və reklam yayıcısı ilə icazə müqaviləsi bağlamaq;

Qeyd: İdarə 2017-ci il avqustun 1-dək Qoruqların ərazisində reklam yerləşdirmək üçün icazə almış və icazəsi qüvvədə olan reklam yayıcılarına "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 755-VQD nömrəli Qanununun 3 cü maddəsinə uyğun olaraq icazə müqaviləsinin bağlanılması zərurəti barədə bildiriş göndərir.

3.1.26. Qoruqların ərazisini idarə etmək üçün rəqəmli informasiya-kommunikasiya sistemi yaratmaq, beynəlxalq təcrübəni nəzərə almaqla, bu sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.27. İdarənin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.28. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.29. strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görmək;

3.1.30. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.31. dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələri birgə həyata keçirmək;

3.1.32. bu Nizamnamədə nəzərdə tutulan hallarda əraziyə aid müvafiq hüquqmüəyyənedici sənədlər vermək;

3.1.33. İdarəyə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.34. İdarənin informasiya təminatını və onun təhlükəsizliyini təşkil etmək;

3.1.35. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.2.1. Qoruqlar sahəsinə aid olan hüquqi aktların layihələrini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

3.2.2. Qoruqlarla bağlı Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə tərəfdar çıxması barədə təşəbbüslə çıxış etmək, fəaliyyət istiqamətləri üzrə beynəlxalq konfransların, seminarların və digər beynəlxalq tədbirlərin keçirilməsini təşkil etmək;

3.2.3. zəruri məlumatlar (sənədlər) almaq məqsədi ilə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğular vermək;

3.2.4. Qoruqları beynəlxalq səviyyədə təmsil etmək, qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xaricdə fəaliyyət göstərən qoruqlarla təcrübə mübadiləsi aparmaq;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq;

3.2.6. Qoruqların ərazisində İdarənin razılığı olmadan hər hansı abadlıq, bərpa, rekonstruksiya, regenerasiya və inşaat-təmir işlərinin aparılmasına qadağa qoymaq, icrası məcburi olan göstərişlər vermək;

3.2.7. Qoruqların ərazisində uçmuş və uçmaq təhlükəsi olan, tarixi-memarlıq əhəmiyyətinə malik olmayan tikililərin yerində, ənənəvi küçə şəbəkələri olduğu kimi saxlanılmaqla turizm infrastrukturu obyektləri qurmaq və İdarənin ehtiyaclarının ödənilməsi məqsədi ilə yeni obyektlər layihələndirmək və inşa etmək;

3.2.8. Qoruqların ərazisində qazıntı işlərinin aparılmasını təşkil edən hüquqi və fiziki şəxslərdən aparılmış tədqiqat işləri barədə hesabat tələb etmək;

3.2.9. Qoruqların ərazisində mühafizə və abidələrdən istifadə sahəsində pozuntu hallarının aradan qaldırılması barədə icrası məcburi olan göstərişlər vermək və müvafiq tədbirlər görmək;

3.2.10. tarix və mədəniyyət abidələrində inşaat-möhkəmləndirmə və abadlıq işlərinin aparılmasını, səmərə və səviyyəsinin artırılmasını və həmin abidələrin istifadəyə uyğunlaşdırılmasını təmin etmək;

3.2.11. Qoruqların sərhədlərindən kənardakı bufer zonasında abidələr üçün hər hansı təhlükə yaratmayan inşaat-təmir işlərinə razılıq vermək;

3.2.12. Qoruqların ərazisində yerləşən abidələrin tədqiqinin və təbliğinin (audiovizual çəkilişlər aparılmasının və s.) həyata keçirilməsinə icazə vermək;

3.2.13. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

3.2.14. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

3.2.15. Qoruqların ərazisində mədəni-kütləvi tədbirlər keçirməklə, müvəqqəti və daimi xidmətlər göstərən strukturlar (obyektlər) yaratmaqla, özəl və dövlət qurumları ilə müqavilə əsasında birgə fəaliyyətdə iştirak etməklə və müxtəlif növ xidmətlər göstərməklə gəlir əldə etmək;

3.2.16. Qoruqların inkişafı məqsədi ilə investisiyalar cəlb etmək;

3.2.17. İdarənin balansında olan dövlət əmlakını qanunvericiliyə uyğun olaraq icarəyə vermək və ya ondan istifadə etmək;

3.2.18. işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədi ilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil etmək və İdarənin fəaliyyət istiqamətlərinə uyğun təlim və inkişaf üzrə ödənişli kurs xidmətləri göstərmək;

3.2.19. vəzifələrinin yerinə yetirilməsi məqsədi ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.20. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**4. İdarənin idarə olunması**

4.1. İdarə öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. İdarəni İdarə Heyəti idarə edir.

4.3. İdarə Heyəti İdarəyə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi üç nəfərdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər iki üzvdən ibarətdir. İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 5 (beş) ildir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi İdarə Heyətinin digər üzvü həyata keçirir.

4.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. İdarənin inkişaf istiqamətlərini müəyyən edir;

4.5.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər təqdim edir;

4.5.3. İdarənin fəaliyyətinə dair illik hesabat hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.5.4. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır və bu layihələri aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim edir;

4.5.5. bu Nizamnamənin 3.1.33-cü yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.6. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.5.7. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində İdarənin aparatının və qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

4.5.8. İdarənin fəaliyyətinə dair daxili qaydaları, habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq edir;

4.5.9. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının qayda və şərtlərini müəyyənləşdirir və onların icrasına nəzarət edir;

4.5.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə İdarənin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;

4.5.11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə İdarənin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.5.12. aidiyyəti şəxslə dəyəri İdarənin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında qərar qəbul edir.

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyəti-

nin iclasları İdarə Heyətinin üzvlərinin ən azı ikisi iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında, hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən İdarə Heyətinin digər üzvünün) səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.7. İdarə Heyətinin sədri:

4.7.1. İdarənin fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.7.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.5. İdarənin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.6. icrası məcburi olan sərəncam və əmrlər verir;

4.7.7. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, İdarənin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin işçilərinin, həmçinin təsərrüfat cəmiyyətlərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.7.8. İdarənin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.9. İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.10. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində İdarənin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.11. İdarənin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.7.12. İdarənin fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.13. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlara dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyətinin üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.

**5. İdarənin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. İdarənin nizamnamə fondu 1 000 000 (bir milyon) manatdır.

5.2. İdarənin əmlakı təsisçi tərəfindən ödənilən nizamnamə fondundan, təsisçi tərəfindən ona verilmiş digər əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitlərdən,

fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. İdarə əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. İdarə balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. İdarə qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra İdarənin, onun təsərrüfat cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.5. İdarə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər göstərdiyinə (hüquqi hərəkətləri həyata keçirdiyinə) görə həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu tutur.

5.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısında nəzərdə tutulmuş İdarənin məhsullarının (mallarının, işlərinin, xidmətlərinin) qiymətləri tənzimlənən qiymətlərə aiddir.

5.7. İdarə Heyəti sədrinin və İdarə Heyətinin digər üzvlərinin, İdarənin aparatının işçilərinin vəzifə maaşları, müvafiq olaraq, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin, rəhbər müavinlərinin və aparatlarının işçilərinin vəzifə maaşlarına bərabər tutulur. İdarənin işçilərinə əlavə ödənilən həvəsləndirmə sistemi İdarə Heyəti tərəfindən müəyyən edilir.

**6. İdarənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. İdarənin fəaliyyətinə nəzarət Azərbaycan Respublikasının Prezidenti, həmçinin verilmiş təsisçi səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

6.2. İdarənin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. İdarədə uçot və hesabat**

7.1. İdarə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. İdarə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, statistik uçot aparır və statistik hesabatları tərtib edir.

7.3. İdarə filial, nümayəndəlik, idarə və təsərrüfat cəmiyyətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. İdarə öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. İdarənin ləğvi və yenidən təşkili**

İdarənin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜƏLLİF HÜQUQLARI AGENTLİYİNİN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyində (bundan sonra – Agentlik) təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Azərbaycan Respublikasının Prezidentinə:

2.1.1. Agentliyin nizamnaməsinin təsdiq olunması, nizamnamə fondunun miqdarının müəyyən edilməsi;

2.1.2. icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.1.3. Agentliyin yenidən təşkili və ləğv edilməsi;

2.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

2.2.1. strukturun, işçilərin say həddinin və illik maliyyə hesabatlarının təsdiq edilməsi;

2.2.2. təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərinin yaradılmasına razılıq verilməsi;

2.2.3. xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri publik hüquqi şəxsin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanmasına razılıq verilməsi;

2.3. Agentliyə:

2.3.1. inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Agentliyin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası qanunlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. Agentliyin strukturunu və işçilərinin say həddini bir ay müddətində təsdiq etsin;

3.5. əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların Agentliyə ödəyəcəyi illik haqqın məbləğini bir ay müddətində təsdiq etsin;

3.6. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzi əsasında publik hüquqi şəxs statuslu Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzini yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin və onun tabeliyində olan Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin balansındakı əmlakın yeni

yaradılmış publik hüquqi şəxslər dövlət qeydiyyatına alındığı gündən, müvafiq olaraq, Agentliyin və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzinin balansına verilməsini bir ay müddətində təmin etsin;

3.8. nizamnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş publik hüquqi şəxslərin balanslarındakı dövlət əmlakının qiymətləndirilərək onların nizamnamə fondlarında əksini tapması üçün müvafiq təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.9. bu Fərmanın 3.8-ci bəndində nəzərdə tutulan publik hüquqi şəxslər istisna olmaqla, dövlət adından yaradılan digər publik hüquqi şəxslərin balanslarındakı dövlət əmlakının qiymətləndirilərək onların nizamnamə fondlarında əksini tapması üçün zəruri tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.10. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.11. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Müəyyən edilsin ki:

4.1. Agentliyin ilkin nizamnamə fondu dövlət büdcəsinin vəsaiti hesabına formalaşır və 1.000.000 (bir milyon) manat təşkil edir;

4.2. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirmək məqsədi ilə İdarə Heyəti yaradılır;

4.3. Agentliyin İdarə Heyəti sədrinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, habelə onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir;

4.4. bu Fərmanın 3.6-cı bəndində nəzərdə tutulmuş publik hüquqi şəxsin nizamnaməsinin və strukturunun təsdiqini, işçilərinin say həddinin və nizamnamə fondunun miqdarının müəyyən edilməsini, yenidən təşkil və ləğv edilməsini Azərbaycan Respublikasının Nazirlər Kabineti, təsisçinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən digər səlahiyyətlərini isə Agentlik həyata keçirir;

4.5. Agentlik dövlət qeydiyyatına alındığı gündən Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin normativ hüquqi aktlarına münasibətdə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 7.2 ci maddəsində nəzərdə tutulmuş səlahiyyəti Agentliyin təklifləri əsasında Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

5. Agentlik:

5.1. dövlət qeydiyyatına alınması üçün bu Fərmanın qüvvəyə mindiyi tarixdən üç gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Vergilər Nazirliyinə müraciət etsin;

5.2. dövlət qeydiyyatına alındığı gündən üç gün müddətində bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 4.1-ci bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 sentyabr 2017-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜƏLLİF HÜQUQLARI AGENTLİYİNİN NİZAMNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 6 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi (bundan sonra – Agentlik) "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən yaradılmış, bu Nizamnaməyə uyğun olaraq müəlliflik hüququ, əlaqəli hüquqlar, Azərbaycan folkloru nümunələrinə (ənənəvi mədəni nümunələrə) və digər qeyri-maddi mədəni irs nümunələrinə, inteqral sxem topologiyalarına və məlumat toplularına əqli mülkiyyət hüquqları (bundan sonra - əqli mülkiyyət hüquqları) sahəsinin inkişafını təmin edən, bu sahədə vahid tənzimləməni və nəzarəti həyata keçirən və fəaliyyəti əlaqələndirən publik hüquqi şəxsdir.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Agentliyin fəaliyyəti nəticəsində əldə olunan vəsaitlər onun fəaliyyətinin təmin edilməsinə yönəldilir.

1.5. Agentliyin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Qanuna uyğun olaraq, Agentliyin əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyətinin məqsədi və fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında əqli mülkiyyət hüquqları sahəsinin səmərəli fəaliyyətini, dayanıqlı inkişafını və şəffaflığını təmin etmək, müəlliflərin, hüquq sahiblərinin hüquqlarını və Azərbaycan xalqına məxsus olan əqli mülkiyyət hüquqlarını qorumaq, sözügedən sahədə bilikləri və informasiya cəmiyyətinə təsiri artırmaq və bu Nizamnamədə müəyyən edilmiş fəaliyyəti həyata keçirərkən əqli mülkiyyət hüquqlarının tənzimlənməsi ilə bağlı qabaqcıl prinsip və standartları əsas götürməkdir.

2.2. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. əqli mülkiyyət hüquqları sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak və bu siyasətin həyata keçirilməsinin təmin edilməsi;

2.2.2. əqli mülkiyyət hüquqları sahəsində qüvvədə olan qanunvericiliyə əməl edilməsinə nəzarətin həyata keçirilməsi;

2.2.3. əqli mülkiyyət hüquqlarının həyata keçirilməsinin təmin edilməsi, əmlak hüquqlarını kollektiv əsasda idarə edən dövlət qeydiyyatına alınmış təşkilatların uçotunun aparılması, həmin təşkilatların qeydiyyatının (akkreditasiyanın) keçirilməsi, onların fəaliyyətinə nəzarət edilməsi;

2.2.4. əqli mülkiyyət hüquqları obyektlərinin dövlət qeydiyyatının aparılması, hüquq sahibləri və istifadəçilər haqqında milli informasiya sisteminin yaradılması və onun müntəzəm təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi;

2.2.5. informasiya cəmiyyətinin, o cümlədən rəqəmsal informasiya texnologiyalarının və elektron ticarətin inkişafının dəstəklənməsi məqsədilə rəqəmsal şəbəkələrdə əqli mülkiyyət hüquqlarının qorunmasının və idarə olunmasının təşkil edilməsi;

2.2.6. əqli mülkiyyətin müasir iqtisadiyyatda rolunun artırılması və əqli mülkiyyətə əsaslanan iqtisadiyyatda (kreativ iqtisadiyyatda) investisiya mühitinin yaxşılaşdırılması, əqli mülkiyyət nəticələrinin kommersiyalaşdırılması və kreativ iqtisadiyyatın ölkənin ümumi daxili məhsulundakı payının müəyyən edilməsi üzrə tədbirlər görülməsi;

2.2.7. əqli mülkiyyət hüquqları obyektlərinin, o cümlədən Azərbaycan xalqına məxsus olan folklor nümunələrinin (ənənəvi mədəni nümunələrin), ənənəvi biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunmasının təmin edilməsi, onların mənimsənilməsinin və onlardan istifadə ilə bağlı hüquqların pozulmasının qarşısının alınması və bununla bağlı müvafiq tədbirlər görülməsi;

2.2.8. əqli mülkiyyət hüquqları sahəsində beynəlxalq mübadilənin və əməkdaşlığın təmin edilməsi;

2.2.9. əqli mülkiyyət hüquqları mədəniyyətinin formalaşmasında iştirak.

**3. Agentliyin vəzifələri və hüquqları**

3.1. Agentlik, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. əqli mülkiyyət hüquqları sahəsində qanunvericilik aktlarının, inkişaf konsepsiyalarının, məqsədli proqramların hazırlanmasında və onların həyata keçirilməsində iştirak edir;

3.1.2. əqli mülkiyyət hüquqları sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr nəzərə alınmaqla qanunvericilik aktlarının təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayır;

3.1.3. əqli mülkiyyət hüquqlarının mədəni, sosial və iqtisadi rolunun təhlilini aparır, əqli mülkiyyət hüquqları sahəsinin inkişafına dair təkliflər hazırlayır və aidiyyəti orqanlara təqdim edir;

3.1.4. əqli mülkiyyət hüquqları sahəsində mərkəzi və yerli icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının, ictimai birliklərin, o cümlədən əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların və digər hüquqi şəxslərin (hüquq sahiblərinin və istifadəçilərin) fəaliyyətini əlaqələndirir;

3.1.5. hüquq sahiblərinə keyfiyyətli və səmərəli xidmətlər göstərmək üçün tədbirlər görür;

3.1.6. əqli mülkiyyət hüquqları sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda həyata keçirilməsinə nəzarət edir, bu sahənin subyektləri ilə qarşılıqlı əlaqə yaradır;

3.1.7. əqli mülkiyyət hüquqları sahəsində beynəlxalq müqavilələrə Azərbaycan Respublikasının tərəfdar çıxması barədə təkliflər verir, Azərbaycan Respublikasının bu sahədə iştirakı ilə bağlı materiallar toplayır, onları ümumiləşdirir və təhlil edir;

3.1.8. əqli mülkiyyət sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.9. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının və YUNESKO-nun əqli mülkiyyətlə bağlı qərar və tövsiyələrinin müvafiq fəaliyyət sahəsində nəzərə alınması üçün tədbirlər görür, beynəlxalq təşkilatların əqli mülkiyyətə dair sorğularını cavablandırır, onlarla təcrübə mübadiləsi edir, beynəlxalq təcrübə nəzərə alınmaqla sistemli təhlillər aparır və tədbirlər həyata keçirir;

3.1.10. Azərbaycan müəlliflərinin və digər hüquq sahiblərinin əsərlərindən, Azərbaycan xalqına məxsus olan folklor nümunələrindən (ənənəvi mədəni nümunələrdən), ənənəvi biliklərdən və digər qeyri-maddi mədəni irs nümunələrindən, digər əqli mülkiyyət hüquqları obyektlərindən xaricdə qanunsuz istifadə zamanı hüquqların qorunması üçün beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırır və müvafiq tədbirlər görür, habelə xarici müəlliflərin əsərlərindən Azərbaycan Respublikasında istifadə olunarkən qanunvericiliyin tələblərinə əməl edilməsi ilə bağlı tədbirlər görülməsi barədə təkliflər verir;

3.1.11. folklor nümunələrinin (ənənəvi mədəni nümunələr), ənənəvi biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin Azərbaycan xalqına məxsus olması barədə kitablar, broşürlər nəşr edir, müxtəlif təbliğat vasitələri hazırlayır, beynəlxalq konfranslar, seminarlar, dəyirmi masalar təşkil edir;

3.1.12. Agentliyin fəaliyyət sahəsinə aid olan məsələlərə dair tarif siyasətinin formalaşmasında iştirak edir, bu sahədə əqli mülkiyyət hüquqları obyektlərindən istifadə ilə bağlı dövlət tərəfindən tənzimlənən qonorar tarifləri barədə təkliflər verir və onların tətbiqi üçün işlər görür;

3.1.13. əqli mülkiyyət hüquqlarının tanınması barədə vəsatətlərə baxır və müvafiq qərarlar qəbul edir, əqli mülkiyyət hüquqları obyektlərinin orijinallığının müəyyənləşdirilməsi ilə bağlı ekspertiza təşkil edir;

3.1.14. əqli mülkiyyət hüquqları obyektlərinin dövlət qeydiyyatını təşkil edir, əqli mülkiyyət hüquqları obyektləri və hüquq sahibləri barədə məlumatları dövlət reyestrlərinə daxil edir, qeydiyyatdan keçirilmiş əqli mülkiyyət hüquqları obyektlərinin hüquq sahiblərinə dövlət qeydiyyatı haqqında müvafiq şəhadətnamə verir, bu obyektlərin uçotunu, inventarlaşmasını və saxlanılmasını təmin edir;

3.1.15. əqli mülkiyyət hüquqları obyektlərinə hüquqların keçməsi və verilməsi barədə sənədləri qeydiyyata alır və müvafiq dəyişikliklərin dövlət reyestrlərinə daxil edilməsini həyata keçirir, dövlət reyestrlərinə daxil edilmiş əqli mülkiyyət hüquqları obyektlərinin qeydiyyatı haqqında informasiyanı dərc edir;

3.1.16. dövlət qeydiyyatından keçirilmiş əqli mülkiyyət hüquqları obyektləri, dövlət reyestrlərində edilmiş dəyişikliklər və qorunma müddətləri bitmiş əqli mülkiyyət hüquqlarının obyektləri, həmçinin müvafiq orqanların sorğularına əsasən, bu obyektlərin Agentlikdə qeydiyyata alınması haqqında zəruri məlumatlar verir;

3.1.17. qeydiyyat üçün təqdim edilmiş inteqral sxem topologiyalarının qorunma müddətlərinin başlanğıcını müəyyənləşdirir və istehsalatda istifadə olunan inteqral sxem topologiyalarının və onların istifadəçilərinin uçotunu aparır;

3.1.18. digər dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan folkloru nümunələrindən (ənənəvi mədəni nümunələrdən) kommersiya məqsədilə istifadə etməsinə icazə verir;

3.1.19. Azərbaycan folkloru nümunələrinin (ənənəvi mədəni nümunələrin) və Azərbaycan xalqına məxsus olan digər əqli mülkiyyət obyektlərinin qeydiyyatını təşkil edir, folklor nümunələrindən (ənənəvi mədəni nümunələrdən) satış, yayım obyektlərində, kütləvi tamaşa yerlərində, kabel və efir yayımı təşkilatlarında və rəqəmsal şəbəkələrdə yayım, dərc olunma, kütləvi ifa və digər istifadə hallarının monitorinqini təşkil edir və uçotunu aparır, qeyri-qanuni istifadə hallarını müəyyənləşdirir, müvafiq tədbirlər görür, bununla əlaqədar məhkəmələrdə dövlətin maraqlarını müdafiə edir və qanun pozuntuları nəticəsində dəymiş maddi ziyanı müəyyənləşdirir;

3.1.20. qeydiyyata təqdim olunmuş məlumat toplularının müvafiq meyarlara əsasən müəlliflik hüququ və (və ya) xüsusi qorunma hüquqları ilə qorunmalı olduğunu müəyyənləşdirir, rəsmi qeydiyyatdan keçirilmiş xüsusi qorunma hüququ ilə qorunan açıqlanmamış

məlumat toplusu qorunduğu müddətdə açıqlandığı, həmçinin xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusuna sonradan əhəmiyyətli dəyişikliklər və əlavələr edildiyi hallarda bu topluların qorunma müddətini dəqiqləşdirir;

3.1.21. qorunma müddəti bitmiş və ictimai varidata keçmiş müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin müəyyənləşdirilməsi və uçotu üzrə iş aparır, ictimai varidata keçmiş əsərlər sırasından, əlaqəli dövlət orqanları və yaradıcılıq birlikləri ilə razılaşdırmaqla, dövlət varidatına keçirilməsi məqsədilə əsərlərin seçilməsi və dövlət varidatı elan olunması üçün təkliflər verir;

3.1.22. dövlət varidatına keçmiş əsərlərdən istifadə zamanı müəlliflik hüquqlarının pozulmasına və onların məzmununun təhrif olunmasına qarşı müvafiq tədbirlər görür, dövlət varidatı elan olunmuş əsərlərdən istifadəyə görə xüsusi ödənişlərin yığımını və dövlət büdcəsinə köçürülməsini təmin edir;

3.1.23. əmlak hüquqlarını kollektiv əsasda idarə edən dövlət qeydiyyatına alınmış təşkilatların uçotunu aparır, həmin təşkilatları qeydiyyatdan (akkreditasiyadan) keçirir və əmlak hüquqlarının kollektiv əsasda həyata keçirilməsinə nəzarət edir;

3.1.24. əmlak hüquqlarını kollektiv əsasda idarə edən dövlət qeydiyyatına alınmış təşkilatların Agentlikdə qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi ilə bağlı tələb olunan sənədlərin siyahısını və təqdimolunma formasını müəyyənləşdirir, həmin təşkilatların qeydiyyatdan (akkreditasiyadan) keçirilməsi ilə bağlı əsaslandırılmış irad və təklifləri olduqda, onları müvafiq qaydada təqdim edir;

3.1.25. əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların fəaliyyətinə nəzarəti həyata keçirmək üçün vacib olan sənədlərin siyahısını hazırlayır, bu sənədləri qəbul edir, onların fəaliyyətinin müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunvericiliyə və nizamnamələrinə uyğunluğunun yoxlanılması məqsədilə monitorinqlər aparır, nəticələri ümumiləşdirir və həmin təşkilatların fəaliyyəti ilə bağlı təkliflər verir, fəaliyyətində qanun pozuntuları aşkar edildiyi hallarda müvafiq tədbirlər görür;

3.1.26. müəlliflər və digər hüquq sahibləri ilə əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların mübahisəli münasibətlərini tənzimləyir, bu təşkilatların ictimai birliklərinin təmsil etdikləri müəlliflərin və digər hüquq sahiblərinin müraciətlərinə baxır, istifadəçilərlə bağlı yaranan mübahisəli hallarda əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların fəaliyyət dairəsini müəyyənləşdirir;

3.1.27. əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların ödəyəcəyi illik haqqın məbləğinin müəyyənləşdirilməsinə dair Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir;

3.1.28. əmlak hüquqlarının idarəçiliyini kollektiv əsasda idarəetmə təşkilatlarına verməmiş müəlliflərin əsərlərini həmin təşkilatların istifadəyə verməsi aşkarlandığı və müəlliflər üçün yığdıqları qonorardan ayırmalar barədə qəbul etdikləri qərarlar müəlliflərin maraqlarına zidd olduğu hallarda həmin hərəkətlərin dayandırılmasını və qərarların ləğv olunmasını tələb edir;

3.1.29. qanunla müəyyən edilmiş hallarda əmlak hüquqlarını kollektiv əsasda idarə edən təşkilatların qeydiyyatını (akkreditasiyasını) ləğv edir;

3.1.30. qanunla müəyyən edilmiş hallarda müəlliflərin və digər hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsini həyata keçirir, bu halda istifadəyə görə qonorarı müvafiq qaydada yığır və hüquq sahiblərinə çatdırır, xarici ölkələrin müəlliflərinin və əlaqəli hüquq sahiblərinin əmlak hüquqlarının kollektiv əsasda idarə edilməsi üzrə müvafiq təşkilatlarla əlaqələrin qurulmasını, bu sahədə əməkdaşlıq haqqında sazişlərin bağlanmasını, Azərbaycan müəlliflərinin və digər hüquq sahiblərinin əsərlərindən və

əlaqəli hüquqların obyektlərindən xaricdə istifadəyə görə qonorarın alınmasını və aidiyyəti üzrə çatdırılmasını təmin edir;

3.1.31. əqli mülkiyyət hüquqları sahəsində hüquqi maarifləndirmə işi aparır, beynəlxalq və milli seminarlar, disputlar və simpoziumlar keçirir, müəlliflərə və digər hüquq sahiblərinə, onların varislərinə pozulmuş hüquqların bərpası ilə bağlı hüquqi məsləhətlər verir;

3.1.32. bazarda sağlam rəqabət prinsiplərinin təmin edilməsi, əqli mülkiyyətə əsaslanan sənayedə sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin mənafelərinin qorunması məqsədilə əqli mülkiyyət hüquqları obyektlərindən qanunsuz istifadə ilə bağlı tədbirlər görür;

3.1.33. əqli mülkiyyət hüquqlarını təmin etmək məqsədilə beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsi ilə bağlı işləri təşkil edir və həyata keçirir, müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinə yapışdırılması üçün nəzarət markalarının hazırlanmasını təmin edir və onları istifadəçiyə verir, nəzarət markaları yapışdırılaraq yayılmasına nəzarət edir, bu obyektlərin dövlət reyestrini aparır, həmin nüsxələrin yaradılmasının qanuniliyini müəyyənləşdirir;

3.1.34. müəlliflik hüququ və əlaqəli hüquqlar obyektlərinin (audiovizual əsər, fonoqram, kompüter proqramı, məlumat toplusu, kitab) nüsxələrinin pirat yolu ilə istehsalına və yayılmasına, habelə nəzarət markası yapışdırılmayan nüsxələrinin yayılmasına qarşı inzibati tədbirlərin təmin olunması məqsədilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş qaydada protokol tərtib edərək baxılmaq üçün məhkəməyə göndərir;

3.1.35. rəqəmsal şəbəkələrdə müəllif, ifaçı və fonoqram istehsalçılarının əmlak hüquqlarından istifadəyə nəzarət edir, hüquq sahiblərinin mənafelərinə və iradələrinə uyğun olaraq, bu hüquqların kollektiv əsasda idarə olunmasını təşkil edir, hüquqların pozulduğu, o cümlədən hüquqlardan istifadəyə qoyulmuş məhdudiyyətləri təmin edən texniki müdafiə vasitələrinin qeyri-qanuni dağıdıldığı, eləcə də hüquq sahibinin razılığı olmadan hüquqların idarə edilməsi haqqında informasiyanın ləğv edildiyi, yaxud dəyişdirildiyi hallarda, hüquq pozuntusuna yol vermiş şəxslərin məsuliyyətə cəlb edilməsi, habelə onlara məxsus informasiya ehtiyatından istifadənin dayandırılması məqsədilə tədbirlər görür;

3.1.36. qlobal rəqəmsal şəbəkədə əqli mülkiyyət hüquqları ilə qorunan obyektlərdən istifadə edilməsinə "one-stop-shop" formatında və onlayn qaydada icazə verilməsinə əsaslanan rəqəmsal hüquqları idarəetmə sisteminin yaradılması və istifadəsi ilə bağlı tədbirlər görür;

3.1.37. pirat yolu ilə əldə edilmiş məhsulların və müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında qanunvericiliyin tələblərinin pozulması ilə məhsul buraxan istehsalçıların müəyyən edilməsi məqsədilə monitorinqlər keçirir, əqli mülkiyyət sahəsində qanun pozuntuları üzrə məlumatları toplayır və aidiyyəti orqanlara çatdırır;

3.1.38. pozulmuş hüquqlarının bərpası ilə bağlı hüquq sahiblərinin təşəbbüsü ilə və digər hallarda müvafiq məhkəmələrdə iddia qaldırır və hüquq sahiblərinin mənafelərini müdafiə edir, müvafiq dövlət və məhkəmə orqanlarının sorğusu əsasında ekspert rəyləri hazırlayır, məhkəmədə və digər səlahiyyətli orqanlar tərəfindən keçirilən tədbirlərdə ekspert və nümayəndə qismində iştirak edir, əqli mülkiyyət hüquqları sahəsində qanun pozuntuları ilə əlaqədar işlərin uçotunu və təhlilini aparır, toplanmış məlumatları sistemləşdirir;

3.1.39. qanunla qorunan əqli mülkiyyət hüquqları obyektlərindən qlobal rəqəmsal şəbəkələrdə istifadəyə dair monitorinqlər aparır, arayışlar hazırlayır və səlahiyyətli orqanlara təqdim edir;

3.1.40. elektron ticarət haqqında qanunvericilikdə əqli mülkiyyət hüquqları obyektlərinə hüquqların qorunmasının təkmilləşdirilməsi məqsədilə təkliflər verir və müvafiq tədbirlər görür;

3.1.41. əqli mülkiyyət hüquqlarına əsaslanan milli iqtisadiyyat sahələrinin iqtisadi göstəricilərinin daimi müşahidəsini aparır, onların inkişafı zamanı meydana çıxan problemləri müəyyən edir, milli brendlərin yaradılmasının təşviqi ilə bağlı işlər görür, əqli mülkiyyət nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır, ümumi daxili məhsulda əqli mülkiyyətə əsaslanan sənayenin payını daha dəqiq dəyərləndirmək üçün müvafiq işlər görür və təkliflər hazırlayır;

3.1.42. əqli mülkiyyət aktivlərinin dəyərləndirilməsində fiziki və hüquqi şəxslərə metodiki yardım göstərir;

3.1.43. əqli mülkiyyət hüquqlarının pozulması ilə bağlı zərərin iqtisadi dəyərləndirilməsi üzrə işlər görür;

3.1.44. gömrük sərhədindən keçirilən, tərkibində əqli mülkiyyət hüquqları obyektləri olan mallarda əqli mülkiyyət hüquqlarının pozulmasının müəyyənləşdirilməsində gömrük orqanları ilə əməkdaşlıq edir, onlarla əlaqəli şəkildə belə faktları ümumiləşdirir, təsnifatını aparır, gömrük orqanlarının sorğusu əsasında əqli mülkiyyət hüquqlarının pozulub-pozulmaması ilə bağlı rəylər verir;

3.1.45. gömrük sərhədində əqli mülkiyyət hüquqları obyektlərinə olan hüquqların pozulmasının müəyyənləşdirilməsi üçün gömrük orqanının müraciəti əsasında gömrük orqanı ilə birlikdə tərkibində əqli mülkiyyət hüquqları obyektləri olan malların identifikasiyasının həyata keçirilməsində iştirak edir, tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların gömrük orqanı tərəfindən reyestrə daxil edilməsi üçün təkliflər verir;

3.1.46. əqli mülkiyyət hüquqları ilə qorunan beynəlxalq və milli informasiya texnologiyalarının təhlilini aparır, informasiya texnologiyalarının əqli mülkiyyət hüquqlarının obyektləri kimi qorunması vəziyyətini müşahidə edir və milli səviyyədə qorunması vəziyyətini araşdırır, onların qorunmasının beynəlxalq standartlara uyğun olması üçün tədbirlər görür və yeni informasiya texnologiyaları obyektlərinin qorunmasına dair təkliflər verir;

3.1.47. əqli mülkiyyət hüquqları sahəsində milli informasiya sistemini yaradır, onun operativliyini və beynəlxalq mübadiləsini təmin edir, qeydiyyatdan keçirilmiş əqli mülkiyyət hüquqları obyektləri və onların hüquq sahibləri haqqında elektron məlumat bazasını təkmilləşdirir və dövlət reyestrlərinin elektron surətinin yenilənməsini təmin edir;

3.1.48. əqli mülkiyyət hüquqları sahəsində informasiya sisteminin tətbiqinin, öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasının, internet portalının yaradılmasının, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin portalda yerləşdirilməsinin və bu informasiyanın daim yenilənməsinin təmin edilməsi;

3.1.49. Agentliyin daxili informasiya-kommunikasiya sistemi çərçivəsində informasiyanın fasiləsiz alınmasını, işlənməsini və ötürülməsini təşkil edir. Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Akademiyası çərçivəsində Azərbaycanın Əqli Mülkiyyət Hüquqları Təminatı Mərkəzi vasitəsilə əlaqələri genişləndirir, bu sahədə informasiya mübadiləsini təşkil edir və şəbəkənin rəqəmsal kitabxanalarından istifadə etməklə yeniliklər barədə informasiya hazırlayır;

3.1.50. kargüzarlığı, vətəndaşların qəbulunu, onların təklif, ərizə və müraciətlərinə baxılmanı normativ hüquqi aktların tələblərinə uyğun təşkil edir, kadrların əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görür;

3.1.51. dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər üçün əqli mülkiyyətlə bağlı peşəkar tövsiyələrin və rəylərin hazırlanması məqsədilə tədbirlər görür;

3.1.52. əqli mülkiyyət məsələləri üzrə ixtisaslı mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir və onların həyata keçirilməsində iştirak edir;

3.1.53. Agentliyə ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.54. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Agentlik bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı hüquqları həyata keçirir:

3.2.1. əqli mülkiyyət hüquqları sahəsində normativ hüquqi aktların hazırlanmasına və təkmilləşdirilməsinə dair təkliflər verir, bu sahənin vəziyyəti və inkişafı ilə əlaqədar analitik materiallar və təkliflər təqdim edir;

3.2.2. əqli mülkiyyət hüquqları ilə bağlı olaraq dövlət və yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə öz fəaliyyət istiqamətlərinə aid məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan məlumatlar (sənədlər) alır;

3.2.3. hüquqi və fiziki şəxslərlə bağlanmış müqavilələrə əsasən, əqli mülkiyyət sahəsi üzrə rəylər hazırlayır, digər işlər görür və xidmətlər göstərir;

3.2.4. əqli mülkiyyət sahəsində çalışan işçiləri dövlət təltiflərinə və digər mükafatlara təqdim edir, onların həvəsləndirilməsi üçün tədbirlər görür;

3.2.5. əqli mülkiyyət hüquqları ilə bağlı məhsulların, işlərin və xidmətlərin mövcud tələblərə uyğunluğunu müəyyən etmək məqsədilə tədbirlər görür;

3.2.6. səlahiyyətlərinə aid edilmiş məsələlərin işlənib hazırlanması və yerinə yetirilməsi üçün xarici və yerli ekspertləri və mütəxəssisləri cəlb edir;

3.2.7. əqli mülkiyyət sahəsində dövlət orqanları ilə, hüquqi şəxslərlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir;

3.2.8. xüsusi bülletenlər və digər nəşrlər buraxır;

3.2.9. işçilərin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə ixtisasartırma və digər istiqamətlərdə təlimlər təşkil edir;

3.2.10. vəzifələrinin yerinə yetirilməsi məqsədilə təsərrüfat cəmiyyətlərini yaradır və ya onlarda iştirak edir;

3.2.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirir.

**4. Agentliyin idarə olunması**

4.1. Agentlik öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Agentliyi İdarə Heyəti idarə edir.

4.3. İdarə Heyəti Agentliyə rəhbərliyi və nəzarəti həyata keçirir. İdarə Heyətinin tərkibi üç nəfərdən - Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İdarə Heyəti sədrindən və Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən digər iki üzvdən ibarətdir. İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 5 (beş) ildir.

4.4. İdarə Heyətinin sədri müvəqqəti olmadıqda, onun səlahiyyətlərinin icrasını İdarə Heyəti sədrinin müəyyən etdiyi İdarə Heyətinin digər üzvü həyata keçirir.

4.5. İdarə Heyəti aşağıdakı vəzifələri yerinə yetirir:

4.5.1. Agentliyin inkişaf istiqamətlərini müəyyən edir;

4.5.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər təqdim edir;

4.5.3. Agentliyin fəaliyyətinə dair illik hesabat hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

4.5.4. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı hüquqi aktların layihələrinə baxır, həmin layihələri aidiyyəti dövlət orqanlarına və qurumlarına təqdim edir;

4.5.5. bu Nizamnamənin 3.1.53-cü yarımbəndində nəzərdə tutulmuş vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.5.6. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxır və qərar qəbul edir;

4.5.7. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Agentliyin aparatının və qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir, Agentliyin əldə etdiyi vəsait hesabına işçilərə əlavə ödənilən həvəsləndirmə sistemini müəyyən edir;

4.5.8. Agentliyin fəaliyyətinə dair daxili qaydaları, habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrini təsdiq edir;

4.5.9. İdarə Heyətinin və əməkdaşların fəaliyyəti zamanı maraqlar münaqişəsinin istisna olunmasının qayda və şərtlərini müəyyənləşdirir və onların icrasına nəzarət edir;

4.5.10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Agentliyin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;

4.5.11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin razılığı ilə Agentliyin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.5.12. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;

4.5.13. Agentliyin kənar auditorunu təyin edir və audit hesabatını qəbul edir;

4.5.14. kənar auditorun yoxlamalarının, habelə digər yoxlamaların nəticələrinə dair tədbirlər görür.

4.6. İdarə Heyətinin iclasları ayda bir dəfədən az olmayaraq çağırılır. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvü çıxış edir. İdarə Heyətinin iclasları İdarə Heyəti üzvlərinin ən azı ikisi iştirak etdikdə səlahiyyətlidir. İdarə Heyətinin iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. İdarə Heyətinin iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyəti sədrinin (və ya onu əvəz edən İdarə Heyətinin digər üzvünün) səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

4.7. İdarə Heyətinin sədri:

4.7.1. Agentliyin fəaliyyətinə rəhbərliyi həyata keçirir və onu təmsil edir;

4.7.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.7.3. öz təşəbbüsü və ya İdarə Heyətinin digər üzvünün təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.7.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı digər üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.7.5. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.7.6. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.7.7. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial, nümayəndəlik və tabeliyində olan digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.7.8. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.7.9. Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.7.10. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.7.11. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.7.12. Agentliyin fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.7.13. İdarə Heyətinin fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür;

4.7.14. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.7.15. Agentlikdə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

4.8. İdarə Heyətinin üzvləri:

4.8.1. İdarə Heyətinin səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak edirlər;

4.8.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.8.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.8.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə İdarə Heyətinin iclaslarında baxılması barədə təkliflər verirlər;

4.8.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.

4.9. İdarə Heyətinin üzvləri İdarə Heyətinin iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, İdarə Heyəti üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.

**5. Agentliyin nizamnamə fondu, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

5.1. Agentliyin ilkin nizamnamə fondu 1.000.000 (bir milyon) manatdır.

5.2. Agentliyin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Agentlik öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Agentlik balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.4. Azərbaycan xalqına məxsus olan folklor nümunələrinin (ənənəvi mədəni nümunələrin), ənənəvi biliklərin və digər qeyri-maddi mədəni irs nümunələrinin hüquqi qorunmasının təmin edilməsi, onların mənimsənilməsinin və onlardan istifadə ilə bağlı hüquqların pozulmasının qarşısının alınması və bununla bağlı müvafiq tədbirlər görülməsi dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

5.5. Agentlik qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Agentliyin, onun idarə, filial, nümayəndəlik, təsərrüfat cəmiyyətləri və tabeliyində olan digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.6. Agentlik "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlər göstərməsinə (hüquqi hərəkətləri həyata keçirməsinə) görə

həmin Qanunla müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumu tutur. Bu dövlət rüsumunun Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən hissəsi Agentliyin fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə Agentliyin hesabına köçürülür.

5.7. "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun 43-cü maddəsinin 1-ci hissəsinin 4-cü bəndində, "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 13.3-cü maddələrində, "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsində nəzərdə tutulmuş hallarda Agentliyə ödənilən haqların məbləğləri tənzimlənən qiymətlərə (tariflərə) aiddir.

5.8. Agentliyin əməkdaşları dövlət qulluqçularına bərabər tutulurlar. İdarə Heyəti sədrinin, İdarə Heyətinin digər üzvlərinin və Agentliyin aparatının işçilərinin əməyinin ödənilməsi normaları və digər təminatları, müvafiq olaraq, Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin, rəhbər müavinlərinin və aparatları işçilərinin əməyinin ödənilməsi normalarına və təminatlarına bərabər tutulur.

**6. Agentliyin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi**

6.1. Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin təsisçinin səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirirlər.

6.2. Agentliyin fəaliyyətinə dair illik hesabat Azərbaycan Respublikasının Prezidentinə təqdim edilir.

**7. Agentlikdə uçot və hesabat**

7.1. Agentlik "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Agentlik "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

7.3. Agentlik idarə, filial, nümayəndəlik, təsərrüfat cəmiyyətləri və tabeliyində olan digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

7.4. Agentlik öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

**8. Agentliyin ləğvi və yenidən təşkili**

Agentliyin ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9,

maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120; 2016, № 5, maddə 850, № 10, maddə 1646, № 11, maddə 1809; 2017, № 3, maddə 356, № 6, maddə 1084) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.27-1-ci bənd əlavə edilsin:

"8.27-1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 165.4-cü maddəsinə uyğun olaraq, ticarət festivallarının təşkili qaydasını müəyyən etmək;".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 oktyabr 2017-ci il*

## MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Zəngin mədəni-mənəvi irsə, çoxəsrlik tolerantlıq ənənələrinə, nümunəvi dövlət-din münasibətləri modelinə malik olan və fərqli sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan tarixən çoxkonfessiyalı məkan olmuşdur. Müasir dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən etnik-dini tolerantlıq Azərbaycan cəmiyyətinin birgəyaşayış normasına çevrilmişdir. Hazırda Azərbaycan nəinki Cənubi Qafqazda, bütün Yaxın və Orta Şərqdə İslam mədəniyyətinin, tolerant mühitin formalaşdığı, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin effektiv vəhdətinin mövcud olduğu nümunəvi ölkələrdən biridir.

Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən dövlət siyasətinin məntiqi nəticəsidir. Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq mühitinin gücləndirilməsi müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsini, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılsın.

2. "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu (bundan sonra – Fond) mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən qeyri-kommersiya hüquqi şəxsdir;

3.2. Fondun saxlanması və fəaliyyətinin təmin edilməsi dövlət büdcəsindən ayrılan vəsait, habelə kreditlər, qrantlar və texniki yardımlar, fiziki və hüquqi şəxslərin ianələri və qanuna uyğun əldə etdiyi digər vəsaitlər hesabına həyata keçirilir;

3.3. Fondun nizamnamə kapitalı 100 000 (bir yüz min) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır;

3.4. Fondun fəaliyyətinə ümumi nəzarəti Fondun beş üzvdən ibarət Himayəçilik Şurası həyata keçirir;

3.5. Fondun fəaliyyətinə cari rəhbərliyi Fondun İcraçı direktoru həyata keçirir.

4. Fondda təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Prezidentinə:

4.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.1.2. Fondun icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

4.1.3. Fondun yenidən təşkili və ləğvi;

4.2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.2.1. Fondun işçilərinin say həddinin və əməkhaqlarının müəyyən edilməsi;

4.3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə:

4.3.1. bu Fərmanın 4.1-ci və 4.2-ci bəndlərində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.4. Fondun fəaliyyətini təmin etmək məqsədi ilə üç ay müddətində onun inzibati bina ilə təmin olunması üçün tədbirlər görsün;

5.5. bu Fərmanla təsdiq edilən Nizamnamənin 3.1-ci bəndinə uyğun olaraq, Fondun işçilərinin say həddini və əməkhaqlarını bir ay müddətində təsdiq etsin.

5.6. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 3.3-cü bəndində göstərilən məbləğdə maliyyələşməni bir ay müddətində təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi:

7.1. Fondun dövlət qeydiyyatına alınması üçün tədbirlər görsün;

7.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 oktyabr 2017-ci il***

# MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDUNUN NİZAMNAMƏSİ

*Azərbaycan Respublikası Prezidentinin*
*2017-ci il 10 oktyabr tarixli*
*Fərmanı ilə təsdiq edilmişdir*

**1. Ümumi müddəalar**

1.1. Mənəvi Dəyərlərin Təbliği Fondu (bundan sonra – Fond) mənəvi dəyərlərin qorunmasına və inkişafına, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə vətəndaşların dini etiqad azadlığının həyata keçirilməsinə dövlət dəstəyi göstərən qeyri-kommersiya hüquqi şəxsdir.

1.2. Fond Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (bundan sonra – Komitə) tabeliyində fəaliyyət göstərir.

1.3. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, habelə sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarını, sərəncamlarını və digər normativ hüquqi aktları rəhbər tutur.

1.4. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.5. Fond ictimai faydalı məqsədlər güdən fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.6. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.7. Fond Bakı şəhərində yerləşir.

**2. Fondun fəaliyyətinin məqsədi, vəzifələri və hüquqları**

2.1. Fondun fəaliyyətinin məqsədi Azərbaycan Respublikasında dini etiqad sahəsində maarifləndirmə işinin aparılmasına, mənəvi dəyərlərin qorunmasına və inkişafına, dövlət-din münasibətləri sahəsində məqsədli proqramların hazırlanmasına və həyata keçirilməsinə, dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə, habelə bu sahədə sosial layihələrin reallaşdırılmasına dövlət dəstəyini təmin etməkdir.

2.2. Fond bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələri yerinə yetirir:

2.2.1. aşağıdakı istiqamətlərdə layihələrin həyata keçirilməsinə maliyyə təminatı yaratmaq üçün tədbirlər görür:

1. mənəvi dəyərlərin qorunması;
2. mənəvi, dini dəyərlərin araşdırılması;
3. dini radikalizmdən, alkoqolizmdən, narkomaniyadan əziyyət çəkən şəxslərin cəmiyyətə yenidən inteqrasiyası;

2.2.2. məscidlərin və digər dini abidələrin tikintisinə və bərpasına dəstək verir;

2.2.3. dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinin həyata keçirilməsinə dəstək verir;

2.2.4. dini təhsil müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına yardım göstərir;

2.2.5. təhsilalanların sosial müdafiəsinin gücləndirilməsinə maddi yardım göstərir;

2.2.6. istedadlı şəxslərin təhsilini davam etdirməsinə, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına maddi yardım göstərir;

2.2.7. Qarabağ müharibəsi və 20 Yanvar şəhidlərinin ailələrinə, habelə müharibə əlillərinə maddi yardım göstərir;

2.2.8. aztəminatlı ailələrə dəfn xərclərinin ödənilməsi ilə bağlı maddi yardım göstərir;

2.2.9. xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə kömək göstərilməsi üçün tədbirlər görür, o cümlədən onların dərman vasitələri, zəruri ərzaq və əsas tələbat malları almasına maddi yardım göstərir;

2.2.10. çətin həyat şəraitində yaşayan şəxslərin (ailələrin) sosial problemlərinin aradan qaldırılması və onlara ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması, habelə belə şəxslərə (ailələrə) sosial xidmət göstərilməsinin təşkili istiqamətində tədbirlər görür;

2.2.11. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarda), audio və videomateriallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarının hazırlanmasına dəstək verir;

2.2.12. valideynlərini itirməsinə və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin həmin müəssisələri tərk etdikdən sonra yaşayış xərclərinin ödənilməsi ilə bağlı tədbirlər görür, onlara maddi yardım göstərir;

2.2.13. din sahəsində ixtisaslı mütəxəssislərin hazırlanması və tədris proqramlarının tərtibi ilə bağlı təkliflər verir;

2.2.14. Fonda ayrılan büdcə vəsaitindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

2.2.15. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın açıqlanmasını və daim yenilənməsini təmin edir;

2.2.16. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

2.3. Fond bu Nizamnamədə nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş əsas prinsipləri rəhbər tutur.

2.4. Fondun aşağıdakı hüquqları vardır:

2.4.1. müqavilə əsasında ekspertləri və mütəxəssisləri öz fəaliyyətinə cəlb etmək;

2.4.2. beynəlxalq təşkilatlarla, xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək;

2.4.3. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmaların aparılması üçün elmi tədqiqat və təhsil müəssisələri ilə əməkdaşlıq etmək, işçi qruplar, komissiyalar və şuralar yaratmaq;

2.4.4. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

2.4.5. fəaliyyət istiqamətlərinə uyğun olaraq analitik materiallar hazırlamaq, tədqiqatlar aparmaq, təkliflər vermək;

2.4.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq konfranslar, müşavirələr, seminarlar keçirmək və digər tədbirlər təşkil etmək;

2.4.7. əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış etmək;

2.4.8. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

2.4.9. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**3. Fondun idarə olunması**

3.1. Fondun işçilərinin say həddini və əməkhaqlarını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

3.2. Bu Nizamnamənin 3.1-ci bəndi nəzərə alınmaqla, Fondun strukturunu və ayrılmış büdcə təxsisatı daxilində onun xərclər smetasını, habelə fəaliyyətinə dair hesabatları Komitə təsdiq edir.

3.3. Fondun fəaliyyətinə ümumi nəzarəti Himayəçilik Şurası (bundan sonra – Şura) həyata keçirir.

3.4. Şura, onun sədri də daxil olmaqla, beş üzvdən ibarətdir. Şura üzvlərini Komitənin sədri vəzifəyə təyin və vəzifədən azad edir. Şura üzvlərinin səlahiyyət müddəti 5 ildir və onlar təkrar müddətə təyin edilə bilərlər.

3.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.

3.6. Şuranın üzvləri Fondun digər orqanlarında təmsil oluna bilməzlər.

3.7. Şura qərar qəbul etməkdə müstəqildir.

3.8. Şura aşağıdakı vəzifələri yerinə yetirir:

3.8.1. Fondun inkişaf istiqamətlərini müəyyən edir;

3.8.2. Fondun strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının müəyyən edilməsi ilə bağlı təkliflər verir;

3.8.3. Fondun fəaliyyətinin qanunvericiliyə uyğunluğuna, vəsaitinin formalaşmasına və xərclənməsinə ümumi nəzarəti həyata keçirir;

3.8.4. Fondun məqsədinə uyğun layihələrin maliyyələşdirilməsi və tədbirlərin həyata keçirilməsi üçün dəstəklənməsi prioritet hesab edilən sahələr barədə təkliflərini Fondun İcraçı direktoruna (bundan sonra – İcraçı direktor) təqdim edir;

3.8.5. İcraçı direktorun təqdimatına əsasən, Fondun xərclər smetasının layihəsini və balansını müzakirə edir və təkliflər verir;

3.8.6. Şura üzvlərinin və İcraçı direktorun müraciətlərinə baxır və qərar qəbul edir;

3.8.7. Fondun fəaliyyəti ilə bağlı illik hesabatlara rəy verir;

3.8.8. Fondun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Komitəyə təkliflər verir;

3.8.9. Fondun cari fəaliyyəti ilə bağlı digər məsələləri müzakirə edir.

3.9. Şuranın iclasları ildə iki dəfədən az olmayaraq çağırılır. Şuranın iclaslarının keçirilməsi təşəbbüsü ilə Şuranın üzvü və ya İcraçı direktor çıxış edir. Şuranın iclasları Şura üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şuranın iclasları protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. Şuranın iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, Şura sədrinin səsi həlledici sayılır. Səsvermə zamanı üzvlərin bitərəf qalmasına icazə verilmir.

3.10. Şuranın sədri:

3.10.1. Şuranın işini təşkil edir və onun fəaliyyətinə rəhbərlik edir;

3.10.2. Şuranın iclaslarının gündəliyini müəyyənləşdirir, iclaslar çağırır və iclaslarda sədrlik edir;

3.10.3. öz təşəbbüsü ilə, habelə Şuranın hər hansı digər üzvünün və ya direktorun xahişi əsasında digər şəxsləri Şuranın iclasında iştirak etməyə dəvət edir;

3.10.4. Şuranın fəaliyyətinin təşkili ilə bağlı digər tədbirlər görür.

3.11. Şuranın üzvlərinin aşağıdakı hüquqları vardır:

3.11.1. Şuranın səlahiyyətlərinə aid olan məsələlərin həllində iştirak etmək;

3.11.2. Şuranın iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olmaq;

3.11.3. Şurada qəbul ediləcək qərarlara dair fikir bildirmək;

3.11.4. Şuranın səlahiyyətlərinə aid məsələlərə Şuranın iclaslarında baxılması barədə təkliflər vermək;

3.11.5. Şuranın qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olmaq.

3.12. Şura üzvləri Şuranın iclaslarında baxılan məsələlərə qərəzsiz yanaşmalı, Şura üzvünün adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidirlər.

3.13. Fondun cari fəaliyyətinə Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor rəhbərlik edir. İcraçı direktor Fonda həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün cavabdehdir.

3.14. İcraçı direktorun Komitənin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır. İcraçı direktorun müavinləri İcraçı direktor tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər. İcraçı direktor müvəqqəti olmadıqda onu müvafiq əmrlə onun müavinlərindən biri əvəz edir.

3.15. İcraçı direktor aşağıdakı vəzifələri yerinə yetirir:

3.15.1. Fondun fəaliyyətini təşkil edir, cari fəaliyyətinə rəhbərlik edir və Fondu təmsil edir;

3.15.2. Fondun illik fəaliyyət planını Şura ilə razılaşdırmaqla təsdiq edir;

3.15.3. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Komitəyə təkliflər verir və sənədlər təqdim edir;

3.15.4. Fondun fəaliyyətinə dair illik hesabatı hazırlayaraq, Şuranın rəyi ilə birlikdə Komitəyə təqdim edir;

3.15.5. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələri həyata keçirmək üçün Şuraya təkliflər verir və sənədlər təqdim edir;

3.15.6. Komitənin razılığı ilə Fondun təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;

3.15.7. Komitənin razılığı ilə aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması barədə qərar qəbul edir;

3.15.8. aidiyyəti şəxslə dəyəri Fondun aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması barədə qərar qəbul edir;

3.15.9. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

3.15.10. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun Aparatının və qurumlarının strukturunu, ştat cədvəlini təsdiq edir;

3.15.11. bu Nizamnamənin 3.14-cü bəndini nəzərə almaqla, Fondun, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin işçilərini işə qəbul edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

3.15.12. Fondun işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

3.15.13. Fondun fəaliyyətinin təşkili və həyata keçirilməsi ilə bağlı icrası məcburi olan sərəncam və əmrlər verir;

3.15.14. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

3.15.15. işçilərin peşəkarlıq səviyyəsinin artırılmasını təmin edir;

3.15.16. Fondun fəaliyyət istiqamətləri üzrə məşvərətçi komitələr və işçi qruplar yaradır;

3.15.17. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

3.15.18. Fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

3.16. Fond öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

**4. Fondun nizamnamə kapitalı, əmlakı və maliyyə fəaliyyətinin əsasları**

4.1. Fondun nizamnamə kapitalı 100 000 (bir yüz min) manatdır.

4.2. Fondun əmlakı nizamnamə kapitalından, təsisçinin verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə etdiyi gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanuna uyğun əldə etdiyi digər vəsaitlərdən formalaşır.

4.3. Fondun saxlanması və fəaliyyətinin təmin edilməsi Fondun əmlakı hesabına həyata keçirilir.

4.4. Fond əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

4.5. Dövlət Fondun öhdəlikləri üçün cavabdeh deyildir və onun fəaliyyəti ilə bağlı mümkün zərərə görə Fonda verdiyi əmlakın dəyəri həddində risk daşıyır.

4.6. Fond qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Fondun, onun təsərrüfat cəmiyyətlərinin, idarə, filial və nümayəndəliklərinin fəaliyyətindən əldə edilmiş mənfəəti üzərində, bu Nizamnamənin tələbləri nəzərə alınmaqla, müstəqil sərəncam vermək hüququna malikdir.

**5. Fondun fəaliyyətinə nəzarətin forması**

5.1. Fondun fəaliyyətinə Komitə nəzarət edir.

5.2. Fondun fəaliyyətinə dair illik hesabat Komitəyə təqdim edilir.

**6. Fondda uçot və hesabat**

6.1. Fond "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qeyri-kommersiya təşkilatları üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

6.2. Fond "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, statistik uçot aparır və statistik hesabatlar tərtib edir.

6.3. Fond idarə, filial və nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

**7. Fondun ləğvi və yenidən təşkili**

Fondun ləğvini və yenidən təşkilini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

© Materiallardan istifadə edərkən hiperlinklə istinad olunmalıdır

## "İNCƏSƏNƏT XADİMLƏRİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATI HAQQINDA ƏSASNAMƏ"NİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 oktyabr 2017-ci il***

## İNCƏSƏNƏT XADİMLƏRİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATI HAQQINDA ƏSASNAMƏ

*Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 28 oktyabr tarixli 1642 nömrəli Fərmanı ilə təsdiq edilmişdir*

1. Bu Əsasnamə "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanının icrası məqsədi ilə incəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatının verilməsi və dayandırılması qaydasını müəyyən edir.

2. İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı (bundan sonra - Mükafat) yüksək peşəkarlıq nümayiş etdirən, bədii cəhətdən kamil sənət nümunələri yaradan, Azərbaycan mədəniyyətinin inkişafında, səhnə sənəti sahəsində xüsusi xidmətləri olan, habelə yeni yaradıcı nəslin yetişdirilməsində fəal iştirak edən artistlərə, rejissorlara, musiqiçilərə, rəssamlara, rəqqaslara, dirijorlara, xormeysterlərə, sənətşünaslara, bədii kollektivlərin rəhbərlərinə və digər incəsənət xadimlərinə səhnə fəaliyyəti ilə bağlı verilir.

3. Mükafat yalnız Azərbaycan Respublikasının vətəndaşı olan şəxsə verilir.

4. Mükafatın məbləği ayda 500 (beş yüz) manatdır. Mükafatın verilmə müddəti bir ildir.

5. Mükafat ötən mövsümün nəticələrinə görə verilir. Eyni şəxs yalnız üç il ardıcıl şəkildə mükafata təqdim oluna bilər.

6. Mükafatın verilməsi barədə vəsatət mükafata təqdim edilən şəxsin işlədiyi əmək kollektivi tərəfindən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi qarşısında qaldırılır. Təqdimolunma sənədlərində ötən mövsümün yaradıcılıq nailiyyətləri ətraflı göstərilir.

7. Mükafat alan şəxslər hər ilin may ayında, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təqdimatı əsasında, 150 şəxsdən çox olmayaraq, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə müəyyən edilir.

8. Mükafat mükafat alan şəxsin əmək haqqına təsir göstərmir.

9. Mükafat Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünü alan şəxsə verilmir.

10. Mükafat alan şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına xitam verildikdə, mükafat alan şəxs ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda və ya vəfat etdikdə mükafatın verilməsi dayandırılır.

11. Bu Əsasnamənin 10-cu hissəsində nəzərdə tutulmuş halda şəxs haqqında məlumat mükafatın verilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamından çıxarılır.

## "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 20 OKTYABR TARİXLİ 815-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ VƏ "MƏDƏNİYYƏT HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ 2012-Cİ İL 21 DEKABR TARİXLİ 506-IVQ NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 15 FEVRAL TARİXLİ 828 NÖMRƏLİ FƏRMANINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 41.2-ci və 41.3-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikasının 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Top-

lusu, № 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865, № 11, maddə 1811; 2017, № 6, maddə 1085) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bənddən “41.2-ci, ” sözləri çıxarılsın;

4.2. 2.3-cü bənddə “nəzərdə tutulmuş” sözlərindən əvvəl “, 41.2-ci və 41.3-cü maddələrində” sözləri əlavə edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 noyabr 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ TÜRKMƏNİSTAN HÖKUMƏTİ ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA DAİR SAZİŞİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair 2017-ci il avqustun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 noyabr 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ TÜRKMƏNİSTANIN TURİZM ÜZRƏ DÖVLƏT KOMİTƏSİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında 2017-ci il avqustun 8-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkmənistan Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 noyabr 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI HÖKUMƏTİ İLƏ MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARI HÖKUMƏTİ ARASINDA TƏHSİL, ELM, GƏNCLƏR, MƏDƏNİYYƏT VƏ İDMAN SAHƏLƏRİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında təhsil, elm, gənclər, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında 2017-ci il oktyabrın 20-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabineti onun müddəalarının həyata keçirilməsi üçün tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Meksika Birləşmiş Ştatları Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 dekabr 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2006-CI İL 18 APREL TARİXLİ 393 NÖMRƏLİ FƏRMANI İLƏ TƏSDİQ EDİLMİŞ "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ HAQQINDA ƏSASNAMƏ"DƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi

haqqında Əsasnamə"ni "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 325, № 9, maddə 737; 2007, № 2, maddə 85, № 4, maddə 330; 2008, № 8, maddə 715, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2011, № 2, maddələr 85, 91; 2012, № 7, maddə 684; 2014, № 9, maddə 1056; 2015, № 9, maddələr 985, 996, № 10, maddə 1120; 2016, № 5, maddə 850, № 10, maddə 1646, № 11, maddə 1809; 2017, № 3, maddə 356, № 6, maddə 1084, № 10, maddə 1785) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.19-8-ci bənd əlavə edilsin:

"8.19-8. mühafizə olunan mədəni sərvətlərin siyahısını öz rəsmi internet saytında yerləşdirərək, onun mütəmadi yenilənməsini və rəsmi nəşrlərdə dərc olunmasını təmin etmək;".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 fevral 2018-ci il***

## SƏRƏNCAMLAR

### "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU ƏRAZİSİNDƏ MUZEY EKSPOZİSİYALARININ YENİDƏN QURULMASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda tarixi abidələrin yerləşdiyi ərazilərdə müasir tələblərə cavab verən muzey ekspozisiyalarının yenidən qurulmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. İçərişəhər ərazisində muzey ekspozisiyalarının yenidən qurulması üçün Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 sentyabr 2013-cü il*

### AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Babayeva Təhminə Teymur qızı
Dadaşova Nəzakət Qurban qızı
Əliyeva Almaz Xəlil qızı
Əsədova Rəna Qurbanxan qızı
İsmayılova Ədibə İmaş qızı
Sevdimalıyeva Sarıgül Adıgözəl qızı
Səfərəliyeva Gülbəniz Cahangir qızı

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 sentyabr 2013-cü il*

## AZƏRBAYCAN MİLLİ KİTABXANASI ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kitabxana işinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Tahirov Kərim Məhəmməd oğlu

**"Tərəqqi" medalı ilə**

İbrahimova Gülarə Aydın qızı
Rüstəmova Sevda Qadir qızı
Sadıqova Dilşad Şaban qızı
Səmədova Enfira Şaban qızı
Talıbova Liliya Xəlil qızı
Vəliyeva Mədinə Əlibala qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2013-cü il***

## MƏMMƏD ARAZIN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2013-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi, Dövlət mükafatı laureatı Məmməd Arazın (Məmməd İnfil oğlu İbrahimovun) anadan olmasının 80 illiyi tamam olur.

Vətənpərvərlik duyğuları ilə zəngin Məmməd Araz yaradıcılığı Azərbaycan poeziyasının parlaq səhifələrindən birini təşkil edir. Şairin yüksək bədii-fəlsəfi ümumiləşdirmələrlə səciyyələnən, lakonik deyim tərzinə malik dərin ictimai məzmunlu lirikası gücünü vətən təbiətinin gözəlliklərindən, böyük tarixi keçmişimizdən və milli ədəbi fikrin tükənməz xəzinəsindən almışdır. Ana dilinin bütün incəliklərini özündə toplamış bu poetik irs gəncliyin mədəni-mənəvi dəyərlərə ehtiram ruhunda formalaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafına mühüm töhfələr vermiş xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Məmməd Arazın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 sentyabr 2013-cü il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Abdullayeva Züleyxa Nazim qızı - Azərbaycan Milli Konservatoriyasının tərkibində İncəsənət Gimnaziyasının şagirdi

Bəylərova Firuzə Rauf qızı - Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Orta ixtisas Musiqi Məktəb-studiyasının şagirdi

Cəfərov Mircavid Mircavad oğlu - Bakı şəhər Georgi Şaroyev adına 35 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Əmiraslanova Səmra Mətin qızı - Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi

Xanlarov Cahandar İslam oğlu - Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli

Onbirillik Musiqi Məktəbinin şagirdi

İsmayılov Atabəy Xəzər oğlu - Bülbül adına Orta ixtisas Musiqi Məktəbinin şagirdi

Mailova Jalə Eldəniz qızı - Bakı şəhər Rauf Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 oktyabr 2013-cü il*

## MUĞAN BABAZANLI ABİDƏLƏRİNİN 2800 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

İndiyədək aparılan çoxsaylı tədqiqatlar və üzə çıxarılan müxtəlif maddi mədəniyyət nümunələri ilə sübuta yetirilmişdir ki, Azərbaycan olduqca zəngin və böyük tarixi keçmişə malik ölkədir. Ulu əcdadların ən qədim zamanlardan etibarən bu yerlərdə məskunlaşdıqlarını Salyan rayonunda Muğan arxeoloji mədəniyyətinin mərkəzi kimi tanınmış Babazanlı ərazisində son vaxtlar qazıntılar zamanı 2800 il bundan əvvəlki dövrə aid yaşayış məskəninin aşkarlanması bir daha təsdiq edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli tarixin azərbaycançılıq məfkurəsi baxımından müstəsna əhəmiyyətini nəzərə alaraq, Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Salyan Rayon İcra Hakimiyyəti ilə birlikdə Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd olunmasına dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 oktyabr 2013-cü il*

## KARDİNAL CANFRANKO RAVAZİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Vatikan Dövləti arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Vatikan Dövlətinin mədəniyyət üzrə pontifik şurasının prezidenti Kardinal Canfranko Ravazi "Dostluq" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 noyabr 2013-cü il*

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2013-CÜ İL 29 OKTYABR TARİXLİ 799-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 799-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini hazırlasın və Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. üç ay müddətində Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2013-cü il***

## A.A. JİLKİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi və mədəni əlaqələrin inkişafındakı xüsusi xidmətlərinə görə Aleksandr Aleksandroviç Jilkin "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 noyabr 2013-cü il***

## BAKI ŞƏHƏRİNDƏ DƏNİZKƏNARI BULVARDA YENİDƏNQURMA VƏ ABADLIQ İŞLƏRİNİN DAVAM ETDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərində Dənizkənarı Bulvarda aparılan yenidənqurma və abadlıq işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinə 10 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 noyabr 2013-cü il*

## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Bağırov Çingiz Hüseynqulu oğlu
Əliyeva Gülşən Teymur qızı
Əliyeva Səmayə Əjdər qızı
Hacıyev Bayram Camal oğlu
Kərimova Fəxriyyə Ağasəf qızı
Qurbanov Ağayusif Kazım oğlu
Mehdiyeva Dilarə İbad qızı
Məhərrəmov Həmid Adil oğlu
Məlikova Elfira Hacıbaba qızı
Talıbzadə Aydın Ağayunus oğlu

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 dekabr 2013-cü il*

## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN ƏMƏKDAŞLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aşağıdakı əməkdaşlarına Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Elm Xadimi"**
Əfəndiyev Timuçin İlyas oğlu

**"Əməkdar İncəsənət Xadimi"**
Dadaşzadə Kamilə Hüseyn qızı
Kərimova Nailə Hüseyn Ağa qızı
Manafova Maral Cəbrayıl qızı
Məmmədova Qəmər Məlik qızı
Sadıqov Rafiq Kərim oğlu
Sultanov Fikrət Əbdül Həmid oğlu
**"Əməkdar Artist"**
Abiyev Sərxan Əmirağa oğlu
Atakişiyeva Fərhunə Vəfa qızı
Əliyev Zakir Əlisahib oğlu
Hümmətova Nüşabə Ələsgər qızı
İbişova Ruzə Məhərrəm qızı
**"Əməkdar Müəllim"**
Əliyev Vəfa Xanoğlan oğlu
Əlizadə Apdin İzrail oğlu
Quliyev Əzizağa Rza oğlu
Məmmədova Gülnarə Oqtay qızı
Mustafayev Elşad Nuru oğlu
Sofiyev Xaləddin Əli oğlu
**"Əməkdar Rəssam"**
Hacızadə Elşən Əbülfət oğlu
Sadıqbəyova Sevda Rafiq qızı
**"Əməkdar Mədəniyyət İşçisi"**
Axundov Bəhruz Həsən oğlu
Dadaşov Eldar Ağadadaş oğlu
Əliyeva Sədaqət Ağasəfər qızı
Hüseynova Ellada Əlihüseyn qızı
Osmanova Esmiralda Qurbanəli qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 dekabr 2013-cü il***

## "DAŞINMAZ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASI, QORUNMASI, TARİX VƏ MƏDƏNİYYƏT QORUQLARININ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ İNKİŞAFINA DAİR 2014-2020-Cİ İLLƏR ÜZRƏ DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Milli mədəni irsin qorunmasını təmin etmək, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 27 dekabr 2013-cü il***

## DAŞINMAZ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASI, QORUNMASI, TARİX VƏ MƏDƏNİYYƏT QORUQLARININ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ İNKİŞAFINA DAİR 2014-2020-Cİ İLLƏR ÜZRƏ DÖVLƏT PROQRAMI

*Azərbaycan Respublikası Prezidentinin*
*2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə*
*təsdiq edilmişdir*

### 1. Ümumi əsaslar

**1.1. Mövcud vəziyyət**

Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin bir ölkədir.

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü 2001-ci ildə təsdiq edilmiş, yeni aşkar olunmuş abidələr mütəmadi olaraq daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına əlavə olunmuşdur. Hazırda Azərbaycan Respublikasının ərazisində 6308 tarix və mədəniyyət abidəsi dövlətin mühafizəsindədir, 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir.

Azərbaycan Respublikasının beynəlxalq qurumlara üzv olması və mədəni irs sahəsində beynəlxalq müqavilələrə tərəfdar çıxması daşınmaz mədəni irsin qorunması istiqamətində tədbirlərin davamlı inkişafı zərurəti yaradır.

Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılmalıdır.

Son illər ərzində Azərbaycan Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Yanardağ" dövlət tarix-mədəniyyət və təbiət qoruğu, "Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğu, "Keşikçidağ" dövlət tarix-mədəniyyət qoruğu və "Xınalıq" dövlət tarix-memarlıq və etnoqrafiya qoruğu yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 mart tarixli 74 nömrəli Qərarı ilə "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi" təsdiq edilmişdir.

2000-ci ildə "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, 2007-ci ildə "Qobustan" dövlət tarixi-bədii qoruğu UNESCO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmişdir.

"Qobustan" dövlət tarixi-bədii qoruğunun yüksək əhəmiyyəti nəzərə alınaraq, "Qobustan dövlət tarixi-bədii qoruğu ərazisində yerləşən tarixi və mədəni sərvətlərin qorun-

ması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 iyun tarixli 2213 nömrəli Sərəncamı imzalanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 6 noyabr tarixli 172 nömrəli Qərarı ilə "Qobustan" dövlət tarixi-bədii qoruğuna milli qoruq statusu verilmişdir. Qobustan milli tarix-bədii qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır.

Ötən müddət ərzində "İçərişəhər" dövlət tarix-memarlıq qoruğunun və Qobustan milli tarix-bədii qoruğunun ərazisində yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir.

"Qala" dövlət tarix-etnoqrafiya qoruğunun ərazisində Heydər Əliyev Fondu tərəfindən yaradılan "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi Azərbaycanın tarixi keçmişini qoruyub saxlamaqla yanaşı, qoruğun turizm mərkəzlərindən birinə çevrilməsinə imkan yaradır.

"Atəşgah məbədi" dövlət tarix-memarlıq qoruğunun mühafizəsi və maddi-texniki təminatı barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 1 iyul tarixli 365 nömrəli Sərəncamına əsasən qoruğun konservasiya və bərpası üzrə layihə-smeta sənədlərinin hazırlanması, ərazidə arxeoloji tədqiqat işlərinin aparılması və "Atəşgah" tarixi muzey mərkəzinin yaradılması üçün Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan bir milyon manat vəsait ayrılmışdır. Qoruğun ərazisində genişmiqyaslı bərpa-konservasiya, elmi tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılmış, abidənin daxilində, o cümlədən yeni inzibati binanın interyerinin və ekspozisiya sahəsinin bədii tərtibatının layihəsi hazırlanmışdır.

Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, o cümlədən Bakı şəhərində "Şirvanşahlar Sarayı Kompleksi", "Məhəmməd" məscidi, "Kiçik Karvansaray", "Bazar meydanı", "Məktəb-məscid", Şəki rayonunda "Şəki Xan Sarayı", qala divarları, "Kiş" alban məbədi, "Aşağı Karvansaray", "Şəkixanovların evi", Quba rayonunun Xınalıq kəndində Əbu-Müslüm və Xıdır Nəbi məscidləri, Naxçıvan şəhərində "Möminə Xatun", Şərur rayonunda "Qudi-Xatun" türbələri, Culfa rayonunda "Xanəgah" memarlıq kompleksi, Babək rayonunda "Əshab-ül-Kəhf" ziyarətgahı dini mədəni abidə kompleksi, Qusar rayonunda "Şeyx Cüneyd" türbəsi, Qax rayonunda "Kürmük" məbədi, "Sumuqqala" abidəsi, Gəncə şəhərində Nizami Gəncəvi məqbərəsi, Hacıqabul rayonunda "Pir Hüseyn" xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri başa çatdırılmış, bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulmuş, ərazisi işıqlandırılmış, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılmışdır. Qoruqların bir qisminin maliyyələşdirilməsi dövlət büdcəsinin yerli xərclərindən mərkəzləşdirilmiş xərclərinə keçirilmişdir. Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) milli mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və mədəniyyət qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdir.

**1.2. Dövlət Proqramının məqsəd və vəzifələri**

Dövlət Proqramının əsas məqsədi daşınmaz tarix və mədəniyyət abidələrinin bərpasını, qorunmasını, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsini və inkişafını təmin etməkdir.

Dövlət Proqramı aşağıdakı vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, istifadə və idarə olunması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl və mütərəqqi təcrübənin tətbiqi, zərurət yarandıqda həmin məqsədlərə beynəlxalq mütəxəssislərin cəlb olunması;
- daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə daşınmaz mədəni irsin, o cümlədən arxeoloji abidələrin inventarlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və müasir tələblərə cavab verən məlumat bazasının yaradılması;
- tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, tarix və mədəniyyət qoruqlarının maddi-texniki bazasının inkişafı;
- daşınmaz tarix və mədəniyyət abidələrində bərpa və konservasiya işlərinin aparılması;
- daşınmaz mədəni irsin qorunması üzrə hüquqi aktların təkmilləşdirilməsi;
- daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi, o cümlədən turizm məqsədləri ilə onlardan istifadə imkanlarının araşdırılması;
- turizm məqsədləri ilə istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində və qoruqlarda müasir turizm infrastrukturunun yaradılması;
- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası üzrə yüksəkixtisaslı peşəkar kadrların hazırlanması;
- Azərbaycanın daşınmaz mədəni irsinin ölkə daxilində və beynəlxalq miqyasda təbliği və təşviqi.

**1.3. Dövlət Proqramının maliyyələşdirilməsi**

Dövlət Proqramının icrası üçün tələb olunan xərclər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində Dövlət Proqramının icrasına məsul dövlət orqanları üçün nəzərdə tutulmuş vəsaitlər, habelə büdcədənkənar vəsaitlər, kreditlər və qrantlar hesabına maliyyələşdirilir.

**1.4. Gözlənilən nəticələr**

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

- daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması;
- tarix və mədəniyyət qoruqlarının inkişafı;
- mədəni irsin qorunması üzrə idarəetmə sisteminin və normativ hüquqi bazanın təkmilləşdirilməsi;
- daşınmaz tarix və mədəniyyət abidələrində aparılan bərpa və konservasiya işlərinin inkişafı;
- Azərbaycanın tarixi və mədəni irsinin təbliği imkanlarının genişləndirilməsi;
- mədəni irsin öyrənilməsində müasir texnologiyaların, aparıcı beynəlxalq təcrübənin tətbiqi, tarix və mədəniyyət abidələrinin genişmiqyaslı tədqiqi;

- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası sahəsində yüksəkixtisaslı peşəkar kadrların formalaşması;
- turizmin inkişafı;
- yeni iş yerlərinin yaradılması, bölgələrdə əhalinin mədəni irsin qorunmasına cəlb edilməsi.

## 2. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı

| № | Tədbirlərin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **2.1. Normativ hüquqi bazanın təkmilləşdirilməsi** | | | |
| 2.1.1. | Azərbaycan Respublikasının ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin yeni siyahısının tərtibi və təsdiqi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2016 |
| 2.1.2. | Daşınmaz tarix və mədəniyyət abidələrinin balans mənsubiyyətinin dəqiqləşdirilməsi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014-2016 |
| 2.1.3. | Daşınmaz tarix və mədəniyyət abidələrinin, tarix və mədəniyyət qoruqlarının qorunması və onlardan istifadə sahəsində hüquqi aktların təkmilləşdirilməsi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Ədliyyə Nazirliyi | 2014-2015 |
| 2.1.4. | Xüsusi mülkiyyətdə olan, o cümlədən tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin (onların ayrı-ayrı hissələrinin) dövlət tərəfindən satın alınması qaydasına dair təkliflərin hazırlanması | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Ədliyyə Nazirliyi | 2014 |

| | | | |
|---|---|---|---|
| 2.1.5. | Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa-konservasiya işlərinə dair normativ sənədlərin (o cümlədən layihə-smeta sənədlərinin hazırlanmasının və dövlət ekspertizasının) beynəlxalq standartlara uyğunlaşdırılması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Ədliyyə Nazirliyi | 2014-2016 |
| **2.2. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması işinin təkmilləşdirilməsi** | | | |
| 2.2.1. | Tarix və mədəniyyət abidələrinin idarə olunma sisteminin təkmilləşdirilməsi | Nazirlər Kabineti, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014 |
| 2.2.2. | Tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən maddi-texniki bazasının inkişafı, ərazisində xüsusi rejimin saxlanılması məqsədi ilə mühafizəsinin təmin edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.2.3. | Daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, o cümlədən daşınmaz mədəni irsin, həmçinin arxeoloji abidələrin inventarlaşdırılması, sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və xəritələrinin hazırlanması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, multimedia və elektron müşahidə sistemlərinin tətbiqi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |

| | | | |
|---|---|---|---|
| 2.2.4. | Tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, o cümlədən həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.2.5. | Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunmasında müasir texnologiyaların və təcrübənin tətbiq olunması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014-2020 |
| 2.2.6. | Tarix və mədəniyyət qoruqlarında və turizm məqsədləri üçün istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində turizm infrastrukturunun yaradılması və inkişafı | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.2.7. | Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası üzrə yüksəkixtisaslı kadrların hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2020 |
| 2.2.8. | Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması sahəsində YUNESKO və digər beynəlxalq qurumlarla əməkdaşlığın inkişaf etdirilməsi | Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014-2020 |
| 2.2.9. | Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpa-konservasiya işlərinə peşəkar xarici mütəxəssislərin cəlb edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 2014-2020 |

| | | | |
|---|---|---|---|
| 2.2.10. | Daşınmaz tarix və mədəniyyət abidələri üzərində təmir və bərpa işləri üçün yerli xammal və materialların istehsalının təşkili | İqtisadiyyat və Sənaye Nazirliyi | 2014-2016 |
| **2.3. Monitorinq, bərpa-konservasiya, tədqiqat və təbliğat işləri** | | | |
| 2.3.1. | Daşınmaz tarix və mədəniyyət abidələrinin texniki vəziyyətinin öyrənilməsi üçün monitorinqlərin keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2020 |
| 2.3.2. | Daşınmaz tarix və mədəniyyət abidələrində bərpa-konservasiya işlərinin aparılması | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.3.3. | Yaşayış məntəqələrinin baş planları layihələndirilən zaman, həmçinin tikinti-quraşdırma və abadlıq işləri aparılarkən abidələrin mühafizə zonalarının nəzərə alınması | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, yerli icra hakimiyyəti orqanları | 2014-2020 |
| 2.3.4. | Qoruqlara yeni avtomobil yollarının çəkilməsi, mövcud yolların təmiri, nəqliyyat infrastrukturunun təşkili və təkmilləşdirilməsi, qoruqların istiqamətini göstərən yol nişanlarının və məlumat lövhələrinin quraşdırılması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İqtisadiyyat və Sənaye Nazirliyi, Nəqliyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2016 |

| | | | |
|---|---|---|---|
| 2.3.5. | Tarix və mədəniyyət qoruqlarında elmi tədqiqatların səmərəliliyini artırmaq məqsədi ilə tədbirlərin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları, bələdiyyələri cəlb etməklə | 2014-2018 |
| 2.3.6. | Dərsliklərə Azərbaycan Respublikasının daşınmaz mədəni irsi haqqında məlumatların salınması | Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2020 |
| 2.3.7. | Azərbaycanın işğal altında olan torpaqlarında yerləşən daşınmaz mədəni irsi haqqında kitabların çap etdirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2015 |
| 2.3.8. | Daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi və təbliği işinin təkmilləşdirilməsi, o cümlədən tarix və mədəniyyət qoruqlarının veb-saytlarının yaradılması, Azərbaycan Respublikasının daşınmaz mədəni irsi haqqında çap məhsullarının hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Azərbaycan Milli Elmlər Akademiyası | 2014-2020 |

## "DƏDƏ QORQUD" DASTANLARI ƏSASINDA ÇOXSERİYALI BƏDİİ TELEVİZİYA FİLMİNİN ÇƏKİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mədəni-mənəvi sərvətlər xəzinəsində "Kitabi-Dədə Qorqud" özünəməxsus layiqli yer tutur. Qəhrəmanlıq dolu keçmişimizi parlaq əks etdirən bu misilsiz və möhtəşəm sənət abidəsi milli varlığımızın müəyyənləşməsində mühüm rol oynamışdır. Əcdadlarımız barəsində yaradılmış ən böyük və məşhur oğuznamələrdən ibarət "Kitabi-Dədə Qorqud" ana dilimizin tükənməz ifadə imkanlarını özündə yaşadır. Azərbaycanın tarixi coğrafiyasını bütün genişliyi ilə əhatə edən monumental epos xalqımıza məxsus qədim adət-ənənələrin, ulu babalarımızın dünyagörüşünün, mənəvi aləminin və yüksək bədii zövqünün öyrənilməsində qiymətli mənbədir.

2015-ci ildə "Kitabi-Dədə Qorqud"un dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur. Ötən dövr ərzində abidənin tədqiqi istiqamətində çoxsaylı elmi araşdırmalar aparılmış, eposu təşkil edən boyların süjet və motivləri əsasında ədəbi əsərlər yazılmış, təsviri sənət nümunələri meydana gətirilmişdir. 1975-ci ildə "Dədə Qorqud" boylarına

həsr olunan iki seriyalı bədii film çəkilmiş, 2000-ci ildə isə abidənin 1300 illik yubileyi UNESCO xətti ilə beynəlxalq səviyyədə təntənəli qeyd edilmişdir.

"Dədə Qorqud" dastanlarının azərbaycançılıq məfkurəsi baxımından müstəsna əhəmiyyətini, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında əvəzsiz rolunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filmi çəkilsin.

2. "Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilişi ilə bağlı ədəbi ssenarinin hazırlanması və təşkilati məsələlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ilkin olaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 1,0 (bir) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 dekabr 2013-cü il***

## AZƏRBAYCAN XALÇA MUZEYİNİN YENİ BİNASININ MADDİ-TEXNİKİ TƏMİNATI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Xalça Muzeyinin yeni binasının ekspozisiya sahəsinin bədii tərtibatı, habelə müasir texniki avadanlıqla təchiz edilməsi üçün Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 dekabr 2013-cü il***

# İLYAS ƏFƏNDİYEVİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin may ayında Azərbaycanın xalq yazıçısı, respublika Dövlət mükafatı laureatı, görkəmli dramaturq İlyas Məhəmməd oğlu Əfəndiyevin anadan olmasının 100 illiyi tamam olur.

İlyas Əfəndiyev klassik ədəbi fikrin böyük ənənələri zəminində öz üslubunu yaradan sənətkar kimi xalqımızın söz sənəti xəzinəsinə dəyərli töhfələr vermişdir. Yazıçının bədii nailiyyətlərlə zəngin irsi ədəbiyyatımızda yeni mərhələnin təşəkkülünə səmərəli təsir göstərmişdir. Azərbaycan teatr səhnəsinin müasir simasının formalaşmasında İlyas Əfəndiyev dramaturgiyası özünəməxsus əhəmiyyətli yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbiyyatın inkişafında mühüm xidmətləri olan İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı İlyas Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 yanvar 2014-cü il***

# AZƏRBAYCANDA DİNİ MƏDƏNİYYƏTİN, TOLERANTLIĞIN, DİNLƏRARASI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN TƏBLİĞİNİN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini Mədəniyyətin İnkişafı" fonduna 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 yanvar 2014-cü il***

## ƏLİ BƏY HÜSEYNZADƏNİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin fevral ayında Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi tamam olur.

Türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verən görkəmli ictimai xadim Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Əli bəy Hüseynzadənin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 yanvar 2014-cü il***

## 2014-CÜ İL GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gənclər üçün Prezident Mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, ədəbiyyat və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2014-cü il Gənclər üçün Prezident mükafatları verilsin:

Əsgərov Timur Vaqif oğlu
Hacıyeva Flora Vidadi qızı
İsmayıllı İlyas İsmiyar oğlu
İsmayılov Şahin Əmir oğlu
Nurəliyeva Pərvin Ələmdar qızı
Səfərov Rafiq Tofiq oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 fevral 2014-cü il***

## MİRZƏ ŞƏFİ VAZEHİN 220 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair və tanınmış maarifçi Mirzə Şəfi Vazehin anadan olmasının 220 illiyi tamam olur.

Vazeh Şərq poeziyasının çoxəsrlik ənənələrini layiqincə yaşatmış və yüksək insanpərvərliyi, mənəvi gözəlliyi tərənnüm edən diqqətəlayiq irs qoyub getmişdir. Onun yaradıcılığı Azərbaycanın Avropa ilə ədəbi-mədəni əlaqələrinin inkişafında özünəməxsus mühüm yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli şair və maarifçi Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Gəncə Şəhər İcra Hakimiyyəti ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Şəfi Vazehin 220 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 fevral 2014-cü il***

## ABBASQULU AĞA BAKIXANOVUN 220 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan ictimai-mədəni fikir tarixinin görkəmli nümayəndəsi, böyük maarifçi, tanınmış alim və şair Abbasqulu Ağa Bakıxanovun anadan olmasının 220 illiyi tamam olur.

Ensiklopedik biliyə və əhatəli dünyagörüşünə malik şəxsiyyət kimi Abbasqulu Ağa Bakıxanov elmin, mədəniyyətin ən müxtəlif sahələrinə aid zəngin bir irs yaratmışdır. Xalqın həyatında əsaslı dəyişikliklərə yol açmış maarifçilik ideyalarının bərqərar olmasında onun mühüm xidmətləri vardır. Azərbaycanın tarixi keçmişinin müasir dünya elmi səviyyəsində yeni, sistemli tədqiqi mərhələsi Bakıxanovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ictimai fikrin, elmin və mədəniyyətin inkişafına dəyərli töhfələr vermiş Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azər-

baycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 fevral 2014-cü il*

## LÜTFƏLİ ABDULLAYEVİN 100 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublikanın xalq artisti Lütfəli Əmir oğlu Abdullayevin anadan olmasının 100 illiyi tamam olur.

Fitri istedada, yüksək səhnə mədəniyyətinə malik sənətkar kimi Lütfəli Abdullayev özünəməxsus təkrarolunmaz üslubda canlandırdığı son dərəcə koloritli, rəngarəng obrazlarla Azərbaycan teatr tarixinə və kino salnaməsinə yeni parlaq səhifələr yazmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli teatr və kino sənətinin inkişafına dəyərli töhfələr vermiş xalq artisti Lütfəli Abdullayevin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Lütfəli Abdullayevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 fevral 2014-cü il*

## “AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT KONSEPSİYASI”NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan mədəniyyətinin inkişafını, daxili və xarici təhdidlərdən qorunmasını, dünya mədəniyyətinə uğurlu inteqrasiyasını, mədəniyyət sahəsində insan və vətəndaş hüquq və azadlıqlarını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Konsepsiyanın həyata keçirilməsi üzrə dövlət proqramlarının layihələrini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Konsepsiyanın icrasının gedişi barədə hər il üzrə hesabatı növbəti ilin 1 mart tarixinədək Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 fevral 2014-cü il***

## Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası

*Azərbaycan Respublikası Prezidentinin*
*2014-cü il 14 fevral tarixli 273 nömrəli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

### 1. Məzmun

Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasəti ümumi dövlət siyasətinin tərkib hissəsidir. Dövlət quruculuğu, iqtisadiyyat və sosial sahələrdə həyata keçirilən köklü islahatlar mədəni proseslərin məzmununa və dinamikasına da bilavasitə təsir göstərmişdir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan çoxsaylı daxili və xarici problemlərlə üzləşmiş, ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olunmuşdur. Məhz belə şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə daxili siyasi sabitlik bərpa edilmiş, ölkənin gələcək inkişafının strategiyası və əsas istiqamətləri müəyyənləşdirilmişdir. Həmin vaxtdan etibarən bütün fəaliyyət sahələrində, o cümlədən mədəniyyət sahəsində köklü islahatlar aparılmış və yüksək nailiyyətlər əldə edilmişdir.

Azərbaycanın sosial və iqtisadi sahələrdə uğurları, beynəlxalq aləmdə daim artan nüfuzu ölkə vətəndaşlarının Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş mədəni hüquqlarının həyata keçirilməsi üçün əlverişli imkanlar yaratmışdır. Azərbaycan Respublikasında hər kəsin mədəniyyət sahəsində hüquq və azadlıqları, beynəlxalq hüququn prinsip və normaları rəhbər tutulmaqla təmin edilir.

Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasəti mədəni irsin qorunması və təbliği, mədəni sərvətlərin yaradılması və inkişafı istiqamətində dövlətin rəhbər tutduğu prinsiplərlə səciyyələnir.

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununa görə mədəniyyət sahəsində dövlət siyasəti:

bərabərlik - hər kəsin öz mədəniyyət və yaradıcılıq hüquqlarının və imkanlarının bərabər şərtlər əsasında həyata keçirilməsinin təmin olunması;

demokratiklik - əhalinin azad düşüncə ruhunda tərbiyələndirilməsi, mədəniyyət sahəsinin dövlət-ictimai əsaslarla təşkilində və idarə edilməsində hüquq və azadlıqların genişləndirilməsi, estetik düşüncə azadlığının təmin edilməsi, yeni mədəniyyət təşkilatlarının yaradılmasının stimullaşdırılması;

humanistlik - dünyəvi dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin prioritet kimi qəbul olunması;

inteqrasiya - dünya mədəniyyətindən təcrid olunmamaqla, dünya mədəniyyətinin universal dəyərlərini qəbul edərək, milli mədəniyyətin dünyada tanıdılması, zənginləşdirilməsi və inkişafının təmin edilməsi;

tarazlılıq - mədəniyyət sənayesi ilə mədəniyyət məhsullarının və xidmətlərinin bazarları arasında balansın yaradılması, mədəniyyət cəmiyyətlərinin fəaliyyətinin inkişafının təmin edilməsi;

keyfiyyətlilik - mədəniyyət sahəsində məhsulların və xidmətlərin ən qabaqcıl standartlara, normalara, sosial-iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğunun təmin olunması;

dünyəvilik - dünyəvi dəyərlərin yaradılması, qorunması və inkişafının təmin olunması;

səmərəlilik - mədəniyyət sahəsində yaradıcılığın daim inkişaf edən, faydalı və son nəticəyə istiqamətlənən müasir metodlarla təşkil edilməsi;

varislik - mədəni sərvətlərin, bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsi;

istedad amili - fitri istedada malik şəxslərin yaradıcılıq nailiyyətlərinin artmasına xüsusi qayğının göstərilməsi kimi prinsiplərə əsaslanır.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, işğal edilmiş ərazilərdə yerləşən yaşayış evləri, təhsil, sənaye və kənd təsərrüfatı obyektləri ilə yanaşı yüzlərlə mədəniyyət müəssisəsi, o cümlədən 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 22 muzey və muzey filialları, 4 rəsm qalereyası, dünya əhəmiyyətli 13, ölkə əhəmiyyətli 242, yerli əhəmiyyətli 434 tarix və mədəniyyət abidəsi, o cümlədən Cəbrayıl rayonunda 11 və 15 aşırımlı Xudafərin körpüləri (VII-XII əsrlər), Kəlbəcər rayonunda Gəncəsar və Xudavənd məbədləri (XIII əsr), Ağdam rayonunun Xaçın Türbətli kəndində məqbərə (XIV əsr), Füzuli rayonu ərazisində dünyanın ən qədim sakinlərinin yaşayış məskənlərindən biri - Azıx mağarası, ümumdünya əhəmiyyətli 6 memarlıq və 7 arxeoloji abidə, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğu erməni vandalizminin qurbanına çevrilmişdir.

Beynəlxalq hüquq normalarına, Azərbaycan Respublikasının da qoşulduğu «Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında» 1954-cü il 14 may tarixli Konvensiyanın müddəalarına zidd olaraq həmin abidələrin əksəriyyəti talan edilmiş, dağıdılmış, yerlə yeksan edilmişdir. Cavabdehin beynəlxalq hüquq normaları çərçivəsində cəzalandırılması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

"Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası" (bundan sonra -Konsepsiya) Azərbaycan mədəniyyətinin inkişafının, daxili və xarici təhdidlərdən (saxtakarlıq, mənimsəmə, təhriflər, tarix və mədəniyyət abidələrinin məqsədli şəkildə məhvi və s.) qorunmasının və dünya mədəniyyətinə uğurlu inteqrasiyasının əsas istiqamətlərini, mədəniyyət hüquqlarının təminatı formalarını müəyyən edir.

Konsepsiya mədəni sərvətlərin, o cümlədən maddi və qeyri-maddi mədəni irs nümunələrinin, Azərbaycanın xarici dövlətlərdə milli mədəni irsinin, beynəlxalq hüquq normalarına əsaslanaraq qorunması, bərpası, təbliği və təşviqi istiqamətində genişmiqyaslı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

## 2. Konsepsiyanın əsas məqsəd və vəzifələri

Konsepsiyanın əsas məqsədi Azərbaycan xalqının bütövlüyünün qorunması şərti ilə, mədəniyyət siyasətinin təminat mexanizmlərinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, mədəni irsin qorunması, yaradıcılığın dəstəklənməsi və inkişafının təmin olunmasından ibarətdir.

Konsepsiyanın əsas vəzifələri mədəniyyətin bütün sahələrinin, o cümlədən mədəniyyət siyasətinin idarəetmə, hüquqi, maliyyə, informasiya, insan resursları, maddi-texniki infrastruktur və beynəlxalq əməkdaşlıq kimi təminat mexanizmlərinin inkişafını, mədəniyyət sahəsində göstəricilərin yüksək səviyyəyə çatdırılmasını və mədəni irsin təhlükəsizliyi üçün tələb olunan islahatların həyata keçirilməsini təmin etməkdir.

**2.1. Hüquqi təminatın inkişaf etdirilməsi**

Demokratik hüquqi dövlətin qanunun aliliyi, insan və vətəndaş hüquqları və azadlıqları kimi fundamental əsaslarının təmin olunması milli maraqların həyata keçirilməsinə əhəmiyyətli dəstəkdir. Bu səbəbdən mədəniyyət siyasətinin həyata keçirilməsinin əsas vasitələrindən olan mədəni həyat və onun hər bir mərhələsinin - mədəni sərvətlərin yaradılması, qorunması, təşviqi və mənimsənilməsi proseslərinin hüquqi tənzimlənməsi böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan işlərin davam etdirilməsinin zəruriliyi nəzərə alınaraq, aşağıdakı vəzifələr müəyyən edilir:

- mədəniyyət haqqında Azərbaycan Respublikası qanunvericiliyinin, o cümlədən mədəniyyət sahəsində fəaliyyət istiqamətləri üzrə münasibətləri tənzimləyən hüquqi aktların təkmilləşdirilməsi;
- Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində mədəniyyət sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi;
- əqli mülkiyyət mədəniyyətinin formalaşdırılması;
- mədəniyyət sahəsində peşəkarlıq səviyyəsinin artırılması.

**2.2. Mədəniyyətin idarə olunmasında müasir üsulların tətbiqi**

Mütərəqqi beynəlxalq təcrübəyə əsasən, mədəniyyətin idarə olunmasında ən müvəffəqiyyətli üsullar bu işə dövlət orqanları ilə yanaşı, qeyri-hökumət təşkilatlarının və özəl sektorun cəlb olunması, dövlət orqanlarının və bələdiyyələrin qarşılıqlı əməkdaşlığı, mədəniyyət təsisatlarından səmərəli istifadənin təşkili, mədəniyyət sahəsində dövlət siyasəti prinsiplərinin rəhbər tutulması, müasir innovativ idarəçilik metodlarının tətbiqi və inhisarçılığın qarşısının alınması yolu ilə təmin edilir.

Mədəniyyətin idarə olunması sahəsində aparılacaq islahatlar çərçivəsində aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- dövlət mədəniyyət sisteminin təkmilləşdirilməsi, mədəniyyət, o cümlədən incəsənət sahələrinin idarə olunmasında yerli özünüidarəetmə orqanları ilə əməkdaşlığın inkişaf etdirilməsi;
- mədəniyyət, o cümlədən incəsənət sahələrində art-menecment və prodüserlik sistemlərinin formalaşdırılması və müasir inzibatçılığın təşviqi;
- qeyri-hökumət təşkilatları və özəl sektorla əməkdaşlığın həyata keçirilməsi, milli mədəni özünəməxsusluğun və çoxşaxəliliyin, multikulturalizmin qorunub saxlanılması, fərdi təşəbbüslərin təşviq edilməsi və layihələrin həyata keçirilməsi məqsədi ilə mədəniyyət sahəsində davamlı liberallaşmanın aparılması.

**2.3. Maliyyə mənbələrinin diversifikasiyası**

Azərbaycan Respublikasında mədəniyyət sahəsinin maliyyə mənbələrinin diversifikasiyası üçün aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- dövlət büdcəsindən mədəniyyət sahəsinə ayrılan vəsaitin inventarlaşdırılması, təhlili, qiymətləndirilməsi və səmərəliliyinin artırılması nəticəsində optimal maliyyələşmə

həddinin müəyyənləşdirilməsi, habelə xərclərin ünvanlı istifadə edilməsi məqsədi ilə dövlət sifarişlərinin daha geniş tətbiq olunması və ayrılan dövlət vəsaitlərinə nəzarətin gücləndirilməsi;

- mədəniyyətin maliyyə imkanlarının genişləndirilməsi üçün alternativ maliyyə mənbələrinin (büdcədənkənar vəsaitlər, qrantlar, ianələr və digər qanuni maliyyə mənbələri) cəlb edilməsi;
- menecment və marketinqin inkişaf etdirilməsi vasitəsi ilə mədəniyyət müəssisələrində göstərilən ödənişli mədəniyyət xidmətlərinin təkmilləşdirilməsi, o cümlədən genişləndirilməsi.

## 2.4. İnformasiya təminatının təkmilləşdirilməsi

Dövlət quruculuğunun digər sahələri kimi Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin formalaşdırılması da hərtərəfli mədəni-siyasi tədqiqatlara və əlaqəli innovasiyalara əsaslanmalıdır. Eyni zamanda, təşəkkül tapmaqda olan qlobal informasiya cəmiyyətində elmi əsaslandırılmış informasiyanın rolunun artması diqqətdən kənarda qalmamalıdır. Bu məqsədlə mədəniyyət sahəsində informasiya təminatının təkmilləşdirilməsi üçün aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- elmi-metodiki tədqiqatların aparılması, statistik məlumatların toplanılması, ictimai rəyin öyrənilməsi məqsədi ilə sosioloji sorğuların keçirilməsi, müasir sənədləşmənin tətbiq edilməsi, məlumat bazalarının yaradılması, milli və beynəlxalq konfrans, seminar və digər tədbirlərin keçirilməsi;
- daxili və xarici mədəniyyət siyasəti, mədəniyyətin, o cümlədən incəsənətin müxtəlif sahələri, həmçinin ayrı-ayrı regionlar üzrə proqram layihələrinin işlənilib hazırlanması və icrasının təmin edilməsi;
- informasiya və reklam işinin müasirləşdirilməsi, milli və xarici kütləvi informasiya vasitələrində və internet şəbəkəsində Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin layiqincə təmsil olunması;
- mədəniyyət, informasiya, reklam və yayım proqramları vasitəsi ilə mədəniyyət-informasiya məkanının formalaşdırılması;
- zorakılığa, sosial, irqi, milli və dini ayrı-seçkiliyə çağırışların, milli-mənəvi dəyərlərə zidd davranışların və fəaliyyətlərin, əxlaqsızlıq, erotika, pornoqrafiya, narkomaniya və digər neqativ halların yaranmasına xidmət edən vasitələrin təbliğinin qarşısının alınması.

## 2.5. Təhsil və insan resurslarının inkişafı

Mədəniyyət sahəsinin davamlı inkişafının təmin olunmasında bu sahədə bilik və təcrübənin sonrakı nəsillərə ötürülməsi, çoxpilləli mədəniyyət təhsili sistemi və şəbəkəsinin müasirləşdirilməsi zəruridir. Mədəniyyət sahəsində təhsil və insan resurslarının inkişafının təmin olunması məqsədi ilə aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- Azərbaycan Respublikasının mədəniyyət, o cümlədən incəsənət xadimlərinin zəruri tələbatlarının iqtisadi imkanlar daxilində ödənilməsi üçün tədbirlərin görülməsi, onların fəal yaradıcılığı məqsədi ilə şəraitin yaxşılaşdırılması;
- mədəniyyət sahəsində təhsil, o cümlədən əlavə təhsil sisteminin təkmilləşdirilməsi, həmin məqsədlə xarici ölkələrə təcrübə səfərlərinin təşkili və tanınmış əcnəbi mütəxəssislərin Azərbaycan Respublikasına dəvət edilməsi;
- müsabiqə, sərgi, festival və digər tədbirlərin təşkili yolu ilə gənc istedadların üzə çıxarılması işinin davam etdirilməsi;

- mədəniyyətin inkişafında xidmətləri olan mədəniyyət işçilərinin, yaradıcı şəxslərin və kollektivlərin bioqrafiyası, peşə və yaradıcılıq fəaliyyətləri barədə məlumat bazasının yaradılması;
- Azərbaycanın xarici ölkələrdə yaşayan mədəniyyət xadimləri haqqında məlumat bazasının formalaşdırılması, həmin şəxslərin Azərbaycan Respublikasının müvafiq dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əlaqələrinin inkişaf etdirilməsi, habelə əsərlərinin respublikada və xarici ölkələrdə təbliği istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi.

**2.6. İnfrastrukturun müasirləşdirilməsi**

Mədəni sərvətlərin yaradılması, mühafizəsi və istifadəsi mövcud maddi-texniki bazanın gücləndirilməsini və infrastrukturun müasirləşdirilməsini şərtləndirir. Qloballaşan dünyada cəmiyyətin və mədəniyyətin tərəqqisi informasiya və kommunikasiya texnologiyaları olmadan mümkün deyildir. Bu baxımdan mədəniyyət infrastrukturunun müasirləşdirilməsi üçün aşağıdakı əsas vəzifələr müəyyən edilir:
- mədəniyyət müəssisələri üçün orijinal layihələr əsasında nümunəvi binaların tikilməsi;
- təmirə ehtiyacı olan mədəniyyət obyektlərində növbəlilik prinsipi üzrə müvafiq işlərin görülməsi;
- mədəniyyət obyektlərinin müasir mühəndis qurğuları və texnoloji sistemlərlə təchizatı;
- mədəniyyət obyektlərində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi.

**2.7. Beynəlxalq əməkdaşlıq**

Qloballaşan dünyada Azərbaycan Respublikasının inkişafının mühüm amillərindən biri kimi beynəlxalq əməkdaşlığın vacibliyini, mədəniyyətlərarası dialoqun həyata keçirilməsində və mədəni sərvətlərin təbliğində turizmin əsas vasitələrdən biri olduğunu nəzərə alaraq, Azərbaycan mədəniyyətinin xaricdə təqdim və təbliğ edilməsi, həmçinin dünya xalqlarına məxsus ən parlaq mədəniyyət nümunələrinin Azərbaycanda yayılmasına şərait yaradılması üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:
- Birləşmiş Millətlər Təşkilatı, İslam Konfransı Təşkilatı, YUNESKO, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, TÜRKSOY, İSESKO, Müstəqil Dövlətlər Birliyi, GUAM, QDİƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsi ilə milli mədəniyyətin xarici ölkələrdə təbliği;
- mədəniyyətlərarası dialoqun dəstəklənməsi;
- Avropa, Asiya, Amerika, Afrika dövlətləri, türkdilli və digər ölkələrin xalqları ilə mədəniyyət və turizm sahəsində beynəlxalq əlaqələrin möhkəmləndirilməsi və genişləndirilməsi;
- Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərinin tabeliyində mədəniyyət mərkəzlərinin təsis olunması, xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları tərəfindən yaradılmış mədəniyyət mərkəzlərinə konsultativ, metodiki, təşkilati-texnoloji və digər dəstəyin göstərilməsi;
- Azərbaycana qarşı erməni təcavüzü və erməni terroru, Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və hazırkı vəziyyəti, siyasi-hüquqi aspektləri, münaqişənin həlli prosesi, Azərbaycanın işğal edilmiş ərazilərindəki tarix və mədəniy-

yət abidələrinin vəziyyəti, talan edilmiş daşınan sərvətləri və əqli mülkiyyətin ermənilər tərəfindən oğurlanması haqqında beynəlxalq ictimaiyyətin mütəmadi olaraq məlumatlandırılması;

- dünya mədəni irs obyektlərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi;
- qabaqcıl təcrübələrin və yeni texnologiyaların beynəlxalq mübadiləsi;
- xarici dövlətlərin mədəni irslərinin qorunması, bərpası və inkişafının dəstəklənməsi.

## 3. Mədəni irsin qorunması

Hər bir xalqın mədəni irsi özündə milli-mənəvi dəyərləri əks etdirən və onu dünya miqyasında tanıdan vasitədir. Bu səbəbdən daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması, muzey şəbəkələrinin və kitabxana-informasiya sistemlərinin müasirləşdirilməsi, elektron kataloq və elektron kitabxanaların yaradılması, qeyri-maddi mədəni irsin və xalq yaradıcılığının dəstəklənməsi, yerli mədəniyyət mərkəzlərinin, mədəniyyət əhəmiyyətli parkların, etnoparkların inkişaf etdirilməsi Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Azərbaycan Respublikası mədəniyyət sahəsində dövlət siyasətinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq, öz ərazisində maddi və qeyri-maddi mədəni irsi qorumaqla yanaşı, milli mədəni sərvətlərin qanunsuz özgəninkiləşdirilməsi, onlara zərər vurulması kimi neqativ halların, habelə Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə qalan maddi mədəniyyət nümunələrinin dağıdılmasının və onlara məqsədli şəkildə müdaxilələr edilməsinin, həmin ərazilərin qanunsuz şəkildə turist marşrutlarına salınmasının qarşısının alınması istiqamətində fəaliyyət göstərir.

### 3.1. Qeyri-maddi mədəni irsin qorunması

Azərbaycan xalqının əsrlər boyu yaradılan və tarixən milli mənəviyyatın və mədəniyyətin inkişaf özəyini təşkil edən qədim və rəngarəng qeyri-maddi mədəni irsi hər bir azərbaycanlının qürur mənbəyidir. Azərbaycan xalqına məxsus qeyri-maddi mədəni irs nümunələri - Azərbaycan muğamı, Azərbaycan aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçaçılıq sənəti, tar sənətkarlığı və ifaçılığı YUNESKO-nun Qeyri-maddi Mədəni irs üzrə Reprezentativ Siyahısına, Çövkən - Qarabağ atüstü oyunu YUNESKO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-maddi Mədəni İrs üzrə Siyahısına daxil edilmişdir. Mövcud mədəniyyət sarayları, mədəniyyət evi, klub və park şəbəkələrinin yenidən qurulması vasitəsi ilə qeyri-maddi mədəni irsin əsas sahələri olan folklor, sənətkarlıq və diyarşünaslığın dəstəklənməsi istiqamətində aşağıdakı vəzifələr müəyyən edilir:

- Azərbaycan xalqının tarixi-mədəni həyat təcrübəsinin və diyarşünaslığın inkişafı məqsədi ilə xalq adət və ənənələrinin təbliği, milli bayram və mərasimlərin qorunub saxlanılması, tarixi rəmz və ənənəvi biliklərin rekonstruksiyası;
- milli musiqi və rəqslərin təşviqi;
- şifahi xalq yaradıcılığı nümunələrinin qorunması, xalq oyun və tamaşalarının bərpası;
- xalq sənətkarlığının dirçəldilməsi məqsədi ilə xalq tətbiqi sənətinin inkişaf etdirilməsi, ənənəvi dekorativ sənətin qorunması, təsviri incəsənətin canlandırılması;
- mövcud ştat vahidləri dairəsində şəhər (rayon) mədəniyyət evləri və klublarının əsasında şəhər (rayon) mədəniyyət mərkəzləri və onların diyarşünaslıq, folklor və sənətkarlıq filiallarının yaradılması, həmçinin mədəniyyət əhəmiyyətli parkların müasir əsaslarla təşkil edilməsi, sənətkarlıq emalatxanalarının təşkili, onların turist marşrutlarına salınması.

### 3.2. Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının inkişafı

Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngin ölkədir. Dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə 2001-ci ildən aparılan bölgüsünə əsasən Azərbaycan Respublikasının ərazisində 6308 abidə dövlətin mühafizəsindədir. Azərbaycan Respublikası ərazisində 27 dövlət tarix-mədəniyyət, o cümlədən memarlıq, bədii və etnoqrafiya qoruğu fəaliyyət göstərir.

2000-ci ildə "İçərişəhər" dövlət tarix-memarlıq qoruğu, o cümlədən Şirvanşahlar sarayı kompleksi və Qız qalası, 2007-ci ildə «Qobustan» dövlət tarixi-bədii qoruğu YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına daxil edilmişdir. "İçərişəhər" dövlət tarix-memarlıq qoruğunun və Qobustan milli tarix-bədii qoruğunun ərazisində yerləşən abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir.

Daşınmaz tarix və mədəniyyət abidələrində bərpa-konservasiya işlərinin aparılması, sel sularından mühafizə məqsədli drenaj sistemlərin qurulması, ərazinin işıqlandırılması, informasiya lövhələri və yol nişanlarının quraşdırılması, daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

Milli mədəni irsin qorunması məqsədi ilə aparılan islahatların davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı ilə daşınmaz tarix və mədəniyyət abidələrinin, qoruqlarının mühafizəsinin müasir səviyyədə təşkilinə, daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.

Qeyd olunanlarla yanaşı, daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının inkişafı, o cümlədən mühafizəsinin müasir səviyyədə təşkili, qədim tarixi və mədəni sərvətlərin öyrənilməsi və təbliği ilə əlaqədar aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- daşınmaz mədəni irsin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə daşınmaz mədəni irsin, o cümlədən arxeoloji abidələrin inventarlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi, pasportlaşdırılması və müasir tələblərə cavab verən məlumat bazasının yaradılması;
- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, istifadə və idarə olunması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, qabaqcıl və mütərəqqi təcrübənin tətbiqi, zərurət yarandıqda həmin məqsədlərə beynəlxalq mütəxəssislərin cəlb olunması;
- tarix və mədəniyyət qoruqlarının ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması işinin təkmilləşdirilməsi, həmin məqsədlə tarix və mədəniyyət qoruqlarının sərhədlərinin müəyyən edilməsi və xəritələrinin hazırlanması, qoruqların ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin siyahıya alınması, pasportlaşdırılması, müasir tələblərə cavab verən məlumat bazasının yaradılması, tarix və mədəniyyət qoruqlarının maddi-texniki bazasının inkişafı;
- daşınmaz tarix və mədəniyyət abidələrində bərpa və konservasiya işlərinin aparılması;
- daşınmaz mədəni irsin qorunması üzrə hüquqi aktların təkmilləşdirilməsi;

- daşınmaz tarix və mədəniyyət abidələrinin öyrənilməsi, o cümlədən turizm məqsədləri ilə onlardan istifadə imkanlarının araşdırılması;
- turizm məqsədləri ilə istifadə edilən daşınmaz tarix və mədəniyyət abidələrində və qoruqlarda müasir turizm infrastrukturunun yaradılması;
- daşınmaz tarix və mədəniyyət abidələrinin qəsdən məhv edilmə və ya korlanmadan qorunması;
- Azərbaycanın işğal olunmuş ərazilərində qalmış və digər ölkələrdə Azərbaycan xalqına aid olan tarix və mədəniyyət abidələrinin vəziyyətinə dair məlumatların sistemləşdirilməsi və müvafiq tədbirlərin görülməsi;
- daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və bərpası üzrə yüksəkixtisaslı peşəkar kadrların hazırlanması;
- Azərbaycanın daşınmaz mədəni irsinin ölkə daxilində və beynəlxalq miqyasda təbliği və təşviqi.

### 3.3. Muzey işinin müasirləşdirilməsi

Azərbaycanda tarix, tarix-diyarşünaslıq, elm, siyasət, incəsənət, ədəbiyyat, hərbi-vətənpərvərlik və döyüş şöhrəti muzeylərini, həmçinin tarixi şəxsiyyətlərin ev muzeylərini özündə birləşdirən geniş muzey şəbəkəsi fəaliyyət göstərir. Muzey işinin müasirləşdirilməsi üçün aşağıdakı əsas vəzifələr yerinə yetirilməlidir:
- muzey fondlarının mühafizəsi, pasportlaşdırılması, konservasiyası və bərpa edilməsi, muzey kolleksiyalarının komplektləşdirilməsi işinin təkmilləşdirilməsi, muzey fondlarına dair məlumatların rəqəmsal daşıyıcılara köçürülməsi və elektron kataloqlaşdırılma vasitəsi ilə milli muzey-informasiya bazasının təşkil edilməsi;
- muzey ekspozisiyalarının bədii tərtibatının təkmilləşdirilməsi, konseptual ekspozisiyaların və müxtəlif mövzularda sərgilərin təşkili;
- turizmin inkişafı üçün muzeylərin turist marşrutlarına salınması, geniş tamaşaçı kütləsi ilə aparılacaq işlərin təkmilləşdirilməsi məqsədi ilə fərdi ekskursiyaların, ailəvi proqramların, uşaq və gənclər üçün tədris və interaktiv proqramların hazırlanması;
- muzey marketinqinin inkişaf etdirilməsi, turizm məqsədi ilə kataloq, təqvim, broşür və suvenirlərin hazırlanması, təşkil edilən sərgilər barədə sorğu-məlumat kitabçalarının mütəmadi buraxılışı.

### 3.4. Kitabxana-informasiya şəbəkəsinin müasirləşdirilməsi

Azərbaycan Respublikasının kitabxana şəbəkəsində Azərbaycan Milli Kitabxanası ilə yanaşı, respublika əhəmiyyətli, habelə kütləvi, uşaq kitabxanaları, sahəvi və mərkəzləşdirilmiş kitabxana sistemləri fəaliyyət göstərir. Hazırda bu şəbəkəyə daxil olan kitabxanaların fondlarında yüz milyonlarla kitab, jurnal, qəzet, not, buklet, müasir informasiya daşıyıcıları vardır. 8 mərkəzləşdirilmiş kitabxana sistemi və bir çox müstəqil kitabxana işğal olunmuş ərazilərdə qalmışdır.

Tarixi-mədəni, ədəbi-bədii və elmi-fəlsəfi irsin toplanıb saxlanılmasında, ötürülməsində və cəmiyyətin intellektual, mənəvi potensialının inkişafında mühüm rol oynayan kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsi bu sahədə səmərəli islahatların aparılmasını, fondların müasir informasiya daşıyıcıları ilə zənginləşdirilməsini, dünyanın qabaqcıl kitabxana-informasiya müəssisələrinin təcrübəsindən istifadə edilməsini və kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsini zəruri edir.

Azərbaycan Respublikasında kitabxana işi sahəsinin müasirləşdirilməsi məqsədi ilə aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- Azərbaycan Respublikasının Dövlət Kitabxana Fondunun qarşılıqlı istifadəsi və mübadiləsi, kitabxanaların profilinə uyğun olaraq, onların fondlarının xarici ədəbiyyatla təmin edilməsi üçün koordinasiya planının hazırlanması və ümumrespublika xarici ədəbiyyat bankının, məqsədli elektron kolleksiyaların yaradılması;
- kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, elektron kataloq və elektron kitabxanaların yaradılması, Azərbaycan Milli Avtomatlaşdırılmış Kataloqlaşdırma Formatının {AZMARK) hazırlanması, milli toplu kataloqunun yaradılması;
- biblioqrafik-sorğu materiallarının, milli çap məhsulları və ədəbiyyat salnamələrinin nəşrlərinin bərpası və retrospektiv nəşr proqramının hazırlanması, kitab abidələrinin mühafizəsi, bərpası, konservasiyası, rəqəmsal daşıyıcılara köçürülməsi, kitabxana kataloqlarının retrokonversiyası və xidmət səviyyəsinin yüksəldilməsi.

## 4. Peşəkar incəsənətin inkişafı

Azərbaycan xalqının incəsənət sahəsində tarixi ənənələri nəsillərin bədii təcrübəsinə arxalanan, cəmiyyətin inkişafına təsir edən, xalqın mövcudluğunu ifadə edən və milli-mənəvi varlığını təsdiqləyən format kimi qəbul edilir. Peşəkar incəsənətin dəstəklənməsi teatr, musiqi, təsviri və dekorativ-tətbiqi sənət sahələrinin inkişafını nəzərdə tutur.

### 4.1. Peşəkar teatr sənətinin inkişafı

Teatr sənəti sahəsində inkişaf tempinin dəstəklənməsi məqsədi ilə aşağıdakı əsas vəzifələr müəyyən edilir:

- teatr sənətinin müxtəlif janrları üzrə yüksək bədii dəyərli yeni əsərlərin yaradılması və onların səhnə təcəssümünün təmin edilməsi üçün dövlət sifarişlərindən daha geniş və səmərəli istifadə edilməsi, bununla bağlı proqramların həyata keçirilməsi;
- Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən teatrlarda tamaşaların hazırlanmasının stimullaşdırılması, ölkə və beynəlxalq səviyyəli teatr festivallarının, müsabiqələrin keçirilməsi və bu tədbirlərdə teatr kollektivlərinin iştirakının təmin edilməsi;
- nadir səhnə ocaqlarının qorunması, məcburi köçkünlük şəraitində fəaliyyətini davam etdirən teatrlara məqsədli maddi və yaradıcılıq yardımının göstərilməsi.

### 4.2. Peşəkar musiqi sənətinin dəstəklənməsi

Qədim tarixi ənənələrə malik Azərbaycan klassik musiqisinin, həmçinin digər musiqi janrlarının inkişafı üçün Azərbaycan Respublikasında geniş infrastruktur mövcuddur, çoxsaylı musiqi təhsili ocaqları və konsert salonları fəaliyyət göstərir. Azərbaycan musiqi sənətinin dəstəklənməsi, yaradıcılıq və ifaçılıq axtarışlarının müxtəlif formalarının inkişafı və beynəlxalq mədəni proseslərə inteqrasiyası, çoxşaxəli və rəngarəng musiqi mühitinin yaradılması istiqamətlərində aşağıdakı vəzifələr müəyyən edilir:

- yüksək bədii keyfiyyətə malik musiqi əsərlərinin yaradılması məqsədi ilə bəstəkarların yaradıcılığının təşviqi və təbliği ilə bağlı kompleks tədbirlərin davamlı olaraq həyata keçirilməsi;
- müxtəlif musiqi janrları üzrə festivalların, müsabiqələrin və konsertlərin təşkili, habelə Azərbaycan bədii kollektivlərinin və solistlərin beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsi;

- Azərbaycanın regionlarını təmsil edən musiqiçi və ifaçıların müvafiq yerli və beynəlxalq layihələrdə iştirakı üçün şərait yaradılması;
- Azərbaycanın klassik musiqi incilərinin rəqəmsal daşıyıcılara köçürülməsi.

### 4.3. Peşəkar təsviri və dekorativ-tətbiqi sənətin təşviqi

Azərbaycan xalqının təsviri və dekorativ-tətbiqi sənəti qədim tarixə və köklü ənənələrə malikdir. Müasir təsviri və dekorativ-tətbiqi sənətin inkişafı sərbəst bədii yaradıcılıq axtarışlarının dəstəklənməsi, beynəlxalq aləmə inteqrasiya və milli mədəniyyət nailiyyətlərinin təbliği ilə bağlıdır. Bu məqsədlə aşağıdakı vəzifələr müəyyən edilir:
- Azərbaycanın müasir təsviri və dekorativ-tətbiqi sənətinə həsr olunmuş kitab, film, disk, buklet və kataloqların buraxılması, internet səhifələrinin yaradılması;
- təsviri və dekorativ-tətbiqi sənətin müxtəlif növləri üzrə maraq doğuran layihələrin dəstəklənməsi;
- təsviri və dekorativ-tətbiqi sənətə dair milli və beynəlxalq simpoziumların, festivalların, müsabiqələrin keçirilməsi, sahə üzrə mütəxəssislərin və sənətçilərin beynəlxalq layihə və müsabiqələrdə iştirakının təmin edilməsi;
- istedadlı gənclərin yaradıcılığının dəstəklənməsi və stimullaşdırılması;
- incəsənət kolleksiyalarının formalaşdırılması, qalereyaların sərgi və maarifləndirici fəaliyyətinə dair proqramların hazırlanması;
- yerli qalereyaların kolleksiyalarının müasir incəsənət əsərləri ilə zənginləşdirilməsi və onların fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiq edilməsi.

## 5. Mədəniyyət sənayesinin inkişafı

Mədəniyyət məhsullarının və xidmətlərinin istehsalını və realizəsini təmin edən fəaliyyət sahəsi kimi mədəniyyət sənayesi mədəniyyət sahəsində dövlətin vəzifələrinin əhatə edildiyi əsas sahələrdəndir. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununda mədəniyyət sənayesinin inkişaf etdirilməsi dövlət mədəniyyət siyasətinin əsas istiqamətlərindən biri kimi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasəti mədəniyyət sənayesi ilə mədəniyyət məhsullarının və xidmətlərinin bazarları arasında balansın yaradılmasını ehtiva edən tarazlılıq prinsipinə əsaslanır.

Qlobal və milli mədəni həyatın formalaşmasında mühüm rol oynamış və dünyanın bir sıra aparıcı ölkələrində ciddi nailiyyət qazanmış mədəniyyət sənayesinə göstərilən xüsusi diqqət və əhəmiyyətli sərmayə yatırımı iqtisadi və sosial dividendlərə zəmin yaradır. Bu səbəbdən tarixi ənənələri olan və gələcəyə yönəldilmiş mədəniyyət sənayesi sahələrinin, xüsusilə kinematoqrafiya və nəşriyyat-poliqrafiya işi kimi sahələrin inkişaf etdirilməsi dövlət mədəniyyət siyasətinin perspektivli istiqamətlərindəndir.

### 5.1. Kinematoqrafiyanın inkişafı

Azərbaycanın milli kinematoqrafiya tarixi XIX əsrin sonlarından başlayır. Bu zəngin tarix dünya kinematoqrafiyasında baş verən proseslərlə yanaşı, milli özünəməxsusluğu ilə səciyyələnir. Hazırda Azərbaycan Respublikasında kino istehsalının əsas maliyyə mənbəyi dövlət büdcəsidir. Maliyyə dəstəyi müxtəlif studiyalara və müstəqil prodüser mərkəzlərinə sifariş verilməklə həyata keçirilir.

Milli kinematoqrafiyanın dirçəldilməsi sahəsində aşağıdakı vəzifələr müəyyən edilir:

- milli kino istehsalı sənayesinin dirçəldilməsi məqsədi ilə müasir istehsalat bazasının yaradılması;
- yaradıcılıq və kinematoqrafiya məqsədləri baxımından mütərəqqi kinolayihələrin dəstəklənməsi;
- xarici distribüter şirkətləri ilə əlaqələrin, o cümlədən kinofilmlərin Azərbaycan dilinə dublyajı işinin genişləndirilməsi, audiovizual əsərlərdən qanuni istifadənin tənzimlənməsi, piratçılığa qarşı mübarizədə aidiyyəti dövlət orqanlarının fəaliyyətinin gücləndirilməsi;
- Dövlət Film Fondunda mühafizə olunan milli filmlərin və onların ilkin materiallarının bərpası, konservasiyası və rəqəmsal daşıyıcılara köçürülməsi;
- ölkədə nüsxəsi olmayan milli filmlərin və digər kinomateriallarin axtarılıb aşkar olunması və surətlərinin Dövlət Film Fonduna təqdim edilməsi;
- kino irsinin öyrənilməsi və təbliği.

### 5.2. Nəşriyyat-poliqrafiya işinin inkişaf etdirilməsi

Azərbaycan Respublikasında nəşriyyat-poliqrafiya işi dövlət nəşriyyat və poliqrafiya müəssisələri və eyni təyinatlı özəl müəssisələr tərəfindən həyata keçirilir. ölkədə üç dövlət nəşriyyatı və yüzdən artıq özəl nəşriyyat və poliqrafiya müəssisəsi mövcuddur. Sahə üzrə fəaliyyətin təkmilləşdirilməsi üçün aşağıdakı vəzifələr müəyyən edilir:

- Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən nəşriyyat və poliqrafiya müəssisələrinin maddi-texniki bazasının müasir avadanlıqlar hesabına möhkəmləndirilməsi işinin dəstəklənməsi;
- elmi, ictimai-siyasi, bədii, publisistik kitabların (ensiklopediya, lüğət, çoxcildli, toplu, almanax, notlu nəşrlər və s.) və digər çap məhsullarının yüksək poliqrafik səviyyədə buraxılmasının təmin edilməsi;
- Azərbaycan ədəbiyyatı nümunələrinin xarici dillərə və dünya ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsinin və yeni əsərlərin yaradılmasının təşviq edilməsi;
- Azərbaycan Respublikası Kitabxana Kollektoru sistemi vasitəsi ilə kitabxana fondlarının zənginləşdirilməsi işinin təkmilləşdirilməsi;
- Azərbaycan Respublikasında nəşr edilən çap məhsullarının beynəlxalq aləmə çıxışının, beynəlxalq kitab sərgi-yarmarkalarında iştirakın, ölkədə beynəlxalq kitab sərgilərinin keçirilməsinin təmin edilməsi və oxucu mədəniyyətinin inkişaf etdirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi;
- gözdən əlillər və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün ədəbi-bədii, elmi və tədris kitablarının nəşrinin dəstəklənməsi.

## 6. Konsepsiyanın həyata keçirilməsi

Konsepsiyanın səmərəli həyata keçirilməsinin əsas şərti onun reallaşmasını təmin edən effektiv icra mexanizminin formalaşdırılmasıdır.

Konsepsiya mədəniyyət sahəsində fəaliyyət istiqamətləri üzrə dövlət proqramları vasitəsi ilə həyata keçirilir.

Konsepsiyanın həyata keçirilməsi üzrə dövlət proqramları Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur.

Konsepsiyanın həyata keçirilməsi dövlət orqanlarının bu istiqamətdə fəaliyyəti ilə yanaşı, yerli özünüidarəetmə orqanlarının, mədəniyyət müəssisələrinin və mədəniyyət sahəsində qeyri-hökumət təşkilatlarının bu prosesə cəlb olunmasını şərtləndirir, dövlət

büdcəsinin təminatı ilə yanaşı, xarici və yerli investorların cəlbini, alternativ maliyyələşdirmə mexanizmlərinin tətbiqini nəzərdə tutur.

Konsepsiyanın icrasını Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi əlaqələndirir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Prezidentinə Konsepsiyanın icrasının gedişi barədə hər il üzrə hesabat təqdim edir.

Konsepsiyanın məqsədi kütləvi informasiya vasitələri və digər üsullarla ictimaiyyətə çatdırılır.

## TOFİQ ƏHMƏDOVUN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan Respublikasının xalq artisti, tanınmış dirijor və bəstəkar Tofiq Qəzənfər oğlu Əhmədovun anadan olmasının 90 illiyi tamam olur.

Tofiq Əhmədov uzun illər ərzində estrada orkestrinin bədii rəhbəri və baş dirijoru kimi səmərəli fəaliyyət göstərmiş, ölkənin müasir musiqi mədəniyyəti xəzinəsinə layiqli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda estrada musiqisinin inkişafı və təbliği işində özünəməxsus xidmətləri olan Tofiq Əhmədovun 90 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Tofiq Əhmədovun 90 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 fevral 2014-cü il***

## K.M.ABDULLAYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ MİLLƏTLƏRARASI,MULTİKULTURALİZM VƏ DİNİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT MÜŞAVİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamal Mehdi oğlu Abdullayev Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 fevral 2014-cü il***

## R.M.SEYFULLAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlığının inkişafındakı xidmətlərinə görə Rəhim Məmi oğlu Seyfullayev "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 fevral 2014-cü il*

## ƏLİŞ LƏMBƏRANSKİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin may ayında Azərbaycanın tanınmış dövlət xadimi, SSRİ Dövlət mükafatı laureatı Əliş Cəmil oğlu Ləmbəranskinin anadan olmasının 100 illiyi tamam olur.

Əliş Ləmbəranskinin dövlət idarəçiliyinin müxtəlif sahələrində uzunmüddətli səmərəli fəaliyyətini, respublikada mühüm əhəmiyyətə malik sənaye və mədəniyyət müəssisələrinin qurulmasında, Bakı şəhərinin infrastrukturunun təkmilləşdirilməsində təqdirəlayiq xidmətlərini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Energetika Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə tanınmış dövlət xadimi Əliş Ləmbəranskinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 fevral 2014-cü il*

## BARAT ŞƏKİNSKAYANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin iyun ayında böyük səhnə ustası, Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublikanın xalq artisti Barat Həbib qızı Şəkinskayanın anadan olmasının 100 illiyi tamam olur.

Fitri istedada malik aktrisa Barat xanım Şəkinskaya Azərbaycanın zəngin mədəniyyət xəzinəsində layiqli yer tutan rəngarəng xarakterli obrazlar qalereyası yaratmışdır. Özünün bu gün də sevilən çoxsaylı qəhrəmanları ilə o, milli teatr tarixində azərbaycanlı qadın aktyor obrazını formalaşdırmış ilk sənətkarlardandır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafında təqdirəlayiq xidmətlər göstərmiş xalq artisti Barat Şəkinskayanın 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Barat Şəkinskayanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 aprel 2014-cü il***

## A.A.MUSTAFAZADƏNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında nəşriyyat işi sahəsində səmərəli fəaliyyətinə görə Azər Abdulla oğlu Mustafazadə "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 aprel 2014-cü il***

## R.A.MİRİŞLİNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Ramiz Aqil oğlu Mirişli "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 aprel 2014-cü il***

## AKADEMİK MƏMMƏD ARİFİN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin iyun ayında görkəmli Azərbaycan ədəbiyyatşünası və tənqidçisi, tanınmış pedaqoq və ictimai xadim, respublika Dövlət mükafatı laureatı, əməkdar elm xadimi, akademik Məmməd Arifin (Məmməd Arif Məhərrəm oğlu Dadaşzadənin) anadan olmasının 110 illiyi tamam olur.

Məmməd Arif XX əsr Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin formalaşdırılması və inkişaf etdirilməsində böyük rol oynamışdır. Milli ədəbiyyat tarixinin yaradılmasında yaxından iştirak edən alim respublikada yüksək ixtisaslı elmi kadrların hazırlanması işinə töhfələrini əsirgəməmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və akademik Məmməd Arifin Azərbaycan ədəbiyyatının inkişafı sahəsində diqqətəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, akademik Məmməd Arifin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 aprel 2014-cü il*

## KEÇƏÇİOĞLU MƏHƏMMƏDİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi Keçəçioğlu Məhəmmədin (Məhəmməd Məşədi Xəlil oğlunun) anadan olmasının 150 illiyi tamam olur.

Qarabağ muğam məktəbinə mənsub ən böyük sənətkarlar sırasında mühüm yer tutan Keçəçioğlu Məhəmməd milli musiqinin qədim tarixi köklərə malik zəngin ənənələrini layiqincə yaşatmış, xüsusən klassik muğamların bənzərsiz və unudulmaz ifaçısı kimi Azərbaycanın çoxəsrlik mədəniyyəti xəzinəsinə qiymətli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və xanəndəlik sənətinin görkəmli nümayəndəsi Keçəçioğlu Məhəmmədin milli musiqi mədəniyyətinin inkişafında müstəsna xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Konservatoriyasının təkliflərini nəzərə almaqla, ustad sənətkar Keçəçioğlu Məhəmmədin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 aprel 2014-cü il***

## BAKI XOREOQRAFİYA AKADEMİYASININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında xoreoqrafiya sənəti ənənələrinin qorunması və inkişaf etdirilməsi zərurətini nəzərə alaraq, bu sahə üzrə yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Xoreoqrafiya Məktəbinin bazasında ümumi, orta ixtisas və ali təhsil proqramlarını həyata keçirən Bakı Xoreoqrafiya Akademiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi aidiyyəti qurumlarla birlikdə bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Bakı Xoreoqrafiya Məktəbinin binasının yerləşdiyi sahədə Bakı Xoreoqrafiya Akademiyası binasının tikilməsi, zəruri avadanlıqlarla təchiz edilməsi ilə bağlı təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Bakı Xoreoqrafiya Akademiyasının nizamnaməsinin layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2014-cü il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Əvəz Baxşəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Babayeva İnarə Əhməd qızı
Bağırov Viktor Cəmiloviç
Bayramov Rafael Əli oğlu
Bayramova Aygün Əliqulu qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Cəfərova Eteri Leonidovna
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov Elnur Oruc oğlu
Əhmədov Səttar Qafar oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Əyyub Pənah oğlu
Əliyev Rahib Rafael oğlu
Əliyev Rahib Seyidağa oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Samirə Zimirxan qızı
Əliyeva Sevinc Əli qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Hacıyev Əli Əli Yusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Haxverdiyev Behruz Əyyub oğlu
Həmidov Əjdər Qüdrət oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşimova Şahnaz Həsən qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Sevinc Qəhrəman qızı
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Füzuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu

Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Hüseynova Nərmin Mətləb qızı
Hüseynova Validə Vəli qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsmayılov Elnur Dağbəyi oğlu
İsmayılov Qurban İbrahim oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Elnarə Nadir qızı
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qafarova Xanım Əbdülqafar qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Şəmsəddin Mustafa oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qəniyev Toğrul Sərvər oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Mehdiyeva Dilarə Yurmiz qızı
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Ayxan Rəşid oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sirus Arif oğlu
Məsimov Qurban Abdulla oğlu
Mikayılova Sonaxanım Məmmədağa qızı
Miltıx Aleksey Leonidoviç
Mirabov Akif Əhməd oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu

Muradova Təranə Hüseyn qızı
Musayeva Fəranə Əlimurad qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Tural Vaqif oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nəbiyeva Gülər Nəbi qızı
Nəcəfov Tural Nüsrət oğlu
Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Niftəliyeva Nurbəniz Nurəddin qızı
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Salmanlı Ağaxan Əli oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səfərova Afaq Bəşir qızı
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Spitsina Yelena Eduardovna
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zəki Mehriban Mürvət qızı
Zülfüqarov Cahangir Oqtay oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 1 may tarixli 2886 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 526) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 aprel 2014-cü il***

## HÜSEYN ARİFİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin dekabr ayında Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, respublika Dövlət mükafatı laureatı, xalq şairi Hüseyn Arifin (Hüseyn Camal oğlu Hüseynzadənin) anadan olmasının 90 illiyi tamam olur.

Hüseyn Arif xalqımızın zəngin bədii-poetik irsi zəminində dəyərli əsərlər meydana gətirmiş və milli ədəbiyyata töhfələr vermişdir. Şairin əsas qayəsi vətənə məhəbbətin, mənəvi-əxlaqi zənginliklərin təbiət gözəllikləri ilə vəhdətdə tərənnümündən ibarət olan yaradıcılığı bu gün də gənc nəslin tərbiyəsində öz əhəmiyyətini qoruyub saxlayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və xalq şairi Hüseyn Arifin Azərbaycan ədəbiyyatının inkişafında diqqətəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Hüseyn Arifin 90 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 may 2014-cü il***

## F.Ş. ƏLİYEVANIN AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNİN REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:** Fərəh Şirməmməd qızı Əliyeva Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 2 may 2014-cü il***

## AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ MADDİ-TEXNİKİ BAZASININ MÖHKƏMLƏNDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasını möhkəmləndirmək məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Konservatoriyasına 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 may 2014-cü il***

## AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI – "AZƏRNƏŞR"İN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında nəşriyyat işi sahəsində səmərəli fəaliyyətlərinə görə Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in aşağıdakı əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Qasımov Mirqalim Mirabdulla oğlu
Məmmədyarova Elmira Kamil qızı
Mikayılzadə Pikəxanım Qulam qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2014-cü il***

## AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI – "AZƏRNƏŞR"İN ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında nəşriyyat işi sahəsində səmərəli fəaliyyətlərinə görə Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Babayev Tofiq Ağababa oğlu
Əzizova Sevinc Aslan qızı
Fərəcov Etibar Zülfüqar oğlu
Hüseynova Aynaxanım Əliağa qızı
Kərimova İlhamə Ələkbər qızı
Məmmədova Lətifə Musa qızı
Nəcəfova Zoya Qurban qızı
Sadıqov İslam Hüseyn oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2014-cü il***

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNDƏ ABADLIQ-QURUCULUQ İŞLƏRİNİN APARILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksinin bərpasının tamamlanması ilə əlaqədar abadlıq-quruculuq işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2014-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan xalqının mədəni irsinin qorunması və təbliğində səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aşağıdakı əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adı verilsin:

Abdullayev Fikrət Fail oğlu
Əliyeva Gülnar Ələkbər qızı
Məmmədova Sevil Məmmədxan qızı
Məmmədova Svetlana Lətif qızı
Mirzəyeva Səadət Məmmədəli qızı
Rzayeva Rəna Fərid qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2014-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan xalqının mədəni irsinin qorunması və təbliğində səmərəli fəaliyyətlərinə görə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Quliyev Anar Adil oğlu
Primov Eldar Əskər oğlu

**"Tərəqqi" medalı ilə**
Cəfərova Reyhan Ələsgər qızı
Kazımova Esmira Zeynal qızı
Rüstəmov Teymur Aslan oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2014-cü il***

## A.Q.KƏRİMOVUN AZƏRBAYCAN RESPUBLİKASININ YUNESKO YANINDA DAİMİ NÜMAYƏNDƏSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Qabil oğlu Kərimov Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 may 2014-cü il*

## 2014-CÜ İL ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT VƏ ƏDƏBİYYAT SAHƏLƏRİNDƏ DÖVLƏT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2014-cü il üçün elm, mədəniyyət və ədəbiyyat sahələrində Azərbaycan Respublikasının Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

Tofiq Murtuza oğlu Nağıyev – "Hidrogen peroksidlə koherent-sinxronlaşmış oksidləşmə reaksiyaları" (ingilis dilində, Amsterdam) monoqrafiyasına görə

**Mədəniyyət sahəsi üzrə**

Oqtay Seyid Hüseyn oğlu Sadıxzadə – Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə

Ramiz Eyyub oğlu Quliyev – konsert-ifaçılıq fəaliyyətinə görə

**Ədəbiyyat sahəsi üzrə**

Elmira Hüseyn qızı Axundova – "Heydər Əliyev. Şəxsiyyət və zaman" altı cildlik sənədli-bioqrafik kitabına görə.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 may 2014-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar İncəsənət Xadimi"**

Əliyeva Kübra Muxtar qızı
Muradov Vidadi Aydın oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**

Cigərov Nuviddin Feyzi oğlu
Eyyubov Cəmaləddin Bilal oğlu
Kərimov Vaqif Əhməd oğlu
Qurbanov Bayram Süleyman oğlu
Mehdizadə Mehdi İstəməli oğlu
Omarov Nəzir Osman oğlu
Şıxəliyev Şahalı Kamil oğlu
Tağıyev Vasif Əsgər oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 may 2014-cü il***

## V.S. VƏKİLOVUN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Vaqif Səməd oğlu Vəkilov (Vaqif Səmədoğlu) "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 iyun 2014-cü il***

## NƏBİ XƏZRİNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin dekabr ayında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, xalq şairi Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) anadan olmasının 90 illiyi tamam olur.

Nəbi Xəzri bədii söz sənətini yeni keyfiyyətlərlə zənginləşdirib onun imkanlarını genişləndirmişdir. Şairin humanist dəyərləri poetik-fəlsəfi mənalandırma gücü, dərin lirizmi, vətəndaşlıq qayəsi və milli koloriti ilə seçilən yaradıcılığı gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində böyük rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və xalq şairi Nəbi Xəzrinin Azərbaycan ədəbiyyatının inkişafında təqdirəlayiq xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, xalq şairi Nəbi Xəzrinin 90 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 iyun 2014-cü il***

## QILMAN İLKİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsi, xalq yazıçısı Qılman İlkinin (Qılman İsabala oğlu Musayevin) anadan olmasının 100 illiyi tamam olur.

Qılman İlkin ədəbiyyat tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi uzun illər ərzində çoxcəhətli səmərəli fəaliyyət göstərmiş və zəngin Azərbaycan nəsrinin realist ənənələri zəminində yaratdığı qiymətli əsərləri ilə milli mədəniyyətin inkişafına töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərini nəzərə alaraq xalq yazıçısı Qılman İlkinin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq yazıçısı Qılman İlkinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 iyul 2014-cü il***

## R.H.ƏLİYEVİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Həsən oğlu Əliyev Azərbaycan Respublikasının "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyul 2014-cü il***

## BAKI XOREOQRAFİYA AKADEMİYASI BİNASININ LAYİHƏLƏNDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı Xoreoqrafiya Akademiyası binasının tikilməsi ilə bağlı layihələndirmə işlərini təmin etmək üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 avqust 2014-cü il***

## S.H.RƏHİMOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ilin sentyabr ayında Azərbaycanın tanınmış dövlət xadimi Sadıq Hacıyarəli oğlu Rəhimovun anadan olmasının 100 illiyi tamam olur.

Sadıq Rəhimov uzun illər dövlət idarəçiliyi sahəsində müxtəlif məsul vəzifələrdə səmərəli xidmətləri və Azərbaycan hökumətinin rəhbəri kimi təqdirəlayiq fəaliyyəti ilə respublikanın ictimai-siyasi həyatına, sosial-iqtisadi inkişafına mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, tanınmış dövlət xadimi Sadıq Rəhimovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Sadıq Rəhimovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 avqust 2014-cü il***

## RƏFİQ ZƏKA XƏNDANIN 75 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü ildə Azərbaycan poeziyasının tanınmış nümayəndəsi, respublika Dövlət mükafatı laureatı, əməkdar incəsənət xadimi, professor Rəfiq Zəka Xəndanın anadan olmasının 75 illiyi tamam olur.

Rəfiq Zəka klassik poetik ənənələrin layiqli davamçısı kimi zəngin ədəbi fəaliyyəti dövründə meydana gətirdiyi əsərlərlə milli ədəbiyyata töhfələr vermişdir. Onun yaradıcılığının əsas istiqamətini vətənə məhəbbət, tarixi-mədəni dəyərlərə bağlılıq, azərbaycançılıq və istiqlal ideyalarının tərənnümü təşkil etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və şair Rəfiq Zəka Xəndanın Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, şair Rəfiq Zəka Xəndanın 75 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 sentyabr 2014-cü il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:
İbrahimova Aytən Ümid qızı –Bülbül adına Orta ixtisas Musiqi Məktəbinin şagirdi
Zeynalova Leyla Samir qızı –Bülbül adına Orta ixtisas Musiqi Məktəbinin şagirdi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 oktyabr 2014-cü il***

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNDƏ BƏRPA İŞLƏRİNİN APARILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa işlərinin başa çatdırılması üçün Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 noyabr 2014-cü il***

## S.Ə. KƏRİMİNİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında musiqi təhsili sahəsində səmərəli fəaliyyətinə görə Siyavuş Əşrəf oğlu Kərimi "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 noyabr 2014-cü il***

## BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİNİN HİMAYƏÇİLİK ŞURASI ÜZVLƏRİNİN TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"nin 5.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Aşağıdakı şəxslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri təyin edilsin:

Abdullayev Kamal Mehdi oğlu
Əbdüləziz bin Osman əl-Tüveycri
Əliyeva Leyla İlham qızı
Əlizadə Akif Ağamehdi oğlu
Əlizadə Firəngiz Əliağa qızı
Koiçiro Matsuuro
Quliyev Eldar Tofiq oğlu
Salahov Tahir Teymur oğlu
Şarovski Aleksandr Yakovleviç
Zabelin Mixail Yuryeviç.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 noyabr 2014-cü il*

## GENERAL ƏLAĞA ŞIXLİNSKİNİN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin aprel ayında Azərbaycanın görkəmli hərbi xadimi, tanınmış hərbçi alim, general-leytenant Əlağa İsmayıl ağa oğlu Şıxlinskinin anadan olmasının 150 illiyi tamam olur.

XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı kimi general Əlağa Şıxlinski döyüş meydanlarındakı şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yenilikləri ilə hərb tarixinə parlaq səhifələr yazmışdır. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, sonrakı dövrlərdə də hərbi andına sadiq qalaraq ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan general-leytenant Əlağa Şıxlinskinin 150 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim, general-leytenant Əlağa İsmayıl ağa oğlu Şıxlinskinin 150 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 noyabr 2014-cü il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Xalq Artisti”**
Hüseynov Rafiq Hüseyn oğlu
Xasıyeva Könül Kazım qızı
Məmmədova Gülyanaq Zakir qızı
Məmmədova Gülyaz Zakir qızı
Sadıqov Ənvər Hidayət oğlu

**“Əməkdar Artist”**
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Dadaşov Murad Əli oğlu
Əfəndiyeva İlahə Əhsən qızı
Əliyev Fərid Fərhad oğlu
Heydərova Çinarə Yaşar qızı
İsgəndərov Rəfael Çərkəz oğlu
İslamov Rauf Rza oğlu
Niftəliyev Babək Muğan oğlu
Rəhimov Coşqun Allahverdi oğlu
Səmədov Əlixan İmamxan oğlu

**“Əməkdar İncəsənət Xadimi”**
Abbasova Məlahət Elman qızı
Əzizov Rafiq Novruz oğlu
Məlikov Aqil Qədeşbala oğlu

**“Əməkdar Mədəniyyət İşçisi”**
Abbaszadə Lalə Niad qızı
Babayev Tehran Xalidşah oğlu
Əsədullayeva Aynurə Əliislam qızı
Hüseynov Fərman Şirzad oğlu

Məmmədova Ülviyyə Nurəddin qızı
Mirzəyeva Gülçin Ələkbər qızı
Zeynalova Gülarə Mikayıl qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 2014-cü il*

## AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında turizm, menecment və digər xidmət sahələrində müşahidə olunan sürətli inkişafı, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasını nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Turizm İnstitutunun bazasında ali təhsilin bütün pillələrində turizm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində Azərbaycan Turizm və Menecment Universiteti yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Azərbaycan Turizm və Menecment Universitetinin nizamnaməsinin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. Azərbaycan Turizm və Menecment Universitetinin təhsilin bütün pillələrini əhatə edən, turizm və menecment sahələri üzrə kadr hazırlayan aparıcı təhsil mərkəzi kimi fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təminatı, o cümlədən müvafiq tədris şəhərciyinin yaradılması ilə bağlı təklifləri iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 dekabr 2014-cü il*

## T.İ. ƏFƏNDİYEVİN BAKI XOREOQRAFİYA AKADEMİYASININ REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Timuçin İlyas oğlu Əfəndiyev Bakı Xoreoqrafiya Akademiyasının rektoru təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 dekabr 2014-cü il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ İLƏ MACARISTANIN MİLLİ İQTİSADİYYAT NAZİRLİYİ ARASINDA TURİZM SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında 2014-cü il noyabrın 11-də Budapeşt şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişin müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həmin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Macarıstan Hökumətinə bildiriş göndərsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 dekabr 2014-cü il***

## C.M. CƏFƏROVUN AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəfər Məmməd oğlu Cəfərov Azərbaycan Turizm və Menecment Universitetinin rektoru təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2014-cü il***

## BƏXTİYAR VAHABZADƏNİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin avqust ayında Azərbaycanın xalq şairi, tanınmış dramaturq, ədəbiyyatşünas və ictimai xadim, SSRİ-nin və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, professor Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 90 illiyi tamam olur.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli ədəbi fikrin inkişafına dəyərli töhfələr bəxş etmiş xalq şairi Bəxtiyar Vahabzadənin 90 illiyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 yanvar 2015-ci il***

## 2015-Cİ İL GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2015-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Həsənov Elnur Lətif oğlu
Hüseynov Seymur Elşad oğlu
Xəlilov Zafiq Zakir oğlu
Novruzova Xədicə Sahib qızı
Sadıxlı Fərid İlqar oğlu
Seyidova Ceyla Uran qızı

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2015-ci il***

# P.BÜLBÜLOĞLUNUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının mədəni və ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Polad Bülbüloğlu "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 3 fevral 2015-ci il*

# QƏMƏR ALMASZADƏNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin mart ayında Azərbaycan balet məktəbinin yaradıcılarından biri, Azərbaycanın ilk qadın balet ustası, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı Qəmər Hacıağa qızı Almaszadənin anadan olmasının 100 illiyi tamam olur.

Milli rəqslərin mahir ifaçısı, görkəmli balerina Qəmər xanım Almaszadə klassik xoreoqrafik ənənələrlə xalq rəqslərinin vəhdətində Azərbaycan xoreoqrafiya sənətinin nailiyyətinə çevrilən təkrarolunmaz obrazlar yaratmışdır. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində bir çox əsərlərə yüksək məharətlə quruluş vermiş sənətkarın milli kadrların hazırlanması sahəsində fəaliyyəti də təqdirə layiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda xoreoqrafiya sənətinin inkişafı və təbliğində mühüm xidmətləri olan SSRİ xalq artisti Qəmər Almaszadənin 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi SSRİ xalq artisti Qəmər Almaszadənin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 4 fevral 2015-ci il*

## VASİF ADIGÖZƏLOVUN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin iyul ayında görkəmli Azərbaycan bəstəkarı, xalq artisti, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor Vasif Zülfüqar oğlu Adıgözəlovun anadan olmasının 80 illiyi tamam olur.

Vasif Adıgözəlov Azərbaycanın zəngin musiqi sənəti salnaməsinə yeni səhifələr yazmış şəxsiyyətlərdəndir. Bəstəkarın xalq mahnıları və muğam ənənələri zəminində dünya musiqisinin mühüm nailiyyətlərindən bəhrələnməklə ayrı-ayrı janrlarda meydana gətirdiyi çoxsaylı əsərlər Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsində özünə məxsus layiqli yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli musiqi mədəniyyətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli bəstəkar Vasif Adıgözəlovun 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, bəstəkar Vasif Adıgözəlovun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 fevral 2015-ci il*

## "KİTABİ-DƏDƏ QORQUD"UN ALMAN DİLİNDƏ İLK TƏRCÜMƏSİ VƏ NƏŞRİNİN 200 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ildə Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsində müstəsna yer tutan və əsrlərdən bəri milli-mənəvi varlığın ayrılmaz tərkib hissəsinə çevrilən "Kitabi-Dədə Qorqud" abidəsinin alman şərqşünas alimi Fridrix fon Dits tərəfindən üzə çıxarılması, nəşr edilməsi və dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur.

Ötən müddət ərzində "Dədə Qorqud" dastanları ilə bağlı çox sayda araşdırmalar aparılmış və qorqudşünaslığın ayrıca sahə kimi formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. 2000-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO xətti ilə beynəlxalq səviyyədə təntənəli qeyd edilməsi abidənin tədqiqi tarixində yeni mərhələnin başlanğıcı olmuşdur.

Milli-mədəni irsin qorunub yaşadılması və yeni nəsillərin azərbaycançılıq ruhunda tərbiyə olunmasında "Dədə Qorqud" dastanlarının böyük əhəmiyyətini nəzərə alaraq, qorqudşünaslığın sistemli fəaliyyətinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun və Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, "Kitabi-Dədə Qorqud"un alman alimi Fridrix fon Dits tərəfindən ilk tərcüməsi, nəşri və dünya elm aləminə tanıdılmasının 200 illiyinə dair fəaliyyət proqramını hazırlayaraq təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 fevral 2015-ci il***

## "YUNESKO ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 15 SENTYABR TARİXLİ 1006 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006,№ 9, maddə 743; 2014,№ 9, maddə 1027) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının aşağıdakı tərkibi müəyyən edilsin:

**Komissiyanın sədri**

Elmar Məmmədyarov Azərbaycan Respublikasının xarici işlər naziri

**Komissiya sədrinin müavinlər**

Akif Əlizadə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti

Mikayıl Cabbarov Azərbaycan Respublikasının təhsil naziri

Əbülfəs Qarayev Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Abbasov Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri

**Komissiyanın üzvləri**

Kamal Abdullayev Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri

Novruz Məmmədov Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri

Fatma Abdullazadə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri

Elmira Süleymanova Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)

Hüseynqulu Bağırov Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Azad Rəhimov Azərbaycan Respublikasının gənclər və idman naziri

Hicran Hüseynova Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri

Aslan Aslanov Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) baş direktoru

Urxan Ələkbərov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

Samir Nuriyev Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi

Zərifə Salahova Azərbaycan Kitab Cəmiyyətinin sədri".

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 mart 2015-ci il***

## C.Q.QURBANOVA "ƏMƏKDAR ARTİST" FƏXRİ ADI VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda musiqi sənətinin inkişafındakı xidmətlərinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında uzun müddət səmərəli fəaliyyət göstərdiyinə görə kapitan Cahangir Qafar oğlu Qurbanova "Əməkdar artist" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 mart 2015-ci il***

## ƏLAĞA VAHİDİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ildə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair Əlağa Vahidin (Əlağa Məmmədqulu oğlu İsgəndərovun) anadan olmasının 120 illiyi tamam olur.

Vahid milli poeziyanın qədim ənənələrini yeni dövrdə yüksək sənətkarlıqla davam etdirmiş və qəzəl janrının son dərəcə mükəmməl nümunələrini yaratmışdır. Şairin dərin lirizmi ilə səciyyələnən diqqətəlayiq zəngin bədii irsi çoxəsrlik Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus bənzərsiz hadisədir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli şair Əlağa Vahidin 120 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, görkəmli Azərbaycan şairi Əlağa Vahidin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 mart 2015-ci il*

## RƏŞİD BEHBUDOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin dekabr ayında dünya şöhrətli musiqi xadimi, görkəmli müğənni və tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudovun anadan olmasının 100 illiyi tamam olur.

Rəşid Behbudov Azərbaycanın çoxəsrlik mədəniyyəti tarixinin yetirdiyi böyük simalardandır. Özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcılığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirmişdir. Çoxşaxəli fəaliyyəti dövründə özünün qurduğu və bu gün də adını daşıyan Azərbaycan Dövlət Mahnı Teatrı mədəniyyətə sanballı töhfə təşkil edir. Rəşid Behbudovun kino aktyoru kimi canlandırdığı unudulmaz obrazlar ölkə kinematoqrafiyasının parlaq səhifələridir. Vətənə və xalqa son dərəcə bağlı olan sənətkar dünyanın ən məşhur teatr səhnələri və konsert salonlarındakı rəngarəng repertuarlı saysız çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafı və təbliği naminə misilsiz xidmətlər göstərmiş qüdrətli sənətkar Rəşid Behbudovun 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi görkəmli musiqi xadimi Rəşid Behbudovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 mart 2015-ci il*

## CƏMŞİD NAXÇIVANSKİNİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin avqust ayında görkəmli hərbi xadim, Azərbaycanın ilk milli atıcı diviziyasının komandiri Cəmşid Cəfərqulu oğlu Naxçıvanskinin anadan olmasının 120 illiyi tamam olur.

Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirə layiqdir. Cəmşid Naxçıvanski 1930-cu illərin ağır repressiyalarına məruz qalmış və totalitarizmin qurbanına çevrilmiş vətənpərvər şəxsiyyətlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında mühüm xidmətləri olan böyük sərkərdə Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim Cəmşid Naxçıvanskinin 120 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 aprel 2015-ci il*

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNDƏ BƏRPA, ABADLIQ-QURUCULUQ İŞLƏRİNİN TAMAMLANMASI VƏ YOL İNFRASTRUKTURUNUN YENİDƏN QURULMASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa, abadlıq-quruculuq işlərinin tamamlanması və yol infrastrukturunun yenidən qurulması, o cümlədən Zazalı-"İmamzadə" kompleksi-Gəncə avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 aprel 2015-ci il***

## İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Kazım Ənvər oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Atakişiyeva Mətanət Ağazahir qızı
Babayev Məmmədəli Şükür oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırov Viktor Cəmiloviç
Bayramova Aygün Əliqulu qızı
Canbaxşiyev Səməd Canbağış oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Anar Elşad oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Cəfərova Bəsti Əli qızı
Əfəndiyeva İlahə Əhsan qızı
Əhmədov Cəfər Namiq Kamal oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elnur Oruc oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Əyyub Pənah oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev Novruz Yaqub oğlu

Əliyev Rahib Seyidağa oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Samirə Zimirxin qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əsgərov İlham Təvəkkül oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu
Hacıyev Əli Əli Yusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşımova Şahnaz Həsən qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Sevinc Qəhrəman qızı
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
Xudiyeva Nəzakət Əli qızı
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İsmayılov Qurban İbrahim oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qarayev Yasin Mikayıl oğlu
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qəniyev Toğrul Sərvər oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu

Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Məhərrəmov Məbud Əliəsgər oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Sirus Arif oğlu
Məmmədova Fəridə Kamal qızı
Məsimov Qurban Abdulla oğlu
Mikayılova Sonaxanım Məmmədağa qızı
Miltıx Aleksey Leonidoviç
Mirabov Akif Əhməd oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Muradova Təranə Hüseyn qızı
Musayeva Fəranə Əlimurad qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Tural Vaqif oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nağıyev Elçin Nağı oğlu
Nəbiyev Cəbrayıl Fərrux oğlu
Nəbiyeva Gülər Nəbi qızı
Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Novruzov Əfsər Dilavər oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Orucova Nahidə Mülük qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Salmanlı Ağaxan Əli oğlu
Salmanova Gülnar Əlifağa qızı
Seyidov Uran Seyidmusa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı

Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Tağızadə İrana Tofiq qızı
Tarverdiyeva Müşfiqə Xıdır qızı
Teymurova Nəzakət Xosrov qızı
Yusupova Şükufə Mühəddin qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zülfüqarov Cahangir Oqtay oğlu

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 30 aprel tarixli 420 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 435) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 may 2015-ci il***

## M.M. İBRAHIMBƏYOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan teatr və kino sənətinin inkişafında böyük xidmətlərinə görə Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 may 2015-ci il***

## TÜRK MƏDƏNİYYƏTİ VƏ İRSİ FONDUNUN FƏALİYYƏTİNİN TƏMİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Türkdilli xalqların mədəni irsinin qorunması, bərpası, təşviqi və inkişafı üçün 2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Naxçıvan şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında qəbul edilmiş qərarı və həmin qərarın 2010-cu il sentyabrın 16-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının X Zirvə Toplantısında dəstəkləndiyini nəzərə alaraq, 2012-ci il avqustun 23-də Bişkek şəhərində Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası və Türkiyə Respublikası hökumətləri tərəfindən imzalanmış Nizamnaməyə əsasən yerləşmə yeri Bakı şəhəri olmaqla yaradılmış Türk Mədə-

niyyəti və İrsi Fondunun fəaliyyətinin təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Türk Mədəniyyəti və İrsi Fondunun strukturunu və işçilərinin say həddini bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin təşkili ilə bağlı bina, nəqliyyat və maddi-texniki təminat məsələlərini iki ay müddətində həll etsin;

1.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

2.1. Azərbaycan tərəfinin Türk Mədəniyyəti və İrsi Fondunda iştirakı üzrə hər maliyyə ili üçün məcburi pay ödənişinin məbləği barədə təklifini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə hazırlayıb Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Xarici İşlər Nazirləri Şurasına təqdim etsin;

2.2. Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti vəzifəsinə namizədliyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvü olan dövlətlər tərəfindən təsdiq edilmiş Günay Elçin qızı Əfəndiyevanın həmin vəzifəyə təyin olunması ilə bağlı təklifi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Dövlət Başçıları Şurasına təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 may 2015-ci il***

## T.T.SALAHOVA AZƏRBAYCAN RESPUBLİKASININ HEYDƏR ƏLİYEV MÜKAFATININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə və dünya təsviri sənət xəzinəsinə layiqli töhfələrinə görə Tahir Teymur oğlu Salahova Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 may 2015-ci il***

## İ.Ə.MUSTAFAYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DÖVLƏT BAYRAĞI MEYDANI KOMPLEKSİ İDARƏSİNİN RƏİSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlqar Əziz oğlu Mustafayev Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin rəisi təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 may 2015-ci il***

## AKADEMİK MİKAYIL HÜSEYNOVUN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ildə Azərbaycanın görkəmli memarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Mikayıl Ələsgər oğlu Hüseynovun anadan olmasının 110 illiyi tamam olur.

Yarım əsrdən artıq bir dövrü əhatə edən zəngin fəaliyyəti ərzində Mikayıl Hüseynov Azərbaycanın milli memarlıq ənənələrini öz yeni axtarışları ilə zənginləşdirmiş və müasir texnologiyalardan istifadə edərək monumental tikililərin qiymətli nümunələrini yaratmışdır. Bakı şəhərinin hazırkı memarlıq simasının müəyyənləşməsində onun layihələri əhəmiyyətli yer tutur. Azərbaycan memarlığının elm kimi təşəkkülündə xüsusi rolu olan alimin ölkə üçün yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda memarlığın inkişafına və milli memarlıq elminin kadr potensialının formalaşdırılması işinə dəyərli töhfələr vermiş akademik Mikayıl Hüseynovun 110 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Memarlar İttifaqının təkliflərini nəzərə almaqla, akademik Mikayıl Hüseynovun 110 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 iyun 2015-ci il***

## A.Ə. PƏNAHOVANIN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Amaliya Əliş qızı Pənahova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyun 2015-ci il***

## İSMAİL SERAGELDİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycanın mədəni irsinin təbliğində xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 iyun 2015-ci il***

## M.A.ƏLİYEVANIN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Arif qızı Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2015-ci il***

## DİNİ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASINA DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycanda dini tarix və mədəniyyət abidələrinin bərpasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyul 2015-ci il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Əsgərzadə Cəmilə Fuad qızı – Bülbül adına Orta ixtisas Musiqi Məktəbinin şagirdi

Əzimova Çinarə Mehman qızı – Bülbül adına Orta ixtisas Musiqi Məktəbinin şagirdi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 iyul 2015-ci il***

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ SİVİLİZASİYALAR ALYANSININ 7-Cİ QLOBAL FORUMUNUN BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ İLƏ BAĞLI TƏŞKİLAT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2014-cü il sentyabrın 26-da Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansı Dostlar Qrupunun Nazirlər Toplantısında Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Azərbaycan Respublikasının paytaxtında keçirilməsi barədə qərar qəbul edilmişdir.

Tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində yüksək səviyyədə təşkilinin Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılmasında, Azərbaycan xalqının tarixi-mədəni irsinin geniş miqyasda tanıdılmasında əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı il 25–27 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə bağlı aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

**Təşkilat Komitəsinin üzvləri**

Nadir Hüseynov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Oruc Zalov – Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Əli Şəfiyev – Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini

İlqar Fətizadə – Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

İltimas Məmmədov – Azərbaycan Respublikası rabitə və yüksək texnologiyalar nazirinin birinci müavini

Firudin Qurbanov – Azərbaycan Respublikası təhsil nazirinin müavini

İntiqam Babayev – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Elsevər Ağayev – Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Musa Pənahov – Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini

Sevda Məmmədəliyeva – Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini

Əsgər Abdullayev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Gündüz İsmayılov – Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini

Sədaqət Qəhrəmanova – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

Pərviz Musayev – Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini

Fərhad Tağızadə – Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini

Samir Nuriyev – Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi

Əfqan Şahmarov – Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi

Arif Məmmədov – "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin vitse-prezidenti

Adil Kərimli – Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini

Vasif Eyvazzadə – Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, Təşkilat Komitəsinin katibi

2. Təşkilat Komitəsi Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi ilə bağlı zəruri məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 iyul 2015-ci il*

## İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATININ 12-Cİ BAŞ KONFRANSININ VƏ İCRAİYYƏ ŞURASININ 35-Cİ İCLASININ BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə xüsusi diqqət yetirən Azərbaycan Respublikası İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) ilə qarşılıqlı faydalı münasibətlər qurmuşdur. Əlaqələrin daim yüksələn xətt boyunca uğurla inkişaf etdiyi ötən müddət ərzində respublikada islam ölkələrinin qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumları keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının 12-ci baş konfransının və İcraiyyə Şurasının 35-ci iclasının Bakı şəhərində yüksək səviyyədə təşkil edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birgə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının 12-ci baş konfransının və İcraiyyə Şurasının 35-ci iclasının 2015-ci il 23–27 noyabr tarixlərində Bakı şəhərində keçirilməsini təmin etsin.

2. İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının 12-ci baş konfransının və İcraiyyə Şurasının 35-ci iclasının keçirilməsi üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 2,0 (iki) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsində nəzərdə tutulan maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 25 iyul 2015-ci il*

# DƏRBƏND ŞƏHƏRİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN DÖVLƏT DRAM TEATRININ BİNASININ YENİDƏN QURULMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd şəhərində XIX əsrin sonu – XX əsrin əvvəllərində həvəskar dərnək kimi fəaliyyətə başlayan Azərbaycan Dram Teatrı 1904-cü ildə rəsmi status, 1934-cü ildə dövlət teatrı statusu almışdır. Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən Mirzə Fətəli Axundzadənin, Əbdürrəhim bəy Haqverdiyevin, Üzeyir bəy Hacıbəylinin, Cəfər Cabbarlının, Səməd Vurğunun və digər sənətkarların əsərlərinin teatrın səhnəsində işıq üzü görməsi ona müxtəlif regionlarda çoxsaylı pərəstişkarlar qazandırmışdır.

Hal-hazırda teatrın yerləşdiyi binada şəraitin qənaətbəxş olmadığını, təchizatın müasir tələblərə cavab vermədiyini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının binasının yenidən qurulması və təchizatı məqsədi ilə 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 avqust 2015-ci il***

# AZƏRBAYCANDA DİNİ MƏDƏNİYYƏTİN, TOLERANTLIĞIN, DİNLƏRARASI VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN TƏBLİĞİNİN GÜCLƏNDİRİLMƏSİNƏ DAİR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini mədəniyyətin inkişafı" fonduna 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 avqust 2015-ci il***

## A.B.SƏFƏROVANIN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan teatr və kino sənətinin inkişafında xidmətlərinə görə Afaq Bəşir qızı Səfərova "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 avqust 2015-ci il*

## F.G.QOCAYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə Fikrət Göyüş oğlu Qocayev (Fikrət Qoca) "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 sentyabr 2015-ci il*

## GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU ƏRAZİSİNDƏKİ "İMAMZADƏ" KOMPLEKSİNDƏ BƏRPA, ABADLIQ-QURUCULUQ İŞLƏRİNİN TAMAMLANMASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa, abadlıq-quruculuq işlərinin tamamlanması üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 sentyabr 2015-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN TABELİYİNDƏ "ŞAHDAĞ TURİZM MƏRKƏZİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qusar rayonu ərazisində, Qafqazın şimal-şərq yamacında, dəniz səviyyəsindən 2350 metr yüksəklikdə yerləşən və ərazisi 2 min hektardan artıq sahəni əhatə edən Şahdağ Qış-Yay Turizm Kompleksinin tikintisinə 2009-cu ildən başlanılmışdır. Layihələndirmə, tikinti, təchizat və idarəolunma işlərinə bir sıra xarici ölkənin təcrübəli şirkətləri cəlb olunmuşdur.

Kompleksin ərazisində 3, 4 və 5 ulduzlu hotellərin, mehmanxanaların, kanat və xizək yollarının, idman qurğularının və digər sosial obyektlərin tikintisi nəzərdə tutulub. Hazırda Kompleksdə dünya standartlarına uyğun 500 yerlik 3 hotel, uzunluğu 6 min metrdən artıq olan 7 kanat yolu, 13 min metr olan 11 dağ-xizək enişi turistlərin istifadəsinə verilmişdir. Kompleksə on kilometrlərlə uzunluqda yüksəkgərginlikli elektrik və fibro-lifli rabitə xətləri, qaz, su kəmərləri, avtomobil yolları çəkilmişdir. Kompleksdə layihə üzrə nəzərdə tutulan obyektlərin tikintisi tam başa çatdıqdan sonra hər gün 10 min turisti qəbul etmək mümkün olacaq, iş yerlərinin sayı isə 5 minə çatdırılacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şahdağ Qış-Yay Turizm Kompleksinin tikilib istifadəyə verilmiş obyektlərinin idarə olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində səhmləri dövlətə məxsus olan "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

2. Müəyyən edilsin ki, Cəmiyyət Mədəniyyət və Turizm Nazirliyinin nəzdində təsərrüfathesablı Şahdağ Qış-Yay Turizm Kompleksinin Müdiriyyəti tərəfindən dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərcləri hesabına tikintisi başa çatdırılmış, həmçinin tikintisi başa çatdıqca mərhələlərlə turizm və digər infrastruktur obyektlərini, nəqliyyat və kommunikasiya xətlərini istismara qəbul edir, həmin obyektlərin idarə edilməsini, o cümlədən müstəqil surətdə hüquqi və fiziki şəxslərlə müqavilə bağlayaraq istifadəyə (icarəyə) verilməsini təmin edir.

3. Cəmiyyətdə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

3.1.1. Cəmiyyətin Nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

3.2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə:

3.2.1. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

3.2.2. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin) bağlanmasına razılıq verilməsi;

3.2.3. Cəmiyyətin işçilərinin say həddinin və xərclər smetasının Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılaraq təsdiq edilməsi;

3.2.4. Cəmiyyətin sədrinin və sədrin müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2.5. bu Sərəncamda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə səhmdarların ümumi yığıncağının səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

3.3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə:

3.3.1. Cəmiyyətin idarə, nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi.

4. Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

5.1. Cəmiyyətin Nizamnaməsini və strukturunu iki ay müddətində təsdiq etsin;

5.2. Şahdağ Qış-Yay Turizm Kompleksinin Müdiriyyəti tərəfindən tikintisi başa çatdırılmış obyektlərin Cəmiyyətin balansına verilməsini bir ay müddətində təmin etsin;

5.3. Cəmiyyətin ərazisinin hüdudlarını müəyyənləşdirərək təsdiq etsin;

5.4. Cəmiyyətin balansında olan, dövlət büdcəsinin əsaslı vəsait qoyuluşu xərcləri hesabına inşa edilmiş obyektlərə çəkilən xərclərin onun nizamnamə kapitalına yönəldilməsini təmin etsin;

5.5. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

5.8. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi cari ildən başlayaraq, Cəmiyyətin büdcəsinin formalaşdırılması və maliyyələşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi Cəmiyyətin və onun səhmlərinin dövlət qeydiyyatına alınması üçün zəruri tədbirləri həyata keçirsinlər.

8. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 sentyabr 2015-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar İncəsənət Xadimi"**
Seyidzadə Rafiq Hüseyn oğlu
**"Əməkdar Artist"**
Abdullayeva Elnarə Tapdıq qızı
Bağırzadə Bəhram Arif oğlu
Bulax Svetlana Mixaylovna
Əhmədov İlkin Qəmbər oğlu
Ələkbərov Ələkbər Kərim oğlu
Ələsgərov İsgəndər Vəliyullah oğlu
Əsədullayev Toğrul Mirnazim oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferştandt Anton Sergeyeviç
İbrahimova Səbinə Vaqif qızı
İmanov Cabir Qorxmaz oğlu
İmanov Vaxtanq Yaşar oğlu
İsgəndərzadə Vüsal Əziz oğlu
İsmayılov Ceyhun Təhmasib oğlu
Kərimov Kamran Seyran oğlu
Qasımov Ramil Adıgözəl oğlu
Məstanov Vaqif Teyuboviç
Mustafayev Yusif Höccət oğlu
Sarıyeva Sevinc Ərşad qızı
Süleymanov Elnur Razdaq oğlu
Vəliyeva Bəyimxanım Ənvər qızı
**"Əməkdar Müəllim"**
Quliyev Dəyanət Hacıqulu oğlu
Məmmədova Sevda İbrahim qızı
Səfərova Gülnar Hafiz qızı
**"Əməkdar Mədəniyyət İşçisi"**
Ələsgərov Rəhman Rasim oğlu
Qasımzadə Sevil Qasım qızı
Mustafayev Sidqi Məmməd Tağı oğlu
Novruzov Xanlar Əmirulla oğlu
Rəcəbov Zakir Ağamikayıl oğlu

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 sentyabr 2015-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**“Əməkdar Artist”**
Əsgərov Mübariz Səməd oğlu
Nəcəfov Tural Nüsrət oğlu
**“Əməkdar Mədəniyyət İşçisi”**
Məmmədov Nizami Tahir oğlu
**“Əməkdar Müəllim”**
Əfəndiyeva Nüşabə Yusif qızı

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 sentyabr 2015-ci il*

## GENERAL SƏMƏD BƏY MEHMANDAROVUN 160 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ildə görkəmli hərbi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, general Səməd bəy Sadıq bəy oğlu Mehmandarovun anadan olmasının 160 illiyi tamam olur.

General Səməd bəy Mehmandarov döyüş meydanlarındakı yüksək peşəkarlığı və zabit şərəfinə hədsiz sədaqəti ilə Azərbaycan xalqının hərb salnaməsinə unudulmaz səhifələr yazmışdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən ordu quruculuğu prosesinin bütünlüklə milli zəmin üzərində həyata keçirilməsi, hərbi potensialın məharətlə istiqamətləndirilməsi və konkret tarixi şəraitdə ölkənin ərazi bütövlüyünün, hərbi təhlükəsizliyinin layiqincə təşkil edilməsi məhz onun fəaliyyətinin nəticələridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, vətənə məhəbbət ruhunda tərbiyəsində əhəmiyyətini nəzərə alaraq, Azərbaycan xalqı qarşısında müstəsna xidmətlər göstərmiş general Səməd bəy Mehmandarovun 160 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə görkəmli hərbi xadim, general Səməd bəy Mehmandarovun 160 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 sentyabr 2015-ci il***

## CAHANGİR ZEYNALOVUN 150 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ildə Azərbaycan professional teatrının banilərindən biri, görkəmli aktyor, teatr xadimi və pedaqoq Cahangir Məşədi Rza oğlu Zeynalovun anadan olmasının 150 illiyi tamam olur.

Cahangir Zeynalov qüdrətli sənətkar kimi ifaçısı olduğu bütün rolları öz canlı müşahidələri sayəsində daim yeni cizgilərlə zənginləşdirmiş və həyat həqiqətlərini realizm prinsipləri əsasında səhnədə müvəffəqiyyətlə canlandıran dolğun surətlər silsiləsi yaratmışdır. Onun yüksək əhəmiyyətə malik sənət məktəbinin parlaq ənənələri böyük səhnə ustaları tərəfindən layiqincə davam etdirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli teatr sənətinin inkişafında mühüm xidmətləri olan görkəmli sənətkar Cahangir Zeynalovun 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi görkəmli teatr xadimi Cahangir Zeynalovun 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 oktyabr 2015-ci il***

## N.S.MİXALKOVUN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Nikita Sergeyeviç Mixalkov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 oktyabr 2015-ci il***

## ŞƏKİ ŞƏHƏRİNDƏ BƏXTİYAR VAHABZADƏNİN EV-MUZEYİNİN YARADILMASI VƏ YAŞADIĞI BİNAYA XATİRƏ LÖVHƏSİNİN VURULMASI HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, xalq şairi, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Vahabzadənin azərbaycançılıq məfkurəsinə sədaqət və tarixi-mədəni dəyərlərə ehtiram aşılayan, istiqlal ideyaları ilə zəngin yaradıcılığı milli ədəbi fikir xəzinəsinə qiymətli töhfə təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və xalq şairi Bəxtiyar Vahabzadənin Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərini nəzərə alaraq qərara alıram:

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1. Şəki şəhərində xalq şairi Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və onun Şəkidə yaşadığı binaya xatirə lövhəsinin vurulması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etsin;

2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 oktyabr 2015-ci il*

## "İNFORMASİYA ƏLDƏ ETMƏK HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 20 OKTYABR TARİXLİ 1398-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1398-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 noyabr 2015-ci il*

## "KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2015-Cİ İL 20 OKTYABR TARİXLİ 1399-IVQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1399-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 noyabr 2015-ci il*

## 2016-CI İL 25–27 APREL TARİXLƏRİNDƏ BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI SİVİLİZASİYALAR ALYANSININ 7-Cİ QLOBAL FORUMU İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2016-cı il 25–27 aprel tarixlərində Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində təşkili üçün Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 noyabr 2015-ci il***

## CEYHUN HACIBƏYLİNİN 125 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2016-cı ilin fevral ayında Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı-publisist, tərcüməçi, naşir və ictimai xadim Ceyhun Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 125 illiyi tamam olur.

Milli ədəbi-ictimai fikir tarixinə töhfələr verən Ceyhun Hacıbəyli Azərbaycan xalqının zəngin mədəni nailiyyətlərinin dünyaya tanıdılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Ceyhun Hacıbəylinin milli mədəniyyətin inkişafı və təbliği sahəsində mühüm xidmətlərini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Ceyhun Hacıbəylinin 125 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 noyabr 2015-ci il***

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ 50 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2015-ci ilin dekabr ayında Azərbaycanda bütün bilik sahələrinə aid sistemli məlumatların toplandığı ilk ensiklopediyanın nəşrini təmin etmiş Ensiklopediya Baş redaksiyasının yaradılmasının 50 illiyi tamam olur. 1976–1987-ci illərin on cildlik "Azərbaycan Sovet Ensiklopediyası" keçmiş sovet ideologiyasının ciddi təsiri altında yazılmasına baxmayaraq, Azərbaycan xalqının tarixi-mədəni nailiyyətlərini müfəssəl əks etdirən fundamental əsər idi.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonrakı dövr ərzində ölkə həyatında baş vermiş əsaslı dəyişikliklər yeni çoxcildli universal milli ensiklopediyanın meydana gətirilməsini zəruri edirdi. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yaradılması haqqında" 2004-cü il 5 may tarixli Sərəncamı ilə təsis edilmiş "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin gerçəkləşdirdiyi belə bir nəşr mükəmməl informasiya mənbəyi olaraq cəmiyyətin intellektual potensialının zənginləşdirilməsində müstəsna əhəmiyyətə malikdir. İndiyədək "Azərbaycan" xüsusi cildi yüksək poliqrafik keyfiyyətdə hazırlanıb oxucuların istifadəsinə verilmişdir. Beş cildi artıq işıq üzü görmüş Milli Ensiklopediyanın növbəti cildləri üzərində mütəmadi iş aparılır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Milli Ensiklopediyasının milli sərvət kimi ölkənin ictimai-siyasi, elmi-mədəni həyatının əlamətdar hadisəsi olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Azərbaycan Milli Ensiklopediyasının 50 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 noyabr 2015-ci il***

## E.M.PAŞAYEVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan Respublikasında musiqi təhsili sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Elmira Mir Cəlal qızı Paşayeva "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2015-ci il***

## QƏMBƏR HÜSEYNLİNİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2016-cı ilin aprel ayında tanınmış Azərbaycan bəstəkarı, əməkdar incəsənət xadimi Qəmbər Muxtar oğlu Hüseynlinin anadan olmasının 100 illiyi tamam olur.

Qəmbər Hüseynli qısa ömrü ərzində milli musiqi sənəti salnaməsinə yeni səhifələr yazmış sənətkardır. Azərbaycanın çoxəsrlik mədəni irsinin təbliğində onun xalq musiqisi zəminində təşəkkül tapmış və dərin lirizmi ilə səciyyələnən yaradıcılığının özünəməxsus yeri vardır. Bəstəkarın "Cücələrim" əsəri bu gün də dünyada sevilə-sevilə dinlənilən uşaq mahnılarındandır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mədəniyyətin zənginləşdirilməsi və tanıdılması işinə sanballı töhfələr vermiş bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, bəstəkar Qəmbər Hüseynlinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2015-ci il***

## ƏBDÜLƏZİZ OSMAN ƏL-TUVEYCRİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESKO) ilə Azərbaycan Respublikası arasında hərtərəfli uğurlu əməkdaşlığın qurulmasında səmərəli fəaliyyətinə və Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda tanıdılmasında müstəsna xidmətlərinə görə ISESKO-nun Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2015-ci il***

## C.M. ZEYNALLIYA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda estrada musiqisinin inkişafında xidmətlərinə görə Cavanşir Mirzəməmməd oğlu Zeynallıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 dekabr 2015-ci il*

## FİRİDUN BƏY KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASININ ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 50 illik yubileyi münasibətilə, Azərbaycanda kitabxana işinin təşkili sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Dadaşova Zahirə Cabir qızı
Qəmbərova Şəhla Əliheydər qızı
Musazadə Rəfiqə Mirzə qızı
Tahirova Nazilə Rəhman qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 dekabr 2015-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu

Kərimov Fəxrəddin Nuri oğlu

**"Xalq rəssamı"**

İbadullayev Əli Əziz oğlu

Yunusov Qəyyur Habil oğlu

**"Əməkdar incəsənət xadimi"**

Əmirov Əli Məmməd oğlu

Şəfiyeva Nərgiz Mahmud qızı

Talıbzadə Aydın Ağa Yunus oğlu

**"Əməkdar artist"**

Bunyatova Tamilla Faiq qızı

Camalzadə Vüqar Vaqif oğlu

Cəfərov Əlvida Məhərrəm oğlu

Eyyubov Musa Eyyub oğlu

Əliyev Sərvər Bəhlul oğlu

Həşimzadə Xanlar Allahverdi oğlu

İbrahimova Nigar Rəfael qızı

İsmayılov Salamulla Xeyrulla oğlu

Nəcəfova Röyalə Yaqub qızı

Nəcəfova Zemfira Musabala qızı

Yaqubov Şıxı Miriş oğlu

**"Əməkdar rəssam"**

Ağamalov Məlik Arif oğlu

Eldarova İrina Nikolayevna

Kostina İnna Valentinovna

Mehdiyev Rəşad Rafiq oğlu

Rzayev Asif Hüseyn oğlu

**"Əməkdar jurnalist"**

Cəmilov Adil Savalan oğlu

İbrahimova Solmaz Mirzə qızı

Zeynalov Qulu Ağsəs oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Abbasova Olqa Aleksandrovna

Çobanov Musa Nəbi oğlu
Əsgərov İlham Elxan oğlu
Həsənov Vidadi Allahverdi oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2015-ci il***

## AZƏRBAYCAN MƏDƏNİYYƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əzizov Ruhulla Nəcəf oğlu
Qasımova Rühəngiz Nağı qızı
Seyidov Tərlan Mir Əşrəf oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 dekabr 2015-ci il***

## 2016-CI İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "MULTİKULTURALİZM İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə olan münasibətinin real ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə **qərara alıram:**

1. 2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının təkliflərini nəzərə alaraq, 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 yanvar 2016-cı il***

## E.T.QULİYEVİN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin tədrisi və təbliğində xidmətlərinə görə Eldar Tofiq oğlu Quliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri,14 yanvar 2016-cı il***

## İSLAM TƏHSİL, ELM VƏ MƏDƏNİYYƏT TƏŞKİLATI (ISESCO) ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASININ YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

ISESCO-nun 12-ci Baş Konfransı və İcraiyyə Şurasının 2015-ci ilin 23–27 noyabr tarixlərində keçirilmiş iclasında Azərbaycan növbəti üç il müddətinə Baş Konfransın sədri seçilmişdir. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycan xalqının zəngin tarixi-mədəni irsinə İslam aləmində verilən yüksək qiymət kimi təqdirə layiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və ISESCO Baş Konfransına sədrliyin uğurla həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, ISESCO ilə əməkdaşlığı səmərəli şəkildə əlaqələndirmək məqsədilə qərara alıram:

1. ISESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası aşağıdakı tərkibdə yaradılsın:
**Komissiyanın sədri**
Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri
**Komissiyanın üzvləri**
Nadir Hüseynov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Firudin Qurbanov – Azərbaycan Respublikası təhsil nazirinin müavini
İntiqam Babayev – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Rauf Hacıyev – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Aynur Sofiyeva – Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Səyyad Salahlı – Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini
Dağbəyi İsmayılov – Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) baş direktorunun müavini
Urxan Ələkbərov – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru
Vasim Məmmədəliyev – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 yanvar 2016-cı il*

## M.M.KAJLAYEVİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında və Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında musiqi sənəti sahəsində əməkdaşlığın möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Murad Maqomedoviç Kajlayev "Dostluq" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 yanvar 2016-cı il*

## Ə.S.ŞAHMAROVUN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DƏNİZKƏNARI BULVAR İDARƏSİNİN RƏİSİ VƏZİFƏSİNDƏN AZAD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Əfqan Sərdar oğlu Şahmarov Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi vəzifəsindən azad edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 yanvar 2016-cı il*

## İ.Ə.MUSTAFAYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA DƏNİZKƏNARI BULVAR İDARƏSİNİN RƏİSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

İlqar Əziz oğlu Mustafayev Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi təyin edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 yanvar 2016-cı il*

## AKADEMİK V.Y.AXUNDOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2016-cı ilin may ayında Azərbaycanın görkəmli alimi və tanınmış ictimai-siyasi xadimi, akademik Vəli Yusif oğlu Axundovun anadan olmasının 100 illiyi tamam olur.

Vəli Axundov uzun illər dövlət idarəçiliyi sahəsində ən məsul vəzifələrdə çalışarkən təqdirəlayiq fəaliyyət göstərmiş və tibb alimi kimi respublikada səhiyyə işinin təşkilinə töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan elminin inkişafında və ölkənin ictimai-siyasi həyatında mühüm xidmətləri olan akademik Vəli Axundovun 100 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Vəli Axundovun 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 yanvar 2016-cı il***

## MƏDƏNİYYƏT, GƏNCLƏR VƏ İDMAN MÜƏSSİSƏLƏRİNDƏ ÇALIŞAN İŞÇİLƏRİN ƏMƏKHAQLARININ ARTIRILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin sosial müdafiəsini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq vəzifə (tarif) maaşları 2016-cı il fevralın 1-dən orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 yanvar 2016-cı il***

## ŞƏKİ ŞƏHƏRİNİN TARİXİ HİSSƏSİNİN QORUNMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın çoxəsrlik zəngin keçmişə malik şəhərlərindən Şəkinin qədim hissəsini əhatə edən "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğu ərazisində hazırda çox sayda məscid və minarələr, karvansara və sənətkarlıq emalatxanaları, muzeylər və tarixi əhəmiyyətli digər tikililər vardır. Onlarla sənətkarlıq sahəsinin toplu halında mövcud olduğu şəhərdə tarixi-mədəni irs bu gün layiqincə yaşadılır. Sosial-iqtisadi irəliləyişin geniş vüsət alması regionun turizm potensialını daha da artırmış, eyni zamanda yeni üslublu tikililərin şəhərin simasını dəyişməsi və onun özünəməxsus memarlığını korlaması səbəbindən qoruq ərazisində aparılan işlərə xüsusi həssaslıqla yanaşılması zərurəti meydana çıxmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyəti üçün mühüm əhəmiyyətli Şəki şəhərinin tarixi görünüşünü və memarlıq üslubunu qoruyub saxlamaq, onu gələcək nəsillərə çatdırmaq, eləcə

də Azərbaycan xalqının mədəni nailiyyətlərinin geniş miqyasda təbliğini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Şəki Şəhər İcra Hakimiyyəti ilə birlikdə:

1.1. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğunun küçə şəbəkələrini və plan konfiqurasiyasını pozan, memarlıq dəyərinə və üslubuna xələl gətirən tikililərin uyğunlaşdırılması, mühəndis kommunikasiya xətlərinin təmiri və ya yenidən qurulması, tarix və mədəniyyət abidələrinin bərpası və ya konservasiyası, yolların təmiri ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğu üçün inzibati binanın ayrılmasına və ya həmin binanın tikintisi üçün tələb olunan maliyyə vəsaitinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Şəki Şəhər İcra Hakimiyyəti ilə birlikdə Şəki şəhərinin təbii landşaftının qorunması və yaşıllaşdırılmasına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Şəki şəhərinin tarixi hissəsinin inkişafı və qorunub saxlanılması ilə bağlı tədbirlər planını üç ay müddətində təsdiq etsin;

3.2. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğunun xəritəsini bir ay müddətində təsdiq etsin;

3.3. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğuna milli qoruq statusunun verilməsini təmin etsin;

3.4. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğunun maliyyələşməsinin dövlət büdcəsinin yerli xərclərindən dövlət büdcəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi üzrə mərkəzləşdirilmiş xərclərə keçməsini təmin etsin;

3.5. "Yuxarı Baş" Dövlət tarix-memarlıq qoruğunun maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

3.6. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 yanvar 2016-cı il***

## A.E.İSRAFİLOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda musiqi ifaçılığı sənətinin inkişafında xidmətlərinə görə Aftandil Eynulla oğlu İsrafilov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 yanvar 2016-cı il***

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Həsənova Sima Əkbər qızı
Hüseynli Yaşar Şamil oğlu
Kərimova Lalə Sabir qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 yanvar 2016-cı il*

# AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNİN TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Məmmədəliyeva Sevda Yusuf qızı
**"Tərəqqi" medalı ilə**
Abbasov Qabil Əfqan oğlu
Cəfərova Könül Elxan qızı
Haşımov Emin Mirhaşım oğlu
Hüseynova Azada Cəlil qızı
**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Hacıyev Əbülfət Mustafa oğlu
Mədətov İmran Abiboviç
Məmmədova Leyla Mir İsmət qızı
Novruzova Vəfa Məmməd Kamal qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 yanvar 2016-cı il*

## 2016-CI İL GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2016-cı il Gənclər üçün Prezident mükafatları verilsin:

Aslanov Elvin Namiq oğlu
Əliyev Ramiz Təvəkkül oğlu
Hoca Qəniyev Elvin Xeyrəddin oğlu
Məlikov Elvin Yaşar oğlu
Məmmədova Fəxriyyə Tahir qızı
Nəcəfli Nərmin Etibar qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 yanvar 2016-cı il***

## GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ TİKİNTİSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Filarmoniyasının tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 fevral 2016-cı il***

# BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2016-cı ildə Bakı şəhərində Birinci Türkoloji Qurultayın keçirilməsinin 90 illiyi tamam olur.

Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Qurultayda əsaslı müzakirə obyektinə çevrilmiş problemlərlə bağlı böyük perspektiv əhəmiyyətə malik qərarlar qəbul edilmiş, latın qrafikalı yeni əlifbaya keçidin elmi-metodik prinsipləri işlənib hazırlanmışdır. Həmin əlifbanın ilk kütləvi tətbiqinə türkdilli respublikalardan məhz Azərbaycanda başlanılması hələ XIX əsrdən etibarən burada mütərəqqi ziyalıların əlifba islahatı uğrunda fəal şəkildə apardıqları mübarizənin nəticəsi idi. Lakin sovet idarə üsulu çox keçmədi ki, bütün bunların ardıcıl gerçəkləşdirilməsinin qarşısını müxtəlif vasitələrlə aldı.

XX yüzilliyin sonlarına doğru Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsi ilə Azərbaycan dilinin rəsmi dövlət dili statusu qəti surətdə təsbit edildi və Türkoloji Qurultay tərəfindən vaxtilə irəli sürülmüş tövsiyələrin müasir şəraitdə uğurla həyata keçirilməsi üçün əlverişli zəmin yarandı. Bir əsr boyunca üçüncü dəfə dəyişdirilməyə məruz qaldıqdan sonra latın qrafikalı yeni əlifbaya keçildi və ölkənin ictimai-siyasi həyatının, xalqın yazı mədəniyyəti tarixinin taleyüklü məsələlərinin həlli istiqamətində mühüm addımlar atıldı.

Qurultaydan bəri ötən dövr türkologiyaya dair araşdırmalar sahəsində yeni konsepsiyaların formalaşdırılması, Azərbaycanın türkoloji araşdırmaların nüfuzlu mərkəzlərindən biri kimi tanınması və türk xalqlarının mədəni-mənəvi birliyinin nəzəri-elmi bünövrəsinin yaradılması ilə əlamətdardır. Qazanılan nailiyyətlər eyni zamanda Qurultayın təşkili işinə töhfələr vermiş totalitar rejim qurbanı görkəmli alimlərin xatirəsinə ehtiramın ifadəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında müstəsna rol oynadığını nəzərə alaraq, Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 fevral 2016-cı il*

## S.Q. İSMAYILOVANIN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan muğam sənətinin inkişafında və təbliğində xidmətlərinə görə Səkinə Qulu qızı İsmayılova "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 fevral 2016-cı il*

## GƏNCƏ ŞƏHƏRİNİN "2016-CI İL AVROPA GƏNCLƏR PAYTAXTI" SEÇİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin mühüm tərkib hissəsidir. Müstəqillik dövründə cəmiyyət həyatının bütün sahələrində qazanılmış uğurlar gənclər qarşısında yeni imkanlar açmış, onların fiziki, intellektual və mənəvi potensialının gücləndirilməsi, innovativ ideya və təşəbbüslərinin reallaşdırılması, sosial problemlərinin həlli və ictimai fəallığının artırılması yönündə ardıcıl tədbirlərin həyata keçirilməsini mümkün etmişdir. Təqdirəlayiq haldır ki, gənclərimiz xaricdəki həmyaşıdları ilə geniş əlaqələr quraraq beynəlxalq platformalarda da geniş təmsil olunur, ölkəmizin tanıdılması və milli maraqlarımızın qorunması işinə dəyərli töhfə verirlər.

Son dövrlər Azərbaycan region, qitə və dünya miqyaslı forumlara, konfranslara, zirvə toplantılarına, idman yarışlarına və gənclərlə bağlı müxtəlif tədbirlərə ev sahibliyi etmişdir. Ötən illərdə Bakı şəhərində Gənc alimlərin beynəlxalq forumu, Gənclər siyasəti üzrə birinci qlobal forum və Kompyuter oyunları üzrə VI dünya çempionatı keçirilmişdir. 2013-cü il noyabrın 21-də qitədəki gənclər təşkilatlarının ən böyük platforması olan Avropa Gənclər Forumunun Baş Assambleyasında nüfuzlu beynəlxalq münsiflər heyətinin qərarı ilə Gəncə şəhəri "2016-cı il Avropa gənclər paytaxtı" elan edilmişdir. Beləliklə, Gəncə 2016-cı il ərzində Avropa gənclərinin diqqət mərkəzində olacaqdır. Bu isə bir şəhərin simasında Azərbaycanın tarix və mədəniyyətinin, cəmiyyətimizə xas olan multikulturalizm ənənələrinin və tolerantlıq mühitinin təbliğ edilməsinə, ölkəmizlə bağlı həqiqətlərin qitə və dünya ictimaiyyətinə çatdırılmasına əlverişli imkan yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində beynəlxalq,

ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlər üzrə nəzərdə tutulmuş vəsait hesabına Gəncə Şəhər İcra Hakimiyyətinə 1,0 (bir) milyon manat ayırsın.

2. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, fəaliyyət istiqamətlərinə uyğun olaraq, Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər hazırlayıb həyata keçirsinlər, habelə Gəncə şəhərində keçirilməsi nəzərdə tutulan tədbirlərin təşkilinə kömək göstərsinlər.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fonduna tövsiyə edilsin ki, 2016-cı ildə keçirəcəyi maliyyə yardımı müsabiqələrində Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə bağlı layihələri prioritet istiqamətlərdən biri kimi nəzərdə tutsun.

4. "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTAc) Gəncə şəhərinin "2016-cı il Avropa gənclər paytaxtı" seçilməsi ilə bağlı keçiriləcək tədbirlərin işıqlandırılmasını təmin etsinlər.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 fevral 2016-cı il*

## "AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN TABELİYİNDƏ "ŞAHDAĞ TURİZM MƏRKƏZİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN YARADILMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2015-Cİ İL 10 SENTYABR TARİXLİ 1401 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1283-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 9, maddə 1043) 3.2.2-ci yarımbəndində "bağlanmasına razılıq verilməsi" sözləri ", eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin beş faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi" sözləri ilə əvəz olunsun.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 fevral 2016-cı il*

# U.Ə.QULİYEVAYA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan aşıq sənətinin inkişafında xidmətlərinə görə Ulduz Əsgər qızı Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2016-cı il***

# AZƏRBAYCAN QADINLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında təhsil, səhiyyə və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar müəllim"**
Nərimanova Şəfiqə Kərim qızı
Yaqublu Vəfa Misir qızı
**"Əməkdar mühəndis"**
Bayramova Gülarə Əşrəf qızı
**"Əməkdar həkim"**
Abdullayeva Esmiralda Əjdər qızı
**"Əməkdar mədəniyyət işçisi"**
Almaszadə Mayra Əliheydər qızı
Qutlyanskaya Lyudmila Restemovna
Məmmədova Ədilə Zəkəriyyə qızı
Mikayılova Sevinc Sadəddin qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 1 mart 2016-cı il***

## V.A.MURADOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında xidmətlərinə görə Vidadi Aydın oğlu Muradov "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 mart 2016-cı il*

## "2016-CI İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "MULTİKULTURALİZM İLİ" ELAN EDİLMƏSİNƏ DAİR TƏDBİRLƏR PLANI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin 11 yanvar tarixli 1673 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı"nda nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 mart 2016-cı il*

## 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair
## TƏDBİRLƏR PLANI

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 11 mart tarixli 1890 nömrəli Sərəncamı ilə*
*təsdiq edilmişdir*

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| **Azərbaycan multikulturalizmi modeli ilə bağlı ölkədaxili tədbirlər** | | | |
| 1. | Multikulturalizm siyasətinin hüquqi bazasını möhkəmləndirmək məqsədilə ayrı-seçkiliyə qarşı mübarizənin gücləndirilməsi ilə bağlı mövcud normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması | il ərzində | Ədliyyə Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 2. | "Multikulturalizm" adlı xüsusi medalın təsis edilməsi məsələsinə baxılması | il ərzində | Nazirlər Kabineti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| 3. | "Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında" mövzusunda ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və müxtəlif dini qurumların üzvləri arasında intellektual müsabiqələrin təşkil olunması | mütəmadi | Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu |
| 4. | "Azərbaycan multikulturalizmi modeli" adlı fənnin tədris edildiyi ölkə universitetlərində "Azərbaycan multikulturalizmi" kafedralarının açılması üçün lazımi metodik hazırlığın aparılması | il ərzində | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi |
| 5. | Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində isə "Azərbaycan multikulturalizmi modeli" adlı fənlərin tədris proqramlarına daxil edilməsi | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 6. | Azərbaycandakı Rus Pravoslav Kilsəsi tərəfindən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə (BBMM) bağışlanmış Qazax şəhərindəki Müqəddəs Nikolsk Pravoslav kilsəsinin binasında “Multikulturalizm Muzeyi”nin yaradılması və muzeyin BBMM-in balansına verilməsi üçün zəruri sənədləşmə işlərinin görülməsi | il ərzində | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Qazax Rayon İcra Hakimiyyəti |
| 7. | Azərbaycanın müxtəlif bölgələrində məşğulluğu olmayan gənclərin peşəyönümlü kurslara cəlb edilməsi və bu kurslarda həmçinin multikultural məzmunlu fənlərin tədrisinin təmin edilməsi | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu |
| 8. | Azərbaycan multikulturalizminin qaynaqları seriyasından olan “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları”, “Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları”, “Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları” kitablarının hazırlanıb nəşr etdirilməsi və təqdimatlarının keçirilməsi | il ərzində | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları |
| 9. | “Azərbaycan multikulturalizmi” dərsliyinin hazırlanıb nəşr etdirilməsi | il ərzində | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi |
| 10. | Mədəni müxtəliflik, tolerantlıq və konfliktlərin həllində mədəniyyətlərarası dialoqun rolu, multikulturalizmin Azərbaycan modeli və dünya multikulturalizm modelləri mövzularında respublika və beynəlxalq miqyaslı elmi-nəzəri, elmi-praktik konfransların, seminarların, “dəyirmi masa”ların, mühazirələrin, ədəbi-bədii toplantıların keçirilməsi | aprel-dekabr | Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, yerli icra hakimiyyəti orqanları |

| | | | |
|---|---|---|---|
| 11. | Azərbaycan dövlətinin multikulturalizm siyasətinin dini təhsil müəssisələrində, dini icmalarda təbliği məqsədilə seminarların keçirilməsi | il ərzində | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyası |
| 12. | Ölkə məktəbliləri arasında multikulturalizm mövzusunda rəsm müsabiqəsinin keçirilməsi | aprel-may | Təhsil Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı |
| 13. | BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna və "Multikulturalizm ili" nə həsr edilmiş təqdimatların və müzakirələrin təşkili (ali təhsil müəssisələri, Qeyri-Hökumət Təşkilatları və gənclər təşkilatları üçün) | aprel-may | Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası |
| 14. | Orta ümumtəhsil və orta ixtisas təhsili müəssisələrində mədəniyyətlərarası kommunikasiya bacarıqları və bilgilərinə həsr olunmuş seminarların və "Azərbaycanda multikulturalizm" mövzusunda kütləvi mühazirələrin təşkili | il ərzində | Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| 15. | Multikulturalizm mövzusunda elmi-publisistik məqalə müsabiqələrinin keçirilməsi, məqalələr toplusundan ibarət kitabın nəşr etdirilməsi | aprel-noyabr | Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 16. | "Multikulturalizm gənclərin gözü ilə" qısametrajlı film müsabiqəsinin təşkili və keçirilməsi | may-sentyabr | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı |

| | | | |
|---|---|---|---|
| 17. | Dövlət sifarişi ilə Cəlil Məmmədquluzadənin "Kamança", Qurban Səidin "Əli və Nino" əsərlərinin hazırlanıb tamaşaya qoyulması | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi |
| 18. | Teatr və musiqi kollektivlərinin azsaylı xalqların yaşadığı bölgələrə qastrol səfərlərinin təşkili | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi |
| 19. | Dövlət rəsm qalereyalarında "Multikulturalizm alternativsiz həyat tərzidir" devizi ilə rəsm sərgilərinin təşkili | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı |
| 20. | «Azərbaycan-doğma diyar" devizi altında etnik qrupların V incəsənət festivalının bölgələrdə keçirilməsi | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, yerli icra hakimiyyəti orqanları |
| 21. | Azərbaycan Milli Kitabxanasında multikulturalizm üzrə kitab fondunun yaradılması və "Multikulturalizm və kitab" mövzusunda konfransın keçirilməsi | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu |
| 22. | «Beynəlxalq abidələr və tarixi yerlər günü" çərçivəsində Lahıc, Xınalıq və Kiş qoruqlarının ərazisində mədəniyyət festivallarının təşkili | 18 aprel | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları |
| 23. | "Atəşgah Məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda "Azərbaycan memarlığında dini tolerantlıq" mövzusunda konfransın və tolerantlığı əks etdirən Azərbaycan memarlıq abidələrinin fotosərgisinin keçirilməsi | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 24. | Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində multikulturalizm problemləri üzrə institutlararası elmi tədqiqat virtual mərkəzinin təsis edilməsi, Fəlsəfə və Hüquq İnstitutunun nəzdində isə "Multikulturalizm" şöbəsinin yaradılması | il ərzində | Azərbaycan Milli Elmlər Akademiyası |

| | | | |
|---|---|---|---|
| 25. | "Multikulturalizm ili - 2016: nailiyyətlər və perspektivlər" mövzusunda ilin yekununa həsr olunmuş respublika konfransının və ədəbi-bədii tədbirin təşkili | dekabr | Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| **Azərbaycan multikulturalizmi modeli ilə bağlı beynəlxalq tədbirlər** | | | |
| 26. | Bakı Slavyan Universitetində "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda Ulu Öndərin anadan olmasına həsr olunmuş ənənəvi beynəlxalq konfransın keçirilməsi | may | Təhsil Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 27. | "Azərbaycan multikulturalizmi modeli" adlı fənnin tədris edildiyi yerli və xarici tələbələr üçün Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin təşkili | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Xarici İşlər Nazirliyi |
| 28. | Azərbaycan multikulturalizminin tarixini öyrənmək istiqamətində Qafqaz Albaniyası ilə bağlı «Alban Apostol kilsəsi: dünənimiz və bu günümüz" mövzusunda beynəlxalq konfransın keçirilməsi | iyun | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| 29. | V Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində "Səmavi dinlərin tarixi" layihəsinin I hissəsinə (İudaizm) aid sərginin təşkili | oktyabr | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi |
| 30. | BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu çərçivəsində multikulturalizm mövzusunda sessiyanın təşkili və "Sivilizasiya" kitabının təqdimatının keçirilməsi | aprel | Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası |

| | | | |
|---|---|---|---|
| 31. | “Multikultural cəmiyyət və turizm” mövzusunda Ümumdünya Turizm Təşkilatı ilə birlikdə konfransın təşkili | may | Mədəniyyət və Turizm Nazirliyi,<br>Xarici İşlər Nazirliyi |
| 32. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkələrdə filiallarının açılması istiqamətində zəruri mənəvi dəstəyin göstərilməsi | dekabr | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Xarici İşlər Nazirliyi,<br>Diasporla İş üzrə Dövlət Komitəsi |
| 33. | Xarici ölkə universitetlərində «Azərbaycan multikulturalizmi modeli” adlı fənnin tədrisinin davamı üçün müvafiq tədbirlərin görülməsi | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Azərbaycan Milli Elmlər Akademiyası,<br>Təhsil Nazirliyi,<br>Xarici İşlər Nazirliyi |
| 34. | Xarici ölkələrdə işğal altında olan Azərbaycan ərazilərində tarixi-dini və mədəniyyət nümunələrinə qarşı erməni vandalizmini əks etdirən sərgilərin təşkili | il ərzində | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,<br>Mədəniyyət və Turizm Nazirliyi,<br>Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Təhsil Nazirliyi |
| 35. | İran İslam Respublikasının Təbriz şəhərində «Radikalizmlə mübarizədə İslam həmrəyliyi” devizi altında «Azərbaycan - İslam mədəniyyətinin incisi” adlı fotosərginin təşkili | iyun | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,<br>Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| 36. | Amerika Birləşmiş Ştatlarında yəhudi icmalarının iştirakı ilə “Dinlərarası qarşılıqlı anlaşma: birgəyaşayışın modelləri” mövzusunda «dəyirmi masa”nın və «Azərbaycan - tolerantlıq diyarı” mövzusunda fotosərginin keçirilməsi | il ərzində | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,<br>Xarici İşlər Nazirliyi,<br>Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Qafqaz Müsəlmanları İdarəsi |
| 37. | Böyük Britaniyada “Multikulturalizmin Azərbaycan modeli: Avropa üçün yeni nümunə” adlı beynəlxalq konfransın və eyni mövzuda fotosərginin təşkil edilməsi | may | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,<br>Xarici İşlər Nazirliyi,<br>Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Qafqaz Müsəlmanları İdarəsi |
| 38. | Birləşmiş Ərəb Əmirlikləri və Qətərdə “Dini tolerantlığın qorunması və radikalizmlə mübarizədə dünya birliyinə Azərbaycanın dəstəyi” devizi altında “Azərbaycan - İslam mədəniyyətinin incisi” adlı fotosərginin keçirilməsi | oktyabr-noyabr | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi,<br>Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,<br>Xarici İşlər Nazirliyi |

| | | | |
|---|---|---|---|
| 39. | Avropa Şurasının Şimal-Cənub Mərkəzi ilə birlikdə Lissabon şəhərində "Avropada dini tolerantlıq və birgəyaşayış təcrübəsi: Azərbaycan modeli" mövzusunda beynəlxalq konfransın və "Azərbaycan - tolerantlıq diyarı" adlı sərginin keçirilməsi | noyabr | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xarici İşlər Nazirliyi |
| **Azərbaycan multikulturalizmi modelinin təbliğinin informasiya təminatı** | | | |
| 40. | "Multikulturalizm" adlı jurnalın nəşri və bölgələrdə yayımının təşkili | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Yaradıcılıq Fondu, yerli icra hakimiyyəti orqanları |
| 41. | "Multikulturalizm ensiklopediyası"-nın hazırlanması | 2016-2017 | Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Təhsil Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 42. | Azərbaycan və dünya multikulturalizminin təbliği ilə bağlı televiziya və radio proqramlarının hazırlanması | mütəmadi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Televiziya və Radio Verilişləri QSC |
| 43. | "Azərbaycan multikulturalizmi" elektron kitabxanasının və veb saytının yaradılması | il ərzində | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Kitabxanası |
| 44. | Ölkənin multikultural dəyərlərini təbliğ edən "Kultura Plyus" internet televiziyasının maddi-texniki bazasının gücləndirilməsi və peyk yayımına keçirilməsi məsələsinə baxılması | il ərzində | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |

| | | | |
|---|---|---|---|
| 45. | Azərbaycanda yaşayan azsaylı xalqların musiqi yaradıcılığından ibarət CD-lərin buraxılması, onların məişət və adət-ənənələrinə aid sənədli filmin xarici dillərdə hazırlanması və fotokataloqun nəşri | aprel | Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi |
| 46. | "Multukulturalizm ili" mövzusunda sosial çarxın çəkilməsi və yayımının təşkili | aprel-dekabr | Mədəniyyət və Turizm Nazirliyi |
| 47. | «Bakı - üç dinin şəhəri" adlı sənədli filmin istehsalının başa çatdırılması və təqdimatının keçirilməsi | il ərzində | Mədəniyyət və Turizm Nazirliyi |
| 48. | "Bakı Prosesi" qlobal multikulturalizmə töhfədir" beynəlxalq foto və məqalə müsabiqəsinin və sənədli filmin hazırlanması (Azərbaycan və ingilis dillərində) | may-oktyabr | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi |
| 49. | BMT Baş Qərargahında BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun yekunlarının təqdimatı | iyun | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi |

## NƏSİBƏ ZEYNALOVANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2016-cı ildə Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublika Dövlət mükafatı laureatı, xalq artisti Nəsibə Cahangir qızı Zeynalovanın 100 illiyi tamam olur.

Nəsibə xanım Zeynalova qüdrətli sənətkar kimi parlaq yaradıcılıq yolu keçmiş və yüksək fitri istedadı sayəsində Azərbaycanın çoxəsrlik zəngin mədəniyyəti salnaməsində silinməz iz qoymuşdur. Onun milli teatr səhnəsində və ekran əsərlərində insan təbiətinin mürəkkəbliklərini məharətlə canlandırdığı silsilə xarakterlər özünün dərin xəlqiliyi və ifadə vasitələrinin əlvanlığı ilə seçilən nadir sənət inciləridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mədəniyyətin inkişafına dəyərli töhfələr vermiş böyük sənətkar Nəsibə Zeynalovanın 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Nəsibə Zeynalovanın 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 mart 2016-cı il***

# "KİTABXANA İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 4 MART TARİXLİ 174-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə**qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 mart 2016-cı il*

# AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİNİN STRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"na uyğun olaraq mədəniyyət sahəsində şəffaf və səmərəli idarəetmə sistemi formalaşdırmaq və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunu təkmilləş-

dirmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin bazasında Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsi yaradılsın.

2. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin aşağıdakı regional idarələri yaradılsın:

2.1. Sumqayıt şəhər, Abşeron, Xızı, Zəngilan, Qubadlı və Şuşa rayon mədəniyyət və turizm idarə və şöbələrinin bazasında Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsi;

2.2. Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Xaçmaz Regional Mədəniyyət və Turizm İdarəsi;

2.3. İsmayıllı, Ağsu, Şamaxı, Qobustan və Qəbələ rayon mədəniyyət və turizm şöbələrinin bazasında İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsi;

2.4. Şəki şəhər, Oğuz, Qax, Zaqatala və Balakən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Şəki Regional Mədəniyyət və Turizm İdarəsi;

2.5. Kürdəmir, İmişli, Füzuli, Beyləqan və Xocavənd rayon mədəniyyət və turizm şöbələrinin bazasında Kürdəmir Regional Mədəniyyət və Turizm İdarəsi;

2.6. Ağstafa, Qazax və Tovuz rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağstafa Regional Mədəniyyət və Turizm İdarəsi;

2.7. Şəmkir, Göygöl, Gədəbəy və Daşkəsən rayon mədəniyyət və turizm şöbələrinin bazasında Şəmkir Regional Mədəniyyət və Turizm İdarəsi;

2.8. Gəncə və Naftalan şəhər, Samux, Goranboy, Kəlbəcər və Xocalı rayon mədəniyyət və turizm idarə və şöbələrinin bazasında Gəncə Regional Mədəniyyət və Turizm İdarəsi;

2.9. Yevlax və Mingəçevir şəhər, Bərdə və Tərtər rayon mədəniyyət və turizm şöbələrinin bazasında Bərdə Regional Mədəniyyət və Turizm İdarəsi;

2.10. Ağcabədi, Ağdam və Laçın rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağcabədi Regional Mədəniyyət və Turizm İdarəsi;

2.11. Ağdaş, Ucar, Zərdab və Göyçay rayon mədəniyyət və turizm şöbələrinin bazasında Ağdaş Regional Mədəniyyət və Turizm İdarəsi;

2.12. Şirvan şəhər, Sabirabad, Saatlı, və Hacıqabul rayon mədəniyyət və turizm şöbələrinin bazasında Sabirabad Regional Mədəniyyət və Turizm İdarəsi;

2.13. Biləsuvar, Salyan, Neftçala və Cəbrayıl rayon mədəniyyət və turizm şöbələrinin bazasında Biləsuvar Regional Mədəniyyət və Turizm İdarəsi;

2.14. Masallı, Yardımlı və Cəlilabad rayon mədəniyyət və turizm şöbələrinin bazasında Masallı Regional Mədəniyyət və Turizm İdarəsi;

2.15. Lənkəran şəhər, Astara və Lerik rayon mədəniyyət və turizm şöbələrinin bazasında Lənkəran Regional Mədəniyyət və Turizm İdarəsi.

3. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı Şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin regional idarələrinin abidə mühafizəçiləri ştatları Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinə verilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Bakı şəhər Mədəniyyət və Turizm Baş İdarəsinin və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin regional idarələrinin fəaliyyətinin təşkili ilə bağlı zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etsin;

4.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi mədəniyyət sahəsinin 2017-ci il yanvarın 1-dən mərkəzləşdirilmiş maliyyələşməyə keçməsini təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 mart 2016-cı il*

## AZƏRBAYCAN MİLLİ KULİNARİYA SAHƏSİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan milli mətbəx mədəniyyətinin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Əliyev Oruc Nağı oğlu

Əmiraslanov Tahir İdris oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 aprel 2016-cı il*

## "AZƏRXALÇA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səhmləri dövlətə məxsus olan "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) yaradılsın.

2. "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyi ləğv edilsin.

3. Müəyyən edilsin ki, Cəmiyyət Azərbaycan Respublikasında xalça və xalça məmulatlarının istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafı ilə bağlı digər işləri yerinə yetirir.

4. Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakı dövlət orqanlarına həvalə edilsin:

4.1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə:

4.1.1. Cəmiyyətin nizamnaməsinin və strukturunun təsdiqi, nizamnamə kapitalının miqdarının müəyyən edilməsi;

4.2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə:

4.2.1. Cəmiyyətin inkişaf strategiyasının müəyyən edilməsi;

4.2.2. bu Sərəncamın 5.2-ci bəndi nəzərə alınmaqla, Cəmiyyətin İdarə Heyətinin üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.3. Cəmiyyətin Müşahidə Şurasının və Təftiş Komissiyasının üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.4. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə törəmə cəmiyyətlərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verilməsi;

4.2.5. Cəmiyyətin illik hesabatlarının, mühasibat balanslarının, mənfəət və zərər hesablarının təsdiqi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

4.2.6. Cəmiyyətin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin beş faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

4.2.7. Cəmiyyətin işçilərinin say həddinin, əməkhaqqı sisteminin müəyyən olunması və xərclər smetasının təsdiq edilməsi;

4.2.8. bu Sərəncamda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli;

4.3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə:

4.3.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, törəmə cəmiyyətlərinin yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi.

5. Müəyyən edilsin ki:

5.1. Cəmiyyətdə Müşahidə Şurası, İdarə Heyəti və Təftiş Komissiyası yaradılır;

5.2. Cəmiyyətin İdarə Heyəti sədrinin və onun müavinlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir;

5.3. Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Cəmiyyətin nizamnaməsini və strukturunu bir ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etsin;

6.2. Cəmiyyətin ilkin mərhələdə saxlanılması və nizamnamə kapitalının formalaşdırılması üçün dövlət büdcəsindən zəruri maliyyə vəsaitinin ayrılmasını bir ay müddətində həll etsin;

6.3. "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyinin ləğvi ilə əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

6.4. Cəmiyyətin yaradılması və "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyinin ləğvi ilə əlaqədar:

6.4.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.4.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.5. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Cəmiyyətin yaradılması və "Azərxalça" Elmi Yaradıcılıq İstehsalat Birliyinin ləğvi ilə əlaqədar uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

8. Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün tədbirlər görsünlər.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 may 2016-cı il***

## AZƏRBAYCAN MƏDƏNİYYƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abasəliyev Ağa Cəbrayıl Ağasaleh oğlu
Cəfərova Bəsti Əli qızı
Əhmədov Cəfər Namiq Kamal oğlu
Haşımova Şahnaz Həsən qızı
Qarayev Yasin Mikayıl oğlu
Məhərrəmov Məbud Əliəsgər oğlu
Muradova Təranə Hüseyn qızı
Salmanlı Ağaxan Əli oğlu
Yusupova Şükufə Mühəddin qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 may 2016-cı il***

# İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Kazım Ənvər oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Allahverdiyeva Naibə Siyavuş qızı
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Mətanət Ağazahir qızı
Babayev İlham Hüseyn oğlu
Babayeva İnarə Əhməd qızı
Bağırov Viktor Cəmiloviç
Bayramova Aygün Əliqulu qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Əfəndiyeva İlahə Əhsan qızı
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elnur Oruc oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Əyyub Pənah oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev Novruz Yaqub oğlu
Əliyev Rahib Seyidağa oğlu
Əliyev Sərvər Bəhlul oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Samirə Zimirxin qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirov Cəmil Fikrət oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Göyçayev Teymur Ənvər oğlu
Hacıəlibəyov Nazim Ənvər oğlu

Hacıyev Əli Əli Yusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Həmidov Əjdər Qüdrət oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynquliyeva Zəlihə Hüseyn qızı
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Füzuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimov Mənsum İsrafil oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İslamzadə Akif Qədir oğlu
İsmayılov Qurban İbrahim oğlu
İsrafilov Fərhad Ramazan oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı
Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Ramil Adıgözəl oğlu
Qasımov Yusif Əli oğlu
Qasımova Fərqanə Alim qızı
Qazıyev Tağı Məhəmməd oğlu
Qəribova Nargilə Dursun qızı
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyev Nurəddin Əzulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Qurbanov Qurban Pənah oğlu
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Məmmədəliyev Vamiq Məmmədəli oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Ramiz Soltanəli oğlu
Məmmədov Sabir Novruz oğlu

Məmmədov Sirus Arif oğlu
Məmmədova Fəridə Kamal qızı
Məmmədzadə Nəsimi Əyyub oğlu
Məsimov Qurban Abdulla oğlu
Mikayılova Sonaxanım Məmmədağa qızı
Miltıx Aleksey Leonidoviç
Mirabov Akif Əhməd oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Musayeva Fəranə Əlimurad qızı
Musayeva Şükufə İmran qızı
Mustafayev Tural Vaqif oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nağıyev Arif Əli oğlu
Namazova Xalubər Əyyub qızı
Nəbiyeva Gülər Nəbi qızı
Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Orucova Nahidə Mülük qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhimov Vaqif Çərkəz oğlu
Rəhimov Zəfər Yaqub oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Seyidov Tofiq Həbib oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Vəliyeva Leyli Fətullah qızı
Zeynalov Azər Zeynalabdin oğlu
Zeynalova Püstəxanım Marif qızı
Zülfüqarov Cahangir Oqtay oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 6 may tarixli 1214 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 574) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 may 2016-cı il***

## Ə.Ə.ƏLƏKBƏROVUN AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ YANINDA "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN RƏİSİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əsgər Əyyub oğlu Ələkbərov Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 may 2016-cı il***

## OLJAS SÜLEYMENOVUN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədəbi-ictimai fəaliyyətində Azərbaycan həqiqətlərinin təbliği işində böyük xidmətlərinə görə Oljas Süleymenov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2016-cı il***

## 2016-CI İL ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ ƏDƏBİYYAT SAHƏLƏRİNDƏ DÖVLƏT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2016-cı il üçün elm və ədəbiyyat sahələrində Azərbaycan Respublikasının Dövlət Mükafatları aşağıdakı şəxslərə verilsin:

**Elm sahəsi üzrə**

Ramiz Mahmud oğlu Məmmədov – "Azərbaycan Respublikasının coğrafiyası" üçcildlik monoqrafiyaya görə

Elbrus Kərim oğlu Əlizadə

Məhərrəm Səməd oğlu Həsənov

Zakir Namin oğlu Eminov

**Ədəbiyyat sahəsi üzrə**

Fikrət Qoca (Fikrət Göyüş oğlu Qocayev) – "Seçilmiş əsərləri" oncildlik kitabına görə.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 may 2016-cı il***

## NAXÇIVAN ŞƏHƏRİNİN 2018-Cİ İL ÜÇÜN İSLAM MƏDƏNİYYƏTİNİN PAYTAXTI ELAN EDİLMƏSİ İLƏ ƏLAQƏDAR TƏŞKİLAT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bakı şəhərində 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərar qəbul edilmişdir. Həmin qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri kimi Naxçıvan bütün böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı seçilməsi ilə bağlı tədbirlərin lazımi səviyyədə keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri

**Təşkilat Komitəsi sədrinin müavini**

Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədri

**Təşkilat Komitəsinin üzvləri**

Nadir Hüseynov – Azərbaycan Respublikası xarici işlər nazirinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Səyyad Salahlı – Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Aynur Sofiyeva – Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Əsgər Abdullayev – Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Natəvan Qədimova – Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri

Məmməd Qəribov – Naxçıvan Muxtar Respublikasının təhsil naziri

Azad Cabbarov – Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri

İsa Həbibbəyli – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Dağbəyi İsmayılov – Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) baş direktorunun müavini, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Urxan Ələkbərov – Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Vasim Məmmədəliyev – Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının üzvü

Vasif Eyvazzadə – Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri, İSESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi

Əsgər İsmayılov – Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin rəisi

Vüqar Babayev – Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi

2. Bu Sərəncamın 1-ci hissəsi ilə yaradılmış Təşkilat Komitəsi Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 iyun 2016-cı il*

## R.M.FƏTƏLİYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Ramiz Məmmədəli oğlu Fətəliyev "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 iyun 2016-cı il*

## R.M.FƏTƏLİYEVƏ "XALQ ARTİSTİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında kinematoqrafiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Məmmədəli oğlu Fətəliyevə "Xalq artisti" fəxri adı verilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 6 iyun 2016-cı il*

## V.A.MURADOVUN "AZƏRXALÇA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vidadi Aydın oğlu Muradov "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 iyun 2016-cı il*

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq**qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Bağırov Emil Oqtay oğlu – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi

Əhmədzadə Emil Kinyaz oğlu – Rauf Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin şagirdi

Eminzadə Emin Xəzər oğlu – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi

Hacızadə Suada Elxan qızı – Georgi Şaroyev adına 35 nömrəli onbirillik musiqi məktəbinin şagirdi

Hüseynov Orxan İsa oğlu – Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi

Hüseynzadə Lalə Natiq qızı – Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbəsi

Məcidov Elman Aydın oğlu – Hamburq Musiqi və Teatr Ali Məktəbinin tələbəsi

Omarlı Şükür Şəfi oğlu – Rauf Hacıyev adına 15 nömrəli onbirillik musiqi məktəbinin şagirdi

Quliyev Ağarəhim Vaqif oğlu – Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli onbirillik musiqi məktəbinin şagirdi

Səmədli Soltan Bayram oğlu – Azərbaycan Milli Konservatoriyasının tələbəsi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 iyun 2016-cı il***

## A.N.QURBANOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında və təbliğində xidmətlərinə görə Abdulla Novruz oğlu Qurbanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 iyun 2016-cı il.***

## "YUNESKO ÜZRƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ KOMİSSİYASI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 15 SENTYABR TARİXLİ 1006 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006, № 9, maddə 743; 2014, № 9, maddə 1027; 2015, № 3, maddə 286) 3-cü hissəsinin "Komissiya sədrinin müavinləri" bölməsində "Əli Abbasov" sözləri "Ramin Quluzadə" sözləri ilə, "Komissiyanın üzvləri" bölməsində "Samir Nuriyev" sözləri "Əsgər Ələkbərov" sözləri ilə əvəz edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 iyul 2016-cı il***

## AZƏRBAYCAN AŞIQLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda aşıq sənətinin inkişafında xidmətləri olan aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Axundov Umbay Sadıq oğlu
Allahverdiyev Əhliman Məhəmməd oğlu
Balasiyev Həşim Səftər oğlu

Əliyev Fətulla Əbdüləzim oğlu
Kosayeva Solmaz Qorçu qızı
Musayev Xanmusa Musaxan oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 iyul 2016-cı il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti" fəxri adı ilə**
Süleymanlı Şamil Kamran oğlu
**"Əməkdar incəsənət xadimi" fəxri adı ilə**
Cəfərov Elxan Pərviz oğlu
Hətəmov Müşfiq Mürşüd oğlu
Quliyev Elçin Musa oğlu
Sadıqov Orxan Fikrət oğlu
Səfərova Leyla Həzrət qızı
**"Əməkdar artist" fəxri adı ilə**
Cəfərov Rasim Valeh oğlu
Əhmədli Bəhruz Vaqif oğlu
**"Əməkdar rəssam" fəxri adı ilə**
Əfəndiyeva Mehriban Cahanşir qızı
**"Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə**
Abdullayeva Gülşən Tofiq qızı
Abdullayeva Validə Rüstəm qızı
Dadaşov Rafiq Ağahüseyn oğlu
Əliyev Akif Gülrza oğlu
Hüseynov Aydın Həsən oğlu
Hüseynov Əlisəfdər Mürsəl oğlu
Məmmədov Əliağa Nadir oğlu
Məmmədzadə Vasif Bəxtiyar oğlu
Rəhimov Elşad İbrahimxəlil oğlu
Salmanov Rasim Şərəfəddin oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyul 2016-cı il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNİN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

İmamverdiyev Cavid Sudeyf oğlu

Qavriş Konstantin Viktoroviç

Vəzirzadə Leyla Rüfət qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 29 iyul 2016-cı il*

## TƏZƏPİR MƏSCİDİ KOMPLEKSİNİN ƏTRAF ƏRAZİSİNİN ABADLAŞDIRILMASI İLƏ ƏLAQƏDAR TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Xalqımızın mənəvi dəyərlərinə, tarixi-dini və mədəniyyət abidələrinə həssas münasibət müasir Azərbaycan Respublikasının dövlət siyasətinin mühüm prioritetlərindəndir. Son illərdə qədim dini abidələrin, ziyarətgahların bərpası ilə bağlı silsilə tədbirlər həyata keçirilmiş, dini-memarlıq incilərindən Bibiheybət və Əjdərbəy məscidləri, Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsi, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən "İmamzadə" kompleksi yenidən qurulmuş, Bakı şəhərində "Heydər Məscidi" kompleksi inşa edilmişdir. Ölkə müsəlmanlarının başlıca ibadət mərkəzi olan Təzəpir məscidində dövlətin dəstəyi ilə əsaslı yenidənqurma işləri aparılmışdır.

Bununla yanaşı, XX əsrin əvvəllərində Bakı şəhərinin mərkəzi hissəsində, əhalinin sıx məskunlaşdığı ərazidə inşa edilmiş Təzəpir məscidi ətrafındakı yol infrastrukturunun hazırda köhnəlməsi və bir çox tikililərin qəzalı vəziyyətə düşməsi nəticəsində məscid yaxınlığında nəqliyyat vasitələrinin və piyadaların normal hərəkəti məhdudlaşmışdır ki, bu da yerli sakinlərin narahatlığına səbəb olmuş, dindarlar tərəfindən məbədin istifadəsini və ölkəmizin qonaqlarının həmin abidəni ziyarət etməsini xeyli çətinləşdirmişdir.

Təzəpir məscidinin Azərbaycanın və ümumən Qafqazın mühüm dini mərkəzlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Təzəpir məscidi kompleksinin ətrafındakı yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, ərazisinin abadlaşdırılması, məscidi ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işlərinin həyata keçirilməsi üçün "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 avqust 2016-cı il***

## CƏNUBİ QAFQAZ REGİONUNDA ALMAN MƏSKƏNLƏRİNİN SALINMASININ 200 İLLİYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində buraya köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurması üçün əlverişli zəmin yaratmışdır. Məskunlaşdıqları və qaynayıb qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək lazımınca qoruyub saxlamışdır. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər.

2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi tamam olur. Azərbaycan xalqının tarixi və mədəniyyətində dərin iz qoymuş bu hadisənin UNESCO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi təqdirə layiqdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alaraq, Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200-cü ildönümünün layiqincə qarşılanmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinə həsr olunmuş tədbirlərə dair xüsusi proqram hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 30 avqust 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA "TURİZM İŞÇİLƏRİ GÜNÜ" PEŞƏ BAYRAMININ TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Hər il sentyabr ayının 27-si Azərbaycan Respublikasında "Turizm işçiləri günü" peşə bayramı kimi qeyd edilsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFI İLƏ BAĞLI BƏZİ TƏDBİRLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında turizmin inkişaf etdirilməsi və bu sahədə müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 800,0 (səkkiz yüz) min manat, o cümlədən Turizm Reyestrinin yaradılmasına 400,0 (dörd yüz) min manat, Bakı şəhərində ticarət festivalının ("shopping festival") keçirilməsinə 400,0 (dörd yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qeyri-neft sektorunun sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini, rəqabət qabiliyyətini artırmaq və innovasiya əsaslı irəliləyişini təmin etmək Azərbaycan dövlətinin iqtisadi siyasətinin prioritet istiqamətlərindəndir. Aparılan iqtisadi islahatlar nəticəsində son illərdə iqtisadiyyatın diversifikasiyası bu sahənin inkişafını təmin

etməklə, onun ümumi daxili məhsulda xüsusi çəkisinin əhəmiyyətli artımına səbəb olmuşdur.

Ötən dövr ərzində qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılmış və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri kimi ixtisaslaşmış turizm və əyləncə müəyyən edilmiş, beynəlxalq və yerli ekspertlərlə birlikdə dünya təcrübəsində turizm sahəsində islahatların ən uğurlu modelləri və onların ölkəmizdə tətbiqi imkanları təhlil edilmişdir. Aparılmış təhlillər nəticəsində turizm sahəsi üzrə strateji yol xəritəsinin ilkin layihəsi hazırlanmışdır.

Ölkədə turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq standartlara cavab verən turizm xidmətlərinin formalaşdırılması bu sahənin qanunvericilik bazasının və dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsini, mövcud turizm potensialından istifadə imkanlarının genişləndirilməsini, regionlarda turizm fəaliyyətinin stimullaşdırılmasını, yeni turizm marşrutlarının yaradılmasını, habelə rəqabətədavamlı qiymət təklifinin təmin edilməsini zəruri edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən irəli gələn vəzifələrin icrası, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sənayesinin formalaşdırılması və onun ölkə iqtisadiyyatındakı xüsusi çəkisinin daha da artırılması, bu sahədə koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Turizm Şurası yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Turizm Şurasının (bundan sonra - Şura) əsas məqsədi Azərbaycan Respublikasında turizm sahəsində mövcud vəziyyəti təhlil etməkdən, bu sahədə olan problemlərin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsindən, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir;

2.2. Şura öz fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri cəlb edə bilər, habelə işçi qruplar yarada bilər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə qabaqcıl beynəlxalq təcrübə əsasında, turizm sahəsində dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi, ölkənin turizm potensialından istifadə imkanlarının artırılması, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, milli, tarixi-mədəni, sosial-iqtisadi və təbii xüsusiyyətlər nəzərə alınmaqla turizmin müxtəlif növlərinin müvafiq turizm marşrutları yaradılmaqla təşviq edilməsi, turizm xidmətlərinin keyfiyyətinin artırılması, turizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri olan ixtisaslaşmış turizm və əyləncə sektorunun inkişafı ilə bağlı strategiya layihəsinin icra mexanizmlərinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə Azərbaycan Respublikasının Turizm Şurası haqqında Əsasnamənin layihəsini və Şuranın tər-

kibinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. 2017-ci il və növbəti illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin müraciəti əsasında ticarət festivallarının (“shopping festival”) keçirilməsi ilə bağlı tələb olunan vəsaitin nəzərdə tutulmasını təmin etsin;

3.4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin təklifləri əsasında Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının 2016–2017-ci illər üzrə fəaliyyət planını hazırlayıb təsdiq etsin və zəruri maliyyələşməni təmin etsin;

3.5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Mülki Aviasiya Administrasiyası və “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə ölkəyə turistləri cəlb etmək məqsədilə əlverişli yeni beynəlxalq uçuşların (reyslərin) təşkili ilə bağlı tədbirlər görsün və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Təhsil Nazirliyi ilə birlikdə turizm və rekreasiya zonalarında Azərbaycan Turizm və Menecment Universitetinin nəzdində turizm üzrə ilk peşə-ixtisas təhsili müəssisələrinin (peşə məktəbləri və peşə liseyləri) yaradılması və bu məqsədlə müvafiq torpaq sahəsinin və əmlakın ayrılması ilə bağlı tədbirlər görsün;

3.7. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.9. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.10. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi:

4.1. Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə beynəlxalq təcrübədə geniş tətbiq olunan ticarət festivallarının (“shopping festival”) hər il keçirilməsini təmin etsin;

4.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birlikdə ticarət festivallarında (“shopping festival”) pərakəndə satış zamanı müvafiq güzəştlərin və təşviqlərin, o cümlədən vergi güzəştlərinin verilməsinə dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadə etməklə çimərlik turizminin inkişafına dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birlikdə turizm və rekreasiya zonalarında vergi və gömrük güzəştlərinin və imtiyazlarının verilməsi ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.5. yerli icra hakimiyyəti orqanları ilə birlikdə Azərbaycan Respublikasının turizm potensialı olan ərazilərində dövlət-sahibkar tərəfdaşlığı əsasında turizm və rekreasiya zo-

nalarının yaradılması barədə təkliflərini hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.6. Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının Baş inkişaf planlarını hazırlayıb təsdiq etsin və onların pasportlarının dövlət qeydiyyatına alınmasını təmin etsin;

4.7. beynəlxalq təcrübə nəzərə alınmaqla, turizm potensialı olan məkanlara turistlərin cəlb edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.8. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birlikdə ölkənin turizm potensialının təşviqi, turizm məhsullarının dünya turizm bazarına çıxarılması, satışının təşkili və ölkəyə turist axınının artırılması məqsədilə prioritet hesab olunan ölkələrdə fəaliyyət göstərən Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində turizm nümayəndələrinin təyin və onların fəaliyyətinin təmin edilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.9. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti və Dövlət Miqrasiya Xidməti ilə birlikdə Azərbaycan Respublikasının Rusiya Federasiyası, Türkiyə Respublikası, İran İslam Respublikası və Gürcüstan ilə sərhəd buraxılış məntəqələrində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidinin təmin edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.10. müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə turizm ehtiyatları, turizm nümayişi obyektləri, turizm məhsulları və turizm sənayesinin subyektləri haqqında məlumat bazasını, o cümlədən turizm ehtiyatları, turizm sənayesi və turizm fəaliyyəti barədə statistik məlumatları və onların monitorinqinin nəticələrini özündə əks etdirən Turizm Reyestrinin və informasiya saytının yaradılmasını altı ay müddətində təmin etsin.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə turizm sahəsinin inkişafına dair yerli sahibkarlar tərəfindən təqdim olunan investisiya layihələrinin Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi üçün fəaliyyət planını hazırlayaraq üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

7. Azərbaycan Respublikasının Milli Məclisinə "Turizm haqqında" Azərbaycan Respublikasının qanun layihəsinə baxılmasının sürətləndirilməsi tövsiyə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 sentyabr 2016-cı il*

## Ə.YUSİF QIZININ "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Əminə Yusif qızı "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN MƏDƏNİYYƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Qafarova Zemfira Həsən qızı

Quliyeva Zəhraxanım Teymur qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**
Şərifov Munis Məmməd İsmayıl oğlu
**"Əməkdar incəsənət xadimi"**
Kərimova Ülviyyə Oqtay qızı
Lalayev Əliqismət Hümmət oğlu
Səlimxanov Cahangir Talib oğlu
Yablonski Dmitri Albertoviç
**"Əməkdar artist"**
Abdullayev Nizami Ağabala oğlu
Bağırova Aybəniz Cavad qızı
Cəfərov Vasif Faiq oğlu
Növrəsli Nurlan Növrəs oğlu
**"Əməkdar müəllim"**
Manafov İkram Atabala oğlu
Orucova Məhin Əli qızı
**"Əməkdar mədəniyyət işçisi"**
Bədəlov Yanvar Piralı oğlu
Həsənov Zaman Hüseyn oğlu
Hüseynli Rauf Eyyub oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 sentyabr 2016-cı il*

## "AZƏRBAYCAN RESPUBLİKASINDA İNFORMASİYA CƏMİYYƏTİNİN İNKİŞAFINA DAİR MİLLİ STRATEGİYANIN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ 2016-2020-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014 -2020-ci illər üçün Milli Strategiya"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş dövlət proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının *Nəqliyyat,* Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə edilsin.[1]

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 sentyabr 2016-cı il*

# Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı

*Azərbaycan Respublikası Prezidentinin*
*2016-cı il 20 sentyabr tarixli 2345 nömrəli Sərəncamı ilə*
*TƏSDİQ EDİLMİŞDİR*

## 1. GİRİŞ

Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmizin sosial-iqtisadi inkişafında mühüm irəliləyiş əldə edilmişdir. Aparıcı beynəlxalq qurumların hesablamalarına əsasən, respublikamızın iqtisadiyyatı hazırda rəqabət qabiliyyətinə görə dünya ölkələri arasında 40-cı yerədək yüksəlmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ölkədə uzunmüddətli, uğurlu və dayanıqlı inkişafın təmin olunması üçün biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulmasının zəruriliyini müəyyən etmişdir. Bu məqsədə nail olmaq üçün qarşıda duran əsas vəzifələrdən biri müasir dəyərlərə və prinsiplərə əsaslanan informasiya cəmiyyətinin inkişaf etdirilməsidir.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşmasına dövlət qayğısı, informasiya-kommunikasiya texnologiyalarının (bundan sonra - İKT) sürətli inkişafı, onun xalqımızın rifahına xidmət edən aparıcı amilə çevrilməsi ölkəmizin gələcək perspektivlərinə hesablanmış siyasətin tərkib hissəsidir. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın (2003-2012) və onun icrası ilə bağlı qəbul edilmiş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində təhsil, səhiyyə və digər sosial sahələrdə, iqtisadiyyatda, biznes fəaliyyətində, gündəlik həyatda İKT-nin imkanlarından istifadə səviyyəsi nəzərəçarpacaq dərəcədə artmışdır. Ölkədə ən son texnoloji yeniliklər tətbiq edilmiş, internetə simli, simsiz, mobil texnologiyalarla çıxış imkanları yaradılmışdır. Bunun sayəsində əhalinin 75 faizi internet, onların 65 faizi isə genişzolaqlı internet istifadəçisinə çevrilmişdir. Evlərdə, iş yerlərində istifadə edilən kompüterlərin sayı artmışdır. Mobil sektor sürətlə inkişaf etmiş, 3G və 4G xidmətləri tətbiq olunmuşdur. İlk telekommunikasiya peyki "Azerspace-1" və yer səthinin müşahidə peyki "Azersky" orbitə çıxarılmış və bununla da Azərbaycan kosmik ölkələr sırasına qoşulmuşdur. İKT üzrə yüksəkixtisaslı kadr hazırlığı genişləndirilmiş, "elektron hökumət" üzrə genişmiqyaslı layihələr həyata keçirilmiş və cəmiyyət üçün vacib olan elektron xidmətlər təşkil edilmişdir.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması sahəsində görülən işlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. Ölkəmiz Beynəlxalq Telekommunikasiya İttifaqının "İnformasiya cəmiyyətinin ölçülməsi" hesabatlarında inkişaf dinamikasına görə ilk onluğa daxil olan dövlətlər sırasındadır. Dünya İqtisadi Forumunun "Qlobal informasiya texnologiyaları-2016" hesabatında Azərbaycan Respublikası "Şəbəkə hazırlığı indeksi" göstəricisinə görə 139 ölkə arasında 53-cü yerə layiq görülmüşdür.

Ölkədə informasiya cəmiyyətinin formalaşdırılması üzrə siyasətin davam etdirilməsi, yeni inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, dövlət idarəçiliyində, biznes sektorunda və ümumilikdə cəmiyyətdə hər bir vətəndaşın İKT-nin imkanlarından faydalanması üçün əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezi-

dentinin 2014-cü il 2 aprel tarixli 359 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" (bundan sonra - Milli Strategiya) təsdiq edilmişdir.

Milli Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) hazırlanmışdır. Dövlət Proqramında Milli Strategiya ilə müəyyən edilmiş 8 istiqamətdən 7-si üzrə konkret tədbirlər nəzərdə tutulmuşdur. Milli Strategiyanın "elektron hökumət"in inkişafı" istiqamətinin yerinə yetirilməsi üzrə tədbirlər digər dövlət proqramı çərçivəsində həyata keçiriləcəkdir.

Dövlət Proqramının hazırlanmasında beynəlxalq təcrübə, texnoloji yeniliklər və inkişaf meyilləri nəzərə alınmış, vətəndaş, cəmiyyət, dövlət prioritetləri və onların informasiya cəmiyyətinin imkanlarından səmərəli istifadəsi əsas götürülmüşdür. Dövlət Proqramı ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsinə özəl sektorun və qeyri-hökumət təşkilatlarının fəal cəlb olunması, vətəndaş və ictimai təşəbbüslərin irəli sürülməsi və onların reallaşdırılmasında birgə fəaliyyətə şərait yaradılması planlaşdırılır.

## 2. Dövlət Proqramının məqsəd və vəzifələri

2.1. Dövlət Proqramının məqsədi Milli Strategiyada informasiya cəmiyyətinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulan əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin həyata keçirilməsinin təmin edilməsidir.

2.2. Dövlət Proqramının məqsədinə nail olunması üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

2.2.1. İKT infrastrukturunun cari və gələcək tələbatı nəzərə alınmaqla inkişaf etdirilməsi, onun əsasında keyfiyyətli xidmətlər göstərilməsi və onlara çıxış imkanlarının təmin olunması;

2.2.2. ölkənin tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, beynəlxalq internet magistrallarına alternativ və yüksəksürətli birləşmələrin təmin edilməsi;

2.2.3. rəqabətqabiliyyətli və ixracyönlü yüksək texnologiyalar sektorunun inkişaf etdirilməsi, elmtutumlu və yüksək texnoloji məhsulların istehsalı və onların dünya bazarına çıxışına şərait yaradılması, yerli və xarici investisiyaların stimullaşdırılması, qabaqcıl təcrübənin və yeni texnologiyaların idxalı və texnoloji transferin təmin olunması;

2.2.4. yüksək texnologiyalar sahəsində elmi-texniki potensialın gücləndirilməsi, nüvə, nano və kosmik texnologiyaların, biotexnologiyaların inkişafı üzrə elmi tədqiqatların genişləndirilməsi, informasiya cəmiyyətinin tələblərinə uyğun yeni bilik və texnologiyaların yaradılması və yayılması;

2.2.5. informasiya cəmiyyəti şəraitində normativ hüquqi tənzimləmə sisteminin təkmilləşdirilməsi, vətəndaşların informasiya əldə etmək hüququnun səmərəli təmin edilməsi və qorunması;

2.2.6. yüksək texnologiyalar sahəsinin tələblərinə cavab verən elmi və ixtisaslı kadrların hazırlanması, alim və mütəxəssislərin elmi fəaliyyətinin, gənclərin yeni təşəbbüslərinin və "start-up" layihələrinin dəstəklənməsi;

2.2.7. ölkədə işçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırılması, rəqabətədavamlı kadr potensialının formalaşdırılması məqsədi ilə peşə təhsili sistemində multimedia texnologiyalarının, distant təhsil və digər müasir tədris formalarının tətbiqinin genişləndirilməsi;

2.2.8. cəmiyyətin bütün təbəqələrinin İKT-dən istifadə imkanlarının genişləndirilməsi, bilik və bacarıqlarının yüksəldilməsi və yeni texnologiyalara inamın artırılması;

2.2.9. informasiya təhlükəsizliyinin təmin edilməsi, bu sahədə ümumi hazırlığın və maarifləndirmənin yüksəldilməsi;

2.2.10. milli kontentin zənginləşdirilməsi, müasir texnologiyaların tətbiqi ilə ölkənin milli-mədəni irsinin qorunub saxlanılması və əhalinin ondan istifadəsinin genişləndirilməsi;

2.2.11. informasiya cəmiyyəti quruculuğunda dövlət-sahibkar-vətəndaş tərəfdaşlığının gücləndirilməsi, həmçinin beynəlxalq əməkdaşlığın ikitərəfli və çoxtərəfli müstəvidə genişləndirilməsi.

## 3. Dövlət Proqramının həyata keçirilməsinin maliyyə təminatı

3.0. Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

3.0.1. müəssisə və təşkilatların vəsaitləri;

3.0.2. kreditlər və qrantlar;

3.0.3. qanunvericiliyə zidd olmayan digər mənbələr.

## 4. Gözlənilən nəticələr

4.0. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

4.0.1. ölkədə İKT, o cümlədən genişzolaqlı şəbəkə infrastrukturu inkişaf etdiriləcək, əhalinin təhlükəsiz, ucuz və keyfiyyətli İKT xidmətlərinə artan tələbatı təmin olunacaq;

4.0.2. sosial-iqtisadi sahələrdə və bütövlükdə cəmiyyətdə İKT-dən istifadə genişləndiriləcək, vətəndaşların, xüsusilə aztəminatlı və sosial cəhətdən həssas əhali qruplarının informasiya cəmiyyətinin imkanlarından bəhrələnməsinə əlverişli şərait yaradılacaq;

4.0.3. əhalinin müxtəlif qrupları, şəhər və kənd yaşayış məntəqələri arasında "rəqəmli fərqlilik" azaldılacaq;

4.0.4 informasiya cəmiyyəti şəraitində vətəndaşların informasiya əldə etmək hüquqlarının təmin olunmasına hərtərəfli şərait yaradılacaq;

4.0.5 ölkənin qlobal internet şəbəkəsinə çıxış potensialı artırılacaq, tranzit informasiya xidmətləri genişləndiriləcək;

4.0.6. ümumi daxili məhsulda İKT-nin, poçt və informasiya sektorunun payı artırılacaq;

4.0.7. İKT sahəsinin sürətli inkişafında xarici və yerli investisiyaların, o cümlədən vençur maliyyələşmənin payı artırılacaq;

4.0.8. yüksək texnologiyalar sektoru ilə elmi tədqiqatlar arasında əlaqə möhkəmləndiriləcək, kosmik, nano və nüvə texnologiyaları, biotexnologiya, elektronika və yeni informasiya texnologiyaları üzrə elmi tədqiqatlar və onların nəticələrinin tətbiqi genişləndiriləcək;

4.0.9. yüksək texnologiyalar, o cümlədən İKT sektorunda rəqabətqabiliyyətli, ixracyönlü və innovativ iqtisadi potensial gücləndiriləcək, elmtutumlu və yüksək texnoloji məhsulların yaradılması və dünya bazarına çıxış imkanları genişləndiriləcək;

4.0.10. yüksək texnologiyalar sahəsinin ixtisaslı mütəxəssislərə və elmi kadrlara olan ehtiyacının ödənilməsinə şərait yaradılacaq;

4.0.11. təhsilin bütün pillələrində İKT-nin tətbiqi və ondan istifadə genişləndiriləcək;

4.0.12. vətəndaşların elektron sağlamlıq kartı ilə təmin olunması səviyyəsi artırılacaq;

4.0.13. distant təhsil, elektron elm, elektron ticarət, telesəhiyyə və digər müasir fəaliyyət formalarının tətbiqi genişləndiriləcək;

4.0.14. ölkənin informasiya məkanının təhlükəsizliyi qorunacaq, əhalinin, özəl və digər qurumların kibertəhlükəsizlik sahəsində hazırlıq və məlumatlılıq səviyyəsi artırılacaq;

4.0.15. milli-mədəni irsin qorunması üzrə elektron resursların sayı artırılacaq və Azərbaycan dilində internet resursları inkişaf etdiriləcək;

4.0.16. ölkəmizdə informasiya cəmiyyətinin inkişafı üzrə əldə olunan nailiyyətlərin beynəlxalq aləmdə təbliği gücləndiriləcək.

## 5. Dövlət Proqramının həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI[2]

| Sıra №-si | Tədbirin adı | İcraçı təşkilatlar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **5.1. İKT infrastrukturu və xidmətləri** | | | |
| 5.1.1. | Telekommunikasiya və informasiya infrastrukturunun əhalinin artan tələbatına uyğun yeni texnologiyalar əsasında inkişaf etdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.1.2. | Ölkə ərazisini əhatə edən yüksəksürətli optik şəbəkəyə əsaslanan genişzolaqlı internet infrastrukturunun qurulması və onun normativ hüquqi əsaslarının yaradılmasına dair tədbirlərin görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.1.3. | Müxtəlif müasir texnologiyaların tətbiqi ilə son mil probleminin həllinə dair tədbirlərin davam etdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.1.4. | "Trans-Avrasiya Super İnformasiya Magistralı" (TASİM) layihəsinin reallaşdırılmasına dair zəruri tədbirlərin davam etdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər Nazirliyi | 2016-2020 |
| 5.1.5. | Beynəlxalq internet magistrallarına alternativ və yüksəksürətli birləşmələrin təmin edilməsi və internet tutumlarının həcminin artırılması üzrə tədbirlərin görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2020 |
| 5.1.6. | Data mərkəz xidmətlərinin inkişaf etdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2016-2017 |

| | | | |
|---|---|---|---|
| 5.1.7. | Rəqəmli televiziya yayımına keçidin başa çatdırılması və analoq yayımın dayandırılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Milli Televiziya və Radio Şurası | 2016 |
| 5.1.8. | Respublikanın efir məkanının təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə yeni texnologiyaların tətbiqi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.1.9. | Peyk infrastrukturunun və xidmətlərinin inkişaf etdirilməsi, bu xidmətlərə keyfiyyətli çıxışın təmin edilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.1.10. | İKT sahəsində xidmətlər bazarının monitorinqinin aparılması, sağlam rəqabət mühitinin inkişaf etdirilməsinə dair təkliflər hazırlanması və həyata keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2019 |
| 5.1.11. | Genişzolaqlı internet xidmətlərinin universal xidmətlər siyahısına daxil edilməsi ilə bağlı müvafiq təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlərin görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2018 |
| **5.2. Yüksək texnologiyalar sektorunun inkişafı** | | | |
| 5.2.1. | Yüksəkixtisaslı beynəlxalq ekspertlərin cəlb olunması ilə yüksək texnologiyalar sahəsində innovativ və elmi-texniki fəaliyyətin normativ hüquqi bazasının təkmilləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2020 |
| 5.2.2. | Yüksək texnologiyalar sahəsində patent alınması və elmi tədqiqatların nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlərin görülməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Müəllif Hüquqları Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2019 |
| 5.2.3. | Qlobal rəqəmli şəbəkədə əqli mülkiyyət hüquqları ilə qorunan obyektlərdən istifadə edilməsinə "one-stop-shop" formatında və onlayn qaydada icazə verilməsinə əsaslanan rəqəmli hüquqları idarəetmə sisteminin yaradılması | Müəllif Hüquqları Agentliyi | 2016-2017 |
| 5.2.4. | Elmtutumlu və yüksək texnoloji məhsulların yeni milli təsnifatının hazırlanması və tətbiqi üçün tədbirlərin görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2017 |

| | | | |
|---|---|---|---|
| 5.2.5. | İKT sahəsində innovativ sahibkarlığın inkişaf etdirilməsi, elmtutumlu və yüksək texnoloji məhsulların yaradılması və tətbiqi layihələrinə dəstək göstərilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Energetika Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2020 |
| 5.2.6. | Yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərin məhsul və xidmətlərinin tanıdılması məqsədi ilə həmin şirkətlərin Azərbaycan Respublikasında və xaricdə təşkil olunan biznes forum və sərgilərə cəlb olunması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi | 2016-2020 |
| 5.2.7. | Yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərin ixrac fəaliyyətinin dəstəklənməsi üçün bu sahədə bilik və bacarıqların artırılması üzrə təlim kurslarının təşkil edilməsi | İqtisadiyyat Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər Nazirliyi | 2016-2020 |
| 5.2.8. | Yüksək texnologiya məhsulları bazarının inkişaf etdirilməsinə dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlər görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Müəllif Hüquqları Agentliyi | 2016-2020 |
| 5.2.9. | İnternet şəbəkəsi vasitəsilə həyata keçirilən biznes münasibətləri üzrə qanunvericiliyin təkmilləşdirilməsi və internet biznes fəaliyyətinin təşviqinə dair tədbirlərin görülməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2016-2020 |
| 5.2.10. | Yüksək texnologiyalar sahəsində innovativ təşəbbüslərə ("start-up"lara) dəstək verilməsi, müsabiqələrin, təbliğat tədbirlərinin, seminar və təlimlərin keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| **5.3. Yüksək texnologiyalar üzrə elmi-texniki potensialın gücləndirilməsi** | | | |
| 5.3.1. | Yüksək texnologiyalara dair elmi tədqiqat işlərinin reyestrinin yaradılması | Azərbaycan Milli Elmlər Akademiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 2016-2017 |

| | | | |
|---|---|---|---|
| 5.3.2. | Yüksək texnologiyalar sahəsində dövlət, elm, təhsil, biznes və vətəndaş cəmiyyəti əlaqələrinin gücləndirilməsi üçün forumlar, konfranslar, dəyirmi masalar və digər tədbirlər keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Energetika Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 2016-2020 |
| 5.3.3. | Xaricdə yüksək texnologiyalar sahəsində çalışan azərbaycanlı alim və mütəxəssislərlə əməkdaşlığın genişləndirilməsi, birgə tədqiqat və proqramların həyata keçirilməsi üçün tədbirlərin görülməsi | Azərbaycan Milli Elmlər Akademiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu | 2016-2020 |
| | **5.4. KT - cəmiyyətin inkişaf amili kimi** | | |
| | **5.4.1. E-təhsil** | | |
| 5.4.1.1. | Genişzolaqlı internetə qoşulan təhsil müəssisələrinin sayının artırılması | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.4.1.2. | "İnformatika" fənni üzrə yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması və onların peşəkarlıq səviyyəsinin daim artırılmasına dair tədbirlərin həyata keçirilməsi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2020 |
| 5.4.1.3. | Təhsilin bütün pillələri üçün informatikanın vahidlilik və davamlılıq prinsipi əsasında tədrisinin təşkili üzrə təkliflərin hazırlanması və həyata keçirilməsi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2018 |
| | **5.4.2. E-səhiyyə** | | |
| 5.4.2.1. | Tibb müəssisələrinin genişzolaqlı internetə qoşulmasının təmin olunması üçün tədbirlərin görülməsi və Milli Səhiyyə şəbəkəsinin yaradılmasına dair təkliflər hazırlanması | Səhiyyə Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.4.2.2. | Ümumi istifadə üçün tibbi resursların yaradılması | Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2016-2020 |

| | | | |
|---|---|---|---|
| 5.4.2.3. | Telesəhiyyə xidmətlərinin tətbiqinin genişləndirilməsinə dair tədbirlərin görülməsi | Səhiyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti | 2016 -2020 |
| 5.4.2.4. | Tibb işçilərinin İKT biliklərinin artırılmasına dair təkliflərin hazırlanması və həyata keçirilməsi üçün tədbirlərin görülməsi | Səhiyyə Nazirliyi | 2016-2020 |
| **5.4.3. E-vətəndaş** | | | |
| 5.4.3.1. | Əhalinin, o cümlədən məhdud fiziki imkanlı şəxslərin İKT həlləri üzrə bilik və bacarıqlarının artırılması üçün təlimlərin, kursların təşkili | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | mütəmadi |
| 5.4.3.2. | İKT-nin cəmiyyətdə kütləviləşdirilməsi üçün müxtəlif konfransların, forumların, seminarların, dəyirmi masaların, sərgilərin keçirilməsi, KİV vasitəsilə təbliğat-təşviqat işlərinin aparılması | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Milli Elmlər Akademiyası, | mütəmadi |
| 5.4.3.3. | Gənclərin İKT biliklərinə yiyələnməsinin stimullaşdırılması üçün müsabiqə, viktorina, olimpiada və digər həvəsləndirici tədbirlərin keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | mütəmadi |
| 5.4.3.4. | Kiçik və orta sahibkarlar tərəfindən İKT həllərinin tətbiqinin genişləndirilməsi üçün maarifləndirici və təşviqedici tədbirlərin görülməsi | İqtisadiyyat Nazirliyi, Vergilər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.4.3.5. | Teleiş üzrə dünya təcrübəsinin öyrənilməsi və onun tətbiqi mexanizmləri ilə bağlı təkliflərin hazırlanması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək TexnologiyalarNazirliyi | 2016 -2017 |

| | | | |
|---|---|---|---|
| 5.4.3.6. | "ASAN 2.0" Konsepsiyasının tətbiqi ilə xidmətlər göstərilməsində innovativ texnologiyalardan istifadənin genişləndirilməsi | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2016-2020 |
| 5.4.3.7. | Genişzolaqlı internetə qoşulan gənclər evlərinin və olimpiya mərkəzlərinin sayının artırılması | Gənclər və İdman Nazirliyi | 2016-2020 |
| **5.5. Kadr hazırlığı** | | | |
| 5.5.1. | İKT sahəsində beynəlxalq sertifikatların əldə edilməsi imkanlarının genişləndirilməsi üçün tədbirlərin görülməsi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2020 |
| 5.5.2. | Ali təhsil müəssisələrində İKT sahəsində fəaliyyət göstərən tanınmış xarici və yerli şirkətlərin tədris və təcrübə laboratoriyalarının yaradılmasının genişləndirilməsinə dair tədbirlər görülməsi | Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2016-2020 |
| 5.5.3. | İKT ixtisasları üzrə təhsil alan tələbələrin sahə üzrə aparıcı şirkətlərdə və müəssisələrdə təcrübə keçməsi imkanlarının genişləndirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi | 2016-2020 |
| 5.5.4. | İnformasiyanın kriptoqrafik və texniki mühafizəsi, xüsusi telekommunikasiya sistemləri və şəbəkələri ixtisasları üzrə mütəxəssis hazırlığının təşkili | Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Təhsil Nazirliyi | 2016-2017 |
| 5.5.5. | Yüksək texnologiyalar sahəsində ixtisasların təbliğinə dair maarifləndirmə işlərinin aparılması, ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün "açıq qapı" günlərinin keçirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Təhsil Nazirliyi | 2016-2020 |
| **5.6. İnformasiya təhlükəsizliyinin təmin edilməsi** | | | |
| 5.6.1. | Beynəlxalq təcrübə əsasında kibertəhlükəsizlik üzrə normativ hüquqi aktların təkmilləşdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Müdafiə Nazirliyi | 2016-2020 |

| | | | |
|---|---|---|---|
| 5.6.2. | Dövlət orqanlarının internet informasiya resurslarının və informasiya sistemlərinin təhlükəsizlik parametrləri üzrə monitorinqinin həyata keçirilməsi | Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi | mütəmadi |
| 5.6.3. | "Elektron hökumət" infrastrukturunun əsas komponentlərinin təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər həyata keçirilməsi | Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | mütəmadi |
| 5.6.4. | İnformasiya təhlükəsizliyi sahəsində digər ölkələrdəki analoji strukturlarla və beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2016-2020 |
| **5.7. Milli kontentin inkişaf etdirilməsi** | | | |
| 5.7.1. | Qlobal informasiya məkanında Azərbaycan Respublikası ilə əlaqədar məlumatların genişləndirilməsi | Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2016-2020 |
| 5.7.2. | Azərbaycan həqiqətlərinin virtual məkanda təbliği və yayılmasının genişləndirilməsi üzrə tədbirlər görülməsi | Azərbaycan Milli Elmlər Akademiyası, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2016-2020 |

| | | | |
|---|---|---|---|
| 5.7.3. | Yerli xalqların və milli azlıqların adət-ənənələrinin qorunmasına dair müxtəlif elektron informasiya resurslarının yaradılması | Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və yerli icra hakimiyyəti orqanları | 2016-2020 |
| 5.7.4. | Onlayn medianın inkişaf etdirilməsi üçün tədbirlər görülməsi | Mətbuat Şurası, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu, Nəqliyyat, Rabitə və Yüksək TexnologiyalarNazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2016-2020 |

## FİKRƏT ƏMİROV ADINA AZƏRBAYCAN DÖVLƏT MAHNI VƏ RƏQS ANSAMBLININ ÜZVLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının aşağıdakı üzvlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar incəsənət xadimi"**

Atayev Fəxrəddin Qəhrəman oğlu

**"Əməkdar artist"**

Əliyev Telman Adil oğlu
Əsədov Çingiz Eynulla oğlu
Qubadov Ceyhun Şahbala oğlu
Şahmuradova Nigar Oqtay qızı
Şahmuradova Viktoriya Aleksandrovna
Talıbzadə Xuraman Səmədağa qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 sentyabr 2016-cı il*

## A.A.PAŞAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan milli musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Ağaverdi Ağa Əli oğlu Paşayev "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 sentyabr 2016-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2013-CÜ İL 27 DEKABR TARİXLİ 195 NÖMRƏLİ SƏRƏNCAMI İLƏ TƏSDİQ EDİLMİŞ "DAŞINMAZ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN BƏRPASI, QORUNMASI, TARİX VƏ MƏDƏNİYYƏT QORUQLARININ FƏALİYYƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ İNKİŞAFINA DAİR 2014-2020-Cİ İLLƏR ÜZRƏ DÖVLƏT PROQRAMI"NDA DƏYİŞİKLİK EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1612; 2014, № 9, maddə 1027; 2016, № 2 (II kitab), maddə 251) ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın 2.3.4-cü yarımbəndinə "yerli icra hakimiyyəti orqanları" sözlərindən sonra ", "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti" sözləri əlavə edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 oktyabr 2016-cı il*

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq**qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Hüseynova Fidan Yaqub qızı – Bakı şəhər T.Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Məmmədov Əli Zaur oğlu – ABŞ, Nyu-York Manhetten Musiqi Məktəbinin tələbəsi

Məsimov Nicat Rafiq oğlu – Azərbaycan Milli Konservatoriyasının tələbəsi

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 oktyabr 2016-cı il***

## F.Q.XƏLİLOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan rəssamlıq məktəbinin inkişafında xidmətlərinə görə Fərhad Qurban oğlu Xəlilov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 oktyabr 2016-cı il***

## GƏNCƏ DÖVLƏT FİLARMONİYASININ TİKİNTİSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gəncə Dövlət Filarmoniyasının tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Gəncə Şəhər İcra Hakimiyyətinə 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 noyabr 2016-cı il***

## Ə.M.QARAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafı sahəsində səmərəli fəaliyyətinə görə Əbülfəs Mürsəl oğlu Qarayev "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 noyabr 2016-cı il*

## V BEYNƏLXALQ AZƏRBAYCAN XALÇASI SİMPOZİUMUNUN BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Böyük tarixi keçmişə malik Azərbaycanın misilsiz mədəni sərvətləri sırasında xalçaçılıq özünəməxsus yer tutur. Milli həyat tərzimizin mühüm amili olan və çoxəsrlik inkişafı boyunca yüksək bədii-estetik keyfiyyətləri ilə seçilən bu dəyərli sənət xalqımızın zəngin dünyagörüşünün, təfəkkürünün və mənəvi varlığının aydın ifadəçisinə çevrilmişdir.

Dünya mədəniyyətinin nailiyyətlərindən biri kimi YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmiş ənənəvi Azərbaycan xalça sənətinin beynəlxalq aləmdə təbliği istiqamətində müvafiq işlər uğurla aparılmaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın qədim xalçaçılıq sənəti ənənələrinin qorunub yaşadılmasında, gələcək nəsillərə çatdırılmasında, eləcə də geniş miqyasda tanıdılmasında əhəmiyyətini nəzərə alaraq V Beynəlxalq Azərbaycan xalçası simpoziumunun Bakı şəhərində yüksək səviyyədə təşkilinin təmin olunması məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə 2017-ci ilin oktyabr ayında Bakı şəhərində V Beynəlxalq Azərbaycan xalçası simpoziumunun təşkilinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 14 noyabr 2016-cı il*

## AZƏRBAYCANDA MULTİKULTURAL ƏNƏNƏLƏRİN VƏ DİNLƏRARASI MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA XİDMƏTLƏRİNƏ GÖRƏ BİR QRUP ŞƏXSİN“AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU” İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsinlər:

Həsənli Sabir Hüseyn oğlu
Əliyev Füzuli Həbib oğlu
Yuşvayev Simax Barux oğlu
Şneor Seqal Yosef oğlu
Nesterov Aleksandr Gennadiyeviç.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 noyabr 2016-cı il***

## AZƏRBAYCANIN GÖRKƏMLİ DÖVLƏT VƏ ELM XADİMİ ƏZİZ ƏLİYEVİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci il yanvarın 1-də Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 120 illiyi tamam olur.

Əziz Əliyev müxtəlif məsul vəzifələrdə çalışaraq dövlət idarəçiliyinin təkmilləşdirilməsində səmərəli fəaliyyət göstərmiş, respublikada səhiyyə sisteminin və tibb təhsilinin formalaşdırılmasına layiqli töhfələr vermişdir. Onun İkinci Dünya müharibəsi illərində apardığı işlər mühüm hərbi-siyasi əhəmiyyətə malikdir. Azərbaycan və Dağıstan xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi Əziz Əliyevin adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan xalqı qarşısında böyük xidmətlərini nəzərə alaraq görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əziz Əliyevin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsinlər.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 noyabr 2016-cı il***

## AZƏRBAYCAN RESPUBLİKASINDA “XALÇAÇI GÜNÜ” PEŞƏ BAYRAMININ TƏSİS EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Hər il may ayının 5-i Azərbaycan Respublikasında “Xalçaçı günü” peşə bayramı kimi qeyd edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2016-cı il***

## AZƏRBAYCAN MEMARLARININ “TƏRƏQQİ” MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlığının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Ağazadə Rüfət Rüfət oğlu
Axundov Cahangir Rifaətoviç
Bayramov Rizvan Mustafa oğlu
Hacıyeva Səbinə Xalid qızı
İbrahimli Yusif Mahmud oğlu
Məlikov Natiq Ağa Rza oğlu
Məmmədov Kamil Müzəffər oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2016-cı il***

## AZƏRBAYCAN MEMARLARINA “ƏMƏKDAR MEMAR” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan memarlığının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar memar” fəxri adı verilsin:

Babakişiyev Rasim Calal oğlu

İbrahimov İbrahim Məmmədhüseyn oğlu
Kiryaşov Yevqeniy Mixayloviç
Qarber Aleksandr Aronoviç
Qədirov Cəmaləddin Bəy oğlu
Molla-zadə Fərhad Ədhəm oğlu
Musaxanov Kəmal Ağa Paşa oğlu
Vəliyev Nazim Oruc oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2016-cı il***

## AZƏRBAYCAN MEMARLARINA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan memarlığının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əbdülrəhimov Ramiz Həmid oğlu
Əmirxanov Afis Yusif oğlu
Quliyev Feyzulla Ağasəfər oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 noyabr 2016-cı il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Behbudov Rəşid Ələddin oğlu – Bülbül adına orta ixtisas musiqi məktəbinin şagirdi

İsmayılova Nərminə Zahid qızı – Bülbül adına orta ixtisas musiqi məktəbinin şagirdi.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 dekabr 2016-cı il***

## Z.Y.XANLAROVANIN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Zeynəb Yəhya qızı Xanlarova "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 26 dekabr 2016-cı il***

## 2017-Cİ İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olmuşdur. O, İslam dininin yayılmasında və eyni zamanda Müsəlman İntibahının bərqərar olmasında mühüm rol oynamışdır. Bütün bunlar Azərbaycan ərazisində ilk vaxtlardan İslam dininin maddi və qeyri-maddi irsinin formalaşmasına zəmin yaratmışdır. 743-cü ildə tikilən Şamaxı Cümə məscidi və ölkəmizin muzeylərində saxlanılan qədim əlyazmalar bunun bariz nümunəsidir.

Dinlə bağlı sərt qadağaların mövcud olduğu sovet dövrü Azərbaycanında cəmi 17 məscid fəaliyyət göstərdiyi halda, hazırda onların sayı 2000-i ötüb keçmişdir. Həmin məscidlərin 300-dən çoxu tarixi-mədəni abidə kimi qorunur. Azərbaycan dövlətinin İslam dini dəyərlərinə qayğısı sayəsində son illər ərzində İslam mədəniyyətinin qiymətli abidələrindən Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və Gəncə şəhərindəki "İmamzadə" kompleksi əsaslı şəkildə yenidən qurularaq təmir olunmuş, ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər məscidi inşa edilmişdir.

Azərbaycan Respublikası İslam Əməkdaşlıq Təşkilatının, İSESKO-nun, həmçinin müsəlman ölkələrini birləşdirən digər mötəbər qurumların üzvü seçilərək İslam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurmuş, qlobal əhəmiyyətli bir sıra mühüm mədəni forumların təşkilatçısı kimi çıxış etmişdir.

Azərbaycan tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr vermişdir. Azərbaycanın İslam aləmində qazandığı nüfuz 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasında öz ifadəsini tapmışdır. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəylinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. 2017-ci il Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 yanvar 2017-ci il*

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Əliyeva Zərrin Tahir qızı – Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi

İbrahimov Murad Aydın oğlu – Bakı şəhər Tofiq Quliyev adına 12 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Hacıyev Mahir Yaqub oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Məmmədov Elçin Nəriman oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 yanvar 2017-ci il*

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ MOLLA PƏNAH VAQİFİN 300 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə böyük Azərbaycan şairi Molla Pənah Vaqifin anadan olmasının 300 illiyi tamam olur. Adının YUNESKO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi Azərbaycanın çoxəsrlik zəngin ədəbiyyatı tarixində silinməz izlər qoymuş bu qüdrətli söz ustasının yaradıcılığındakı humanist dəyərlərə verilən yüksək qiymətin təzahürüdür.

Molla Pənah Vaqif öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

Vaqifin yaradıcılığı daim tədqiq obyektinə çevrilmiş, əsərləri kütləvi tirajla nəşr edilmiş və yubileyi keçirilmişdir. 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət nümunələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar.

Vaqif irsinin azərbaycançılıq məfkurəsi işığında daha dərindən araşdırılıb öyrənilməsi bu gün də aktuallığını qoruyan və həllini gözləyən mühüm məsələlərdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Molla Pənah Vaqifin 300 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 12 yanvar 2017-ci il***

# XOCALI SOYQIRIMININ İYİRMİ BEŞİNCİ İLDÖNÜMÜ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciədən 25 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarını pozaraq Xocalı üzərinə ağır hərbi texnika yeritmiş, yerlə yeksan etdikləri şəhərin dinc əhalisinə misli görünməmiş qəddarlıqla divan tutmuşlar. Həmin hərbi-siyasi təcavüz zamanı 613 həmvətənimiz, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca həlak olmuş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür.

Xocalı faciəsini törətməklə Azərbaycana qarşı hərbi təcavüzün miqyasını daha da genişləndirən və Dağlıq Qarabağın hüdudlarından kənara çıxaraq Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarını işğal edən Ermənistanın apardığı etnik təmizləmə siyasəti nəticəsində 20 min soydaşımızın həyatına son qoyulmuş, 50 mindən çox insan yaralanmış və əlil olmuş, torpaqlarımızın 20 faizi işğala məruz qalmışdır.

BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və eləcə də digər beynəlxalq qurumların qərarlarına baxmayaraq, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normalarına uyğun, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini bu günədək tapmamışdır.

2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan ordusu tərəfindən torpaqlarımızın bir qisminin işğalçılardan azad edilməsi ölkəmizin ərazi bütövlüyünü hərbi yolla bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz olduğunu bir daha sübuta yetirmiş, beynəlxalq ictimaiyyətə mövcud status-kvonun qəbuledilməzliyini nümayiş etdirərək işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılması tələbini yenidən gündəmə gətirmişdir.

Geniş vüsət almış "Xocalıya ədalət" kampaniyası çərçivəsində gerçəkləşdirilən tədbirlərin nəticəsi olaraq dünyanın bir sıra ölkələrində bu soyqırımla bağlı müvafiq qərarlar qəbul edilsə də, belə ağır hərbi cinayət beynəlxalq miqyasda hələ ki, öz hüquqi qiymətini almamışdır.

Xocalı faciəsinin iyirmi beşinci ildönümü ərəfəsində şəhidlərin xatirəsini dərin hüznlə yad edərək və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Xocalı soyqırımının iyirmi beşinci ildönümü ilə bağlı tədbirlər planını hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 yanvar 2017-ci il*

## “TEATR VƏ TEATR FƏALİYYƏTİ HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ” AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 29 NOYABR TARİXLİ 421-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 421-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 yanvar 2017-ci il***

## KƏRİM KƏRİMOVUN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ilin noyabr ayında kosmik proqramların gerçəkləşdirilməsinin fəal iştirakçısı, görkəmli alim və hərbi xadim, Kosmik Uçuşlar üzrə SSRİ Dövlət Komissiyasının sədri, Sosialist Əməyi Qəhrəmanı, Dövlət və Lenin mükafatları laureatı, Azərbaycan Mil-

li Elmlər Akademiyasının fəxri üzvü, general-leytenant Kərim Abbasəli oğlu Kərimovun anadan olmasının 100 illiyi tamam olur.

Kərim Kərimov kosmik aparatların və raket texnikasının yaradılması, kosmosa uçuşların intensivləşməsi və kosmonavtikanın inkişaf etdirilməsi sahəsində müstəsna xidmətlər göstərmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kosmik fəzanın tədqiqi işinə mühüm töhfələr vermiş Kərim Kərimovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyi ilə birlikdə Kərim Kərimovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 yanvar 2017-ci il*

## TOFİQ QULİYEVİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə görkəmli Azərbaycan bəstəkarı, xalq artisti, Dövlət Mükafatı laureatı Tofiq Ələkbər oğlu Quliyevin anadan olmasının 100 illiyi tamam olur.

Azərbaycan estrada musiqisinin yaradıcılarından biri Tofiq Quliyev özünəməxsus orijinal üsluba malik sənətkar kimi çoxəsrlik milli mədəniyyət salnaməsinə yeni parlaq səhifələr yazmışdır. Onun xalqımızın mədəni sərvətlər xəzinəsini zənginləşdirən və müxtəlif nəsillərə mənsub ifaçıların repertuarında bu gün də geniş yer tutan ayrı-ayrı janrlardakı rəngarəng əsərləri insanlarda milli-mənəvi dəyərlərə bağlılıq və yüksək estetik-bədii zövq aşılayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın musiqi mədəniyyətinin inkişafı və nailiyyətlərinin təbliği sahəsində mühüm xidmətlər göstərmiş görkəmli bəstəkar Tofiq Quliyevin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Tofiq Quliyevin 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 fevral 2017-ci il.*

## AKADEMİK HƏSƏN ƏLİYEVİN 110 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycanın görkəmli təbiətşünas alimi, respublika Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, akademik Həsən Əlirza oğlu Əliyevin anadan olmasının 110 illiyi tamam olur.

Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir.

Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli alim, bacarıqlı elm təşkilatçısı və tanınmış ictimai xadim Həsən Əliyevin 110 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə Həsən Əliyevin 110 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 fevral 2017-ci il.***

## CÖVDƏT HACIYEVİN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə görkəmli Azərbaycan bəstəkarı, tanınmış ictimai xadim və pedaqoq, SSRİ Dövlət mükafatları laureatı, xalq artisti, professor Cövdət Hacıyevin (Əhməd Cövdət İsmayıl oğlu Hacıyevin) anadan olmasının 100 illiyi tamam olur.

Milli simfonizmin banilərindən biri Cövdət Hacıyev Azərbaycanın zəngin musiqi mədəniyyəti tarixində şərəfli yer tutmuş böyük şəxsiyyətlərdəndir. Onun milli və dünya musiqi sənəti ənənələrinin novatorcasına vəhdətində insanın mənəvi gözəlliyini tərənnüm edən yaradıcılığı daim özünün yüksək vətəndaşlıq qayəsi və dərin estetik məzmunu ilə səciyyələnmişdir. Ustad sənətkar ölkəmizdə professional bəstəkarlıq məktəbi üçün yeni musiqiçilər nəslinin hazırlanması sahəsində də təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan milli bəstəkarlıq sənətinin inkişafı naminə mühüm xidmətlər göstərmiş xalq artisti Cövdət Hacıyevin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Cövdət Hacıyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 7 fevral 2017-ci il***

## MSTİSLAV ROSTROPOVİÇİN 90 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə dünya şöhrətli musiqiçi və görkəmli ictimai xadim, insan hüquq və azadlıqlarının fəal müdafiəçisi, SSRİ xalq artisti, Dövlət və Lenin mükafatları laureatı Mstislav Leopoldoviç Rostropoviçin anadan olmasının 90 illiyi tamam olur.

Mstislav Rostropoviç müasir dünya musiqisinin inkişafına misilsiz töhfələr vermiş böyük sənətkardır. O, violonçel ifaçılığı tarixində yeni bir dövr açmış və ən mötəbər konsert salonlarında simfonik orkestr dirijoru kimi çoxsaylı çıxışları ilə ümumbəşər mədəniyyəti xəzinəsini daha da zənginləşdirmişdir. Öz doğma vətəni Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin möhkəmləndirilməsi və onun musiqi sənətinin inkişaf etdirilməsi sahəsində Rostropoviçin müstəsna xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli musiqiçi və ictimai xadim Mstislav Rostropoviçin Azərbaycanda 90 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Mstislav Rostropoviçin 90 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 fevral 2017-ci il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 30 DEKABR TARİXLİ 478-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 478-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 fevral 2017-ci il***

## "NƏŞRİYYAT İŞİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2016-CI İL 30 DEKABR TARİXLİ 480-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 480-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 fevral 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASINA TURİST AXININ SÜRƏTLƏNDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti:

1.1. Azərbaycan Respublikasının Rusiya Federasiyası, Türkiyə Respublikası, İran İslam Respublikası və Gürcüstan ilə dövlət sərhədinin buraxılış məntəqələrindən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sürətli keçidini təmin etmək məqsədi ilə xüsusi ayrılmış hərəkət zolaqlarının müəyyən edilməsi üçün müvafiq infrastrukturun yaradılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə birgə məlumat versinlər;

1.2. xüsusi ayrılmış hərəkət zolaqlarının nişanlanmasını və hər kəsin yaxşı görə biləcəyi məlumatlandırma lövhələrində hərəkət istiqamətlərinin əks etdirilməsini təmin etsinlər;

1.3. dövlət sərhədinin buraxılış məntəqələrindən keçidin sürətləndirilməsi və yarana biləcək sıxlığın qarşısının alınması məqsədi ilə qarşılıqlı fəaliyyət göstərərək əlaqələndirmə işlərini daha da təkmilləşdirsinlər.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi elektron vizaların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən bilavasitə Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrində əldə edilməsinə şərait yaratmaq məqsədi ilə, bütün buraxılış məntəqələrində "ASAN ödəniş" terminalları vasitəsilə "ASAN Viza" sisteminə daxil olaraq elektron viza üçün müraciət etmək imkanının yaradılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə birlikdə Azərbaycan Respublikasının İran İslam Respublikası ilə dövlət sərhədinin buraxılış məntəqələrinin iş saatlarının artırılması ilə bağlı qarşı tərəflə danışıqlar apararaq tədbirlər görsün və nəticəsi barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə Xəzər dənizində gəmi turlarının təşkili məqsədi ilə Xəzər dənizinin sahilyanı dövlətləri ilə danışıqlar aparsın və nəticəsi barədə dörd ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. vizaların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin "Viza" altsistemindən kənar doldurulması hallarının qarşısını almaq məqsədi ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki bütün səfirlikləri və konsulluqlarında quraşdırılmış "Viza" altsisteminə aid avadanlığın tam işlək vəziyyətə gətirilməsini və vizaların yalnız həmin altsistem vasitəsilə rəsmiləşdirilməsini üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN ödəniş" terminalları vasitəsilə elektron viza üçün bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədinin buraxılış məntəqələrində müraciət etmək imkanı olduğu barədə məlumatın Nazirliyin, habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə dövlət sərhədinin buraxılış məntəqələrinə yaxın ərazilərdə və Bakı şəhərindən Azərbaycan Respublikasının digər şəhər və rayonlarına gedən yol qovşaqlarında həmin buraxılış məntəqələrindən şəxslərin keçidinin sıxlıq dərəcəsini əks etdirən interaktiv məlumat lövhələrinin quraşdırılmasını təmin etsin.

5. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti dövlət sərhədinin buraxılış məntəqələrində çalışan əməkdaşlarının mütəmadi olaraq müştəri (turist) məmnuniyyətinin və xarici dil biliklərinin artırılması üzrə təlimlərdə iştirakını təmin etsinlər.

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə birlikdə turizm sahəsində xidmət göstərən subyektləri viza prosedurlarının sadələşdirilməsi barədə məlumatlandırsın və onların gömrük və miqrasiya qanunvericiliyi ilə tanış olmasını təmin etsin.

7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu Sərəncamın 2-ci hissəsini nəzərə almaqla, dövlət sərhədinin buraxılış məntəqələrində elektron vizaların operativ verilməsinin təmin edilməsi üçün qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə razılaşdırılmış təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. Azərbaycan Respublikasının ərazisindən ixracı qadağan edilmiş, Azərbaycan Respublikasının milli mədəniyyət əmlakının Dövlət Siyahısına daxil olan mədəni sərvətlər istisna olmaqla, digər mədəni sərvətlərin ixracı ilə bağlı mühafizə şəhadətnaməsinin verilməsi prosedurunun sadələşdirilməsi və müddətlərin optimallaşdırılması üçün müvafiq normativ hüquqi aktlarında üç ay müddətində dəyişiklik edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

8.2. "Vizaların verilməsi işinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 noyabr tarixli 882 nömrəli Sərəncamı ilə verilmiş tapşırıqların tam şəkildə icrasını təmin etsin;

8.3. bu Sərəncamın 1.1-ci bəndində, 2-ci və 4-cü hissələrində və 8.2-ci bəndində nəzərdə tutulmuş tədbirlərin maliyyələşməsini təmin etsin;

8.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 fevral 2017-ci il***

## "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 1 FEVRAL TARİXLİ 521-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 521-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 23 fevral 2017-ci il***

## T.M.MÜTƏLLİMOVA "ƏMƏKDAR ELM XADİMİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanması və ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərinə görə Təhsin Mütəllim oğlu Mütəllimova "Əməkdar elm xadimi" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 6 mart 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ TEATR XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan teatrının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Artist"**

Abdullayev Aqşin Akif oğlu
Ağayev Zakir İsmayıl oğlu
Eyvazov Yusif Vilayət oğlu
Ferştandt Makar Sergeyeviç
Heybətov Anar Mithət oğlu
İbrahimov Fuad Natiq oğlu
Quliyev Əyyub Ramiz oğlu
Nəzərov İlham İslam oğlu
Orucova Sevda Nəbi qızı
Rüstəmov Nazir Mürsəl oğlu
Seyidov Tofiq Həbib oğlu
Sultanov Neymət İslam oğlu

**"Əməkdar Mədəniyyət İşçisi"**

Əhməd-zadə Rəşad Rüfət oğlu
Həsənov İslam Cəfər oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 mart 2017-ci il***

# "İNFORMASİYA ƏLDƏ ETMƏK HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 1 FEVRAL TARİXLİ 507-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 507-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 9 mart 2017-ci il***

## 2017-Cİ İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "İSLAM HƏMRƏYLİYİ İLİ" ELAN EDİLMƏSİ İLƏ ƏLAQƏDAR QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ TƏRƏFİNDƏN KEÇİRİLƏCƏK BİR SIRA TƏDBİRLƏRİN MADDİ TƏMİNATI HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik Azərbaycan ən qədim sivilizasiya mərkəzlərindən biri olub, uzun əsrlərdən bəri müxtəlif dinlərə mənsub insanların dostluq və əmin-amanlıq şəraitində yaşadığı diyardır. Burada ümumbəşəri dəyərləri ehtiva etməklə ölkəmizin İslam aləmində özünəməxsus mövqeyi ilə seçilməsinə yol açan və onu eyni zamanda dinlərarası dialoqun bənzərsiz məkanı olaraq tanıdan yeni mühit təşəkkül tapmışdır.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi beynəlxalq ictimaiyyət tərəfindən zamanın çağırışlarına cavab verən çox əhəmiyyətli addım kimi böyük rəğbətlə qarşılanmışdır.

"İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən Azərbaycanın müxtəlif bölgələrində məscid və ziyarətgahlarda, ictimai yerlərdə tanınmış dövlət və din xadimlərinin, müxtəlif dini konfessiya üzvlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər, habelə bir sıra xarici ölkələrdə konfranslar keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam dini dəyərlərinin qorunub saxlanılması, təbliği və bu sahədə beynəlxalq səviyyədə əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində silsilə tədbirlərin həyata keçirilməsi məqsədi ilə **qərara alıram:**

1. "İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək tədbirlərin maddi təminatı üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 mart 2017-ci il***

## "AZƏRBAYCAN RESPUBLİKASINDA ÇİMƏRLİK TURİZMİNİN İNKİŞAFINA DAİR 2017–2020-Cİ İLLƏR ÜÇÜN TƏDBİRLƏR PLANI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsindən turizm məqsədləri üçün daha səmərəli istifadəni təmin etmək məqsədilə, "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Res-

publikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Tədbirlər Planının icrasının təşkilində əlaqələndirici orqan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 mart 2017-ci il*

## "AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFI İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2016-CI İL 1 SENTYABR TARİXLİ 2295 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1492) aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

"3.2-1. bu Sərəncamın 4.10-cu bəndində nəzərdə tutulan Turizm Reyestrinin aparılma qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;".

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 aprel 2017-ci il*

## R.Ə.QULİYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Ramiz Əyyub oğlu Quliyev "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 may 2017-ci il*

# İNCƏSƏNƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasov Tariyel Abbasqulu oğlu
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Kazım Ənvər oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Ağayev Ariz Tofiq oğlu
Axundov Əbülfəz Marlen oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Aslanova Elmira Ramazanovna
Atakişiyeva Mətanət Ağazahir qızı
Babayeva İnarə Əhməd qızı
Bağırov Tural Vidadi oğlu
Bağırov Viktor Cəmiloviç
Baliyeva Natalya Qennadiyevna
Bayramov Təyyar Allahverdi oğlu
Bayramova Aygün Əliqulu qızı
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərli Azər Babalı oğlu
Cəfərov Cavanşir Xəlil oğlu
Cəfərov Samir Qədir oğlu
Eldarova Nəsibə Novruz qızı
Eyubova Mələkxanım Yadigar qızı
Eyyubov Musa Eyyub oğlu
Əfəndiyeva İlahə Əhsan qızı
Əhmədli Bəhruz Vaqif oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elnur Oruc oğlu
Ələkbərzadə Mehriban Zaur qızı
Əliyev Ələkbər Həsən oğlu
Əliyev Əyyub Pənah oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyev Haxverdi Eldar oğlu
Əliyev Novruz Yaqub oğlu
Əliyev Rahib Seyidağa oğlu

Əliyev Sərvər Bəhlul oğlu
Əliyev Vahid Əsgər oğlu
Əliyeva Böyükxanım Həsənbala qızı
Əliyeva Fatma Həmid qızı
Əliyeva Gülüstan Həsən qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Samirə Zimirxin qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əmirbəyova Rita Cəmil qızı
Əmirov Cəmil Fikrət oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsədullayev Toğrul Mirnazim oğlu
Əsgərov Əli Rəhim oğlu
Əsgərov Əsgər Əkbər oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Göyçayev Teymur Ənvər oğlu
Gözəlova İradə Vaqif qızı
Hacıəlibəyov Nazim Ənvər oğlu
Hacıyev Əli Əli Yusif oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Həmidov Əjdər Qüdrət oğlu
Həsənquliyev Kazım Feyruz oğlu
Həşimov Elçin Ləzgi oğlu
Həşimova Növrəstə Xanəli qızı
Həşimzadə Xanlar Allahverdi oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynov Füzuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Kamilla Fikrət qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanızadə Bəxtiyar Oqtay oğlu
Xanlarova Mehriban Aslan qızı
Xəlilzadə Rüfət Eldar oğlu
İbayev Səbuhi Tahir oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İmanova Gülbacı Əliəkbər qızı
İmanova Simarə Cəmaləddin qızı
İslamzadə Akif Qədir oğlu
İsmayılov Qurban İbrahim oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimov Fəxrəddin Nuri oğlu
Kərimov Loğman Seyfulla oğlu
Kərimova Qərinə Rəhim qızı
Kərimova Nərgiz Faiq qızı

Qasımov Məmmədsəfa Məmmədəli oğlu
Qasımov Ramil Adıgözəl oğlu
Qasımova Aida Ələkbər qızı
Qasımova Fərqanə Alim qızı
Qəhrəmanov Abbas Əhməd oğlu
Quliyev Elxan Əlibala oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Qabil Əzizulla oğlu
Quliyeva Səidə Əbülfəz qızı
Quliyeva Şəlalə Şahvələd qızı
Qurbanov Oruc İzzət oğlu
Qurbanova Pərvanə Yaqub qızı
Lobaçov Yuri Nikolayeviç
Məmmədəliyev Vamiq Məmmədəli oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Sabir Novruz oğlu
Məmmədov Sirus Arif oğlu
Məmmədova Fəridə Kamal qızı
Məsimov Qurban Abdulla oğlu
Məstanov Vaqif Teyyuboviç
Mikayılova Sonaxanım Məmmədağa qızı
Miltıx Aleksey Leonidoviç
Mirabov Akif Əhməd oğlu
Mirqasımova Ayan Oqtay qızı
Mirzəhəsənov Hüseyn-Səfa Qvaməddin oğlu
Mirzəyev Gülağası Ağahüseyn oğlu
Musayeva Şükufə İmran qızı
Mustafayev Arzu Əhməd oğlu
Mustafayeva Laləzar Bəşir qızı
Mütəllimova Firəngiz Bəhər qızı
Nəbiyeva Gülər Nəbi qızı
Nərimanova Zemfira Əli qızı
Nəsirova Hicran Fətəli qızı
Nikuşina Aleksandra Konstantinovna
Novruz Ramiz Qəvvam oğlu
Novruzova Nübar Qulu qızı
Növrəsli Şahin Növrəs oğlu
Orucova Nahidə Mülük qızı
Osmanov Bəhram Məcid oğlu
Osmanov Fuad Tacəddin oğlu
Paşayev Fərmail Sabir oğlu
Paşazadə Sahib Ağaverdi oğlu
Poladov Əkrəm Nicat oğlu
Rəhimov Vaqif Çərkəz oğlu
Rəhmanov Rəhman Tofiq oğlu
Rzayev-Sarabski İsfar Aydın oğlu
Sabayev Andrey Yuryeviç

Seyidov İxtiyar Mircəfər oğlu
Seyidov Ricay Mirsəlim oğlu
Seyidov Uran Seyidmusa oğlu
Səlimli Mirbala Seyidəsgər oğlu
Səmədov Şükür Hacıbala oğlu
Spitsina Yelena Eduardovna
Süleymanov Süleyman İman oğlu
Şarovskaya Natalya Yuryevna
Şəfiyeva Gülçöhrə Məmməd qızı
Şərifov Munis Məhəmməd İsmayıl oğlu
Şirinov Aslan Adil oğlu
Tağızadə İrana Tofiq qızı
Teymurova Nəzakət Xosrov qızı
Vəliyeva Leyli Fətulla qızı
Yaqubov Şıxı Miriş oğlu
Zeynalov Azər Zeynalabdin oğlu
Zeynalova Püstəxanım Marif qızı
Zeynalova Zülfiyyə Əsgər qızı
Zülfüqarov Cahangir Oqtay oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 may tarixli 2035 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 904) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 may 2017-ci il*

## AZƏRBAYCAN XALÇAÇILARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**
Abbasova Urquya Mustafa qızı
Məmmədova Nuraya İsax qızı
Rzayeva Sürayə Əbdül qızı
Umudova Göyçək Tarverdi qızı
Yusifova Gülbacı Mikayıl qızı
Yusufova Sonya Xanuxovna

**"Tərəqqi" medalı ilə**
Abdurəhmanova Yemən Xalid qızı
Ağayeva Rəsmiyyə Əfəddin qızı
Əhmədova Bəsti Həsən qızı
Əhmədova Gülzar Məhəmmədəli qızı
Hacıyeva Səlimə Qüdrət qızı
Xəlilova Kübra Ağali qızı
Qurbanova Gülnaz İsmayıl qızı
Mehdiyeva Şərqiyyə Həsən qızı
Məmmədova Siyasət Çingiz qızı
Mirbabayeva Xatirə Yavər qızı
Murğuzova Suraya Baba qızı
Salahova Rahilə Sadıx qızı
Salmanova Güllər Əli qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 may 2017-ci il*

## AZƏRBAYCAN XALÇAÇILARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:
Ağaliyeva Neva Şahpələng qızı
Ağamirzəyeva Fatimə Ayıbxan qızı
Bəşirova Rəfiqə Xanağa qızı
Əliyeva Ceyran Müzəffər qızı
Kəngərli Gülüsüm Həsən qızı
Qayıtxanova Zalikə Nürəddin qızı
Qənbərova Nargilə Əliağa qızı
Orucova Firəngiz Hüseyn qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 may 2017-ci il*

## AZƏRBAYCAN MƏDƏNİYYƏT XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

İbrahimov Mənsum İsrafil oğlu

Qazıyev Arif Lətif oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 may 2017-ci il*

## N.Ə.HƏSƏNZADƏYƏ HEYDƏR ƏLİYEV MÜKAFATININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadəyə Heydər Əliyev Mükafatı verilsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 10 may 2017-ci il*

## BMT-NİN DÜNYA TURİZM TƏŞKİLATININ BAŞ KATİBİ TALİB RİFAİNİN "DOSTLUQ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

BMT-nin Dünya Turizm Təşkilatı ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın qurulması və möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə BMT-nin Dünya Turizm Təşkilatının Baş katibi Talib Rifai "Dostluq" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 8 may 2017-ci il*

## BÜLBÜLÜN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycan professional vokal məktəbinin banisi, görkəmli müğənni, tədqiqatçı-alim və pedaqoq, tanınmış ictimai xadim, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı Bülbülün (Murtuza Məşədi Rza oğlu Məmmədovun) anadan olmasının 120 illiyi tamam olur.

Böyük sənətkar Bülbül zəngin yaradıcılıq yolu keçmiş və özünün çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoymuşdur. Onun Şərqlə Qərbin musiqi ənənələrinin qovuşuğunda novatorcasına yüksək məharətlə canlandırdığı rəngarəng obrazlar ifaçılıq sənətinin bənzərsiz nümunələridir. Milli musiqi xəzinəsi incilərinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasında Bülbülün müstəsna xidmətləri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli musiqi mədəniyyətinin inkişafı, tədqiqi və təbliği işinə misilsiz töhfələr vermiş xalq artisti Bülbülün 120 illik yubileyinin dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Bülbülün 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 may 2017-ci il*

## A.S.MƏLİKOVANIN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Afaq Süleyman qızı Məlikova "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 16 may 2017-ci il*

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı, eyni zamanda, milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi.

Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2017-ci il***

## "MİLLİ ARXİV FONDU HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 7 APREL TARİXLİ 559-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 559-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 may 2017-ci il***

## F.Ə.ƏLİZADƏNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Firəngiz Əliağa qızı Əlizadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 may 2017-ci il***

## ASTARA ŞƏHƏRİNDƏ DƏNİZKƏNARI PARK-BULVAR KOMPLEKSİ ƏRAZİSİNİN GENİŞLƏNDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurla yerinə yetirilməsi nəticəsində Astara rayonunda mühüm infrastruktur layihələri həyata keçirilmiş, o cümlədən Modul tipli Elektrik və Qaz-Kompressor stansiyaları, Olimpiya İdman Kompleksi, Dövlət Bayrağı Meydanı, Gənclər evi, Boks Mərkəzi, dənizkənarı park-bulvar kompleksi, əlil və şəhid ailələri üçün 48 mənzilli 2 yaşayış binası inşa olunmuş, 90 çarpayılıq Rayon Mərkəzi Xəstəxanası, Mədəniyyət evi əsaslı təmir edilmiş, təhsil və digər sosialyönümlü obyektlər istifadəyə verilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, iri emal müəssisələri yaradılmış, 10 mindən çox yeni iş yeri açılmış, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Astara şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə dənizkənarı park-bulvar kompleksinin ərazisinin genişləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Astara şəhərində dənizkənarı park-bulvar kompleksi ərazisinin genişləndirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Astara Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 iyun 2017-ci il***

## F.Ə.QASIMOVANIN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Fidan Əkrəm qızı Qasımova "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 16 iyun 2017-ci il***

## AZƏRBAYCANDA DİNİ QURUMLARA MALİYYƏ YARDIMI GÖSTƏRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Sivilizasiyaların qovuşuğunda yerləşən və birləşdirici körpü rolunu oynayan Azərbaycan qədim mədəniyyət mərkəzlərindən biri olaraq özünün unikal geosiyasi mövqeyi sayəsində multikultural nailiyyətlər qazanmış və tolerantlıq mühitinin formalaşmasına əvəzsiz töhfələr vermişdir. Onun, eyni zamanda, İslam dininin yayılması və Müsəlman İntibahının bərqərar olmasında özünəməxsus yeri vardır. Ölkəmizdə ötən "Multikulturalizm İli"nin davamı kimi 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi məhz həmin çoxəsrlik zəngin tarixi təcrübənin günümüzdəki rəmzi ifadəsidir.

Müasir Azərbaycan cəmiyyətində bərqərar olmuş yüksək tolerantlıq modeli və müxtəlif konfessiyalar arasında mövcud ahəngdarlıq müstəqil dövlətçiliyin inkişafı baxımından xüsusi əhəmiyyət daşımaqla yanaşı, sivilizasiyalararası dialoqda bir sıra problemlərin meydana çıxdığı və milli, dini zəmində münaqişələrin artma tendensiyasının müşahidə olunduğu hazırkı dövrdə multikultural dəyərlərin təbliği baxımından nümunə təşkil edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 iyun 2017-ci il***

## GƏNC İSTEDADLARIN XÜSUSİ TƏQAÜDƏ LAYİQ GÖRÜLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 22 iyun tarixli 464 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram**:

Musiqi sahəsində xüsusi istedadı olan aşağıdakı şəxslərin adları Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılsın və onlar xüsusi aylıq təqaüdə layiq görülsünlər:

Abdullayev Toğrul Namiq oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Əlizadə Mirəli Hüseyn oğlu – Bakı şəhər Rəşid Behbudov adına 2 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

İbrahimova Lalə Azər qızı – Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi

Məhəmmədəlizadə Behnam Məhta Səid qızı – Bakı şəhər Şövkət Ələkbərova adına 20 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Məmmədov Atilla Yasin oğlu – Bakı şəhər Kövkəb Səfərəliyeva adına 16 nömrəli Uşaq Musiqi Məktəbinin şagirdi

Orucov Nihad Vüqar oğlu – Azərbaycan Milli Konservatoriyası tərkibində İncəsənət Gimnaziyasının şagirdi

Sədizadə Cəmil Əliağa oğlu – Bakı şəhər Rauf Hacıyev adına 15 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Talıblı Kamran Həsən oğlu – Bakı şəhər Leopold və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəbinin şagirdi

Yusifzadə Cavid Azər oğlu – Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin şagirdi

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 21 iyun 2017-ci il*

## ŞÖVKƏT MƏMMƏDOVANIN 120 İLLİK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycanın ilk qadın opera müğənnisi, SSRİ xalq artisti, professor Şövkət Həsən qızı Məmmədovanın 120 illiyi tamam olur.

Şövkət xanım Məmmədova dünya vokal məktəbinin yüksək nailiyyətlərini milli musiqi ənənələri ilə ahəngdar şəkildə əlaqələndirərək Azərbaycan opera sənəti tarixinə parlaq səhifələr yazmışdır. Onun tanınmış ictimai xadim və görkəmli pedaqoq kimi ölkəmizdə musiqi mədəniyyətinin tərəqqisi naminə uzun illər ərzində geniş, səmərəli və təqdirəlayiq fəaliyyəti vətənə, xalqa xidmətin bariz nümunəsidir.

Azərbaycanın çoxəsrlik zəngin musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr vermiş böyük sənətkar Şövkət Məmmədovanın 120 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Şövkət Məmmədovanın 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 iyul 2017-ci il*

## AĞASADIQ GƏRAYBƏYLİNİN 120 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndəsi, xalq artisti Ağasadıq Ağəli oğlu Gəraybəylinin anadan olmasının 120 illiyi tamam olmuşdur.

Ağasadıq Gəraybəyli geniş yaradıcılıq diapazonuna malik böyük sənətkar kimi Azərbaycanın zəngin mədəniyyət salnaməsində özünəməxsus layiqli yer tutur. Onun milli dram teatrının səhnəsində və kinematoqrafiyada professionallıq baxımından son dərəcə müvəffəqiyyətlə canlandırdığı müxtəlif xarakterli obrazlar yüksək bədii təsir qüvvəsini qoruyub saxlamış dəyərli sənət nümunələridir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli teatr və kino sənətinin inkişafına töhfələr vermiş görkəmli sənətkar Ağasadıq Gəraybəylinin 120 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Ağasadıq Gəraybəylinin 120 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 iyul 2017-ci il*

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 13 İYUN TARİXLİ 717-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 717-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 iyul 2017-ci il***

## T.H.MƏMMƏDOVUN "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan heykəltəraşlıq məktəbinin inkişafında xidmətlərinə görə Tokay Həbib oğlu Məmmədov "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 iyul 2017-ci il***

## MƏHLUQƏ SADIQOVANIN 100 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycanın teatr və kino sənətinin görkəmli nümayəndəsi, respublikanın xalq artisti Məhluqə Ələsgər qızı Sadıqovanın anadan olmasının 100 illiyi tamam olur.

Məhluqə xanım Sadıqova yarım əsrdən artıq dövr ərzində milli teatrın səhnəsində, eləcə də kinofilmlərdə çox sayda unudulmaz xarakterik obrazlar yaratmış və onların hər birinin özünəməxsus daxili aləmini bütün zənginliyi ilə dolğun şəkildə canlandırmışdır. Sənətkarın bədii qiraət ustası kimi uzun illər aparıcısı olduğu, geniş dinləyici auditoriyasına malik xalq yaradıcılığı "Bulaq" verilişi Azərbaycan radiosunun qızıl fondunu təşkil edən qiymətli nümunələrdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və milli mədəniyyətin inkişafında xidmətlərini nəzərə alaraq görkəmli sənətkar Məhluqə Sadıqovanın 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Məhluqə Sadıqovanın 100 illik yubileyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 iyul 2017-ci il***

## MÜSLÜM MAQOMAYEVİN 75 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə dünya şöhrətli opera və estrada müğənnisi, bəstəkar, SSRİ xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayevin anadan olmasının 75 illiyi tamam olur.

Azərbaycanın çoxəsrlik mədəniyyət salnaməsinə parlaq səhifələr yazmış Müslüm Maqomayev son dərəcə rəngarəng repertuara malik qüdrətli sənətkardır. Onun özünəməxsusluğu ilə səciyyələnən və ümumən sovet estradasını yeni mərhələyə yüksəldən bənzərsiz yaradıcılığı musiqi tarixində ayrıca mərhələ təşkil edir. Fitri istedadlı böyük sənətkar opera vokal ifaçılığının ecazkar nümunələrini meydana gətirmiş, milyonlarla insanın rəğbətlə qarşıladığı mahnılar bəstələmiş, həmçinin kino sahəsində təqdirəlayiq fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyəti xəzinəsinin zənginləşdirilməsi və nailiyyətlərinin təbliği işinə dəyərli töhfələr vermiş görkəmli sənətkar Müslüm Maqomayevin 75 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi xalq artisti Müslüm Maqomayevin 75 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 iyul 2017-ci il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDLƏRİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Əliyev Rafiq Hacıbaba oğlu

Nəsirov Rafiq Əliş oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 iyul 2017-ci il***

## AZƏRBAYCANIN KİNO XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**Xalq artisti**

Mirqasımova Ayan Oqtay qızı

**Əməkdar mədəniyyət işçisi**

Allahverdiyeva Afaq Murtuz qızı

Azməmmədov Nadir Mirzə oğlu

Bağırov Tahir Məmməd oğlu

Əsgərov Müzəffər Rza oğlu

Kazımov Tahir Şirin oğlu

Kərimov Arif Cahangir oğlu

Kutiyev Abdulnəsir Hacı oğlu

Mehdiyev Nadir Hüseyn oğlu

Məmmədov Kamil İmaməli oğlu

Süleymanov Badavi Süleyman oğlu

Vəliyev Sabir Əli oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 iyul 2017-ci il***

## BALAKƏN ŞƏHƏRİNDƏ UŞAQ İNCƏSƏNƏT MƏKTƏBİNİN YENİ BİNASININ TİKİNTİSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində Balakən rayonunda əsaslı infrastruktur layihələri çərçivəsində Olimpiya İdman Kompleksi, Rayon Mədəniyyət Mərkəzi, “Gənclər Evi”, Bayraq Muzeyi,

müasir turizm obyektləri, təhsil müəssisələri və digər sosialyönümlü obyektlər istifadəyə verilmiş, Balakən "ABAD" mərkəzi, yeni istehsal müəssisələri yaradılmış, kəndlərarası avtomobil yolları yenidən qurulmuş, genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Balakən şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə Uşaq İncəsənət Məktəbinin yeni binasının tikilməsi məqsədi ilə **qərara alıram:**

1. Balakən şəhərində Uşaq İncəsənət Məktəbinin yeni binasının tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Balakən Rayon İcra Hakimiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 avqust 2017-ci il***

## EMİN SABİTOĞLUNUN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ilin noyabr ayında görkəmli Azərbaycan bəstəkarı, xalq artisti, əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, professor Emin Sabitoğlunun (Emin Sabit oğlu Mahmudovun) anadan olmasının 80 illiyi tamam olur.

Emin Sabitoğlu rəngarəng yaradıcılıq palitrasına malik sənətkar kimi milli-mədəni ənənələr zəminində yüksələn və müasir musiqinin nailiyyətlərindən uğurla bəhrələnərək Azərbaycanın mədəniyyət salnaməsini zənginləşdirən şəxsiyyətlərdəndir. Bəstəkar sözlə nəğmənin ahəngdar vəhdətində mahnı janrının nadir incilərini meydana gətirmiş, çox sayda kinofilmlər və teatr tamaşaları üçün yazdığı yaddaqalan melodiyalarla unudulmaz bədii lövhələr yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli musiqi mədəniyyətinin inkişafına layiqli töhfələr vermiş görkəmli bəstəkar Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi bəstəkar Emin Sabitoğlunun 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 5 avqust 2017-ci il***

## A.Z.NEMƏTOVUN 2-Cİ DƏRƏCƏLİ "VƏTƏNƏ XİDMƏTƏ GÖRƏ" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Azərpaşa Zəfər oğlu Nemətov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 avqust 2017-ci il*

## A.H.QASIMOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Alim Həmzə oğlu Qasımov "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 12 avqust 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASINDA MƏDƏNİYYƏT SAHƏSİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİNİN GÜCLƏNDİRİLMƏSİ İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanın zəngin və tolerant tarixi irsinin, tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün ölkədə sistemli fəaliyyət həyata keçirilir.

Son illər ərzində mədəniyyət sahəsində böyük investisiya proqramları həyata keçirilmiş, paytaxtda və regionlarda bir sıra mədəniyyət mərkəzləri, teatr binaları, konsert-tamaşa salonları, rəsm qalereyaları tikilib istifadəyə verilmiş, habelə mövcud obyektlərin müasir standartlara uyğun təmiri, maddi-texniki bazasının gücləndirilməsi, muzey fondlarının komplektləşdirilməsi və ekspozisiyaların zənginləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

Bu sahəyə dövlətin xüsusi qayğısının nəticəsidir ki, milli-mənəvi dəyərlərimizdən olan Novruz bayramı, muğam və aşıq sənətləri, eləcə də xalça sənəti UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə reprezentativ siyahısına daxil edilmiş, ölkəmiz qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəyə üzv seçilmişdir.

Bundan başqa, Azərbaycanın möhtəşəm abidələri Qobustan Milli Tarixi-Bədii Qoruğu və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, mədəniyyət sahəsinə dövlət qayğısının gücləndirilməsi, mədəniyyət obyektlərinin tikintisi və təmiri işlərinin davam etdirilməsi, habelə bərpa-tamamlama işlərinin sürətləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli 1180 nömrəli Fərmanının 1.14.3.3.9-cu yarımbəndində nəzərdə tutulmuş vəsaitdən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 6,987 milyon (altı milyon doqquz yüz səksən yeddi min) manat, o cümlədən:

1.1. Bakı şəhəri Sabunçu rayonunun Maştağa qəsəbəsində yerləşən H.Abbasov adına Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,272 milyon (bir milyon iki yüz yetmiş iki min) manat;

1.2. Bakı şəhəri Qaradağ rayonunun Qızıldaş qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,932 milyon (bir milyon doqquz yüz otuz iki min) manat;

1.3. Bakı şəhəri Xəzər rayonunun Şağan qəsəbəsində yerləşən Mədəniyyət Mərkəzinin tikintisinin və təchizatının tamamlanması üçün 1,208 milyon (bir milyon iki yüz səkkiz min) manat;

1.4. Bakı şəhərinin Nərimanov rayonunda yerləşən 21 nömrəli Musiqi Məktəbinin tikintisinin və təchizatının tamamlanması üçün 1,370 milyon (bir milyon üç yüz yetmiş min) manat;

1.5. Bərdə şəhərində yerləşən "Allah-Allah" türbəsinin bərpası işlərinin tamamlanması üçün 1,205 milyon (bir milyon iki yüz beş min) manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 14 avqust 2017-ci il***

## Ə.Ə.ƏLƏKBƏROVUN "İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ TƏYİN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əsgər Əyyub oğlu Ələkbərov "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 avqust 2017-ci il***

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN FƏALİYYƏTİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan xalqının çoxəsrlik qədim mədəniyyətinin və zəngin tolerantlıq ənənələrinin təbliğinə töhfə verən qurumlardan biri kimi Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı elmi-mədəni mərkəzləri ilə səmərəli əməkdaşlıq münasibətləri yaratmışdır. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəal iştirakı və yüksək təşkilatçılığı ilə ümumbəşəri məsələlərin ətraflı müzakirəsinin aparıldığı və sivilizasiyalararası dialoqun qurulması, eləcə də qlobal əhəmiyyətli layihələrin dəstəklənməsi baxımından mühüm əhəmiyyətə malik bir sıra mötəbər forumlar keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun çatdırılması, həmçinin Azərbaycanın dostlarının əhatə dairəsi və coğrafiyasının genişləndirilməsi istiqamətində işlərin davamlılığını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 800,0 (səkkiz yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 23 avqust 2017-ci il*

## M.H.AĞAYEVİN “DOSTLUQ” ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Məmmədəli Hüseyn oğlu Ağayev “Dostluq” ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 7 sentyabr 2017-ci il*

## İ.İ.MƏDƏTOVUN AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNİN REKTORU TƏYİN EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İlham İsa oğlu Mədətov Azərbaycan Turizm və Menecment Universitetinin rektoru təyin edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 sentyabr 2017-ci il*

## M.V.OCAQOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda musiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mövlud Vəli oğlu Ocaqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Əliyev Sabir Məhərrəm oğlu

**"Əməkdar artist"**
Əliyeva Tamilla Əliyevna
İbrahimov Əliəhməd Mikayıl oğlu
Məhərrəmov Vasif Məmmədəli oğlu
Məlikov Nadir Adil oğlu
Məmmədov Rafiq Əsgər oğlu
Novruzov Əfsər Dilavər oğlu
Sadıq-zadə İlahə Toğrul qızı
**"Əməkdar müəllim"**
Axundova Solmaz Məmməd qızı
Sadıqova Zülfiyyə Şükür qızı
Zeynalova Aliyə Aydın qızı
**"Əməkdar mədəniyyət işçisi"**
Ağasızadə Rasim Ağa oğlu
İbadova Zülfiyyə Əli qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 15 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRİN TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda turizm sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:
**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**
Qılıncov Bəxtiyar Vaqif oğlu
**"Tərəqqi" medalı ilə**
Ağakərimov Müzəffər Mehdi oğlu
Əliyev Zakir Haşım oğlu
Qədəşov Tahir Ərziman oğlu
Yusufov Rüfət Teymur oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ DÖVLƏT MUZEYİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR ARTİST" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanın musiqi irsinin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar artist" fəxri adı verilsin:

Abdullayev Davud Bəxtiyar oğlu

Rəhimova Fəzilə Vaqif qızı.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 sentyabr 2017-ci il*

## A.H.BAYRAMOVANIN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin təbliğində səmərəli fəaliyyətinə görə Alla Hacı Ağa qızı Bayramova "Tərəqqi" medalı ilə təltif edilsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 26 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN XALÇA MUZEYİNİN ƏMƏKDAŞLARININ "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan xalça sənətinin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abasova Aygün Elşad qızı

Səlimov Yalçın Ramiz oğlu.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN XALÇA MUZEYİNİN ƏMƏKDAŞLARININ "AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU" İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq**qərara alıram:**

Azərbaycan xalça sənətinin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Ağayeva Püstə Tofiq qızı
Məlikova Təranə Nadir qızı
Zeynalova Rəma Mais qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN XALÇA MUZEYİNİN ƏMƏKDAŞLARINA FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan xalça sənətinin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar rəssam"**
Bəşirov Taryer Ağaveyis oğlu
**"Əməkdar mədəniyyət işçisi"**
Şirəliyeva Asya Əlimövsüm qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 sentyabr 2017-ci il*

## T.Q.İSGƏNDƏROVANIN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda mədəni irsin təbliğində səmərəli fəaliyyətinə görə Təranə Qulam-Rza qızı İsgəndərova "Tərəqqi" medalı ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 sentyabr 2017-ci il*

## AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda muzey işinin inkişafı və mədəni irsin təbliğində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Əfəndiyev Toğrul Rasim oğlu
Əsədova Xədicə Vəli qızı
Həbibova Sevda Nürəddin qızı
Məlikova Əminə Zakir qızı
Nuriyeva Mehriban Qulam qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 sentyabr 2017-ci il*

## 2017-Cİ İL OKTYABRIN 15-DƏN NOYABRIN 15-DƏK BAKI ŞƏHƏRİNDƏ KEÇİRİLƏCƏK TİCARƏT FESTİVALI ("SHOPPİNG FESTİVAL") İLƏ BAĞLI ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında turizmin inkişafı istiqamətində görülən işlərin davamı olaraq, 2017-ci il oktyabrın 15-dən noyabrın 15-dək Bakı şəhərində ticarət festivalının ("shopping festival") təşkili məqsədi ilə Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 sentyabr 2017-ci il*

## GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI QARA QARAYEVİN 100 İLLIK YUBİLEYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci ilin fevral ayında Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Əbülfəz oğlu Qarayevin anadan olmasının 100 illiyi tamam olur.

Qara Qarayev Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi özünəməxsus nadir fitri istedada malik şəxsiyyətlərdəndir. Novator sənətkar kimi o, uzun əsrlik qədim milli musiqi irsinin ənənəvi klassik və ən müasir musiqi formalarıyla son dərəcə ahəngdar vəhdətində çox sayda monumental əsərlər meydana gətirmişdir. Həyat, insan və zaman haqqında dərin fəlsəfi düşüncələri bütün vüsəti ilə yüksək professional səviyyədə əks etdirən həmin ecazkar sənət nümunələri daim əxlaqi-mənəvi kamilliyə çağırır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin tarixi nailiyyətlərlə zənginləşdirilməsi və dünya miqyasında tanıdılmasında müstəsna xidmətlər göstərmiş görkəmli sənətkar Qara Qarayevin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 17 oktyabr 2017-ci il***

## BÖYÜK AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU HÜSEYN CAVİDİN 135 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2017-ci ildə Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi, görkəmli şair və dramaturq Hüseyn Cavidin (Hüseyn Abdulla oğlu Rasizadənin) anadan olmasının 135 illiyi tamam olur.

Hüseyn Cavid son dərəcə dərin məzmunlu yaradıcılığı ilə çoxəsrlik Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərlər bəxş etmiş qüdrətli söz sənətkarıdır. O, Şərqin zəngin fəlsəfi-poetik irsi zəminində yüksələrək və dünya romantizm ənənələrindən uğurla bəhrələnərək Azərbaycan xalqının ədəbi-bədii fikir salnaməsinə parlaq səhifələr yazmışdır. Mütəfəkkir sənətkarın neçə-neçə oxucu və tamaşaçı nəslinin estetik zövqünü müəyyənləşdirən əsərləri bu gün də öz monumentallığını və yüksək təsir gücünü qorumaqdadır.

Totalitarizmin çoxsaylı qurbanlarından biri kimi Cavidin adı doğma xalqının təfəkküründə obrazlaşmışdır. Ağır repressiya illərində mənən sarsılmadan keçdiyi ibrətamiz həyat yolu onu yaddaşlarda sənətkar şəxsiyyətinin bütövlüyünün rəmzinə çevirmişdir.

Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Hüseyn Cavidin nəşinin hələ 1982-ci ildə uzaq Sibirdən vətəninə gətirilməsi və Naxçıvanda məzarı üzərində möhtəşəm məqbərənin ucaldılması milli ruhun dirçəlişi və azərbaycançılıq məfkurəsinin təntənəsi baxımından müstəsna əhəmiyyətə malik misilsiz bir hadisədir.

Azərbaycan ədəbiyyatının inkişafı naminə müstəsna xidmətlər göstərmiş böyük söz ustası Hüseyn Cavidin 135 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Hüseyn Cavidin 135 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 oktyabr 2017-ci il***

## R.C.ABDULLAYEVİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğindəki böyük xidmətlərinə görə Rauf Canbaxış oğlu Abdullayev "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 oktyabr 2017-ci il***

## ÜZEYİR HACIBƏYLİ ADINA AZƏRBAYCAN DÖVLƏT SİMFONİK ORKESTRİNİN BƏDİİ HEYƏTİNİN İŞÇİLƏRİNİN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan mədəniyyətinin inkişafında, müasir ifaçılıq sənətimizin, milli və dünya klassik musiqisinin təbliğində uzunillik səmərəli fəaliyyəti ilə seçilən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin rolunu nəzərə alaraq, onun işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. 2017-ci il noyabrın 1-dən Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii heyətinə aid olan işçilərinin aylıq vəzifə maaşlarına 500 manat məbləğində Azərbaycan Respublikasının Prezidentinin əlavəsi müəyyən edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına "Akademik" statusun verilməsi barədə qərarını 2017-ci il noyabrın 1-dən tətbiq etsin.

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 noyabr 2017-ci il***

## GƏNCƏ DÖVLƏT DRAM TEATRININ TİKİNTİSİNİN DAVAM ETDİRİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri bölgüsündə Gəncə Dövlət Dram Teatrının tikintisinin davam etdirilməsi üçün maliyyə vəsaitini nəzərdə tutsun.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 13 noyabr 2017-ci il***

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT DİL KOMİSSİYASININ YENİ TƏRKİBİNİN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Qədim tarixi keçmişin izlərini özündə yaşadan və milyonlarla azərbaycanlının ünsiyyət vasitəsi olan Azərbaycan dili xalqımızın misilsiz mənəvi sərvəti, milli varlığımızın və dövlət müstəqilliyimizin başlıca rəmzlərindəndir. Ən dərin fikirləri ən incə çalarlarınadək ifadə qüdrətinə malik dilimiz öz kamilliyi və zənginliyinə görə dünya dilləri içərisində layiqli yerini bu gün də qoruyub saxlayır.

Azərbaycan dilinin dövlət dili olaraq qorunması və işləkliyinin təmin edilməsi müstəqil dövlət quruculuğunun prioritet prinsipləri sırasındadır. Ötən illər ərzində Azər-

baycan dilinin rəsmi statusunun təminatı və tətbiqinin təkmilləşdirilməsinə dair müxtəlif qanun, fərman və sərəncamlar təsdiq edilmişdir. Dövlət dilinin həyatın hər bir sahəsində qeyd-şərtsiz işləkliyinin genişləndirilməsini və saflığının qorunmasını nəzərdə tutan bu sənədlər ölkədə dövlət dilinin tətbiqinin normativ hüquqi əsaslarını və icra mexanizmini tam müəyyən etmişdir. Bütün bunlar Azərbaycan dilinə məhz dövlətçiliyin əsas atributlarından biri kimi yanaşmanın bariz nümunəsi, dövlətin yüksək diqqət və qayğısının aydın təzahürüdür. Atılan addımlar ədəbi dilin daha da zənginləşməsi və tətbiq dairəsinin genişlənməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Eyni zamanda, qloballaşma proseslərinin geniş vüsət aldığı müasir dövrdə texnoloji yeniliklərin insanlar tərəfindən sürətlə mənimsənilməsi və maneəsiz informasiya mübadiləsi imkanlarının artması ana dilinin potensial imkanlarından lazımınca istifadəsində bəzi çətinliklər yaratmaqdadır. Mövcud şərait milli ideya – azərbaycançılıq məfkurəsi işığında dövlət dilinin saflığının qorunması və ədəbi dildən düzgün istifadə məsələlərinin daim diqqət mərkəzində saxlanılmasını zəruri edir. Bu istiqamətdə həyata keçiriləcək fəaliyyətin ardıcıllığının tənzimlənməsini və Azərbaycan dilinin işlənmə imkanlarının daha da genişləndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası aşağıdakı yeni tərkibdə təsdiq edilsin:

**Komissiyanın sədri**

İlham Əliyev – Azərbaycan Respublikasının Prezidenti

**Komissiya sədrinin müavinləri**

Mehriban Əliyeva – Azərbaycan Respublikasının Birinci vitse-prezidenti

Ramiz Mehdiyev – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Akif Əlizadə – AMEA-nın prezidenti

Anar Rzayev – Azərbaycan Yazıçılar Birliyinin sədri

**Komissiyanın üzvləri**

Vasif Talıbov – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı

Elçin Əfəndiyev – Azərbaycan Respublikası Baş nazirinin müavini

Hacıbala Abutalıbov – Bakı şəhər İcra Hakimiyyətinin başçısı

Mikayıl Cabbarov – Azərbaycan Respublikasının təhsil naziri

Əbülfəs Qarayev Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri

Əli Həsənov – Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi – şöbə müdiri

İsa Həbibbəyli – AMEA-nın vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Respublikası Milli Məclisinin Təhsil komitəsinin sədri, AMEA-nın həqiqi üzvü

| | | |
|---|---|---|
| Rafael Hüseynov | – | Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri, AMEA-nın həqiqi üzvü |
| Kamal Abdullayev | – | Azərbaycan Dillər Universitetinin rektoru, AMEA-nın həqiqi üzvü |
| Nizami Cəfərov | – | Azərbaycanda Atatürk Mərkəzinin müdiri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın həqiqi üzvü |
| Vasim Məmmədəliyev | – | Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı, AMEA-nın həqiqi üzvü |
| Teymur Kərimli | – | AMEA Humanitar Elmlər Bölməsinin akademik-katibi, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü |
| Möhsün Nağısoylu | – | AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü |
| Muxtar İmanov | – | AMEA-nın Folklor İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü |
| Əbülfəz Quliyev | – | AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü |
| Arif Alışanov | – | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri |
| Mövlud Süleymanlı | – | xalq yazıçısı |
| Sabir Rüstəmxanlı | – | xalq şairi |
| Adil Babayev | – | Azərbaycan Dillər Universitetinin kafedra müdiri, professor |
| Mübariz Yusifov | – | Gəncə Dövlət Universitetinin filologiya fakültəsinin dekanı, professor |
| Elbrus Əzizov | – | Bakı Dövlət Universitetinin professoru |
| Buludxan Xəlilov | – | Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru |
| Aydın Ələkbərov | – | filologiya elmləri doktoru, professor |
| İsmayıl Məmmədov | – | AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor |
| Sayalı Sadıqova | – | AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor |
| Afaq Vəliyeva | – | Tərcümə Mərkəzinin direktoru |
| Əflatun Amaşov | – | Azərbaycan Mətbuat Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı |
| Aydın İbadov | – | Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin direktoru |

2. Azərbaycan Milli Elmlər Akademiyası aidiyyəti qurumlarla birlikdə Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı tədbirlər planını üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

3. "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 4 iyul tarixli 766 nömrəli

Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №7, maddə 500; 2006, №9, maddə 743) ləğv edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 13 noyabr 2017-ci il*

## "BAKI PROSESİ"NİN 10-CU İLDÖNÜMÜNÜN QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasındakı mövcud mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti bu çoxmillətli və çoxkonfessiyalı ölkəni dünyada sivilizasiyalararası dialoqun məkanı kimi tanıtmışdır. Azərbaycan dövləti tərəfindən mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın təşviqinə yönələn beynəlxalq miqyaslı tədbirlər onun mədəni müxtəlifliyə dəstəyinin bariz göstəricisidir.

2008-ci ilin dekabrında Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda konfransında İslam və Qərb sivilizasiyaları, eləcə də xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Bakı Prosesi" təşəbbüsü irəli sürülmüşdür. Konfransda "Mədəniyyətlərarası dialoqu təşviq etmək naminə Bakı bəyannaməsi" qəbul edilmişdir.

Bu çərçivədə 2009-cu ilin oktyabrında Bakıda İslam ölkələri mədəniyyət nazirlərinin VI Konfransında Azərbaycanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasına üzv dövlətlər arasında əməkdaşlığı gücləndirmək məqsədilə keçirilən görüşdə "Bakı prosesi – dialoq və mədəni müxtəlifliyə dəstək: Sivilizasiyalar arasında dialoq naminə yeni çağırışlar" adlı kommünike qəbul edilmişdir. 2010-cu ildə "Bakı Prosesi" artıq regional təşəbbüsdən qlobal çağırışa çevrilməyə başlamışdır.

Ötən on il ərzində ölkədə "Bakı Prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilmişdir. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir.

Beynəlxalq miqyaslı tədbirlər sırasında Bakı Beynəlxalq Humanitar Forumunun da xüsusi yeri vardır. Forum qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparılması üçün tanınmış dövlət xadimlərini, Nobel mükafatı laureatlarını və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərini, o cümlədən dünyanın siyasi, elmi və mədəni elitasının görkəmli nümayəndələrini dəfələrlə bir araya gətirmişdir.

Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında BMT Baş Assambleyasının 72-ci sessiyasındakı "Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi"

adlı məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan "Bakı Prosesi"ni xüsusi vurğulaması sivilizasiyalar arasında qədim dövrlərdən bəri körpü rolunu oynamış Azərbaycanın mədəniyyətlərarası dialoqa hazırkı mərhələdə verdiyi töhfələrin beynəlxalq miqyasda etirafı olaraq qiymətləndirilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi aidiyyəti dövlət qurumları ilə birlikdə və tərəfdaş beynəlxalq təşkilatların təklifləri nəzərə alınmaqla, "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu iki ildən bir keçirilsin və Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi həmin forumlarla bağlı tədbirlər üzrə əlaqələndirici orqan müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 17 noyabr 2017-ci il*

## Ş.H.ŞƏRİFOVA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Gəncə şəhərinin sosial-mədəni həyatında fəal iştirakına görə Şərif Hacı oğlu Şərifova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 noyabr 2017-ci il*

# GƏNCƏ ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gəncə şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Bayramov Adil Müseyib oğlu

Bayramov Rafael Əli oğlu

İbrahimova Sevinc Süleyman qızı

**"Əməkdar artist"**

Məmmədova Kəmalə İmdad qızı

**"Əməkdar rəssam"**

Abdullayev Faik Nağı oğlu

İmamverdiyev Musa İsmayıl oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Cəfərova Mehparə İrza qızı

Hacıyev Sənan Zahid oğlu

Hüseynova Xəzangül Abbasqulu qızı

Muradov Bəxtiyar Yunis oğlu

**"Əməkdar müəllim"**

Abdullayeva Sahibə Zahid qızı

Hüseynov Valeh Məmməd oğlu

Qurbanəliyeva Sevda Firuddin qızı

Məmmədova Sara Zeynal qızı

Səfərova Aidə Kamal qızı

Yusifova Elnura Məsim qızı

**"Əməkdar həkim"**

Əsgərova Sevda Cəmil qızı

Rəhimov İlqar Mahmud oğlu

Sadıqova Xalidə İdris qızı

**"Əməkdar memar"**

Musayev Nəbi Əmirqulu oğlu

"Əməkdar bədən tərbiyəsi və idman xadimi"

Həsənov Asif Zahid oğlu

**"Əməkdar jurnalist"**

Nəbiyev Yaşar Nəcəf oğlu

**"Əməkdar mühəndis"**

Babayev Tahir Qüdrət oğlu

Qəhrəmanov Bəhruz Şərif oğlu
Mustafayev Hafiz Carı oğlu
Ramazanov Əkbər Əhməd oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 noyabr 2017-ci il*

## MUZEY SƏRVƏTLƏRİ VƏ XATİRƏ ƏŞYALARININ ELMİ-BƏRPA MƏRKƏZİNİN ƏMƏKDAŞLARINA "ƏMƏKDAR MƏDƏNİYYƏT İŞÇİSİ" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda muzey eksponatlarının qorunması, bərpası və konservasiyasında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilsin:

Əliyeva Bəstixanım İsgəndər qızı
Əliyeva Ruhəngiz Ağabala qızı
Quliyeva Sima Əhməd qızı
Sadıxova Nairə Hafiz qızı
Tağıyeva Xatirə Sətdar qızı.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 30 noyabr 2017-ci il*

## "MUZEYLƏR HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 31 OKTYABR TARİXLİ 829-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 829-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 8 dekabr 2017-ci il***

## AZƏRBAYCAN MEMARLARINA “ƏMƏKDAR MEMAR” FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə “Əməkdar memar” fəxri adı verilsin:

Baybekov Ravil Saleh oğlu
Cəfərov Xəlil Ələkbər oğlu
Miralayev Fəxrəddin Böyük oğlu
Namazov Müsədin Əhməd oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 18 dekabr 2017-ci il***

## AZƏRBAYCAN MEMARLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Şöhrət" ordeni ilə**

Bəylərov İlqar Xıdır oğlu
İsbatov İlqar Aydın oğlu

**"Tərəqqi" medalı ilə**

Amənzadə Raihə Barxudar qızı
Əzimzadə İnarə Çingiz qızı
İbrahimov Kamal İbrahim oğlu
Kərimova Təranə Həmzə qızı
Qaçayev Fərid Məmməd oğlu
Qurbanəliyev Zaur Ramiz oğlu
Mahmudbəyov Namiq İskəndər oğlu
Məmmədov Maqsud Teymur oğlu
Novruzzadə Şeyda Natiq qızı
Sadıxov Cahangir İsmayıl oğlu
Şixzamanov Nizami Eyyub oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 2017-ci il*

## AZƏRBAYCAN MEMARLARINA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda memarlığın inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abdullayev Tofiq Əli oğlu
Şəkixanov Tofiq Həmid oğlu.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 18 dekabr 2017-ci il*

## Ö.H.ELDAROVUN "HEYDƏR ƏLİYEV" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Ömər Həsən oğlu Eldarov "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 19 dekabr 2017-ci il*

## SUMQAYIT ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan şəxslərə aşağıdakı fəxri adlar verilsin:

**"Əməkdar mühəndis"**
Əhmədov Xəndan Mürsəl oğlu
Əliyev Hamlet İspəndiyar oğlu
Nuriyev Söhbətdin Nadir oğlu
Zeynalov Akif Həsən oğlu
**"Əməkdar həkim"**
Cavadova Mehparə Allahverdi qızı
Eyvazov Rəfayıl Qurban oğlu
İbadov Kamil Bahadur oğlu
**"Əməkdar jurnalist"**
Dəmirov İldırım Gülalı oğlu
Yolçuyev Varis Musa oğlu
**"Əməkdar müəllim"**
Pirquliyeva Mətanət Səfər qızı
Şirinov Məhəmməd Bəşir oğlu
**"Əməkdar artist"**
Hüseynov Eytiram Bahadur oğlu
Şirinov Təhmiraz Məhyəddin oğlu
**"Əməkdar mədəniyyət işçisi"**
Süleymanov Vaqif Səttar oğlu.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 20 dekabr 2017-ci il*

## SUMQAYIT ŞƏHƏRİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ İNKİŞAFINDA XİDMƏTLƏRİ OLAN ŞƏXSLƏRİN "TƏRƏQQİ" MEDALI İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abuşov Qüdrət Səfiyar oğlu
Ağayev Ələsgər Qardaşxan oğlu
Bəşirov İlham Cavanşir oğlu
Cəfərov Eyvaz Ağalar oğlu
Cəfərov Şakir İbrahim oğlu
Cəlilova Nazilə Yavər qızı
Çələbizadə Nizami Maxsud oğlu
Əliyev Fikrət İsmayıl oğlu
Əmirov Əli Mənsimalı oğlu
İsmayılov Faiq Qəzənfər oğlu
İsmayılov İsrail Əşrəf oğlu
Kərimov Akif Abbas oğlu
Quliyev Yaşar Məhərrəm oğlu
Məmmədov Cəlal Alşan oğlu
Məmmədov Qardaşxan Məcid oğlu
Musayev Şakir Musa oğlu
Nəbiyev Namiq Şirvan oğlu
Rəşidov Mirzağa Mürşüd oğlu
Səfərli İlham Mahmud oğlu
Səmədov Teymur Qırımxan oğlu
Süleymanov Qadir Əli oğlu
Şəfiyev Əşrəf Cavad oğlu
Nağıyeva Tərlanə Yavər qızı
Yusifov Emil Aydın oğlu.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 20 dekabr 2017-ci il***

## ELZA İBRAHİMOVANIN 80 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci ilin yanvar ayında Azərbaycanın tanınmış bəstəkarı, xalq artisti, əməkdar incəsənət xadimi Elza İmaməddin qızı İbrahimovanın anadan olmasının 80 illiyi tamam olur.

Elza İbrahimova musiqinin ən müxtəlif janrlarında yüksək bədii təsir gücünə malik, mənəvi saflıq aşılayan çox sayda dərin məzmunlu əsərlər meydana gətirmişdir. Bəstəkarın uzun illər görkəmli ifaçıların repertuarını daha da zənginləşdirmiş mahnıları müasir Azərbaycan musiqi sənəti xəzinəsinin dəyərli nümunələri olub, özünə xas lirizmi və melodikliyi sayəsində dinləyicilərin böyük rəğbətini qazanmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın musiqi mədəniyyətinin inkişafına layiqli töhfələr vermiş bəstəkar Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, bəstəkar Elza İbrahimovanın 80 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 dekabr 2017-ci il***

## F.Ş.BƏDƏLBƏYLİNİN "İSTİQLAL" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə Fərhad Şəmsi oğlu Bədəlbəyli "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 25 dekabr 2017-ci il***

## R.Y.BABAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Rauf Yusuf oğlu Babayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 28 dekabr 2017-ci il***

## S.İ.MƏMMƏDOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda rəssamlıq sənətinin inkişafında və təbliğində böyük xidmətlərinə görə Salxab İsa oğlu Məmmədov "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 dekabr 2017-ci il*

## F.A.BABAYEVİN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə Fərhad Ağa Səlim oğlu Babayev "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 yanvar 2018-ci il*

## A.M.ƏZİZOVUN "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Arif Möhübəli oğlu Əzizov "Şöhrət" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 yanvar 2018-ci il*

## 2018-Cİ İLİN AZƏRBAYCAN RESPUBLİKASINDA "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ" ELAN EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 10 yanvar 2018-ci il***

## "TURİZM HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ" AZƏRBAYCAN RESPUBLİKASININ 2017-Cİ İL 29 DEKABR TARİXLİ 964-VQD NÖMRƏLİ QANUNUNUN TƏTBİQİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 964-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi

barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 11 yanvar 2018-ci il***

## AZƏRBAYCAN KİNOSUNUN 120 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci ilin avqust ayında Azərbaycan kinosunun 120-ci ildönümü tamam olur. Neft Bakısına dair ilk xronikal süjetlərin nümayişi ilə başlayan Azərbaycan kino sənəti təşəkkül tapdığı vaxtdan etibarən böyük inkişaf yolu keçmiş və ötən müddət ərzində xalqın mədəni-mənəvi həyatında özünəməxsus mövqe qazanmışdır. Kino yaradıcılığı işinin uğurlu təşkili sayəsində ölkə kinematoqrafiyası sonralar öz imkanlarını getdikcə daha da artırmış, əldə etdiyi nailiyyətlərlə Azərbaycanın zəngin mədəniyyət salnaməsinə parlaq səhifələr yazmışdır. Peşəkar kadrlar tərəfindən yüksək sənətkarlıqla yaradılaraq Azərbaycan kinosu tarixində xüsusi yer tutan ekran əsərləri əsas etibarilə həmin dövrün məhsuludur.

1990-cı illərdə müəyyən çətinliklərlə qarşılaşmış Azərbaycan kinematoqrafiyasının yeni şəraitdə kino ənənələrimizi qorumaqla yanaşı, öz potensialını gerçəkləşdirməsi, həmçinin modernləşdirilməsi və dünya kino sənayesinə daha sürətli inteqrasiya etməklə səmərəli fəaliyyət göstərə bilməsi istiqamətində bir sıra zəruri addımlar atıldı. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan kinosunun 2008–2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2008-ci il 4 avqust tarixli Sərəncamı Azərbaycanın kino sənətinin inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir. Azərbaycan filmlərinin son illər beynəlxalq festivallarda fəal iştirakı həmin Dövlət Proqramı çərçivəsində silsilə tədbirlərin müvəffəqiyyətlə icrasının nəticəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və tarixi-mədəni irsin, əxlaqi-mənəvi dəyərlərin təbliğində mühüm rolunu nəzərə alaraq Azərbaycan kinosunun 120 illiyinin ölkənin mədəni həyatında əlamətdar hadisə kimi qeyd edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan kinosunun 120 illiyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2018-ci il***

## 2018-Cİ İL GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədəniyyət, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2018-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Camalova Reyhan Rauf qızı
Əlfidatlı Gülnar Teyyub qızı
Fərəcov Xaqani Surxay oğlu
Quliyev Ağarəhim Vaqif oğlu
Səfərova Zümrüd Rasim qızı
Zeynalova Aysun Gülağa qızı.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2018-ci il***

## "MAQSUD İBRAHİMBƏYOV YARADICILIQ MƏRKƏZİ"NİN TƏSİS EDİLMƏSİ İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Görkəmli yazıçı, kinodramaturq və rejissor, Azərbaycan Respublikasının Dövlət Mükafatı laureatı, Xalq yazıçısı Maqsud Məmmədibrahim oğlu İbrahimbəyov milli sənət xəzinəsini zənginləşdirən əsərləri ilə Azərbaycan mədəniyyəti salnaməsinə parlaq səhifələr yazmışdır. Onun bədii əsərlərini, eləcə də ssenariləri əsasında çəkilmiş filmləri oxucular və tamaşaçılar daim rəğbətlə qarşılamışlar.

Çoxəsrlik ənənələri olan Azərbaycan mədəniyyətinin inkişafına dəyərli töhfələr vermiş Xalq yazıçısı Maqsud İbrahimbəyovun xatirəsini əbədiləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi və fəaliyyətinin təmin

olunması üçün "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə dövlət büdcəsindən əlavə 220 000 (iki yüz iyirmi min) manat vəsait ayrılsın.

2. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi ilə əlaqədar təşkilati məsələləri iki ay müddətində həll etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin etsin;

3.3. bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş maliyyə vəsaitinin dövlət büdcəsindən ayrılmasını təmin etsin;

3.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 1 fevral 2018-ci il*

## K.C.CƏLİLOVUN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə Kamil Cəlil oğlu Cəlilov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 fevral 2018-ci il*

## MİNGƏÇEVİR DÖVLƏT DRAM TEATRININ 50 İLLİYİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2018-ci ilin mart ayında Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi tamam olur.

Mingəçevir Dövlət Dram Teatrı mədəniyyət ocağı kimi yarandığı vaxtdan etibarən repertuarında Azərbaycan və eləcə də dünya dramaturgiyasının diqqətəlayiq nümunələrinə geniş yer vermiş, öz səhnəsində müvəffəqiyyətlə nümayiş etdirilən və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanan əsərlər ilə ölkədə teatr ənənələrinin daha da zənginləşdirilməsi işində yaxından iştirak etmiş, milli mədəniyyətin ümumi tərəqqisi naminə xidmətlər göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli teatr sənətinin inkişafında özünəməxsus mövqeyə malik Mingəçevir Dövlət Dram Teatrının 50-ci ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Mingəçevir Dövlət Dram Teatrının 50 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 2 fevral 2018-ci il*

## A.Y.ŞAROVSKİNİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Aleksandr Yakovleviç Şarovski "Şərəf" ordeni ilə təltif edilsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 9 fevral 2018-ci il*

## NAXÇIVAN ŞƏHƏRİNDƏ XALÇA İSTEHSALI EMALATXANASININ TİKİNTİSİ, TƏCHİZATI VƏ İNFRASTRUKTURUNUN YARADILMASI İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 15 fevral 2018-ci il***

**SƏRƏNCAM**

## A.İ.BABAYEVİN "ŞƏRƏF" ORDENİ İLƏ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Arif İmran oğlu Babayev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 19 fevral 2018-ci il***

## QOBUSTAN RAYONUNDA XALÇA İSTEHSALI EMALATXANASININ TİKİNTİSİ, TƏCHİZATI VƏ İNFRASTRUKTURUNUN YARADILMASI İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qobustan rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 21 fevral 2018-ci il***

## FƏXRİ ADLARA GÖRƏ AYLIQ TƏQAÜDLƏRİN ARTIRILMASI VƏ "FƏXRİ ADLARA GÖRƏ AYLIQ TƏQAÜDÜN VERİLMƏSİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 2005-Cİ İL 4 İYUL TARİXLİ 878 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİKLƏR EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə və yüksək peşə ustalığına görə fəxri adlara layiq görülmüş şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

1. Fəxri adlara görə aylıq təqaüdlərin məbləği 2018-ci il martın 1-dən artırılaraq "Xalq" fəxri adı üçün 150 (yüz əlli) manat, "Əməkdar" fəxri adı üçün 100 (yüz) manat müəyyən edilsin.

2. "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609, № 11, maddə 1013; 2007, № 4, maddə 361; 2013, № 8, maddə 975, № 11, maddə 1454) 1-ci hissəsinin birinci abzasında "100 manat" sözləri "150 manat" sözləri ilə, "60 manat" sözləri "100 manat" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 fevral 2018-ci il***

## GƏNC İSTEDADLAR ÜÇÜN XÜSUSİ TƏQAÜDÜN MƏBLƏĞİNİN ARTIRILMASI VƏ «GƏNC İSTEDADLAR ÜÇÜN XÜSUSİ TƏQAÜDLƏR TƏSİS EDİLMƏSİ HAQQINDA» AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 1997-Cİ İL 13 SENTYABR TARİXLİ 662 NÖMRƏLİ SƏRƏNCAMINDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, gənc istedadlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na adları yazılmış gənc istedadlar üçün xüsusi aylıq təqaüdün məbləği 2018-ci il martın 1-dən artırılaraq 400 (dörd yüz) manat müəyyən edilsin.

2. «Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamının (Azər-

baycan Respublikasının Qanunvericilik Toplusu, 1997-ci il, № 3, maddə 251; 2007, № 2, maddə 146) 1-ci hissəsində "300" rəqəmləri "400" rəqəmləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 22 fevral 2018-ci il*

## ŞABRAN RAYONUNDA XALÇA İSTEHSALI EMALATXANASININ TİKİNTİSİ, TƏCHİZATI VƏ İNFRASTRUKTURUNUN YARADILMASI İLƏ BAĞLI TƏDBİRLƏR HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2,0 (iki) milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## "AZƏRBAYCAN RESPUBLİKASINDA XALÇA SƏNƏTİNİN QORUNMASINA VƏ İNKİŞAF ETDİRİLMƏSİNƏ DAİR 2018-2022-Cİ İLLƏR ÜÇÜN DÖVLƏT PROQRAMI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, bu sahədə ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev.*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 28 fevral 2018-ci il*

## Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı

### 1. Giriş

Son illərdə Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa diqqət artmışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ölkədə xalçaçılıq ənənələrinin bərpası, xalçaçılığın inkişafı ilə bağlı müvafiq tədbirlər nəzərdə tutulmuşdur və bu sahə ilə məşğul olan şəxslərə zəruri dövlət dəstəyi göstərilir.

Xalçaçılıq dekorativ-tətbiqi sənətin ən geniş yayılmış növlərindən biridir. Xalçalar tarixən həm Azərbaycan xalqının məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətinin bariz nümunəsi olmuşdur. Hər bir xalça toxunduğu yerin təbiəti, onu yaradan insanların dünyagörüşü və inancları ilə bağlı simvolları əks etdirən sənət əsəridir. Ayrı-ayrı regionların coğrafiyası, tarixi, mədəni və dini mühiti xalçanın özünəməxsus ornament, kompozisiya və digər elementlərinə təsir göstərir. Məhz bu mənada xalçaçılığın inkişafı tarixi, mədəni və maddi irsin qorunması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Dünyada xalça ticarəti istehsal texnikası, investisiya məbləği və bazar strukturuna görə iki qrupa bölünür: əl və sənaye üsulu ilə toxunan xalçalar. Əllə toxunan xalçalar mədəni və maddi irsin qorunmasına söykənən istehsaldır. Sənaye üsulu ilə hazırlanan xalçalar isə daha çox investisiya tələb edən və texniki tekstil kateqoriyasına aid edilə biləcək istehsaldır.

Beynəlxalq təcrübədə bu sahədə həyata keçirilən dəstək tədbirləri aşağıdakı istiqamətləri əhatə edir:

- əl xalçası istehsalına vergi güzəştlərinin tətbiq edilməsi;
- xammal təminatının dəstəklənməsi;
- peşə təhsilinin dəstəklənməsi;
- xalçaçılıq üzrə əsas beynəlxalq sərgilərdə iştirakın qismən maliyyələşdirilməsi;
- ixrac bazarlarının araşdırılması və müəyyən edilməsi işinin dəstəklənməsi;
- xarici bazarlarda reklam və təşviqat fəaliyyətinin dəstəklənməsi;

- daxili bazarın qorunması;
- istehsalçılara müxtəlif texniki dəstək verilməsi;
- xalçaçılıq sahəsində araşdırmaların dəstəklənməsi.

Xalçaçılıq işinin inkişafını dəstəkləyən ölkələr, əsasən, xalçaçılıq sahəsində ölkə brendlərinin yaradılmasına və xarici bazarlarda təşviq edilməsinə xüsusi əhəmiyyət verirlər. Bu isə həmin ölkələrdə xalça istehsalının rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaradır.

“Azerbaijan carpet” (“Azərbaycan xalçası”) ölkə brendinin yaradılması və xarici bazarlarda tanıdılması Azərbaycan xalçalarının xarici bazarlarda başqa ölkə brendləri adı altında satılmasının qarşısının alınması baxımından olduqca əhəmiyyətlidir.

Yuxarıda qeyd olunan bu və ya digər məsələlər Azərbaycan xalçaçılıq ənənələrinin bərpası, qorunması və inkişafının həm iqtisadi, həm də sənət aspektlərini əhatə edən dövlət proqramının hazırlanmasını zəruri etmişdir.

“Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” (bundan sonra - Dövlət Proqramı) “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikasının 2004-cü il 7 dekabr tarixli 799-IIQ nömrəli Qanununa əsasən hazırlanmışdır.

## 2. Azərbaycanda xalçaçılığın mövcud vəziyyəti

### 2.1. Ümumi məlumat

Xalçaçılıq Azərbaycan xalqının milli mədəniyyət tarixində özünəməxsus yer tutur. Yüksək estetik əhəmiyyət kəsb edən, milli naxış elementləri və təsvirlərlə bəzədilən xovlu və xovsuz xalçaların ornamentlərindən kiçik suvenir nümunələrindən tutmuş müxtəlif binaların divar və döşəmə bəzəklərinədək müxtəlif sahələrdə geniş istifadə edilir.

Azərbaycan xalçaları toxunma texnikasına görə 2 əsas qrupa bölünür: xovsuz və xovlu xalçalar. Xovsuz xalçaların yaranması toxuculuq sənətinin ilk dövrlərinə təsadüf edir. Bu qrupa çətən, həsir, palaz, kilim, cecim, vərni, şəddə, zili və sumax kimi xalçalar daxildir.

Xovlu xalçalar xalça sənətinin texnoloji və bədii inkişafının son dövr məhsuludur. Ümumilikdə Azərbaycanın xovsuz və xovlu xalçaları bədii-texnoloji xüsusiyyətlərinə görə 9 qrup üzrə təsnif və tədqiq olunur: Bakı (Abşeron), Qarabağ, İrəvan, Naxçıvan, Gəncə, Şirvan, Qazax-Borçalı, Quba, Təbriz (Cənubi Azərbaycan). Bu elmi təsnifat şərti xarakter daşıyır və bilavasitə Azərbaycanın ayrı-ayrı bölgələrində mövcud olmuş xalçaçılıq ənənələrinin sistemli şəkildə araşdırılmasına xidmət edir.

2010-cu il noyabr ayının 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin Keniyanın Nayrobi şəhərində keçirilmiş V sessiyasında Azərbaycan xalçaçılıq sənəti UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsi nümunələri siyahısına daxil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 may tarixli 2013 nömrəli Sərəncamı ilə Xalça Muzeyinin müasir binasının tikintisinə başlanılmışdır və artıq 2014-cü il avqustun 26-dan muzey yeni binada öz fəaliyyətini davam etdirir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamı ilə “Azərxalça” Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. Cəmiyyətin əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsindən ibarətdir.

### 2.2. Azərbaycanda xalçaçılıq sahəsində kadr hazırlığı və işçi qüvvəsi

Azərbaycan xalçaçılığı sənət sahəsi kimi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Dövlət Texniki Universitetində, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, eləcə də incəsənətyönlü kollec, lisey və gimnaziyalarda, uşaq rəsm qalereyalarında və digər yerlərdə tədris edilir. Həmçinin "Azərxalça" ASC-nin rayon filiallarının nəzdində xalçaçılıq üzrə tədris-hazırlıq kurslarında peşəkar xalçaçı (toxucu) kadrlar hazırlanır.

1980-ci illərin əvvəllərində ölkədə xalçaçılıq sahəsində çalışanların sayı 7000 nəfərə yaxın olsa da, hazırda Azərbaycan Respublikasında xalçaçılıqla məşğul olan mütəxəssislərin, o cümlədən "Azərxalça" ASC-nin xətti ilə xalça istehsalına cəlb olunmuş şəxslərin sayı təxminən 1000 nəfərə çatır.

### 2.3. Hüquqi baza

Azərbaycanda xalçaçılığın inkişafı üçün zəruri normativ hüquqi baza formalaşdırılmış, əlverişli iqtisadi mühit yaradılmış, xalçaçılığın inkişafı və təbliği istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu sahənin sosial-iqtisadi əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikasının ərazisində ənənəvi olaraq əllə toxunmuş və hazırda xalq sənətkarlarının, rəssamların və ustaların hazırladıqları Azərbaycan xalçalarının qorunub saxlanılması, öyrənilməsi, xalça sənətinin təbliği və inkişafı ilə əlaqədar yaranan münasibətləri tənzimləyən qanunlar, fərmanlar və digər normativ hüquqi aktlar qəbul edilmişdir.

Azərbaycanda xalçaçılığın inkişafına dair normativ hüquqi bazaya aşağıdakılar daxildir:

- "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının 1998-ci il 10 aprel tarixli 470-IQ nömrəli Qanunu;
- "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının 2004-cü il 7 dekabr tarixli 799-IIQ nömrəli Qanunu;
- "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanunu;
- "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2013 nömrəli Sərəncamı;
- "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 5 may tarixli 2032 nömrəli Sərəncamı;
- "Azərbaycan Respublikasında "Xalçaçı günü" peşə bayramının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 noyabr tarixli 2460 nömrəli Sərəncamı;
- "Azərbaycan xalçası" Naxçıvan Muxtar Respublikası Dövlət Muzeyinin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 16 mart tarixli 60 nömrəli qərarı.

### 2.4. Ölkədə xalça istehsalı və xammal

Azərbaycanın zəngin xalçaçılıq ənənələrinə baxmayaraq, son dövrlərdə əllə toxunan xalça istehsalı azalmaqdadır. Belə ki, 2017-ci ildə Azərbaycan Respublikasında sənaye müəssisələri əllə toxunan 564,5 kv.m xalça istehsal etmişlər ki, bu da 2012-ci illə müqayisədə (1,9 min kv.m) təxminən 3,4 dəfə azdır.

Bununla yanaşı, 2017-ci ildə Azərbaycan Respublikasına 3306,1 min kv.m xalça və digər toxunma döşəmə örtükləri idxal edilmişdir və bu rəqəm isə 2012-ci ildə cəmi 1912,6 min kv.m olmuşdur.

Xalça istehsalının azalmasının başlıca səbəbi kimi ölkədə yun iplik istehsalının olmamasını, xalçanın maya dəyərinin baha başa gəlməsini qeyd etmək olar. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, respublikada 2017-ci ildə 16,0 min ton yun istehsal edilsə də, yun iplik istehsal edən müəssisələrin məhdudluğu və

xarici ölkələrdən ucuz qiymətə əllə toxunan xalçaların idxal edilməsi xalça istehsalının azalmasına səbəb olmuşdur.

Bununla belə, Azərbaycan Respublikasında xalça istehsalı müəssisələrinin sayının artırılması istiqamətində işlərin davam etdirildiyini, dövlətin müvafiq dəstəyini və xalçaçılıq sahəsinə marağın getdikcə artdığını nəzərə alsaq, növbəti illərdə xalça istehsalının və ixracının artacağını proqnozlaşdırmaq olar.

### 3. Dövlət Proqramının əsas məqsəd və vəzifələri

3.1. Dövlət Proqramının əsas məqsədi xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və davamlı inkişafıdır.

3.2. Dövlət Proqramının vəzifələri aşağıdakılardır:

3.2.1. xalçaçılığın xammal təminatının yaradılması;

3.2.2. xalçaçılığın infrastruktur təminatının yaxşılaşdırılması;

3.2.3. yeni iş yerləri yaradılmasının dəstəklənməsi;

3.2.4. xalçaçılıq sahəsində, o cümlədən yun emalı, yun və ipək ipliklərin hazırlanması, boyaq bitkilərinin emalı və boyaq maddələrinin istehsalı üzrə ixtisaslı kadr hazırlığının həyata keçirilməsi;

3.2.5. regionların xalçaçılıq potensialının gücləndirilməsi;

3.2.6. "Azerbaijan carpet" ("Azərbaycan xalçası") ölkə brendinin yaradılması, tanıdılması və inkişaf etdirilməsi;

3.2.7. xalçaçılığın rəqabət qabiliyyətinin artırılması;

3.2.8. xalçaçılığın ixrac potensialının artırılması;

3.2.9. sənaye üsulu ilə xalça istehsalı ənənəsinin bərpa edilməsi və inkişafı;

3.2.10. ali məktəblərdə dövlət sifarişi ilə tələbə qəbulu planında nəzərdə tutulmuş mövcud say çərçivəsində və ödənişli təhsil hesabına "xalça sənayesi" və "xalça biznesi" ixtisaslarının tədrisi;

3.2.11. Azərbaycanın tarixi xalçaçılıq mərkəzlərinə xas olan qədim çeşnilərin bərpa edilməsi, istehsalatda tətbiqi, yeni çeşnilərin hazırlanması və bu çeşnilər əsasında xalçaların toxunması.

### 4. Dövlət Proqramının əsas istiqamətləri

4.1. Dövlət Proqramının əsas istiqamətləri aşağıdakılardır:

4.1.1. xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və təbliği;

4.1.2. xalçaçılığın rəqabət qabiliyyətinin yüksəldilməsi və daxili bazarın qorunması tədbirlərinin həyata keçirilməsi;

4.1.3. xalçaçılığın ixrac potensialının gücləndirilməsi;

4.1.4. xalçaçılıqda bütün istiqamətlər üzrə kadr potensialının gücləndirilməsi;

4.1.5. xalçaşünaslıq sahəsi üzrə nəzəri və praktiki elmi tədqiqatların əlaqələndirilməsi, genişləndirilməsi və maddi-texniki bazanın gücləndirilməsi.

### 5. Gözlənilən nəticələr

5.1. Dövlət Proqramının həyata keçirilməsindən gözlənilən nəticələr aşağıdakılardır:

5.1.1. xalçaçılıq ənənələrinin qorunması;

5.1.2. xalça istehsalının rəqabət qabiliyyətinin artırılması;

5.1.3. xalça istehsalının genişləndirilməsi;

5.1.4. xalça ixracının genişləndirilməsi;

5.1.5. xalçaçılıq sahəsində məşğulluğun artması;

5.1.6. xalçaçılıqda məhsuldarlığın artması;

5.1.7. ixtisaslı işçi qüvvəsinin artması;

5.1.8. xalçaçılıq müəssisələrinin fəaliyyətini dəstəkləyən müvafiq mexanizmlərin qurulması;

5.1.9. xalçaçılıq sənətinin inkişafının təmin olunması;

5.1.10. xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının ölkəyə qaytarılmasına nail olunması.

**6. Dövlət Proqramının maliyyələşmə mənbələri**

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları və dövlət qurumları üçün nəzərdə tutulmuş vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

**7. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **7.1. Xalçaçılıq sahəsində maddi və mədəni irsin qorunması və təbliği** | | | |
| 7.1.1. | Əllə xalçatoxuma sənəti sahəsində unudulmaqda olan ənənələrin, bədii və texniki iş üsullarının, xalça çeşnilərinin bərpası və inkişaf etdirilməsi | "Azərxalça" ASC, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Müəllif Hüquqları Agentliyi | 2018-2022 |
| 7.1.2. | Ənənəvi çeşnilər əsasında və bölgələrin ənənələrinə uyğun naxış və rəng ahənginin seçilməsi yolu ilə xalq sənətkarlarının bədii və texniki iş üsullarının öyrənilməsi və təbliği | "Azərxalça" ASC, İqtisadiyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2018-2022 |
| 7.1.3. | Ölkə daxilində və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloqun hazırlanması | Mədəniyyət və Turizm Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Xalça Muzeyi, "Azərxalça" ASC | 2018-2019 |
| 7.1.4. | Kütləvi istehsal olunan və fərdi toxunan Azərbaycan xalçalarının üzərində (ləvərində) tanınma nişanının ("Azərbaycan" sözü və xalça qrupunun adı, yaxud loqo və s.) ilmələrlə toxunmasının təmin edilməsi mexanizmi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Müəllif Hüquqları Agentliyi, "Azərxalça" ASC | 2018-2019 |

| | | | |
|---|---|---|---|
| 7.1.5. | İtirilmə təhlükəsi olan nadir Azərbaycan xalçalarının və xalça məmulatlarının müasir üsullarla bərpasına dəstək mexanizmləri ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC, Mədəniyyət və Turizm Nazirliyi | 2018-2019 |
| 7.1.6. | Xarici ölkələrin muzeylərində saxlanılan nadir Azərbaycan xalçalarının Azərbaycana mənsubluğunun göstərilməsi istiqamətində fəaliyyətin həyata keçirilməsi | Mədəniyyət və Turizm Nazirliyi, Xarici İşlər Nazirliyi,Azərbaycan Milli Elmlər Akademiyası, "Azərxalça" ASC | mütəmadi |
| 7.1.7. | Yüksək keyfiyyətli, bədii əhəmiyyətli, həmçinin nadir xalçaların satın alınması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | "Azərxalça" ASC, İqtisadiyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | 2018-2019 |
| 7.1.8. | Azərbaycan Xalça Muzeyi üçün əhəmiyyət kəsb edən eksponatların alınması | Mədəniyyət və Turizm Nazirliyi, "Azərxalça" ASC | mütəmadi |
| 7.1.9. | Azərbaycan xalçalarının dünyaya tanıdılması məqsədilə xaricdə sərgilərin təşkil edilməsi, xalçaların müasir interpretasiyası, beynəlxalq əlaqələrin qurulması | İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, "Azərxalça" ASC | 2018-2022 |
| **7.2. Rəqabət qabiliyyətinin artırılması və daxili bazarın qorunması** | | | |
| 7.2.1. | Yun iplik istehsalının təşkilinin dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2022 |
| 7.2.2. | İpək iplik istehsalının təşkilinin dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi | 2018-2022 |
| | | | |
| 7.2.3. | Sumqayıt Kimya Sənaye Parkında əyirici-boyaq müəssisəsinin yaradılması və fəaliyyətinin təşkili | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC, Əmlak Məsələləri Dövlət Komitəsi | 2018-2020 |
| 7.2.4. | İpliklərin təbii boyaqlarla boyanması üçün müvafiq istehsal sahəsinin təşkilinin dəstəklənməsi | İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli ElmlərAkademiyası | 2018-2022 |
| 7.2.5. | Mingəçevir Sənaye Parkında sənaye üsulu ilə xalça istehsalı müəssisəsinin yaradılması | İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, "Azərxalça" ASC | 2018-2021 |

| | | | |
|---|---|---|---|
| 7.2.6. | Ölkə ərazisində xalça istehsalı sahələrinin yaradılması ilə bağlı tədbirlərin həyata keçirilməsi | İqtisadiyyat Nazirliyi, “Azərxalça” ASC | 2018-2022 |
| 7.2.7. | Əl xalçası istehsalına vergi güzəştlərinin tətbiqi ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | Vergilər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi | 2018 |
| 7.2.8. | Əllə xalça istehsalı müəssisələrinə güzəştli kreditlərin verilməsi və qrantların ayrılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi, “Azərxalça” ASC | 2018-2019 |
| 7.2.9. | “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin institusional potensialının gücləndirilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsi | Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi,Əmlak Məsələləri Dövlət Komitəsi, “Azərxalça” ASC | 2018 |
| 7.2.10. | Azərbaycana idxal edilən əllə toxunmuş xalçalara xüsusi rüsumun (xalçaların bərpa olunması üçün müvəqqəti idxal və həmçinin yenidən ixrac istisna olmaqla) tətbiqi ilə bağlı “Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tədbirlərin görülməsi | Nazirlər Kabineti, Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi | 2018 |
| 7.2.11. | Əllə toxunmuş xalçaların reyestri sisteminin qurulması və aparılması | “Azərxalça” ASC | 2018-2019 |
| 7.2.12. | Azərbaycan xalçası adı altında xaricdə istehsal edilən saxta xalçaların Azərbaycana idxalının və satışının qarşısının alınması | Dövlət Gömrük Komitəsi, İqtisadiyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | mütəmadi |
| 7.2.13. | Xalçalara Azərbaycan Respublikasından çıxarılmaq üçün şəhadətnamə verilməsi ilə bağlı ödənişlərin azaldılması və şəhadətnamə verilməsi prosedurunun sadələşdirilməsi | İqtisadiyyat Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, “Azərxalça” ASC | 2018 |

| | | | |
|---|---|---|---|
| 7.2.14. | Bakıda və regionlarda fəaliyyət göstərən xalçaçılıq emalatxanalarının turizm nümayiş obyekti kimi Azərbaycanın mədəni turizm marşrutlarına daxil edilməsi və turizm informasiya mərkəzləri vasitəsilə xalçaçılıq irsinin təbliğ edilməsi | Mədəniyyət və Turizm Nazirliyi, "Azərxalça" ASC | 2018-2019 |
| **7.3. Xalçaçılığın ixrac potensialının gücləndirilməsi** | | | |
| 7.3.1. | Xarici xalça bazarlarının araşdırılması və yerli xalça istehsalçılarının məlumatlandırılması | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC | mütəmadi |
| 7.3.2. | "Azerbaijan carpet" ("Azərbaycan xalçası") brendinin yaradılması, inkişaf etdirilməsi və xarici bazarlarda təşviqi | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC | 2018-2022 |
| 7.3.3. | Əllə toxunmuş xalça ixracının subsidiyalaşdırılması ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC | 2018-2019 |
| 7.3.4. | Əllə toxunmuş Azərbaycan xalçalarının ixracı və xaricdə satışının təşkili ilə bağlı təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi | İqtisadiyyat Nazirliyi, "Azərxalça" ASC | 2018-2019 |
| 7.3.5. | Azərbaycanda istehsal olunan xalçaların ixracının təşviqi üçün internet portalının yaradılması | İqtisadiyyat Nazirliyi,"Azərxalça" ASC | 2018-2019 |
| **7.4. Elmi potensial və kadr təminatı** | | | |
| 7.4.1. | Əllə xalçatoxuma sahəsində peşə təhsilinin dəstəklənməsi | Təhsil Nazirliyi, "Azərxalça" ASC, Mədəniyyət və Turizm Nazirliyi | 2018-2022 |
| 7.4.2. | Sənaye üsulu ilə xalçatoxuma sahəsində təhsilin dəstəklənməsi | Təhsil Nazirliyi, "Azərxalça" ASC, Mədəniyyət və Turizm Nazirliyi | 2018-2022 |
| 7.4.3. | Əllə xalçatoxuma sənəti ilə bağlı innovativ və elmi araşdırmalara, nəşrlərə (kitablara, dərsliklərə, dövri nəşrlərə və s.) və tədris-hazırlıq kurslarının təşkilinə qrantların ayrılması | Elmin İnkişafı Fondu, Azərbaycan Milli Elmlər Akademiyası, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | 2018-2022 |
| 7.4.4. | Xalça sənətinə dair elmi tədqiqat işlərinin əlaqələndirilməsi və metodiki tədbirlərin həyata keçirilməsi | Azərbaycan Milli Elmlər Akademiyası, "Azərxalça" ASC | 2018-2022 |

# MÜNDƏRİCAT

## TƏBRİKLƏR

### 2013

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ........ 3
*12 oktyabr 2013-cü il*

Xalq rəssamı Tahir Salahova........ 3
*28 noyabr 2013-cü il*

YUNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII sessiyasına ........ 4
*2 dekabr 2013-cü il*

Dünya Azərbaycanlılarına ........ 5
*25 dekabr 2013-cü il*

"Rus icması - 20 il Yeni Azərbaycanın Xalqlar Ailəsində" Respublika konfransının iştirakçılarına ........ 6
*25 dekabr 2013-cü il*

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ........ 7
*31 dekabr 2013-cü il*

### 2014

Azərbaycanın pravoslav xristian icmasına ........ 10
*3 yanvar 2014-cü il*

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ........ 10
*7 mart 2014-cü il*

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ........ 11
*18 mart 2014-cü il*

Azərbaycanın pravoslav xristian icmasına ........ 12
*17 aprel 2014-cü il*

Azərbaycan Yazıçılar Birliyinə ........ 12
*17 iyun 2014-cü il*

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ........ 13
*25 iyul 2014-cü il*

"Mədəniyyətlərarası Dialoq: Mədəniyyət və Din arasında qarşılıqlı əlaqə" mövzusunda 2014-cü il Mədəniyyətlərarası Dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşünün iştirakçılarına ....14
*27 avqust 2014-cü il*

Azərbaycanın yəhudi icmasına ....14
*23 sentyabr 2014-cü il*

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....15
*1 oktyabr 2014-cü il*

Azərbaycan Rus İcması İctimai Birliyinin IV qurultayının iştirakçılarına ....16
*14 noyabr 2014-cü il*

"Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ....17
*17 noyabr 2014-cü il*

Dünya Azərbaycanlılarına ....18
*24 dekabr 2014-cü il*

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....19
*31 dekabr 2014-cü il*

**2015**

Azərbaycanın pravoslav xristian icmasına ....22
*5 yanvar 2015-ci il*

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ....22
*5 mart 2015-ci il*

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....23
*18 mart 2015-ci il*

Azərbaycanın pravoslav xristian icmasına ....23
*10 aprel 2015-ci il*

"İslam maarifçiliyi və müasir dövr" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ....24
*15 aprel 2015-ci il*

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....25
*15 iyul 2015-ci il*

Xalq artisti Afaq Bəşirqızına ....25
*13 avqust 2015-ci il*

Xalq şairi Fikrət Qocaya ....................26
*1 sentyabr 2015-ci il*

Azərbaycanın yəhudi icmasına ....................26
*10 sentyabr 2015-ci il*

Dərbənd şəhərinin 2000 illiyinə həsr edilmiş təntənəli tədbirin iştirakçılarına ....................27
*18 sentyabr 2015-ci il*

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................28
*22 sentyabr 2015-ci il*

Dünya tarixçilərinin VIII beynəlxalq Atatürk konfransının iştirakçılarına ....................28
*9 oktyabr 2015-ci il*

Rusiya Federasiyasi Kinematoqrafçılar İttifaqının sədri N.S.Mixalkova ....................29
*20 oktyabr 2015-ci il*

Dünya Azərbaycanlılarına ....................30
*24 dekabr 2015-ci il*

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....................31
*31 dekabr 2015-ci il*

**2016**

Azərbaycanın pravoslav xristian icmasına ....................33
*5 yanvar 2016-cı il*

SSRİ Xalq artisti Murad Kajlayevə ....................34
*15 yanvar 2016-cı il*

Xalq şairi Nəriman Həsənzadəyə ....................34
*19 fevral 2016-cı il*

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik ....................35
*4 mart 2016-cı il*

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................36
*16 mart 2016-cı il*

Azərbaycanın pravoslav xristian icmasına ....................36
*28 aprel 2016-cı il*

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................37
*4 iyul 2016-cı il*

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................38
*9 sentyabr 2016-cı il*

Azərbaycanın yəhudi icmasına ....................38
*30 sentyabr 2016-cı il*

"Teatr və multikulturalizm" mövzusunda keçirilən IV Bakı Beynəlxalq Teatr Konfransının iştirakçılarına ....................39
*7 noyabr 2016-cı il*

"Qafqazda dini tolerantlıq ənənələri və Azərbaycanın multikulturalizm modeli" beynəlxalq konfransının iştirakçılarına ....................40
*1 dekabr 2016-cı il*

Dünya azərbaycanlılarına ....................40
*24 dekabr 2016-cı il*

Ümumrusiya Azərbaycanlıları Konqresinin IV qurultayının iştirakçılarına ....................42
*26 dekabr 2016-cı il*

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....................43
*31 dekabr 2016-cı il*

**2017**

Azərbaycanın pravoslav xristian icmasına ....................45
*5 yanvar 2017-ci il*

Avropa Azərbaycanlıları Konqresinin V qurultayının iştirakçılarına ....................45
*25 fevral 2017-ci il*

8 Mart – Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik ......46
*6 mart 2017-ci il*

"İslam həmrəyliyi – zamanın çağırışı" Beynəlxalq konfransının iştirakçılarına ............47
*15 mart 2017-ci il*

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................48
*17 mart 2017-ci il*

Azərbaycanın pravoslav xristian icmasına ....................49
*14 aprel 2017-ci il*

Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................50
*23 iyun 2017-ci il*

Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ....................50
*29 avqust 2017-ci il*

Azərbaycanın yəhudi icmasına ....................51
*18 sentyabr 2017-ci il*

Azərbaycan memarlarının XIX qurultayının iştirakçılarına ....................................52
*18 dekabr 2017-ci il*

Dünya Azərbaycanlılarına ....................................................................................52
*25 dekabr 2017-ci il*

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki ....................................................................53
*31 dekabr 2017-ci il*

**2018**

Azərbaycanın pravoslav xristian icmasına.......................................................................56
4 yanvar 2018-ci il ..........................................................................................................

**QANUNLAR**

**2013**

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..............................................................57
*30 aprel 2013-cü il*

"Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..........................................................................................................................57
*30 aprel 2013-cü il*

"Məlumat toplularının hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ...........58
*30 aprel 2013-cü il*

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ................................................59
*31 may 2013-cü il*

"2015-ci ilədək humanitar sahədə Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Əməkdaşlıq Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu ..........................................................................................59
*30 sentyabr 2013-cü il*

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üçüncü Zirvə toplantısının bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu .........60
*22 oktyabr 2013-cü il*

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında"Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ...............60
*29 oktyabr 2013-cü il*

"Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....................................................................................60
*22 oktyabr 2013-cü il*

**2014**

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl Medalı"nın təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının Orden və Medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu .........................................................................61
*16 may 2014-cü il*

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dördüncü zirvə toplantısının bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu .........63
*30 sentyabr 2014-cü il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..................................................................64
*17 oktyabr 2014-cü il*

**2015**

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..........64
*6 oktyabr 2015-ci il*

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..................................................65
*6 oktyabr 2015-ci il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ..................................................65
*6 oktyabr 2015-ci il*

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədəAzərbaycan Respublikasının Qanunu ..................................66
*20 oktyabr 2015-ci il*

## 2016

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....66
*4 mart 2016-cı il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....67
*30 sentyabr 2016-cı il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....67
*29 noyabr 2016-cı il*

"Teatr və Teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....68
*29 noyabr 2016-cı il*

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasinin Qanunu ....68
*29 noyabr 2016-cı il*

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....69
*30 dekabr 2016-cı il*

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....69
*30 dekabr 2016-cı il*

## 2017

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....70
*1 fevral 2017-ci il*

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....71
*10 mart 2017-ci il*

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....74
*7 aprel 2017-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....74
*14 aprel 2017-ci il*

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədəAzərbaycan Respublikasının Qanunu ....75
*31 may 2017-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....76
*13 iyun 2017-ci il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....76
*20 oktyabr 2017-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....77
*29 dekabr 2017-ci il*

## FƏRMANLAR

### 2013

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....78
*28 avqust 2013-cü il*

2013-cü il avqustun 15-də Qəbələ şəhərində imzalanmış "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv Dövlətlərinin Xarici İşlər Nazirlikləri arasında Əməkdaşlıq Protokolu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....78
*26 sentyabr 2013-cü il*

2012-ci il avqustun 23-də Bişkek şəhərində imzalanmış "Türk Akademiyasının təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....79
*23 oktyabr 2013-cü il*

Azərbaycan Respublikasının elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatları komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....79
*10 dekabr 2013-cü il*

## 2014

2014-cü il yanvarın 24-də Paris şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı arasında Gənc Peşəkar Əməkdaş (GPƏ) Proqramının təşkili haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 80
*6 mart 2014-cü il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 16 aprel tarixli 698 nömrəli Fərmanının ləğvi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ... 81
*14 may 2014-cü il*

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 83
*15 may 2014-cü il*

"Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 22 may tarixli 365-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....... 84
*11 avqust 2014-cü il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İtaliya Respublikasının Mədəni İrs və Fəaliyyət, Turizm Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 85
*9 sentyabr 2014-cü il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 85
*11 sentyabr 2014-cü il*

"Azərbaycan Respublikasında Geologiya, Paleontologiya, Mineralogiya və Fauna üzrə Təbiət Tarixi Muzeyinin yaradılması Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 86
*20 oktyabr 2014-cü il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1061-IVQD nömrəli Qanununun tətbiqi və "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 90
*21 noyabr 2014-cü il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında Azərbaycan Respublikasi Prezidentinin Fərmanı ........................................91
*18 dekabr 2014-cü il*

**2015**

“Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ............................92
*16 sentyabr 2015-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................92
*16 sentyabr 2015-ci il*

“Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................95
*16 sentyabr 2015-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................98
*14 oktyabr 2015-ci il*

Azərbaycan Respublikası Hökuməti ilə Argentina Respublikası Hökuməti arasında Mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................98
*30 oktyabr 2015-ci il*

Azərbaycan Respublikası ilə Uruqvay Şərq Respublikası arasında Mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................99
*30 oktyabr 2015-ci il*

“Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1372-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................99
*20 noyabr 2015-ci il*

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1373-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................100
*20 noyabr 2015-ci il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 6 oktyabr tarixli 1375-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ...........101
*20 noyabr 2015-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 fevral tarixli 200 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədəAzərbaycan Respublikası Prezidentinin Fərmanı ...............102
*20 noyabr 2015-ci il*

"Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ...........................103
*21 dekabr 2015-ci il*

**2016**

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə"Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 168 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................115
*17 mart 2016-cı il*

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 iyun tarixli 725 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................115
*17 mart 2016-cı il*

Azərbaycan Respublikasının elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə dövlət mükafatları komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................117
*28 mart 2016-cı il*

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi/mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair protokolun təsdiq edilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin Fərmanı ....................122
*20 aprel 2016-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................122
*2 may 2016-cı il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................123
*20 may 2016-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......124
*11 iyul 2016-cı il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Ukraynanın Mədəniyyət Nazirliyi arasında 2016-2020-cı illər üzrə mədəniyyət və incəsənət sahəsində əməkdaşlığa dair Proqramın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................124
*4 oktyabr 2016-cı il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində İcra Proqramının (2016-2019) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................125
*4 oktyabr 2016-cı il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................125
*28 oktyabr 2016-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 20 iyun tarixli 773 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Turizm və rekreasiya zonaları haqqında nümunəvi Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..............126
*7 noyabr 2016-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........................................................127
*11 noyabr 2016-cı il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 313-VQD nömrəli Qanununun tətbiqi və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......127
*14 noyabr 2016-cı il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 128
*7 dekabr 2016-cı il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 441-VQD nömrəli Qanununun tətbiqi və "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 129
*14 dekabr 2016-cı il*

Azərbaycan Respublikasında Turizmin inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 130
*27 dekabr 2016-cı il*

**2017**

"Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 417-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 135
*25 yanvar 2017-ci il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 136
*13 fevral 2017-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........ 137
*9 mart 2017-ci il*

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 539-VQD nömrəli Qanununun tətbiqi və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 19 iyun tarixli 729 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ...... 137
*16 mart 2017-ci il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyi arasında "Amerika Guşələri" Proqramı çərçivəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..............................139

*5 aprel 2017-ci il*

Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......................................................139

*15 may 2017-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................................................................................140

*15 may 2017-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 617-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ...........140

*16 iyun 2017-ci il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 18 dekabr tarixli 409 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ....................................................................................................................141

*16 iyun 2017-ci il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......................................................142

*16 iyun 2017-ci il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ..........................................................................................143

*16 iyun 2017-ci il*

Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi ilə Qazaxıstan Respublikasının Mədəniyyət və İdman Nazirliyi arasında arxiv işi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........144

*23 iyun 2017-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Xoreoqrafiya Akademiyasının Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......144
*21 iyul 2017-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......145
*21 iyul 2017-ci il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Kolumbiya Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......146
*7 avqust 2017-ci il*

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......146
*7 avqust 2017-ci il*

Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......155
*6 sentyabr 2017-ci il*

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......166
*5 oktyabr 2017-ci il*

Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......167
*10 oktyabr 2017-ci il*

"İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatı haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......173
*28 oktyabr 2017-ci il*

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 815-VQD nömrəli Qanununun tətbiqi və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikasının 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ......175
*6 noyabr 2017-ci il*

Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlığa dair Sazişin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........176
*29 noyabr 2017-ci il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Türkmənistanın Turizm üzrə Dövlət Komitəsi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........176
*29 noyabr 2017-ci il*

Azərbaycan Respublikası Hökuməti ilə Meksika Birləşmiş Ştatları Hökuməti arasında Təhsil, Elm, Gənclər, Mədəniyyət və İdman sahələrində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........177
*15 dekabr 2017-ci il*

**2018**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ........177
*13 fevral 2018-ci il*

**SƏRƏNCAMLAR**

**2013**

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində muzey ekspozisiyalarının yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........179
*16 sentyabr 2013-cü il*

Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........179
*24 sentyabr 2013-cü il*

Azərbaycan Milli Kitabxanası əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........180
*24 sentyabr 2013-cü il*

Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........180
*27 sentyabr 2013-cü il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 181
*14 oktyabr 2013-cü il*

Muğan Babazanlı abidələrinin 2800 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 181
*29 oktyabr 2013-cü il*

Kardinal Canfranko Ravazinin "Dostluq" Ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....... 182
*4 noyabr 2013-cü il*

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 29 oktyabr tarixli 799-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 182
*25 noyabr 2013-cü il*

A.A. Jilkinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 183
*26 noyabr 2013-cü il*

Bakı şəhərində Dənizkənarı bulvarda yenidənqurma və abadlıq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 183
*27 noyabr 2013-cü il*

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 184
*10 dekabr 2013-cü il*

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 184
*10 dekabr 2013-cü il*

"Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə dövlət proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 185
*27 dekabr 2013-cü il*

"Dədə Qorqud" dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 193
*28 dekabr 2013-cü il*

Azərbaycan Xalça Muzeyinin yeni binasının maddi-texniki təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....... 194
*29 dekabr 2013-cü il*

**2014**

İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 195
*16 yanvar 2014-cü il*

Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 195
*18 yanvar 2014-cü il*

Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 196
*21 yanvar 2014-cü il*

2014-cü il Gənclər üçün Prezident Mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 196
*1 fevral 2014-cü il*

Mirzə Şəfi Vazehin 220 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 197
*3 fevral 2014-cü il*

Abbasqulu Ağa Bakıxanovun 220 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 197
*12 fevral 2014-cü il*

Lütfəli Abdullayevin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 198
*13 fevral 2014-cü il*

"Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 198
*14 fevral 2014-cü il*

Tofiq Əhmədovun 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 210
*17 fevral 2014-cü il*

K.M.Abdullayevin Azərbaycan Respublikasının Millətlərarası, Multikulturalizm və Dini məsələlər üzrə dövlət müşaviri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 210
*28 fevral 2014-cü il*

R.M.Seyfullayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........ 211
*28 fevral 2014-cü il*

Əliş Ləmbəranskinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................211
*28 fevral 2014-cü il*

Barat Şəkinskayanın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................211
*3 aprel 2014-cü il*

A.A.Mustafazadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................212
*10 aprel 2014-cü il*

R.A.Mirişlinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................212
*14 aprel 2014-cü il*

Akademik Məmməd Arifin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................213
*15 aprel 2014-cü il*

Keçəçioğlu Məhəmmədin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................213
*22 aprel 2014-cü il*

Bakı Xoreoqrafiya Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................214
*30 aprel 2014-cü il*

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin Mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................214
*30 aprel 2014-cü il*

Hüseyn Arifin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................218
*2 may 2014-cü il*

F.Ş.Əliyevanın Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................218
*2 may 2014-cü il*

Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................219
*14 may 2014-cü il*

Azərbaycan Dövlət Nəşriyyatı – "Azərnəşr"in əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................219
*15 may 2014-cü il*

Azərbaycan Dövlət Nəşriyyatı – “Azərnəşr”in əməkdaşlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............220
*15 may 2014-cü il*

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki “İmamzadə” kompleksində abadlıq-quruculuq işlərinin aparılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................220
*16 may 2014-cü il*

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əməkdaşlarına “Əməkdar mədəniyyət işçisi” fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...221
*16 may 2014-cü il*

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin əməkdaşlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................221
*16 may 2014-cü il*

A.Q.Kərimovun Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............222
*23 may 2014-cü il*

2014-cü il üçün Azərbaycan Respublikasının Elm, Mədəniyyət və Ədəbiyyat sahələrində Dövlət Mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................222
*27 may 2014-cü il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................223
*30 may 2014-cü il*

V.S. Vəkilovun “İstiqlal” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................223
*5 iyun 2014-cü il*

Nəbi Xəzrinin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................224
*25 iyun 2014-cü il*

Qılman İlkinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................224
*8 iyul 2014-cü il*

R.H.Əliyevin “İstiqlal” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................225
*16 iyul 2014-cü il*

Bakı Xoreoqrafiya Akademiyası binasının layihələndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................225
*1 avqust 2014-cü il*

S.H.Rəhimovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................225
*8 avqust 2014-cü il*

Rəfiq Zəka Xəndanın 75 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................226
*16 sentyabr 2014-cü il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................226
*8 oktyabr 2014-cü il*

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa işlərinin aparılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................227
*5 noyabr 2014-cü il*

S.Ə. Kəriminin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................227
*7 noyabr 2014-cü il*

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................228
*19 noyabr 2014-cü il*

General Əlağa Şıxlinskinin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................228
*20 noyabr 2014-cü il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................229
*18 dekabr 2014-cü il*

Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................230
*22 dekabr 2014-cü il*

T.İ.Əfəndiyevin Bakı Xoreoqrafiya Akademiyasının rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................231
*26 dekabr 2014-cü il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................231
*29 dekabr 2014-cü il*

C.M.Cəfərovun Azərbaycan Turizm və Menecment Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................231
*30 dekabr 2014-cü il*

**2015**

Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................232
*14 yanvar 2015-ci il*

2015-ci il Gənclər üçün Prezident Mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................232
*31 yanvar 2015-ci il*

P.Bülbüloğlunun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................233
*3 fevral 2015-ci il*

Qəmər Almaszadənin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................233
*4 fevral 2015-ci il*

Vasif Adıgözəlovun 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................234
*11 fevral 2015-ci il*

"Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...............234
*20 fevral 2015-ci il*

"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................235
*10 mart 2015-ci il*

C.Q.Qurbanova "Əməkdar artist" fəxri adın verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................236
*11 mart 2015-ci il*

Əlağa Vahidin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................236
*18 mart 2015-ci il*

Rəşid Behbudovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................237
*18 mart 2015-ci il*

Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................238
*2 aprel 2015-ci il*

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa, abadlıq-quruculuq işlərinin tamamlanması və yol infrastrukturunun yenidən qurulmasi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................238
*9 aprel 2015-ci il*

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................239
*6 may 2015-ci il*

M.M.İbrahimbəyovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................242
*7 may 2015-ci il*

Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................242
*6 may 2015-ci il*

T.T.Salahova Azərbaycan Respublikasının Heydər Əliyev mükafatının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................243
*6 may 2015-ci il*

İ.Ə.Mustafayevin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin rəisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................244
*15 may 2015-ci il*

Akademik Mikayıl Hüseynovun 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................244
*1 iyun 2015-ci il*

A.Ə.Pənahovanın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................245
*17 iyun 2015-ci il*

İsmail Serageldinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................245
*25 iyun 2015-ci il*

M.A.Əliyevanın "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................245
*29 iyun 2015-ci il*

Dini, tarix və mədəniyyət abidələrinin bərpasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................246
*17 iyul 2015-ci il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................246
*21 iyul 2015-ci il*

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakı şəhərində keçirilməsi ilə bağlı təşkilat komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................247
*24 iyul 2015-ci il*

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının 12-ci Baş Konfransının və İcraiyyə Şurasının 35-ci iclasının Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....................248
*25 iyul 2015-ci il*

Dərbənd şəhərində fəaliyyət göstərən Azərbaycan Dövlət Dram Teatrının binasının yenidən qurulması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......249
*3 avqust 2015-ci il*

Azərbaycanda dini mədəniyyətin, tolerantlığın, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................249
*5 avqust 2015-ci il*

A.B. Səfərovanın "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................250
*13 avqust 2015-ci il*

F.G.Qocayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................250
*1 sentyabr 2015-ci il*

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisindəki "İmamzadə" kompleksində bərpa, abadlıq-quruculuq işlərinin tamamlanması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................250
*9 sentyabr 2015-ci il*

Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqındaAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................251
*10 sentyabr 2015-ci il*

Azərbaycan Respublikasının Mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................253
*14 sentyabr 2015-ci il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................254
*22 sentyabr 2015-ci il*

General Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....................................................254
*29 sentyabr 2015-ci il*

Cahangir Zeynalovun 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................255
*14 oktyabr 2015-ci il*

N.S.Mixalkovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................255
*20 oktyabr 2015-ci il*

Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................................................................256
*27 oktyabr 2015-ci il*

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1398-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................256
*1 noyabr 2015-ci il*

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1399-IVQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........................................................................................257
*1 noyabr 2015-ci il*

2016-cı il 25–27 aprel tarixlərində Bakı şəhərində keçiriləcək Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................258
*11 noyabr 2015-ci il*

Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................258
*19 noyabr 2015-ci il*

Azərbaycan Milli Ensiklopediyasının 50 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...................................................259
*24 noyabr 2015-ci il*

E.M.Paşayevanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................259
*25 noyabr 2015-ci il*

Qəmbər Hüseynlinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................................................................260
*25 noyabr 2015-ci il*

Əbdüləziz Osman əl-Tuveycrinin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................260
*25 noyabr 2015-ci il*

C.M. Zeynallıya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................261
*21 dekabr 2015-ci il*

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarına “Əməkdar mədəniyyət işçisi” fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................................261
*22 dekabr 2015-ci il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................262
*30 dekabr 2015-ci il*

Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 263
*30 dekabr 2015-ci il*

**2016**

2016-cı ilin Azərbaycan Respublikasında “Multikulturalizm ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................263
*11 yanvar 2016-cı il*

E.T.Quliyevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................264
*14 yanvar 2016-cı il*

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................................................................264
*14 yanvar 2016-cı il*

M.M.Kajlayevin “Dostluq” ordeni ilətəltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................................265
*15 yanvar 2016-cı il*

Ə.S.Şahmarovun Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................................266
*15 yanvar 2016-cı il*

İ.Ə.Mustafayevin Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsinin rəisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................266
*15 yanvar 2016-cı il*

Akademik V.Y.Axundovun 100 illik yubileyinin keçirilməsi haqqındaAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................266
*15 yanvar 2016-cı il*

Mədəniyyət, gənclər və idman müəssisələrində çalışan işçilərin əməkhaqlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................267
*18 yanvar 2016-cı il*

Şəki şəhərinin tarixi hissəsinin qorunması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................267
*19 yanvar 2016-cı il*

A.E.İsrafilovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................268
*25 yanvar 2016-cı il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...269
*28 yanvar 2016-cı il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinintəltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................269
*28 yanvar 2016-cı il*

2016-cı il Gənclər üçün Prezident Mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................270
*29 yanvar 2016-cı il*

Gəncə Dövlət Filarmoniyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................270
*18 fevral 2016-cı il*

Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................271
*18 fevral 2016-cı il*

S.Q.İsmayılovanın "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................272
*24 fevral 2016-cı il*

Gəncə şəhərinin "2016-cı il Avropa Gənclər Paytaxtı" seçilməsi ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................272
*24 fevral 2016-cı il*

"Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...........273
*26 fevral 2016-cı il*

U.Ə.Quliyevaya Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................274
*1 mart 2016-cı il*

Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................................................................274
*1 mart 2016-cı il*

V.A.Muradovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................................................................275
*7 mart 2016-cı il*

"2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair tədbirlər planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................................................................................275
*11 mart 2016-cı il*

Nəsibə Zeynalovanın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................283
*17 mart 2016-cı il*

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 174-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................................................................................284
*17 mart 2016-cı il*

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin strukturunun təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........284
*29 mart 2016-cı il*

Azərbaycan Milli Kulinariya sahəsinin əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...286
*21 aprel 2016-cı il*

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................................................286
*5 may 2016-cı il*

Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................................................................................288
*6 may 2016-cı il*

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................289
*6 may 2016-cı il*

Ə.Ə.Ələkbərovun Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................292
*12 may 2016-cı il*

Oljas Süleymenovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........292
*16 may 2016-cı il*

2016-cı il üçün Azərbaycan Respublikasının Elm və Ədəbiyyat sahələrində dövlət mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................293
*26 may 2016-cı il*

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar təşkilat komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................293
*2 iyun 2016-cı il*

R.M.Fətəliyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................295
*6 iyun 2016-cı il*

R.M.Fətəliyevə Xalq artisti fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................295
*6 iyun 2016-cı il*

V.A.Muradovun "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...............295
*10 iyun 2016-cı il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................296
*13 iyun 2016-cı il*

A.N.Qurbanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................296
*24 iyun 2016-cı il*

"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağli əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................297
*11 iyul 2016-cı il*

Azərbaycan aşıqlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................297
*15 iyul 2016-cı il*

Azərbaycanın kino xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................................................................................298
*29 iyul 2016-cı il*

Azərbaycanın kino xadimlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...................................................299
*29 iyul 2016-cı il*

Təzəpir Məscidi Kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................299
*5 avqust 2016-cı il*

Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...................................................300
*30 avqust 2016-cı il*

Azərbaycan Respublikasında "Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................301
*1 sentyabr 2016-cı il*

Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......301
*1 sentyabr 2016-cı il*

Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...................................................301
*1 sentyabr 2016-cı il*

Ə.Yusif qızının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................................................................................305
*14 sentyabr 2016-cı il*

Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............................................................................................................................305
*19 sentyabr 2016-cı il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...................................................305
*19 sentyabr 2016-cı il*

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ............306
*20 sentyabr 2016-cı il*

Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının üzvlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........317
*22 sentyabr 2016-cı il*

A.A.Paşayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........318
*22 sentyabr 2016-cı il*

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 195 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........318
*5 oktyabr 2016-cı il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........318
*6 oktyabr 2016-cı il*

F.Q.Xəlilovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........319
*25 oktyabr 2016-cı il*

Gəncə Dövlət Filarmoniyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........319
*10 noyabr 2016-cı il*

Ə.M.Qarayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........320
*11 noyabr 2016-cı il*

V Beynəlxalq Azərbaycan Xalçası Simpoziumunun Bakı şəhərində keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........320
*14 noyabr 2016-cı il*

Azərbaycanda multikultural ənənələrin və dinlərarası münasibətlərin inkişafında xidmətlərinə görə bir qrup şəxsin"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..........321
*15 noyabr 2016-cı il*

Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........321
*18 noyabr 2016-cı il*

Azərbaycan Respublikasında "Xalçaçı günü" peşə bayramının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........322
*25 noyabr 2016-cı il*

Azərbaycan memarlarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................322
*25 noyabr 2016-cı il*

Azərbaycan memarlarına “Əməkdar memar” fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................322
*25 noyabr 2016-cı il*

Azərbaycan memarlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................323
*25 noyabr 2016-cı il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................323
*21 dekabr 2016-cı il*

Z.Y.Xanlarovanın “Heydər Əliyev” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................324
*26 dekabr 2016-cı il*

**2017**

2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................324
*10 yanvar 2017-ci il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................325
*12 yanvar 2017-ci il*

Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................326
*12 yanvar 2017-ci il*

Xocalı soyqırımının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................327
*24 yanvar 2017-ci il*

“Teatr və teatr fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 29 noyabr tarixli 421-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................328
*25 yanvar 2017-ci il*

Kərim Kərimovun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................328
*30 yanvar 2017-ci il*

Tofiq Quliyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................329
*7 fevral 2017-ci il*

Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................330
*7 fevral 2017-ci il*

Cövdət Hacıyevin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................330
*7 fevral 2017-ci il*

Mstislav Rostropoviçin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................331
*10 fevral 2017-ci il*

"Tarix və Mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 478-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................331
*15 fevral 2017-ci il*

"Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 dekabr tarixli 480-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......332
*15 fevral 2017-ci il*

Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................333
*20 fevral 2017-ci il*

"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 521-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................335
*23 fevral 2017-ci il*

T.M.Mütəllimova "Əməkdar elm xadimi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................336
*6 mart 2017-ci il*

Azərbaycan Respublikasının teatr xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................336
*9 mart 2017-ci il*

"İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 1 fevral tarixli 507-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................337
*9 mart 2017-ci il*

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi ili" elan edilməsi ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək bir sıra tədbirlərin maddi təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .............338
*17 mart 2017-ci il*

"Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017–2020-ci illər üçün tədbirlər planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................................................................................338
*30 mart 2017-ci il*

"Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................................................................................................339
*26 aprel 2017-ci il*

R.Ə.Quliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................................................................................339
*1 may 2017-ci il*

İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................340
*1 may 2017-ci il*

Azərbaycan xalçaçılarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................................................................................343
*1 may 2017-ci il*

Azərbaycan xalçaçılarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....................................344
*1 may 2017-ci il*

Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......345
*1 may 2017-ci il*

N.Ə.Həsənzadəyə Heydər Əliyev mükafatının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...............................................................345
*10 may 2017-ci il*

BMT-nin Dünya Turizm Təşkilatının baş katibi Talib Rifainin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...............345
*8 may 2017-ci il*

Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..............................................................................................346
*11 may 2017-ci il*

A.S.Məlikovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................347
*16 may 2017-ci il*

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................347
*16 may 2017-ci il*

"Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 7 aprel tarixli 559-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................349
*16 may 2017-ci il*

F.Ə.Əlizadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................349
*22 may 2017-ci il*

Astara şəhərində Dənizkənarı Park-Bulvar Kompleksi ərazisinin genişləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....350
*8 iyun 2017-ci il*

F.Ə.Qasımovanın "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................350
*16 iyun 2017-ci il*

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................351
*20 iyun 2017-ci il*

Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................351
*21 iyun 2017-ci il*

Şövkət Məmmədovanın 120 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................352
*11 iyul 2017-ci il*

Ağasadıq Gəraybəylinin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................353
*12 iyul 2017-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 717-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .....353
*13 iyul 2017-ci il*

T.H.Məmmədovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................354
*17 iyul 2017-ci il*

Məhluqə Sadıqovanın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................354
*19 iyul 2017-ci il*

Müslüm Maqomayevin 75 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................355
*31 iyul 2017-ci il*

Azərbaycanın kino xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................355
*31 iyul 2017-ci il*

Azərbaycanın kino xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................356
*31 iyul 2017-ci il*

Balakən şəhərində Uşaq İncəsənət Məktəbinin yeni binasının tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................356
*5 avqust 2017-ci il*

Emin Sabitoğlunun 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................357
*5 avqust 2017-ci il*

A.Z.Nemətovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................358
*11 avqust 2017-ci il*

A.H.Qasımovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................358
*12 avqust 2017-ci il*

Azərbaycan Respublikasında mədəniyyət sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................358
*14 avqust 2017-ci il*

Ə.Ə.Ələkbərovun "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................359
*21 avqust 2017-ci il*

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyəti ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................360
*23 avqust 2017-ci il*

M.H.Ağayevin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................360
*7 sentyabr 2017-ci il*

İ.İ.Mədətovun Azərbaycan Turizm və Menecment Universitetinin rektoru təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................361
*11 sentyabr 2017-ci il*

M.V.Ocaqova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................361
*15 sentyabr 2017-ci il*

Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................361
*15 sentyabr 2017-ci il*

Azərbaycan Respublikasında turizmin inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......................362
*26 sentyabr 2017-ci il*

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əməkdaşlarına "Əməkdar artist" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...363
*26 sentyabr 2017-ci il*

A.H.Bayramovanın "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................363
*26 sentyabr 2017-ci il*

Azərbaycan Xalça Muzeyinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................363
*27 sentyabr 2017-ci il*

Azərbaycan Xalça Muzeyinin əməkdaşlarının "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................................................364
*27 sentyabr 2017-ci il*

Azərbaycan Xalça Muzeyinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................364
*27 sentyabr 2017-ci il*

T.Q.İsgəndərovanın "Tərəqqi" medali ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................364
*27 sentyabr 2017-ci il*

Azərbaycan Milli İncəsənət Muzeyinin əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...365
*27 sentyabr 2017-ci il*

2017-ci il oktyabrın 15-dən noyabrın 15-dək Bakı şəhərində keçiriləcək Ticarət Festivalı ("Shopping Festival") ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................................................................365
*28 sentyabr 2017-ci il*

Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................................................366
*17 oktyabr 2017-ci il*

Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................366
*24 oktyabr 2017-ci il*

R.C.Abdullayevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................367
*28 oktyabr 2017-ci il*

Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii heyətinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................367
*3 noyabr 2017-ci il*

Gəncə Dövlət Dram Teatrının tikintisinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................368
*13 noyabr 2017-ci il*

Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasinin yeni tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................368
*13 noyabr 2017-ci il*

"Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................371
*17 noyabr 2017-ci il*

Ş.H.Şərifova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................372
*27 noyabr 2017-ci il*

Gəncə şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..........373
*27 noyabr 2017-ci il*

Muzey sərvətləri və xatirə əşyalarının elmi-bərpa mərkəzinin əməkdaşlarına "Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................374
*30 noyabr 2017-ci il*

"Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 829-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......374
*8 dekabr 2017-ci il*

Azərbaycan memarlarına "Əməkdar memar" fəxri adının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................375
*18 dekabr 2017-ci il*

Azərbaycan memarlarının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ..................376
*18 dekabr 2017-ci il*

Azərbaycan memarlarına Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................376
*18 dekabr 2017-ci il*

Ö.H.Eldarovun "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................377
*19 dekabr 2017-ci il*

Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan şəxslərə fəxri adların verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı...377
*20 dekabr 2017-ci il*

Sumqayıt şəhərinin sosial-iqtisadi və mədəni inkişafında xidmətləri olan şəxslərin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................378
*20 dekabr 2017-ci il*

Elza İbrahimovanın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................378
*22 dekabr 2017-ci il*

F.Ş.Bədəlbəylinin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................379
*25 dekabr 2017-ci il*

R.Y.Babayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................379
*28 dekabr 2017-ci il*

S.İ.Məmmədovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................380
*28 dekabr 2017-ci il*

**2018**

F.A.Babayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................380
*9 yanvar 2018-ci il*

A.M.Əzizovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................380
*9 yanvar 2018-ci il*

2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ......................381
*10 yanvar 2018-ci il*

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 964-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı .......381
*11 yanvar 2018-ci il*

Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................382
*31 yanvar 2018-ci il*

2018-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................383
*31 yanvar 2018-ci il*

"Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi"nin təsis edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................383
*1 fevral 2018-ci il*

K.C.Cəlilovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................384
*2 fevral 2018-ci il*

Mingəçevir Dövlət Dram Teatrının 50 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................384
*2 fevral 2018-ci il*

A.Y.Şarovskinin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................385
*9 fevral 2018-ci il*

Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................385
*15 fevral 2018-ci il*

A.İ.Babayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................387
*19 fevral 2018-ci il*

Qobustan rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqındaAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................387
*21 fevral 2018-ci il*

Fəxri adlara görə aylıq təqaüdlərin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................388
*22 fevral 2018-ci il*

Gənc istedadlar üçün xüsusi təqaüdün məbləğinin artırılması və "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 13 sentyabr tarixli 662 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədəAzərbaycan Respublikası Prezidentinin Sərəncamı ............................................388
*22 fevral 2018-ci il*

Şabran rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ...........................................................................................389
*28 fevral 2018-ci il*

"Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.....................................................389
*28 fevral 2018-ci il*

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası və Azərbaycan Dövlət İnformasiya Agentliyi ilə (AzərTAc-la) birgə layihəsi**

**Redaksiya şurası:** Lətifə Məmmədova – sədr
Mayıl Əhmədov
Xəyal Məmmədov
Aydın Mirzəzadə
Novruz Aslan
Zakir İsmayılov
Zülfiyyə Mütəllimova
Zaur Cəfərzadə
Aytən Namazova
Şəhla Orucova
Elnarə Kərimova
Əli Eyvazov
Vüqar Əmrullayev
Leyla Rəsul
Fikrət Babayev
İsmayıl Hüseynov
Vüqar Şixəmmədov
Rəşad Əliyev
Cəlil Məlikov
Mələk Məmmədova
Vüqar Seyidov
Məhərrəm Məmmədov
Ramiz Göyüşov
Mədinə Həsənova
Natəvan Faiq
Şahin Verdiyev
Xuraman İsmayılova
Esmira Şükürova (Fuad)
Solmaz Əliyeva
Dilarə Zeynalova

Yığılmağa verilmişdir: 05.02.2018. Çapa imzalanmışdır: 10.03.2018.
Format: 70x100 1/16. Ofset çapı. Fiziki çap vərəqi: 27,5. Sifariş_____
Tiraj: 1000

AzərTAc-ın təqdim etdiyi rəsmi materiallara və fotoşəkillərə əsasən çap olunmuşdur.